# KİTABXANAŞÜNASLIQ
# VƏ
# BİBLİOQRAFİYA

**№ 2 * 2004**

BAKI – 2004

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**Elmi-nəzəri və təcrübi jurnal**

№ 2 * 2004

*1997-ci ilin oktyabrından çıxır*

№ 2 (15)

BAKI – 2004

KBT 78
K 73

*Təsisçi və*
*Baş redaktor:*
*Tarix elmləri doktoru*
*Xəlil İSMAYILOV*

*Məsul redaktor:*
*Redaqoji elmlər namizədi*
*Knyaz ASLAN*

**REDAKSİYA HEYƏTİ:**

Professor Abuzər XƏLƏFOV
Professor Zöhrab ƏLİYEV
Professor Bayram ALLAHVERDİYEV
Dosent Tacəddin QULİYEV
Dosent Əşrəf XƏLƏFOV
Dosent Rasim KAZIMOV
Dosent Nadir İSMAYILOV

***K 73*** *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. - B.: Bakı Universiteti Nəşriyyatı, 2004. - №2. – 148 s.*

*Redaksiyanın ünvanı: 370148. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23, 2 №-li tədris korpusu, IV mərtəbə, kitabxanaçılıq-informasiya fakültəsi, "Kitabxanaşünaslıq və biblioqrafiya" jurnalının redaksiyası. Telefonlar: 439-05-47; 439-03-66.*

**© "Kitabxanaşünaslıq və biblioqrafiya", 2004**

## BU NÖMRƏDƏ


### KİTABXANAŞÜNASLIQ

Abuzər Xələfov, Sevda Məmmədova. Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində

Xəlil İsmayılov. Kitabxana menecmentinin prinsipləri və funksiyaları

Tacəddin Quliyev. Azərbaycan Həmkarlar İttifaqı kitabxanaları 1986-1990-cı illərdə

Rasim Kazımov. Kitabxana işinin iqtisadi amilləri

Əli Rüstəmov, Nuriyə Mustafayeva. Elektron kitabxana problem

Zöhrab Baxşəliyev, Sara İbrahimova. Bakı Dövlət Universitetinin bilik xəzinəsi Elmi Kitabxananın bugünü və sabahı

Mehmanəli Məmmədov, Knyaz Aslan. Özəl ad məktəblərdə kitabxana işinin təşkili (Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin iş təcrübəsi)

Yusif Qazıyev. Məktəb kitabxanasında keçirilən qiraətlər və onların oxucuların formalaşmasında rolu

Təranə Mirzəyeva. Müstəqil Azərbaycan dövlətində milli ideologiya problemi və onun informasiya təminatı

Arzu Vəliyeva. M.F.Axundov adına Milli Kitabxananın fəaliyyətində məlumat-biblioqrafiya aparatının rolu

### BİBLİOQRAFİYAŞÜNASLIQ

Надир Исмаилов. Развития отраслевых библиотечных и информационных ресурсов в Азербайджане

Qəmzə Hacıyeva. Ölkəşünaslıq biblioqrafıyasının vəzifələri

Sima İsmayılova. Ədəbiyyatşünas alimlərə biblioqrafik informasiya xidməti göstərən mərkəzlər

Solmaz Sadıqova. Biblioqrafik məhsulun repertuarının yaradılması sahəsində ilk təşəbbüs

Çimnaz Rüstəmova. Tibb Universitetinin Elmi Kitabxanasında informasiya istifadəçilərinə biblioqrafik xidmət

Xuraman Verdiyeva. Şəxsi biblioqrafik vəsaitlər biblioqrafik informasiya təminatında mühüm vasitə kimi

### FAKÜLTƏNİN ELMİ HƏYATI

Kitabxanaşünaslıq elmində əlamətdar hadisə (Xəlil İsmayılovun doktorluq dissertasiyası müdafıəsindən qeydlər)

YUBİLEY Xəlil İsmayılov, Knyaz Aslan. Alim və vətəndaş ömrü (Tacəddin Quliyev- 75)

**Abuzər XƏLƏFOV**
*Əməkdar elm xadimi,*
*tarix elmləri doktoru,*
*professor*

**Sevda MƏMMƏDOVA**
*Magistr*

# AZƏRBAYCAN MEA MƏRKƏZİ ELMİ KİTABXANASI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

Ötən əsrin sonlarında Azərbaycan xalqının əldə etdiyi ən mühüm nailiyyətlərdən biri onun dövlət müstəqilliyinin bərpası, milli dövlət quruculuğuna başlaması olmuşdur. Belə ki, 1990-cı illərin əvvəllərində keçmiş Sovetlər Birliyinin dağılması müstəqil Azərbaycan Respublikasının yaranması ilə, o cümlədən milli-mədəni və tarixi ənənələrə, ümumbəşəri dəyərlərə söykənən həqiqi demokratik cəmiyyət quruculuğuna başlaması ilə nəticələndi. Beləliklə, Azərbaycan tarixinin yeni erası - müstəqil inkişaf dövrü başlandı.

İlk növbədə mövcud ictimai quruluş azad bazar iqtisadiyyatına, hüquqi dövlətə əsaslanan quruluşla əvəz olundu. Yeni ictimai quruluşun yaranması ilə bağlı həyatın bütün sahələrində dəyişikliklər yarandı ki, bu dəyişikliklər qabarıq şəkildə cəmiyyətin bütün sferalarında özünü büruzə verdi. Kitabxana işi sahəsindən də bu dəyişikliklərin yan keçməsi, əlbəttə, qeyri-mümkün idi. Odur ki, yeni yaranan ictimai şərait cəmiyyət həyatının bütün tərəflərinə olduğu kimi kitabxana işi sahəsinə də təsir etdi. Belə ki, ölkədə yeni bazar iqtisadi münasibətlərinin yaranması, iqtisadiyyatda, siyasətdə, ideologiyada, dövlət quruculuğunda baş

verən dəyişikliklər kitabxana işi sahəsində də ciddi yeniliklərin yaranmasına təkan verdi, əsaslı dəyişikliklər dövrü başlandı.

Müstəqilliklə bağlı cəmiyyətdə baş verən demokratikləşmə kitabxanaların ideoloji buxovlardan azad olmasına şərait yaratdı. Yeni şəraitə uyğun olaraq kitabxanalar üçün yeni dünyagörüşünə, milli bəşəri sərvətlərə və dəyərlərə əsaslanan inkişaf konsepsiyasının hazırlanması problemi meydana çıxdı. Bu konsepsiyanın əsas müddəaları «Kitabxana işi haqqında» Qanunda öz əksini tapmışdır.

Bütün bunların nəticəsində kitabxanaların inkişafı üçün münbit şərait yarandı. Belə ki, kitabxanaların demokratik prinsiplər əsasında yeni cəmiyyətin və hüquqi dövlətin tələblərinə uyğun olaraq inkişafı üçün böyük perspektivlər açıldı.

Onu da xüsusilə vurğulamaq lazımdır ki, kitabxana işi sahəsində baş verən müsbət dəyişikliklər görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycan Respublikasının memarı, ümummilli liderimiz Heydər Əliyev özünün fəaliyyətində həmişə elmə, milli mədəniyyətə böyük diqqət göstərmişdir. Onun dediyi "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir" fikri bir daha göstərir ki, kitabxanalara qayğı Heydər Əliyevin çoxsahəli fəaliyyətində önəmli yerlərdən birini tutmuşdur.

Kitabxanaların tarixən əsas funksiyası olan zəngin elmi bəşəri informasiya sərvətlərinin gələcək nəsillərə ötürülməsində, yüzlərlə elmi kadrların yetişməsində, bir sözlə Azərbaycan elminin inkişafında AMEA Mərkəzi Elmi Kitabxanasının xüsusi rolu vardır. Müstəqilliyin ilk illərində digər kitabxanalar kimi Mərkəzi Elmi Kitabxana da yeni kitabxana işi quruculuğu istiqamətində qarşısına-oxuculara kitabxana xidmətini yenidən yeni forma və üsullar əsasında qurmaq; kitabxana işini demokratikləşdirmək; kitabxana işinin informasiyalaşdırılması; kitabxananın maddi-texniki bazasını möhkəmləndirmək, ən əsası isə kitabxananın işinin dünya standartları səviyyəsində qurmaq və s. kimi vəzifələr qoymuşdur.

Mövcud olan müstəqilliyimiz bu vəzifələri reallaşdırmaq üçün əsas təminatçıdır. Baxmayaraq ki, hazırda kitabxana işi inkişaf edir, müstəqilliyin ilk illərində (1991-1993-cü illər) mövcud müharibə şəraiti, ölkənin siyasi həyatında baş verən hərc-mərclik kitabxana işinə mənfi təsir etmişdir. Belə vəziyyət ilk növbədə özünü elmi informasiya qıtlığında göstərdi. Kitabxanalara laqeyd münasibət nəticəsində maliyyə vəsaitinin çatışmazlığından kitabxana fondlarının yeni ədəbiyyatlarla



komplektləşdirilməsi demək olar ki, iflic vəziyyətinə düşdü. Bunun nəticəsində kitabxana oxucularının xeyli hissəsini itirmiş oldu. Əgər 90-cı illərə qədər Mərkəzi Elmi Kitabxana dünyanın 55 ölkəsinin 500-dən artıq elmi müəssisəsi ilə kitab mübadiləsini təşkil edir və hər il orta hesabla fonda 100 min nüsxə ədəbiyyat daxil olurdusa kitabxananın beynəlxalq əlaqələrinin pozulması, maliyyə çətinlikləri nəticəsində, xüsusilə də xarici ölkələrdə nəşr olunan elmin yeni nailiyyətlərinə, kəşflərə aid dövri nəşrlərin və digər sənədlərin əldə edilməsi imkansız oldu. Bu isə Azərbaycan elminin dünyanın yeni elmi nailiyyətlərindən bəhrələnməsinə ciddi ziyan vurdu.

Mövcud ictimai şərait kitabxananın maddi-texniki bazasına da təsir etdi. Büdcədən kifayət qədər maliyyə vəsaiti ayrılmadığına görə kitabxana uzun müddət təmir edilməmiş, kitabların qorunub saxlanması şəraiti pisləşmiş, avadanlıqlar yararsız hala düşmüşdür. Kitabxana binası sahəsinin azlığı ilə əlaqədar kitab fondu təhlükə qarşısında qalmışdır. Belə bir vəziyyətdə müasir texniki vasitələrdən belə danışmaq olmazdı. Bütün bunlar kitabxananın fəaliyyətində, xüsusilə xidmət sahəsində geriliyə və bir sıra savadlı kadrların kitabxana sahəsindən uzaqlaşmasına səbəb oldu.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra onun apardığı siyasət cəmiyyətdə köklü dəyişikliklər yaratdı. İlk növbədə bu günə qədər davam edən atəşkəsə nail olundu. İqtisadiyyatda köklü dəyişikliklər, azad bazar iqtisadiyyatının bərqərar olması, torpağın kəndlilərə verilməsi, xarici investorların Azərbaycan iqtisadiyyatına cəlb olunması Azərbaycanın dünyada siyasi nüfuzunun artması və iqtisadiyyatın dinamik inkişafı ilə nəticələndi. Xüsusilə demokratik dövlət quruculuğu sahəsində qəbul olunan qanun və aktlar cəmiyyətin bütün sahələrinin inkişafına şərait yaratdı.

1998-ci il dekabrın 29-da Azərbaycan Respublikası Milli Məclisində qəbul edilmiş "Kitabxana işi haqqında" Qanun ölkəmizdə kitabxanaların fəaliyyəti üçün yeni mərhələnin başlanmasına səbəb oldu. Qanunda da qeyd edildiyi kimi, kitabxanalar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və s. digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial instituta çevrildilər. Respublikamızın siyasi nüfuzunun yüksəlməsi ilə bağlı bir çox xarici dövlətlərin ölkəmizə maraq və diqqətinin artması nəticəsində beynəlxalq əlaqələrimiz genişləndi. Bu da öz növbəsində kitabxana fondunun yeni ədəbiyyatlarla komplektləşdirilməsi və beynəlxalq elmi

ədəbiyyat mübadiləsi sahəsində dönüş yaratdı. Belə ki, hazırda kitabxana dünyanın 60 ölkəsinin 549 elmi təşkilatı, elmi tədqiqat müəssisələri, nəşriyyatları, cəmiyyət və assosiasiyaları, ali təhsil müəssisələri, kitabxanaları ilə beynəlxalq kitab mübadiləsini həyata keçirir və təqribən hər il 46 min nüsxə ədəbiyyat əldə edir. Kitabxananın sıx əlaqə saxladığı fəal tərəfdaşlardan ABŞ, Türkiyə, Almaniya, Çin, İngiltərə, Kanada, Yaponiya, MDB ölkələrinin kitabxanalarını, elmi tədqiqat müəssisələrini, ABŞ Konqres Kitabxanasını, Pekindəki Çin Təbiət Elmləri üzrə Təşkilatı, Alman Tədqiqat Cəmiyyətini, Potsdam şəhərindəki Alman Geoloji Cəmiyyətini, Almaniyanın Honnover şəhərindəki universitet kitabxanasını, Yaponiyanın Milli Parlament Kitabxanasını misal göstərmək olar. Bu tərəfdaşlardan kimya, mikrobiologiya, botanika, fizika, riyaziyyat və s. kimi elm sahələri üzrə sanballı nəşrlər, çoxcildli ensiklopediyalar, müxtəlif lüğətlər, nadir ədəbiyyat nümunələri alınmışdır. Belə ki, 2003-cü ildə kitabxana Alman Tədqiqat Mərkəzi ilə xüsusi proqram çərçivəsində Qmelinin 734 cildlik kimya məlumat kitabını, Rusiya dövləti ilə beynəlxalq əməkdaşlığı nəticəsində ekologiya, biokimya, fiziki plazmaya dair 1500 nüsxəyə dair jurnal əldə etmişdir.

Bununla yanaşı, kitabxananın respublikada fəaliyyət göstərən humanitar fondlarla, o cümlədən SOROS fondu ilə, bir çox səfirliklərlə əlaqələri də genişləndi. Belə ki, 2002-ci il martın 28-də Fransa səfirliyi tərəfindən Fransız dilli oxucular arasında fransa ədəbiyyatının təbliğini genişləndirmək məqsədini daşıyan "Azərbaycan-Fransa Elmi Mədəni Əlaqələr Mərkəzi"nin açılışı kitabxananın fəaliyyətində əlamətdar hadisə olmuşdur. Eyni zamanda kitabxana bir çox layihələrdə yaxından iştirak etmişdir. Məsələn, kitabxana "Puşkin kitabxanası" meqalayihəsinə qoşulduqdan sonra bu proqram çərçivəsində 1999-cu ildə 5912900 manat məbləğində 424 nüsxə, 2001-ci ildə 745 nüsxə, 2002-ci ildə isə qiyməti 75% ödənilməklə 450 nüsxə kitab və jurnal (1385 nüsxə) almışdır. Kitabxana həm də müxtəlif xeyriyyəçi kitab müəlliflərindən də hədiyyələr əldə etmişdir. Belə ki, son illər Bakıdakı Atatürk Mərkəzi, Ərəbistan Krallığı tərəfindən kitabxanaya külli miqdarda qiymətli kitablar bağışlanmışdır.

Beynəlxalq əməkdaşlıq nəticəsində kitabxana bir sıra nüfuzlu təşkilatların, o cümlədən 1998-ci ildə Beynəlxalq Kitabxanaçılıq Assosiasiyaları Federasiyasının (İFLA), Avrasiya Kitabxana Assambleyasının, Beynəlxalq Elmlər Akademiyaları Assosiasiyası Direktorlar Şurasının (MAAN), Zaqafqaziya İnformasiya Mütəxəssisləri Assosiasiyasının və s. üzvlüyünə qəbul edilmişdir. Göründüyü kimi, nəşriyyat və



mətbəələrdən, ayrı-ayrı kitab müəlliflərindən, humanitar təşkilatlardan hədiyyələrin alınması beynəlxalq kitab mübadiləsi hesabına və "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən məcburi nüsxələrin alınması kitabxanaların komplektləşdirilmə ehtiyaclarını qismən də olsa həll etmiş oldu.

Müstəqilliyimizin bərpasından sonra ölkənin digər kitabxanaları kimi Mərkəzi Elmi Kitabxana da öz xidmət işini yeni şəraitə uyğun tələblər əsasında qurmağa başladı.

Kitabxananın məlumat və soraq-biblioqrafiya xidməti işinə xüsusi diqqət artırıldı. AMEA Mərkəzi Elmi Kitabxanasında məlumat-biblioqrafiya xidməti üzrə ildə 60 minə yaxın şifahi arayışlar yerinə yetirilir ki, onlar daha çox ictimai-siyasi, iqtisadi-texniki elmlər istiqamətində üstünlük təşkil edir. Eyni zamanda şifahi arayışlarla yanaşı yazılı biblioqrafik arayışların sayı da ildən-ilə artır. 2000-2002-ci ildə tələb olunan sorğulara müvafiq olaraq "Erməni-Azərbaycan münaqişəsi haqqında" (44), "Maya göbələkləri" (45), "Azərbaycan folkloru" (65) və s. adda müxtəlif yazılı biblioqrafik arayışlar hazırlanmışdır. Elmi işçilərə müasir səviyyədə xidmət etməkdə ədəbiyyat göstəricilərinin hazırlanması birinci dərəcəli əhəmiyyət kəsb edir. MEA-nın biblioqrafik nəşr fəaliyyəti mövzu göstəriciləri, ümumi qeyd xarakterli göstəricilər, şəxsi biblioqrafik göstəricilər və "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından olan göstəricilərin tərtibi istiqamətində inkişaf edir. Müstəqillik illərində "Orucov qardaşlarının mətbəəsi", "AEA nəşrlərinin biblioqrafik göstəricisi" adlı məlumat xarakterli tematik göstəricilər, 1991-ci ildən bəri "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasında respublikanın görkəmli alim və yazıçılarına, onların həyat və yaradıcılıqlarına, ictimai pedaqoji fəaliyyətlərinə həsr edilmiş 15-dən çox soraq biblioqrafik göstəriciləri çap edilmişdir. Onlardan «Zərifə Əliyeva», «Cəfər Qiyasi», «Firidun bəy Köçərli» və s. göstəricilər Azərbaycanın elm və mədəniyyətinin inkişafında dəyərli mənbələrdəndir. Oxuculara yüksək səviyyədə xidmət məqsədilə kitabxana son illərdə Mərkəzi Elmi Kitabxanaya Azərbaycan və rus dillərində daxil olan nəşrlərin bülletenlərini çapdan buraxır. Bununla yanaşı, Mərkəzi Elmi Kitabxana 2003-cü ildə özünün "Elmi əsərlər" məcmuəsini nəşr etdirmişdir. Oxuculara səmərəli xidmətin, kitabxana fondunun təbliğinin əsas formalarından biri də sərgilərin təşkilidir ki, kitabxanada yeni ədəbiyyatlara, əlamətdar günlərə, yubileylərə dair sərgilər təşkil edilir. 1999-cu ildə kitabxanada ictimai-siyasi, mədəni hadisələrə, yeni elmi nailiyyətlərə, alimlərin yubileylərinə həsr olunmuş müxtəlif mövzularda 58 sərgi təşkil edilmiş və bu sərgilərdə 6896 nüsxə ədəbiyyat

nümayiş etdirilmişdir. Onların arasında "Azərbaycanda neft", "Cəfər Cabbarlı - 100" və s. adlı sərgiləri göstərmək olar. Bundan başqa, vaxtilə fonda daxil olmuş ədəbiyyatları bir daha oxucular arasında geniş təbliğ etmək məqsədilə onların müəyyən dövr üzrə məsələn, 1990-1994-cü illərdə MEK-a daxil olmuş Şərq ədəbiyyatlarının sərgisi (978 nüsxə), Azərbaycan - Misir Dostluq Cəmiyyətindən alınmış ədəbiyyatların sərgisi təşkil olunmuşdur. Bunlarla yanaşı, xarici ölkə nəşriyyatlarının çap əsərlərinin sərgisi təşkil olunmuşdur. Bu baxımdan Qərbi Berlində fəaliyyət göstərən "Şprinqer-Verlaq", Hollandiyanın "Elseveir və Martinus Naykhoff İnternational" nəşriyyatlarının çap məhsullarına həsr edilmiş sərgilər diqqətəlayiqdir. Kitabxanada alim və mütəxəssislərə günün tələbləri səviyyəsində səmərəli və keyfiyyətli xidmət işinə də xüsusi diqqət ayrılmışdır. Bu məqsədlə də kitabxanada alim və mütəxəssislərə operativ xidmət yollarının əlverişli formalarından biri kimi Ədəbiyyatın Seçilib Paylanması işinə xüsusi əhəmiyyət verilmişdir. Təəssüf ki, 1999-cu ildən bu xidmət forması mövcud çətinliklər üzündən öz fəaliyyətini dayandırmışdır. Müstəqillik illərində soraq-biblioqrafiya aparatının əsas tərkib hissələrindən biri olan kataloq və kartoteka sistemi əsaslı şəkildə yeniləşmiş, genişlənmiş müasir kataloqlaşdırma tələblərinə uyğun məlumat axtarış sisteminə çevrilmişdir.

90-cı illərdən baş verən məlum səbəblər üzündən respublikadakı kitabxanaların ağır vəziyyətə düşməsi onların yeni təsərrüfat mexanizminə keçməsinə ehtiyac doğurdu. Bazar iqtisadiyyatı şəraitində ilk addımlarını atan kitabxanaların yeni təsərrüfat şərtlərinə keçməsi kitabxanalara öz maliyyə vəziyyətlərini pullu xidmət təşəbbüsü ilə yaxşılaşdırmağa imkan yaratdı. Hazırda kitabxana bir çox xarici ölkə kitabxanalarının pullu xidmət təcrübəsi ilə tanış olaraq pullu xidmətin maliyyə mənbəyi olmasını başa düşərək, bu istiqamətdə ilk addımlarını atmaqdadır. Belə ki, kitabxana "Oxuculara təqdim olunan pullu xidmətin siyahısı", "Azərbaycan EA Mərkəzi Elmi Kitabxanasında pullu kitabxana məlumat xidməti haqqında" əsasnamə hazırlamışdır. Kitabxanada oxucu sorğularına müvafiq yazılı mövzu biblioqrafik arayışların və ədəbiyyat siyahılarının hazırlanmasını, dissertasiya və avtoreferatlara UOT-dan indekslərin verilməsini, müxtəlif sənədlərin surətinin çıxarılmasını, oxucu biletlərinin verilməsini pullu həyata keçirir.

Uzun illərdən bəri formalaşmış ənənəvi xidmət üsulları bugünkü oxucuların gündən-günə artan tələbatını qane etmir. Müasir informasiyalaşmış cəmiyyət quruculuğu şəraitində kitabxanaları informasiyalaşdırmadan, kitabxana proseslərinə müasir kompüter və kommunikasiya texnologiyalarını tətbiq etmədən müasir oxucunun informasiya tələbatını operativ və uzaq məsafədən – ON LİNE ödəmək mümkün deyildir. Odur ki, informasiyanın bu günə qədər mövcud olan kağız daşıyıcıları ilə yanaşı onların rəqəmli elektron formaya çevrilməsi oxuculara xidmət prosesində yeni iş üsul və metodlarının - lokal və qlobal şəbəkədən istifadənin tətbiqini tələb edir. Bunun üçün isə kitabxana fondlarının, nadir nəşrlərin müasir elektron daşıyıcılarına köçürülməsi, internet şəbəkəsindən istifadə yolu ilə milli fondların bu şəbəkədə əks etdirilməsi, dünya informasiya bazasına inteqrasiyası, bu intellektual sərvətlərin beynəlxalq miqyasda qarşılıqlı istifadəsi kimi vəzifələrin həyata keçirilməsi, kitabxananın müasir dünya standartları səviyyəsində qurulması, ilk növbədə isə avtomatlaşdırılması həlli vacib olan aktual, milli əhəmiyyətə malik məsələ kimi Azərbaycan kitabxanalarının qarşısında durur.

Son 10 ildə Azərbaycan kitabxanaları da artıq tam informasiyalaşdırılmağa doğru gedir. Bu istiqamətdə ilk dəfə olaraq Azərbaycanda tarix elmləri doktoru, professor A.A.Xələfovun rəhbərliyi ilə Bakı Dövlət Universiteti Elmi Kitabxanasının bazası əsasında yaradılan "Kitabxananın kompüterləşdirilməsi" elmi tədqiqat laboratoriyası ilk addımlar atmışdır. Belə ki, 1999-cu ildə Bakı Dövlət Universitetinin Elmi Şurası "Kitabxana işinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasının yaradılması haqqında qərar qəbul etmiş və laboratoriya 2000-ci ildə fəaliyyətə başlamışdır. Qısa müddət ərzində laboratoriyada bu istiqamətdə müəyyən işlər görüldü. Belə ki, ilk növbədə laboratoriyanın yaranması respublikada kitabxana informatikasının əsas bazasının yaradılmasını təmin etdi. Laboratoriyanın gərgin fəaliyyətinin nəticəsi olaraq kitabxananın elmi, tədris və digər ədəbiyyatlardan ibarət milli kitab fondunun elektron kataloqu və verilənlər bazası yaradıldı. Görülən bu işlər respublikadakı digər kitabxanalar üçün əsas təcrübi baza rolunu oynamışdır.

Bütün çətinliklərə baxmayaraq, AMEA Mərkəzi Elmi Kitabxanası da bu təcrübədən yararlanaraq müəyyən işlər görmüşdür. Belə ki, kitabxana "MEK-da kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasının əsas istiqamətlərinin təxmini planı"nı hazırlamış və hazırda bu plan əsasında bir neçə istiqamət üzrə iş apararaq müəyyən nəticə əldə etmişdir. Kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsində oxuculara operativ səmərəli kitabxana-informasiya xidməti göstərmək məqsədilə İNTERNET ehtiyatlarından istifadə imkanı yaradılmışdır. Burada oxucular onları maraqlandıran informasiyanı İnternetdən tapır və eyni zamanda elektron poçt vasitəsilə yazışma aparmaq imkanı əldə edirlər. Bunun yanaşı müasir dövrdə kütləvi informasiya vasitələrinin

əhalinin sosial-siyasi həyatında oynadığı mühüm rolunu nəzərə alaraq Rusiyanın kütləvi informasiya vasitələrinin məlumat bazası oxucuların istifadəsinə verilmişdir. O cümlədən oxuculara xidmət məqsədilə İnternet şəbəkəsinin elektron informasiya ehtiyatlarından istifadə edərək yazılı mövzu biblioqrafik arayışları, informasiya bülletenləri, biblioqrafik göstəricilər hazırlanır.

Onu da qeyd etmək lazımdır ki, bu işin həyata keçirilməsi kompüter texnologiyasını, İnternetin imkanlarını dərindən bilmədən qeyri-mümkündür. Bunun üçün də mütəxəssis kadrlar yetişdirilməsi, xarici ölkə təcrübəsini öyrənmək, tədris kurslarında iştirak etmək lazımdır. Kitabxanada bu istiqamətdə də müəyyən işlər həyata keçirilir. Belə ki, kitabxana işçilərinin kompüter texnologiyasından istifadəyə yiyələnməsi üçün xüsusi kurslar təşkil edilmişdir. ABŞ Tədris və İnformasiya Mərkəzi ilə birlikdə "Elm və Mədəniyyətin informasiyalaşdırılması", kitab fondlarının mühafizəsi ilə əlaqədar "Keçmişin gələcəyi" adlı əməkdaşların ixtisas səviyyələrinin artırılması üçün ABŞ səfirliyində "Kitabxana xidməti: yeni rakurslar", SOROS fondu Açıq Cəmiyyət İnstitutu xətti ilə "Ümumi biblioqrafik kontrol və UNİMARC", "Elektron rabitə", "İnternet axtarışı" adlı kurslar təşkil etmişdir.

Bunlarla yanaşı, humanitar fondlar tərəfindən əldə olunmuş qrantlar və ayrılan maliyyə vəsaiti hesabına kitabxananın maddi-texniki bazası möhkəmlənmişdir. Kitabxana SOROS Açıq Cəmiyyət İnstitutu tərəfindən kompüter, printer, disklər, faksmodem və s. kompüter avadanlıqları ilə təmin edilmişdir.

Müstəqillik illəri kitabxana üçün bir sıra əlamətdar hadisələrlə də xarakterik olmuşdur. Kitabxana 2000-ci ildə SOROS fondunun köməyi ildə özünün İnternetdə 75 illik tarixi fəaliyyətini əks etdirən xüsusi Web-saytını açmışdır. Azərbaycanın dünya şöhrətli alimi, siyasi xadim, ümummilli liderimiz Heydər Əliyevin zəngin irsinə, siyasi diplomatik fəaliyyətinə, həyatına həsr olunmuş ədəbiyyata artan oxucuların, tədqiqatçıların maraq və sorğularını nəzərə alaraq kitabxanada 2002-ci ildə "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" kitabxanası və kataloqu yaradılmışdır.

Respublikamızın latın qrafikasına keçməsi ilə əlaqədar olaraq bu qrafika ilə nəşr olunan ədəbiyyatların qıtlığı ilə üzləşən oxucuların böyük ehtiyaclarını nəzərə alan Mərkəzi Elmi Kitabxana Bakıda fəaliyyət göstərən ABŞ səfirliyinin Tədris və İnformasiya Mərkəzi ilə birlikdə latın qrafikası ilə "Azərbaycan ədəbiyyatı antalogiyası" adlı elektron kitabxana tərtib etmişdir. Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə təsdiq edilmiş, AMEA-nın nizamnaməsinin 5-ci maddəsinin 54-cü bəndinə əsasən Mərkəzi Elmi Kitabxananın elmi status alması kitabxananın inkişafında yeni mərhələ oldu. Elmi status aldıqdan sonra kitabxana işçiləri fəal elmi-tədqiqat işinə cəlb olundu, kitabxananın bazasında profilli istiqamətlər üzrə aspirantura xətti ilə elmi kadrların hazırlanması üçün şərait yarandı. Bütün bunlar gələcəkdə kitabxananın qarşısında duran vəzifələri uğurla həll edəcəyinə əsas verir.



## ƏDƏBİYYAT


1. *Xələfov A.A. və b. Kitabxana işçisinin məlumat kitabı.-B.:Azərnəşr, 1986.-286 s.*

2. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. III hissə: Kitabxana işi haqqında təlim.-B., 2003.-360 s.*

3. *«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Azərbaycan.-1999.-17 mart.*

4. *Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının 2000-2004-cü illər üzrə hesabatları.*



***Абузар Халафов***
***Севда Мамедова***


## ЦЕНТРАЛЬНАЯ НАУЧНАЯ БИБЛИОТЕКА НАН АЗЕРБАЙДЖАНА В ГОДЫ НЕЗАВИСИМОСТИ


### *РЕЗЮМЕ*

*В статье рассматриваются этапы развития и современное состояние центральной научной библиотеки НАН Азербайджана в годы независимости.*

***Xəlil İSMAYILOV***
*Bakı Dövlət Universiteti*
*Kitabxanaçılıq-informasiya*
*fakültəsinin dekanı,*
*tarix elmləri doktoru*

# KİTABXANA MENECMENTİNİN PRİNSİPLƏRİ VƏ FUNKSİYALARI

Tanınmış Rusiya kitabxanaşünası, professor Y.M.Suslova kitabxana menecmentinin mahiyyətini kitabxanaların idarə olunmasında dünya nəzəriyyəsi və təcrübəsində formalaşmış bir sıra prinsiplər, funksiyalar və metodların tətbiq edilməsinin müasir konsepsiyası kimi qiymətləndirir (1).

Bu fikirlə əsasən razılaşaraq qeyd etmək istərdik ki, müasir dövrdə Azərbaycanda kitabxana işinin idarə olunmasında ən yaxşı və səmərəli nəticələrin əldə edilməsi, bu işdə dünya təcrübəsi ilə Azərbaycan dövlətində formalaşmış ənənə və təcrübənin vəhdətdə istifadəsi və tətbiqi ilə təmin edilə bilər.

Müasir dövrdə Azərbaycanda baş verən mütərəqqi siyasi, iqtisadi və sosial proseslərlə əlaqədar kitabxana işinin idarə olunması prinsiplərini belə müəyyənləşdirmək olar:

-demokratikləşdirmə ;
-qeyri-mərkəzləşdirmə (desentrializasiya) ;
-işgüzar partnyorluq (tərəf müqabili) ;
-elmilik ;
-idarəedən və idarəedilən sistemlərin fəaliyyətinin həmahəngliyi;
-siyasi yanaşma prinsipi;
-idarəetmədə ərazi və sahəvilik prinsiplərinin əlaqələndirilməsi.

İndi bu prinsipləri ayrılıqda nəzərdən keçirək.



*Demokratikləşdirmə prinsipi*

Menecmentdə demokratikləşdirmə prinsipi bu sahədə aşkarlığın, ictimaiyyətin rolunun artırılmasını, peşəkar ictimai kitabxana birliklərinin dövlətin kitabxana siyasətinin formalaşmasında iştirakının gücləndirilməsini, kitabxana işinə rəhbərliyin inzibati-amirlik metodlarından azad olmasını, kitabxanaların idarə olunmasında kollektivlərin rolunun artırılmasına, müstəqilliklərinin genişlənməsini, kitabxana kadrlarının və xüsusən rəhbər işçilərin seçki yolu ilə təyin edilməsini, digər təşkilati məsələlərin həllində ictimai rəyin əsas götürülməsini nəzərdə tutur.

Kitabxana işinin idarə olunmasının demokratikləşdirilməsi prinsipinin mühüm tərkib hissəsi oxuculara xidmət prosesinin demokratikləşdirilməsi ilə əlaqədardır. Bu baxımdan hər kəsin öz marağına uyğun kitabxanalardan istifadə etmək, istifadə etdiyi kitabxanadan tam və dolğun informasiya almaq, ümumiyyətlə oxuculara xidmət işində bütün məhdudiyyətlərin aradan qaldırılması kitabxana menecmentində prioritet vəzifə sayılır.

Nəhayət, kitabxana işinin idarə olunmasının demokratikləşdirilməsi prinsipi özündə kitabxanaşünaslıq tədqiqatlarında müvafiq problemlərin dərindən tədqiq edilməsini, kitabxanaşünaslıq nəzəriyyəsi və metodikasının totalitar dövrdə formalaşmış stereotiplərdən və ideoloji nöqsanlardan təmizlənməsini nəzərdə tutur.

*Qeyri-mərkəzləşdirmə (desentralizasiya) prinsipi*

Bu prinsip kitabxana işinin vahid mərkəzdən inzibati-amirlik metodları ilə idarə olunmasının aradan qaldırılmasına, kitabxana kollektivlərində müstəqillik və təşəbbüskarlığın genişlənməsinə xidmət edən menecment prinsipidir.

Qeyri-mərkəzləşdirmə prinsipi öz səmərəliliyini daha çox kitabxana işinin maliyyələşdirilməsində göstərir ki, bu da öz əksini Azərbaycanın kitabxana qanununda tapmışdır.

Belə ki, ümumdövlət əhəmiyyətli kitabxanalar respublika mədəniyyət nazirliyi, müvafiq nazirliklər, komitələr və digər dövlət müəssisələri tərəfindən maliyyələşdirilir, kütləvi kitabxanalar isə yerli icra hakimiyyət orqanları tərəfindən maliyyələşdirilirlər.

Bununla yanaşı, kitabxanalar öz maddi-texniki bazasını yaxşılaşdırmaq məqsədilə təsərrüfat fəaliyyəti və pullu xidmətlər hesabına büdcədənkənar vəsait fondları formalaşdıra bilərlər.

Qeyri-mərkəzləşdirmənin ən mühüm hüquqi xüsusiyyəti ölkədə kitabxana işinin öz profil, məqsəd və vəzifələrinə görə müxtəlif nazirliklər və idarələr tərəfindən idarə olunmasının mövcudluğudur ki, həmin idarəedici orqanlar da öz tabeliklərində olan kitabxanaların fəaliyyətini tənzimləyən hüquqi-normativ aktlar qəbul edə bilərlər. Əlbəttə, bu normativ sənədlər kitabxana işi haqqında dövlət kitabxana qanunvericiliyi ilə ziddiyyət yaratmamalıdır.

*İşgüzar partnyorluq prinsipi*

Bu prinsip oxucuların informasiya ehtiyatlarından səmərəli istifadəsini təmin etmək məqsədilə müxtəlif idarə və müəssisələrin kitabxanalarının əlaqəli fəaliyyətini nəzərdə tutur. Bu məqsədlə fəaliyyətlərini vahid məqsədə istiqamətləndirən idarələrarası və ya sahələrarası kitabxana-informasiya birlikləri yaradılıb kompleks, ümumaçıq informasiya məkanı formalaşa bilər. Eyni zamanda Azərbaycan Respublikasının «Kitabxana işi haqqında» Qanununda (maddə 9) göstərildiyi kimi, «Kitabxanalar sənəd-informasiya ehtiyatlarından səmərəli istifadə məqsədilə elmi-texniki və digər informasiya orqanları, arxivlər, başqa idarə və müəssisələrlə qarşılıqlı əlaqə yaradır. Bu əlaqələr birgə fəaliyyət proqramları və müqavilələr əsasında həyata keçirilir».

*Elmilik prinsipi*

Elmilik prinsipi kitabxana işinin idarə olunması sisteminin bütövlükdə kitabxanaşünaslıq və idarəetmə elminin son nailiyyətləri əsasında təşkil edilməsini nəzərdə tutur. İdarəetmədə elmilik prinsipinin tətbiqi ölkədə kitabxana işinin inkişafının ümumi qanunauyğunluqlarını, kitabxanaçılıq fəaliyyətinin tarixi ənənələri və milli xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir.

Bu haqda professor A.Xələfov yazır: "Kitabxanaların idarə edilməsi cəmiyyətin idarə edilməsinin tərkib hissəsi kimi idarəetmə elmi ilə sıx əlaqədardır, onun elmi nəticələrindən, qanunlarından, prinsiplərindən, nəzəri müddəalarından, elmi nəticələrindən bəhrələnir, cəmiyyətin idarə edilməsində tətbiq edilən metodlardan və üsullardan istifadə edir" (2).



*İdarəedən və idarəedilən sistemlərin fəaliyyətinin həmahəngliyi prinsipi*

Bu prinsipin əsasını kitabxana sistemində idarəedən və idarəedilən yarımsistemlərin imkanlarının və xüsusən onların müasir texnoloji və texniki təchizatının vəziyyətinin bir-birinə uyğunluğu, yaxınlığı və oxşarlığı təşkil edir.

Belə ki, müasir dövrdə mühüm kitabxana-informasiya proseslərinin kompüterləşdirilməsi şəraitində kitabxanaların texniki təchizatının səviyyəsinin onları idarəedən orqanların texniki təchizat səviyyəsinə uyğun olması idarəetmənin həyata keçirilməsinin mühüm prinsipi sayılır.

*Siyasi yanaşma prinsipi*

Kitabxana işinin idarə olunmasında siyasi yanaşma prinsipi dövlətin ideoloji dəyərlərinin, əhalinin kitabxana-informasiya sərvətlərindən istifadə etməsi istiqamətində onların konstitusiya hüquqlarının təmin edilməsini nəzərdə tutur.

Xüsusilə kitabxana fondlarının komplektləşdirilməsində, oxuculara xidmət işinin təşkilində cəmiyyətdə hökm sürən ideoloji və siyasi rəngarənglik və plüralizm metodlarının və digər demokratik iş üsullarının tətbiqi idarəetmədə siyasi yanaşma prinsipinin tətbiqinin əsasını təşkil etməlidir.

*İdarəetmədə ərazi və sahəvilik prinsiplərinin əlaqələndirilməsi*

Kitabxana işinin idarə olunmasında ərazi və sahəvilik prinsiplərinin vəhdətdə tətbiq edilməsi zərurətinin meydana gəlməsi cəmiyyətdə kitabxana şəbəkələrinin məqsəd və vəzifələrinə görə müxtəlifliyi ilə əlaqədardır.

Belə ki, hər bir ölkədə, onun müxtəlif regionlarında o cümlədən, Azərbaycanda və onun müxtəlif ərazilərində tarixən əvvəl əhalinin bütün təbəqələrinə xidmət edən ümumaçıq kitabxanalar yaranmış, sonra isə müxtəlif elm, texnika, sənaye, aqrar sahə, tibb və sairə nisbətən məhdud oxucu qruplarına xidmət edən elmi, elmi-texniki, xüsusi kitabxanalar meydana gəlmiş və bu kitabxanalarda zəngin informasiya ehtiyatları formalaşmışdır.

Müasir dövrdə əhaliyə kitabxana xidmətində mühüm vəzifə bu informasiya ehtiyatlarından vəhdətdə istifadəsini təmin etmək, mənsu-

biyyətindən asılı olmayaraq bütün kitabxanaların informasiya potensialı əsasında ümumaçıq informasiya məkanı yaratmaqdan ibarətdir ki, bu da öz növbəsində kitabxanaların idarə olunmasında ərazi və sahəvilik prinsiplərinin əlaqələndirilməsini tələb edir.

Bir qayda olaraq menecment funksiyaları bu fəaliyyətin əsas növlərinə görə təsnifləşdirilir.

*Kitabxana işində idarətmə funksiyalarını aşağıdakı növlərə ayırmaq olar:*

-təşkiletmə;
-planlaşdırma;
-maliyyələşdirmə;
-koordinasiya (əlaqələndirmə);
-xarici əlaqələrin həyata keçirilməsi;
-uçot;
-təşkilati təhlil;
-nəzarət.

*Təşkiletmə funksiyası*

Kitabxana işinin idarə olunmasında təşkiletmə geniş mənada həm idarəetmə fəaliyyətinin təşkili, həm də idarəolunan obyektlərin, yəni kitabxanaların fəaliyyətinin təşkili deməkdir.

Beləliklə, təşkiletmə bütövlükdə idarə edən və idarəolunan sistemlərarası, sistemlər daxili münasibətlərin, əlaqələrin və proseslərin təşkili sistemidir.

Kitabxana işinin idarə edilməsinin təşkiletmə funksiyasına daxildir:

-idarəetmə sisteminin özünün təşkili, idarəedən orqanın struktur quruluşu və fəaliyyət mexanizminin formalaşması;

-kitabxanalarda əmək proseslərinin təşkili, əmək bölgüsü və optimal struktur əsasında işçilərin kitabxana işinin texnoloji sahələri üzrə yerləşdirilməsinin təşkili;

-idarəedən sistem ilə kitabxanalar arasında informasiya mübadiləsinin əks və birbaşa əlaqələrin təşkili.

Yuxarıda göstərilənlər yalnız idarəetmə fəaliyyətinin təşkili və təsiredici gücü ilə həyata keçirilmir. Burada müəyyən idarəolunma normativlərinin işlənib hazırlanması, tətbiq edilməsi, hər bir idarəedilən obyekt üzrə əsasnamə və vəzifə təlimatlarının mövcudluğu da mühüm rol oynayır.



*Planlaşdırma funksiyası*

Planlaşdırma kitabxana menecmentinin əsas ümumi funksiyası olmaq etibarilə cəmiyyətdəki kitabxana-informasiya proseslərinin ümumi vəziyyətini müəyyən edir, əhaliyə kitabxana xidmətinin inkişafını təmin edən mənbələri, amilləri müəyyənləşdirir, onların təşkili formaları və metodlarını formalaşdırır.

Məşhur Amerika mütəxəssisləri M.Meskon, M.Albert və F.Xedour özlərinin «Menecmentin əsasları» kitabında göstərirlər ki, planlaşdırma 3 əsas suala cavab verməlidir: «Hazırda hansı vəziyyətdədir», «Hansı istiqamətdə hərəkət etməliyik», «Bu işi necə etməliyik» (3).

Beləliklə, kitabxana işinin planlaşdırılması bu sahənin mövcud vəzifələrin təhlili əsasında , onun təkmilləşdirilməsi istiqamətlərini və həyata keçirilməsi yollarını müəyyənləşdirməlidir.

Ölkədə kitabxana işinin inkişafının planlaşdırılması özündə əhaliyə kitabxana xidmətinin optimallaşdırılmasına yönəlmiş ümumdövlət, ayrı-ayrı şəhər, rayon və yaşayış məntəqələri proqramlarından ibarət ola bilər.

Belə proqramların əsas ünsürləri aşağıdakılardan ibarət olmalıdır:

-kitabxana işinin mövcud vəziyyətinin təhlili;

-əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması istiqamətindəki konkret vəzifələr və onların həyata keçirilməsi müddəti;

-bu vəzifələrin həyata keçirilməsinin vasitələri;

-proqramın həyata keçirilməsinə nəzarət üsulları.

Kitabxana işində planlaşdırmanın optimallaşdırılması vəzifələri son illər bir sıra inkişaf etmiş ölkələrdə, o cümlədən, ABŞ, Böyük Britaniya və başqa qərb ölkələrində strateji planlaşdırma təcrübəsinin meydana gəlməsinə səbəb olmuşdur.

Rusiya kitabxanaşünası, kitabxana menecmenti sahəsində görkəmli mütəxəssis, professor Y.M.Suslovanın qeyd etdiyi kimi, kitabxana işinin strateji planlaşdırılması onun daxili və xarici mühitinin vəziyyətinin müəyyənləşdirilməsinə kömək edir;kitabxanaların perspektivləri haqqında aydın təsəvvür yaradır; onların gələcək inkişafı ilə əlaqədar meydana çıxan problemlərin həllinə yönəlmiş real proqramın formalaşmasını təmin edir və eyni zamanda bu işə nəzarət funksiyalarını yerinə yetirir (4).

Kitabxana işinin strateji planlarında öz əksini tapan məsələlər aşağıdakılar olmalıdır:

-cəmiyyətdə iqtisadi, siyasi, sosial və demoqrafik amillərin nəzərə alınması;

-kitabxana işinin inkişafının prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

-kitabxana işinin inkişafına neqativ təsir edəcəyi ehtimal olunan daxili və xarici amillərin qiymətləndirilməsi;

-strateji vəzifələrin yerinə yetirilməsinin kadr təminatı;

-strateji vəzifələrin yerinə yetirilməsinə yönəlmiş maddi-texniki, maliyyə və əmək ehtiyatlarının müəyyənləşdirilməsi;

-strateji inkişafın reallaşması və həyata keçirilməsi üsullarının müəyyənləşdirilməsi;

-ekspert nəzarəti və onun funksiyalarının müəyyənləşdirilməsi.

*Maliyyələşdirmə funksiyası*

Bazar iqtisadiyyatı şəraitində idarəetmənin bu funksiyası xüsusi aktuallıq kəsb edir.

İdarəetmənin maliyyələşdirmə funksiyası kitabxanaların maliyyə sabitliyini təmin etmək məqsədilə onların maliyyələşdirmə proseslərinə, maliyyə fəaliyyətinə, maliyyə ehtiyatlarının formalaşması və səmərəli istifadə edilməsinə təsir etmə sistemidir.

Kitabxana menecmentinin maliyyələşdirmə funksiyasına daxildir:

-kitabxanaların dövlət büdcəsindən maliyyələşdirilməsinin idarə olunması;

-kitabxanaların büdcədənkənar vəsaitlərinin formalaşması;

-kitabxanaların təsərrüfat və marketinq fəaliyyəti ilə əlaqədar maliyyə işlərinin tənzimlənməsi;

-kitabxanaların maliyyə ehtiyatlarının planlaşdırılması və proqnozlaşdırılması;

-kitabxanaların maliyyə fəaliyyətinin təhlili;

-kitabxanaların maliyyə fəaliyyətinə nəzarət.

*Koordinasiya (əlaqələndirmə) funksiyası*

Kitabxana işinin idarəolunmasının koordinasiya funksiyası əhaliyə kitabxana xidmətində müxtəlif kitabxana şəbəkələrinin, birliklərinin vahid proqram və ya planlar əsasında əlaqəli fəaliyyətini təmin etməyə yönələn funksiyasıdır. Koordinasiya həmçinin ayrı-ayrı kitabxana kollektivlərinin, işçilərin, kiçik qrupların fəaliyyətinin əlaqələndirilməsini



də nəzərdə tutur. Beləliklə, koordinasiya kitabxana işinin bir sistem kimi dinamik, ahəngdar və tarazlanmış inkişafını təmin edir.

Kitabxana işində koordinasiya idarəetmə prosesinin tərkib hissəsi olmaqla yanaşı, eyni zamanda idarəetmənin təşkilində inteqrasiya edilmə formasıdır.

Belə ki, koordinasiya yalnız kitabxanaların fəaliyyətini deyil, həm də idarəetmə strukturlarının, bölmələrinin, idarəetmə qərarlarının təşkilati, iqtisadi, inzibati üsullarının əlaqəli, bir-birindən asılı halda idarə olunması mexanizmini nəzərdə tutur.

İdarəetmə baxımından koordinasiyada ən önəmli vəzifə kitabxanaların inkişafında qeyri-müəyyənliyi aradan qaldırıb, araşdırmalar əsasında optimal variantın tapılması, makro, mikro səviyyəli qeyri-mütənasibliyi aradan qaldırmaqdır.

Kitabxanaçılıq fəaliyyətində koordinasiya tipli tədbirlər idarəedən və idarəolunan sistemlərin normal inkişafının mühüm şərtidir. Bu isə müəyyən fəaliyyət proqramlarının hazırlanıb həyata keçirilməsi ilə əlaqədardır.

Kitabxana işində koordinasiya əlaqələri üfüqi və şaquli olur. Ona görə də bu əlaqə formalarının düzgün seçilməsi, ölkə miqyasında, sahələrarası, sahədaxili mühüm kitabxana-informasiya proseslərinin, bu prosesləri idarəedən orqanların fəaliyyətinin əlaqələndirilməsi kitabxana menecmentinin olduqca önəmli funksiyalarından biri sayılır.

*Xarici əlaqələrin həyata keçirilməsi funksiyası*

Məlum olduğu kimi, hər bir cəmiyyətdə kitabxana işi digər sosial sahələrlə əlaqəsiz şəkildə inkişaf edə bilməz. Bu baxımdan həmin funksiya kitabxana işinin elm, informasiya, mədəni-maarif, təhsil, tərbiyə müəssisələri, eləcə də kitab nəşri, kitab ticarəti və digər sosial-mədəni təsisatlarla əlaqələrinin idarə olunmasını nəzərdə tutur.

Bütün bunlarla yanaşı, kitabxana menecmentinin xarici əlaqələr funksiyası ölkə kitabxanalarının dünyanın digər kitabxanaları və beynəlxalq kitabxana təşkilatları, o cümlədən İFLA Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyası ilə əlaqəli fəaliyyət göstərməsini önəmli iş üsulu kimi qiymətləndirir.

Kitabxana işi sahəsində beynəlxalq əlaqələrin həyata keçirilməsi «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda da öz hüquqi əsasını tapmışdır. Qanunda göstərildiyi kimi, «Kitabxanalar və kitabxana sahəsində ictimai birliklər, beynəlxalq kitabxana

təşkilatları, xarici ölkələrin kitabxanaları və kitabxana işi sahəsində ictimai birliklər ilə əməkdaşlıq edə bilərlər» (Maddə 33).

*Uçot funksiyası*

Uçot funksiyasının əsas məqsədi müntəzəm şəkildə kitabxanaların fəaliyyəti ilə əlaqədar faktların və məlumatların toplanıb sistemləşdirilməsindən ibarətdir. Uçot kitabxana işinin idarə olunmasının informasiya təminatının mühüm tərkib hissələrini təşkil edir.

Uçot idarəetmə üçün kitabxanaların fəaliyyəti ilə əlaqədar kəmiyyət və keyfiyyət göstəricilərinə dair informasiya bazası formalaşdırır. Uçot həmçinin kitabxanalarda maliyyə, maddi-texniki və informasiya ehtiyatlarından istifadənin təhlili üçün müstəsna əhəmiyyətə malikdir. Təhlil isə öz növbəsində kitabxana əməliyyatlarına dair normativ sənədlərin hazırlanması, kitabxanaların fəaliyyəti ilə əlaqədar optimal idarəçilik qərarlarının çıxarılması üçün çox vacibdir.

Kitabxana işində istifadə olunan uçot sisteminə operativ, mühasibat, maliyyə və statistika uçotu daxildir. Hər bir uçot formasının öz növbəsində xüsusi vəzifələri, metodları və təşkil olunma qaydası vardır.

Operativ uçota əsasən müxtəlif kitabxana əməliyyatlarının, kitabxana daxilində kitabların hərəkəti və s. proses və əməliyyatların ilkin uçotu daxildir. Bu mühüm kitabxana prosesləri və əməliyyatların idarə edilməsi üçün zəruri olan çevik uçot formasıdır.

Operativ ilkin uçot materiallarının əlahiddə halından sistem halına gətirilməsi, ümumiləşdirilməsi kitabxana menecmentində böyük əhəmiyyətə malikdir. Çünki mühasibat uçotu və statistik uçot da nəticə etibarilə operativ uçota əsaslanır. Maliyyə uçotu son zamanlar təsərrüfat və marketinq fəaliyyəti ilə məşğul olan kitabxanalarda tətbiq edilir.

Müasir kitabxana menecmenti kitabxanalardakı uçot işlərində aşağıdakı tələbləri irəli sürür: 1) kitabxanaların fəaliyyətinin bütün kəmiyyət və keyfiyyət göstəriciləri baxımından uçotunun tam əhatəli olması; 2) göstəricilərin bir-biri ilə əlaqəsi və müqayisəsi baxımından uçotun sistemliliyinin təmin edilməsi; 3) uçotun təhlil üçün yararlı olması; 4) uçotun kompüterləşdirilməsi; 5) uçotun nəzarət funksiyalarının artırılması.



*Təşkilati təhlil üsulu*

Menecment nəzəriyyəsində təşkilati təhlil idarəetmə obyekti və subyekti haqqında məlumatların yoxlanması, işlənməsi və müəyyən şəklə, formaya salınması üsullarının məcmusundan ibarətdir (6).

Kitabxana işinin idarə olunmasında təşkilati təhlilin köməyi ilə müxtəlif kitabxana sistemləri və ayrı-ayrı kitabxanaların hüquqi vəziyyəti müəyyən edilir, baş verən müxtəlif proseslər və nəticələr öyrənilir, onların fəaliyyəti düzgün qiymətləndirilir, metodik hallar və meyllər aşkar olunur, müvafiq tədbirlər işlənib hazırlanır.

Təşkilati, işgüzar təhlil aparmadan kitabxana işinin səmərəli idarə olunması mümkün deyildir. Ona görə də idarəetməni düzgün qurmaq, ayrı-ayrı idarəetmə mərhələlərində kitabxanaların fəaliyyəti ilə əlaqədar optimal vəzifələrin müəyyənləşdirilməsi və qərarların qəbul edilməsində təşkilati təhlil həlledici rola malikdir.

Kitabxana işinin idarə olunması prosesində təşkilati təhlil funksiyasının qarşısında aşağıdakı tələblər qoyulur:

1. Qarşıda duran məqsədin aydınlaşdırılması, təhlil obyektinin, müddətinin, vaxtının müəyyənləşdirilməsi, təhlil üçün ilkin məlumatların əldə edilməsi, onların keyfiyyətinin yoxlanılması.

2. Təhlil obyektinin (kitabxananın və ya kitabxanaların) mühüm fəaliyyət göstəricilərinin əldə edilməsi və dəqiqləşdirilməsi, lazımi məlumatların toplanması, işlənməsi və ilkin nəticələrin çıxarılması.

3. Kitabxanaların plan, uçot, hesabat sənədlərində və digər mənbələrdə olan məlumatları, eləcə də oxucuların rəyini müqayisə edib faktları dəqiqləşdirmək. Bu zaman təftiş, müşahidə, anket sorğularından və başqa təhlil üsullarından istifadə etmək məqsədyönlü olar.

4. Təhlilin nəticələrinin ümumiləşdirilməsi, geniş müzakirəsi, yekun nəticələri və təkliflərin irəli sürülməsi.

Təhlili aparmaq üçün müxtəlif metodlardan istifadə edilə bilər ki, bunların içərisində müqayisə metodu xüsusilə səmərəli nəticələr verir.

Belə ki, nəticənin müqayisə edilməsi metodunun vasitəsilə faktiki nəticə plan göstəriciləri ilə hazırkı vəziyyət əvvəlki dövrlərlə, mövcud qabaqcıl təcrübə ilə müqayisə edilərək kitabxanaların fəaliyyətinə daha obyektiv qiymət vermək imkanları yaranır.

*Nəzarət funksiyası*

Kitabxanaların idarə olunmasının nəzarət funksiyasının məqsədi kitabxanalar tərəfindən müvafiq dövlət qanunları, normativ aktlar, digər sərəncam və qərarların, eləcə də iş planları və proqramlarının həyata keçirilməsinin vəziyyətini araşdırmaq, bu sahədə çatışmazlıqların və onların səbəblərini aşkar edib qaydaya salınmasını təmin etməkdən ibarətdir.

Kitabxana işində nəzarətin 3 forması mövcuddur:

1. Dövlət nəzarəti (səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilən nəzarət).

2. İctimai nəzarət (müxtəlif ictimai birliklərin və metodik mərkəzlərin həyata keçirdiyi nəzarət).

3. Kitabxanadaxili nəzarət (kitabxana rəhbərliyi, elmi metodik şura tərəfindən həyata keçirilən nəzarət).

Dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanları, nazirliklər, bələdiyyələr, prokurorluq, məhkəmə, digər dövlət idarələri və müfəttişlər tərəfindən həyata keçirilir.

Nazirliklər haqqındakı əsasnaməyə müvafiq olaraq onlara tabe olan bütün müəssisələrin və idarələrin fəaliyyətinə idarəçilik nəzarəti nazir və nazirliyin kollegiyası həyata keçirir.

İctimai nəzarət əsasən kitabxanaların metodik təminatı ilə məşğul olan metodik mərkəzlər tərəfindən bu və ya digər proqramların, tövsiyələrin həyata keçirilməsi ilə əlaqədar olub bir qayda olaraq iş prosesində meydana çıxan çətinlikləri aradan qaldırmaq üçün kitabxana kollektivinə kömək məqsədi daşıyır.

Kitabxanadaxili nəzarət kitabxananın direktoru (müdiri), müdir müavinləri (vəzifə bölgüsünə görə), şöbə və qrup rəhbərləri, eləcə də direktorun nəzdindəki elmi (metodik) şura tərəfindən həyata keçirilir. Kitabxanadaxili nəzarətin əsas məqsədi əhaliyə kitabxana xidmətinin təşkili ilə əlaqədar kitabxananın qəbul etdiyi cari və strateji iş planlarının, müxtəlif proqramların, cari uçotun, nizam-intizamın, təsərrüfat, mühasibat və s. işlərin həyata keçirilməsini tənzimləməkdən və meydana çıxan nöqsanları operativ həll etməkdən ibarətdir.

Kitabxana menecmentinin nəzarət funksiyasının həyata keçirilməsində ən mühüm vasitələrdən biri normalardır.

Kitabxanalarda əməyin normalaşdırılması müvafiq iş növləri üzrə əmək kollektivlərinin fəaliyyətinin təşkili ilə əlaqədar olub məcburi qüvvəyə malikdir.



Kitabxanalarda əməyin təşkili prosesi və əməliyyatlar üzrə təşkilinə dair mühüm nəzarət vasitəsi əsas normalar (normativ sənədlər) hər bir kollektiv, işçinin qarşısında qoyulan tələblərin kəmiyyət və keyfiyyət xarakteristikasıdır.

Normalar nəzarət etmək vasitəsi olmaqla yanaşı həm də kitabxanalarda sosial-əmək proseslərinin əyani şəkildə tənzimlənməsi üçün böyük əhəmiyyətə malikdir. Bu baxımdan kitabxana menecmentində norma və normativlərin hazırlanması və tətbiqinin böyük nəzəri, təşkilati və təcrübi əhəmiyyəti vardır.

## ƏDƏBİYYAT


1. *Суслова Й.М. Библиотечный менеджмент: современная концепция управления // Библиотека.-1995.- №2.-С.16-20.*
2. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş:Dərslik. III hissə: Kitabxana işi haqqında təlim.-B., 2003.-S.276.*
3. *Мескон М., Алберт М., Хедоур Ф. Основы менеджмента,-М.:Дело, 1992.-С.134.*
4. *Yenə orada.*
5. *Суслова Й.М. Стратегическое управление библиотечной деятельности.-М.,1998.-С.10.*
6. *Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları.-B.,2001.-S.327.*
7. *«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Azərbaycan.-1999.-17 mart.*
8. *Фрумин И.М. Библиотечное дело: организация и управление.-М.,1980.-*
9. *Kitabxana işinə dair normativ aktlar: (qanun və qanun qüvvəli normativ sənədlər toplusu).-B., 2001.-S.39-40.*
10. *Yenə orada.-S.22-27.*


***Халил Исмаилов***

## ПРИНЦИПЫ И ФУНКЦИИ БИБЛИОТЕЧНОГО МЕНЕДЖМЕНТА

### *РЕЗЮМЕ*

***В статье рассмотрены важнейшие документы, состовляющие правовые основы организации и управления библиотечной деятельности. В статье особое внимание уделено законам «О библиотечном деле», «О культуре», нормативным актам правительства.***

***Tacəddin QULİYEV***
*Tarix elmləri namizədi, dosent*

# AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQI KİTABXANALARI 1986-1990-CI İLLƏRDƏ

### *3-cü məqalə*

1986-1990-cı illərdə Azərbaycan Həmkarlar İttifaqı kitabxanalarında oxucuların tələbatını ödəmək üçün ən qiymətli elmi, texniki və bədii ədəbiyyatın hərtərəfli seçilməsi və komplektləşdirilməsinə diqqətlə yanaşılırdı. Məhz bu prinsiplərə əməl olunması nəticəsində Həmkarlar İttifaqı kitabxanalarının fəaliyyətinin ideya-siyasi istiqaməti, oxuculara fərqli yanaşma, ərazinin iqtisadi və mədəni xüsusiyyətlərinin nəzərə alınması, nəhayət, bu işin planlı şəkildə həyata keçirilməsi və s. təmin olunurdu. MKS-də vahid kitab fondunun komplektləşdirilməsi mərkəzi kitabxananın komplektləşdirmə və kitabişləmə şöbəsi tərəfindən həyata keçirilirdi. Qeyd edək ki, bu məsələ ilə bağlı müvafiq orqanlar tərəfindən müxtəlif təlimati materiallar və tövsiyələr hazırlanmış, mərkəzləşdirmə şəraitində işin təşkilinə, kitabxana fondunun komplektləşdirilməsinə dair kitab və kitabçalar çap olunmuşdur.

Respublika Həmkarlar İttifaqı kitabxanalarında mərkəzləşdirilmiş sistem yaradıldıqdan sonra rəhbər materiallar öyrənilmiş, İ.M.Qubkin adına Baza Kitabxanasının, Xətai adına, İliç adına mədəniyyət və texnika saraylarının ittifaqlararası MKS-in və digər mərkəzi kitabxanaların təcrübəli işçiləri daxil olmaqla komplektləşdirmə şurası yaradılmışdı. Şura tərəfindən kitabxanaların komplektləşdirilməsi işi istiqamətləndirilir və həyata keçirilirdi. Şura fondun komplektləşdirilməsi zamanı mövcud qaydalara əməl etməklə mərkəzləşmədən əvvəlki dövrdən fərqli olaraq vahid komplektləşdirmə planını tərtib edirdi.

Həmkarlar İttifaqı kitabxanaları 1986-cı ildən başlayaraq son illərə qədər öz fondlarını mövzu-tipoloji plan əsasında komplektləşdirirlər. Komplektləşdirmə şurası mövzu-tipoloji planını tərtib edir, ilk növbədə burada rayonun iqtisadi profilini, əhalinin sosioloji və demoqrafik tərkibini, oxucuların sorğularını vahid fondun kəmiyyət və keyfiyyət tərkibini nəzərə alır. Bununla yanaşı, mərkəzi kitabxanaların komplektləşdirmə planı region ərazisində olan digər kitabxanaların planları ilə əlaqələndirilir. Hazırlanmış tematik-tipoloji komplektləşdirmə planı Kitabxana-biblioqrafiya təsnifatı cədvəllərinin bölmələrinə əsaslanır. Planda ədəbiyyatın mövzu bölgüsü, vahid fonda lazım olan nəşrlərin tipləri və nüsxələrin miqdarı göstərilir. Sifariş verilmiş nəşrlərin məlumat aparatı yaradılır. Kitabxana fondlarının komplektləşdirilməsi prosesində nəşriyyatların tematik planlarından geniş istifadə edir. Nəşriyyatların tematik planları diqqətlə nəzərdən keçirilir və planlaşdırılmış cari nəşrlərə sifarişlər tərtib olunur. Həmkarlar İttifaqı kitabxanaları respublikamızdakı "Azərnəşr", "Maarif", "Elm", "Gənclik", "Yazıçı", "İşıq" nəşriyyatlarının və Moskva şəhərindəki nəşriyyatların tematik planlarını almış, fond üçün lazım olan ədəbiyyatı sifariş vermiş və gərəkli ədəbiyyatı komplektləşdirməyə çalışmışlar.

Tematik planlar iki nüsxədə doldurulurdu. Biri kitabxanada saxlanılır, digər nüsxəsi isə Kitabxana Kollektoruna təhvil verilirdi. Beləliklə, müntəzəm olaraq sifariş verilmiş ədəbiyyatın kitabxanaya daxil olmasına və verilməsinə nəzarət edilirdi.

1986-1990-cı illərdə cari komplektləşdirmə nəticəsində Həmkarlar İttifaqı kitabxanaları fondlarının 80-90%-i, bəzi hallarda hətta 95%-i Kitabxana Kollektoru tərəfindən formalaşdırılırdı. Cari komplektləşdirmə nəticəsində kitabxana fonduna son dövrün ən aktual nəşrləri daxil olurdu.

Həmkarlar İttifaqı kitabxanaları öz fondlarını komplektləşdirərkən əsasən sosial-iqtisadi, elmi, təbii, texniki, incəsənət, idman və bədən tərbiyəsi, bədii ədəbiyyat və s. istiqamətlərə xüsusi fikir verirdilər. Belə ki, fondun formalaşdırılması zamanı ədəbiyyatın seçilməsi tamlığına, seçilmiş ədəbiyyatın müasir tələbata uyğun olmasına, nüsxələrin kifayət qədər olmasına ciddi diqqət yetirilirdi.

Respublika Həmkarlar İttifaqı kitabxanaları XX əsrin 70-80-ci illərində öz fondlarının formalaşdırılmasına diqqəti daha da artırmışdılar. Məsələn, MKS-in yaradılması ərəfəsində, yəni 1975-ci ildə Həmkarlar İttifaqının 247 kitabxanası və onların 2.906.531 nüsxə kitab fondu olmuşdursa, MKS yaradıldıqdan sonra - 1981-ci ildə Həmkarlar İttifaqı sistemində kitabxanaların sayı artıb 286-ya, onların kitab fondu isə 3.358.052 nüsxəyə, 1986-cı ildə kitabxanaların sayı artıb 290-a, kitab fondu isə artıb 3.824.224 nüsxəyə çatmışdı. 1990-cı ildə isə kitabxanaların sayı artıb 326-ya, kitab fondu isə artıb 3.827.751 nüsxəyə çat-

mışdı. 1986-cı ildə kitabxanalara 176.866 nüsxə, 1989-cu ildə isə 164.167 nüsxə yeni ədəbiyyat daxil olmuşdur.

Qeyd etmək lazımdır ki, Həmkarlar İttifaqının 134 kitabxanası MKS-ə daxil idisə, 186 kitabxana MKS-ə daxil deyildi. Ümumi kitabxanalardan 126-sı kənd yerlərində idi. Həmkarlar İttifaqı sistemində 1986-cı ildə 483 kitabxana məntəqəsi, 62 briqada abonementi, 1990-cı ildə isə 439 kitabxana məntəqəsi və 28 briqada abonementi fəaliyyət göstərirdi. 1986-cı ildə 290 kitabxanadan 361.573 oxucuya 6.484.539 nüsxə kitab, 1990-cı ildə isə 326 kitabxanadan 336741 oxucuya 5.623.373 nüsxə kitab verilişi olmuşdur. Göründüyü kimi, 1986-cı illə müqayisədə 1990-cı ildə kitab verilişi 68.775 nüsxə azalmışdır. Buna səbəb 1988-ci ildən başlamış Qarabağ hadisələri olmuşdur.

Bəhs etdiyimiz dövrdə kitabxana fondlarının tərkibində də dəyişikliklər olmuşdur. Fikrimizi təsdiq etmək üçün cədvələ baxaq.

| *İllər* | *Ümumi kitab fondu* | *İctimai-siyasi ədəbiyyat* | *Təbiət, tibb, səhiyyə elmləri* | *Texnika, kənd təsər. ədəbiyyatı* | *İncəsənət, idman, bədən tərbiyəsi* | *Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq* | *Başqa ədəbiyyat* |
|---|---|---|---|---|---|---|---|
| 1986 | 3.207.949 | 627.247 | 270.758 | 270.756 | 200.242 | 2.003.421 | 306.525 |
| 1987 | 3.886.860 | 803.445 | 180.347 | 360.987 | 140.542 | 2.401.539 | - |
| 1988 | 3.769.655 | 753.232 | 164.900 | 373.886 | 138.723 | 2.338.894 | - |
| 1989 | 3.749.098 | 748.834 | 172.991 | 389.758 | 143.339 | 2.294.176 | - |
| 1990 | 3.827.751 | - | - | - | - | 2.398.926 | - |

Cədvəldən göründüyü kimi, 1986-cı ildə statistik cədvəldə təbiət elmlərinə və incəsənətə, idmana və bədən tərbiyəsinə aid ədəbiyyat müvafiq qrafalarda göstərilməyib, 1987-ci ildən 1990-cı ilə qədər isə "başqa ədəbiyyat" qrafasında heç bir rəqəm qeyd edilməyib. 1986-cı ildə həmin qrafada kitabxanalarda olan başqa ədəbiyyatın miqdarı göstərilib. 1987-ci ildən sonra kitabxanaların sayının artmasına baxmayaraq, kitab fondu azalmağa başlamışdır. Bu azalmanı bütün sahələr üzrə görmək olur. 1990-cı ildə statistik cədvəldə ümumi fondun, bədii və ədəbiyyatşünaslığa aid ədəbiyyatın miqdarı göstərilmiş, qalan elm sahələrinə aid ədəbiyyatın miqdarı haqqında məlumat verilməmişdir.

Kitabxanalara daxil olan yeni kitablar illər üzrə bu qaydada dəyişmişdir. 1985-ci ildə 281 kitabxanaya 204.825 nüsxə, 1986-cı ildə 290 kitabxanaya 176.866 nüsxə, 1987-ci ildə 300 kitabxanaya 77.992 adda 155.361 nüsxə, 1988-ci ildə 299 kitabxanaya 166.122 nüsxə, 1989-cu ildə 326 kitabxanaya 164.167 nüsxə, 1990-cı ildə 326 kitabxanaya 42.542 nüsxə yeni ədəbiyyat alınmışdır. Bu rəqəmlərdən göründüyü kimi, illər üzrə kitabxanaların sayı artmış, lakin yeni alınan kitabların həcmi getdikcə azalmışdır. Bunun bir neçə səbəbi vardı: birincisi, pul vəsaiti kifayət etmirdi, ikincisi, kitabxanaçıların verdiyi sifarişlər Kitabxana Kollektoru tərəfindən tam yerinə yetirilmirdi, oxucular tərəfindən çox tələb olunan kitablar fərdi ticarət mağazalarına çox, kitabxanalara isə az sayda verilirdi. 1990-cı ildən sonra məlum səbəblərə görə kağızın çatışmaması, az kitab çap edilməsi, nəşr olunan ədəbiyyatın baha olması, pul vəsaitinin çatışmaması nəticəsində kitabxanaların fondları tələbata uyğun komplektləşdirilmirdi.



Respublika Həmkarlar İttifaqı kitabxanalarında, xüsusilə MKS-in mərkəzi kitabxanalarında fondların komplektləşdirilməsini həyata keçirmək məqsədilə xüsusi yardımçı fondlar da yaradılmışdır. Komplektləşdirmə və kitabişləmə şöbələrində yaradılmış yardımçı fondlarda müəyyən rəhbər materiallar, təlimatlar, dərsliklər, metodik və praktik vəsaitlər; kitabxana fondunun komplektləşdirilməsi məsələlərinə dair cari ədəbiyyat; kitabxana işinə dair rəhbər materiallar; məcburi xarakterli təlimatlar; yuxarı orqanların, kitabxana direktorunun əmr və göstərişləri; şöbənin əsasnaməsi və vəzifə təlimatları; komplektləşdirməyə dair digər kitabxanaların qabaqcıl iş təcrübəsinə aid materiallar; ixtisasa aid dövri nəşrlər - "Библиотекарь", "Советское библиотековедение", "Советское библиография", "Mədəni-maarif işi", "Kitablar aləmində" və s. ; "Kitabxana-biblioqrafiya təsnifatı cədvəlləri" toplanmışdır.

Komplektləşdirməyə dair yardımçı fondda əsas yerlərdən birini mövzu-tipoloji komplektləşdirmə planı təşkil edir. Bununla yanaşı, iqtisadi və mədəni profilli predmet-mövzu kartotekası da xüsusi əhəmiyyətə malikdir.

Həmkarlar İttifaqı kitabxanaları öz fondlarını formalaşdırmaq məqsədilə yaradılmış zəngin soraq aparatından da səmərəli istifadə edərək ədəbiyyatı komplektləşdirmək sahəsində müəyyən nailiyyətlər qazana bilmişdi. Kitabxanalar fondlarının komplektləşdirməsi prosesini elmi əsaslarla həyata keçirmiş və fondun keyfiyyət və kəmiyyət dəyişikliyinə nail olmuşdu. Məsələn, İ.M.Qubkin adına Respublika Baza Kitabxanasında 1985-ci ildə 140.672 nüsxə ədəbiyyat olmuşdursa, 1986-cı ildə 145.371, 1987-ci ildə 143.177 nüsxə, 1988-ci ildə 155.036 nüsxə, 1989-cu ildə 144.372 nüsxə, 1990-cı ildə isə 139.465 nüsxə ədəbiyyat olmuşdur. İliç adına mədəniyyət və texnika sarayının idtifaqlararası MKS-in mərkəzi kitabxanasının fondunda 1986-cı ildə 140.267 nüsxə ədəbiyyat olmuşdursa, 1987-ci ildə 148.542 nüsxə, 1988-ci ildə 129.983 nüsxə, 1989-cu ildə 119.174 nüsxə, 1990-cı ildə isə 110.284 nüsxə ədəbiyyat olmuşdur. Yaxud S.Bəhlulzadə adına mədəniyyət

sarayının ittifaqlararası MKS-in mərkəzi kitabxanasında 1986-cı ildə 70.052 nüsxə ədəbiyyat vardısa, 1987-ci ildə 71.355 nüsxə, 1988-ci ildə 72.032 nüsxə, 1989-cu ildə 70.678 nüsxə, 1990-cı ildə isə 69.571 nüsxə ədəbiyyat olmuşdur. Bu rəqəmlərdən göründüyü kimi, mərkəzi kitabxanaların fondları da get-gedə azalmışdır.

Bəhs etdiyimiz dövrdə bu azalmanın səbəblərindən biri kitabxana fondlarının məzmunca əhəmiyyətini itirmiş, istifadəsi məsləhət görülməyən, köhnəlmiş sənədlərin fonddan xaric edilməsi olmuşdur. Məsələn, Respublika Həmkarlar İttifaqı kitabxanalarının fondlarından 1985-ci ildə 195.663 nüsxə, 1987-ci ildə isə 152.948 nüsxə ədəbiyyat xaric edilmişdir. Bu illərdə kitabxana fondlarına daxil olan yeni ədəbiyyatın miqdarı 1986-cı ildə 204.825 nüsxə, 1988-ci ildə isə 176.866 nüsxə olmuşdur. Daxil olan və fonddan xaric edilən ədəbiyyatı əks etdirən rəqəmləri müqayisə edərkən aydın olur ki, daxil olan yeni ədəbiyyat, xaric edilən ədəbiyyatdan çox az fərqlənir. Məsələn, bu fərq 1986-cı ildə 5 minə yaxın, 1988-ci ildə isə 24 min nüsxə təşkil edir. Göstərmək lazımdır ki, fondların təmizlənməsi 1990-cı ilədək davam etmişdir.

Fikrimizi sübut etmək üçün İ.M.Qubkin adına Respublika Baza Kitabxanasının və buraya daxil olan 11 filialın vahid fondunda toplanmış çap məhsulunun tərkibini göstərən cədvələ baxmaq kifayətdir:

| Elmin sahələri | İllər | |
|---|---|---|
| | 1986 | 1990 |
| İctimai-siyasi ədəbiyyat | 21 % | 13 % |
| Təbiət elmləri | 7 % | 11 % |
| Texnika. Kənd təsərrüfatı | 10 % | 23 % |
| İncəsənət və idman | 2 % | 3 % |
| Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq | 46 % | 34 % |
| Digər sahələr | 14 % | 11 % |

Cədvəldən aydın görünür ki, tədqiq edilən dövrdə İ.M.Qubkin adına Respublika Həmkarlar İttifaqı Baza Kitabxanasının mərkəzləşdirilmiş sisteminin vahid fondunun komplektləşdirilməsi sahəsində aparılan planlı və sistemli iş fondun profilini xeyli dəyişdirmişdir. Əlbəttə, fondun belə istiqamət almasında fondların məzmunca köhnəlmiş ədəbiyyatdan təmizlənməsi də mühüm rol oynamışdır. Göründüyü kimi, fondda olan ictimai-siyasi və bədii ədəbiyyat faiz etibarilə aşağı düşmüş, digər elm sahələrinin faizi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Qeyd etdiyimiz kimi, Respublika Həmkarlar İttifaqı Kitabxanalarının



komplektləşdirilməsinin əsas mənbəyi Kitabxana Kollektorudur. Hesabatlardan görünür ki, mərkəzi kitabxanaların fondlarına daxil olan yeni ədəbiyyatın orta hesabla 70-75 %-i Kitabxana Kollektorundan komplektləşdirilir, qalan hissəsi isə müxtəlif kitab mağazalarından alınır.

Kitabxana fondlarının komplektləşdirilməsinin başlıca xüsusiyyətlərindən biri kitabxanaların maliyyələşdirilməsidir. Komplektləşdirmə üçün ayrılan məbləğ həmin kitabxananın tipindən, növündən, tabeçilik mənsubiyyətindən asılı olaraq müəyyən edilir. Məlumdur ki, dövlət kitabxanalarından fərqli olaraq Həmkarlar İttifaqı kitabxanaları müvafiq ictimai təşkilatlar tərəfindən maliyyələşdirilir. Bu nöqteyi-nəzərdən həmin kitabxanalar sahə həmkarlar ittifaqları komitəsi və Respublika Həmkarlar İttifaqının Mərkəzi Şurası tərəfindən maliyyələşdirilir. Komplektləşdirmə üçün ayrılan vəsait əsasən kitab və kitabçaların komplektləşdirilməsinə, dövri nəşrlərə abunə yazılışına, kitabxana texnikası əldə etməyə sərf olunur. Kitabxanalara fondlarını komplektləşdirmək üçün 1985-ci ildən 1990-cı ilə qədər orta hesabla 9.974 200 min manata qədər vəsait ayrılırdı. Lakin bu məbləğ də az idi fondun tam komplektləşdirilməsini təmin etmirdi. Həmkarlar İttifaqı kitabxana fondlarının formalaşdırılması işinə elmi-nəzəri qaydada rəhbərlik etmək, sistemdə olan bütün kitabxanaların metodik təminatı və s. iş proseslərinə ümumi rəhbərlik Baza Kitabxanasına tapşırılmışdı. Bu kitabxana müntəzəm olaraq fondların komplektləşdirilməsi məsələlərinə dair direktiv göstəriş və təlimatları, əsasnamələri izah edir, qabaqcıl kitabxanaların iş təcrübələrinin öyrənilib tətbiq edilməsində kitabxana işçilərinə yaxından kömək edir.

Metodik təminat üçün Baza Kitabxanasında komplektləşdirmə şurası fəaliyyət göstərir. Komplektləşdirmə şurası cari komplektləşdirmə, tematik-tipoloji komplektləşdirmə planlarının, operativ və perspektiv komplektləşdirmə planlarının, nəşriyyatlarının tematik planları üzrə ədəbiyyatın seçilib sifariş verilməsi məsələlərini və s. vaxtaşırı müzakirə edir, lazımi tövsiyələr verir. Şura eyni zamanda MKS-in hər birinin (cəmi 8-dir) vahid fondunun komplektləşdirilməsi problemləri ilə də məşğul olur və bu işə metodik rəhbərlik edir. Məsələn, Komplektəşdirmə şurasının təşəbbüsü.və təklifi ilə 1986-1988-ci illərdə "MKS-in kitab fondunun tərkibi və istifadə olunması səmərəliliyinin öyrənilməsi" kimi mühüm tədbir həyata keçirilmişdir. Bunun nəticəsində bir sıra kitabxanaların fondunda tamamilə istifadə olunmayan yüzlərlə nüsxə kitab aşkar edilmişdir ki, həmin nəşrlərə digər kitabxanalarda böyük ehtiyac vardı. Beləliklə, üzə çıxarılmış həmin kitablar kitabxanalar arasında bölüşdürülmüşdür. Onlardan 180 nüsxə Keşlə maşınqayırma

zavod kitabxanasına, 90 nüsxə Volodarski adına zavod kitabxanasına, 100 nüsxə Bakı Kamvol-Mahud Kombinatının kitabxanasına və başqalarına verilmişdir. Komplektləşdirmə Şurası bu işi müntəzəm davam etdirməklə kitabxanaların fondlarını lazımsız ədəbiyyatdan təmizləyir, fondda olmayan ədəbiyyatı müəyyən edib üzə çıxarır və onların yenidən komplektləşdirilməsini təmin edirdi.

Respublika Həmkarlar İttifaqı kitabxanalarının komplektləşdirilməsi səmərəliliyini yüksəltmək məqsədilə şura üzvləri vaxtaşırı MKS-in mərkəzi kitabxanalarında olur, komplektləşdirmə məsələləri ilə maraqlanır və tövsiyələr verirdilər. Yoxlamaların nəticələri həmin kitabxanaların iştirakı ilə şuranın iclaslarında geniş müzakirə olunurdu.

Bütün bunlarla yanaşı, Respublika Həmkarlar İttifaqı kitabxanalarının fondlarının komplektləşdirilməsi, ümumiyyətlə, kitabxanaların bütün işi dövrün tələblərindən, oxucuların artan tələbatından hələ çox geri qalırdı. Kitabxana fondlarının formalaşdırılmasında kitabxana işçilərinin özlərindən asılı olmayan bir sıra çatışmazlıqlar da mövcuddur. Belə ki, kitabxana fondlarının komplektləşdirilməsi tam surətdə nəşriyyatlardan və kitab ticarəti təşkilatlarından asılıdır. Kitabxanalar təcrübi surətdə onların işinə təsir edə bilmirlər. Buna görə də komplektləşdirmə metodlarının təkmilləşdirilməsində, elektron hesablama maşınlarından, reyter kartotekalarından, tematik-tipoloji planlarından istifadə edilməsinə baxmayaraq kitabxana işçiləri hələ də komplektləşdirmə işini tam surətdə idarə etmək imkanına malik deyildirlər.

Hazırda elə kitabxana tapmaq mümkün deyil ki, o özü üçün komplektləşdirmənin tematik-tipoloji planını tərtib etməsin. Lakin əksər hallarda belə planlar heç bir təcrübi əhəmiyyət kəsb etmir. Məlumdur ki, tematik-tipoloji plan ərazidə yerləşən kitabxanaların fondlarının əlaqələndirilmiş şəkildə formalaşdırılması üçün zəruridir. Lakin bu proses çox ləng gedir, əksər hallarda sənaye müəssisələrinə xidmət edən həmkarlar ittifaqı kitabxanaları təcrid olunmuş şəkildə fəaliyyət göstərir və nəticədə ədəbiyyatın alınmasında təkrarçılığa yol verilir.

Qeyd edək ki, əgər fond düzgün təşkil olunmayıbsa, hətta ideal surətdə komplektləşdirilmiş kitabxana fondundan belə səmərəli istifadə etmək mümkün deyildir. Neft və kimya, qaz sənayesi işçilərinə, təsərrüfatın müxtəlif sahələrində çalışan fəhlələrə, qulluqçulara və digər mütəxəssislərə xidmət edən həmkarlar ittifaqı kitabxanalarının əsaslı surətdə təmir edilməməsi, qarışıq binalarda yerləşdirilməsi fondun təşkilində çətinliklər törədir, ədəbiyyatın düzülüşünü xeyli mürəkkəbləşdirir. Bəhs etdiyimiz dövrdə bəzi kitabxana binaları heç də həmişə fondun optimal qaydada yerləşdirilməsinə imkan vermirdi. Çünki fond



artdıqca bu özünü daha qabarıq şəkildə göstərir. Lakin kitabxanaçılar mövcud bina şəraitindən səmərəli istifadə edə bilmirdilər. Belə ki, fondda olduqca çoxlu sayda köhnəlmiş ədəbiyyat saxlanılır, fond vaxtında təmizlənmir, nadir hallarda istifadə olunmayan ədəbiyyat depozitar mühafizəyə verilir. Respublika Həmkarlar İttifaqı kitabxanalarının digər elmi-texniki kitabxanalarla əlaqəsi demək olar ki, yoxdur, kitabxanalararası abonement operativ işləmir. Bu isə onu göstərir ki, fondda olmayan ədəbiyyat üzrə oxucuların sorğuları təmin edilmir.

Bu kitabxanaların çoxunun fondunda xeyli sayda dublet (təkrar) ədəbiyyata təsadüf edilir və ədəbiyyatın seçilməsi işi zəif aparılır.

Bir sözlə, kitabxana fondunun formalaşdırılması dedikdə qarşılıqlı fəaliyyət göstərən amil və proseslərin məcmusu nəzərdə tutulur.

Unutmaq lazım deyil ki, kitabxana fondunun düzgün, planlı, profilə uyğun, bir sözlə təlimata uyğun formalaşdırılması bütün oxucu kontingentinin sorğu və tələbatını tam ödəməyə imkan yaradır.

XX əsrin 80-ci illərində – elmi-texniki tərəqqinin sürətlə inkişaf etdiyi bir dövrdə Azərbaycan əhalisinin təsərrüfatın bütün sahələrinə dair yeniliklərə, elmi kəşflərə və bunları özündə əks etdirən informasiya mənbələrinə, xüsusilə kitablara marağı gündən-günə artırdı. Bu isə kitabxanaların qarşısında duran vəzifələri daha da genişləndirirdi.

Bu dövrdə kitabxanalar elmin nailiyyətlərini, qabaqcıl təcrübənin yayılmasında fəal iştirak edir, mütəxəssislərə fəal surətdə elmi-texniki məlumatları çatdırır, yüksək dərəcədə inkişaf etmiş və formalaşmış insanlar yetişdirmək kimi vəzifələri yerinə yetirməyə çalışırdılar.

Təsadüfi deyildir ki, dövlət elm və texnikanın nailiyyətlərini, qabaqcıl təcrübəni yaymaq, xalq təsərrüfatı mütəxəssislərini operativ surətdə elmi-texniki məlumatla təmin etmək, oxucuların təhsil səviyyəsini, ixtisas marağını və yaş xüsusiyyətlərini nəzərə alaraq, onlara fərdi yardım göstərmək sahəsində elmi, texniki və kütləvi kitabxanaların fəaliyyətini genişləndirirdi.

Bu illərdə respublikamızda başa çatdırılmış olan mərkəzləşdirilmiş kitabxana sisteminin ən mühüm xüsusiyyətlərindən biri bütün sahələrdə iş keyfiyyətinin və onun səmərəliliyinin yüksəldilməsi üçün zəruri şəraitin yaradılması lazım idi.

Həmkarlar İttifaqı MKS-in işçiləri arasında aparılan rasional iş bölgüsü sənayenin müxtəlif sahələrində çalışan oxucuların peşə sorğularının lazımi dərəcədə ödənilməsi üçün əlverişli şərait yaratmışdı.

Məlumdur ki, kənd yerlərində mütəxəssis oxucuların əsas kateqoriyasını kənd təsərrüfatı istehsalatı işçiləri təşkil edir. Şəhərlərdə isə sənayenin müxtəlif sahələrində çalışan müxtəlif oxucu qrupları və

texniki peşə növləri mövcuddur. Bu cür oxucu qruplarına bir qayda olaraq işlədiyi müəssisənin kitabxanası xidmət göstərir ki, bunlar da həmkarlar ittifaqının uyğun komitələrinin tabeliyində olub, MKS daxilində birləşmiş halda, filial formasında fəaliyyət göstərirlər.

Neft və kimya, qaz sənayesi işçilərinin peşə mütaliəsi istehsalın tələbləri və əməyin məzmunu ilə müəyyən olunan sorğu mürəkkəbliyi və peşə müxtəlifliyi ilə xarakterizə olunur. Onlara səmərəli kitabxana və məlumat informasiya xidmətini təşkil etmək üçün hər şeydən əvvəl bir mütəxəssis, yeni elmi nailiyyətlər haqqında ədəbiyyatın oxucusu və məlumat tələbatçısı kimi xüsusiyyətləri nəzərə alınırdı.

Elmi-texniki inqilabın tələbləri nöqteyi-nəzərindən təsərrüfat işçiləri dedikdə elmin və sənayenin müxtəlif sahələri üzrə müasir bilikləri dərindən mənimsəyən mütəxəssis və geniş profilli rəhbər kadrlar nəzərdə tutulur. Hər bir müəssisədə elmi-texniki tərəqqinin məzmunu və inkişaf tempi sənaye müəssisələrinin və elmi-tədqiqat institutlarının əməkdaşlarının səmərəli fəaliyyətindən asılıdır. Buna görə də hazırda sənaye müəssisələri mütəxəssislərinin peşə ustalığının artırılmasına ciddi fikir verilir. Müasir şərait, ölkənin iqtisadi vəziyyəti, beynəlxalq problemlər, təsərrüfat mütəxəssislərindən ixtisas bilikləri ilə yanaşı müasir təbiətşünaslığın və texnikanın nəzəri əsaslarını dərindən mənimsəməyi, elmin və istehsalın fəlsəfi, sosial-iqtisadi və psixoloji-pedaqoji problemlərindən baş açmağı tələb edir.

Müasir tələblərə uyğunlaşmaq üçün sənaye mütəxəssisləri müntəzəm surətdə peşə şəxsi təhsili ilə məşğul olmalıdırlar. Buna görə də onlar müxtəlif məlumat axınını diqqətlə izləməli, elm və texnikanın son nailiyyətləri haqqında materiallarla müntəzəm surətdə tanış olmalı, sənayenin müxtəlif problemlərinə dair ixtisas ədəbiyyatını hərtərəfli öyrənməlidirlər.

Təsərrüfat mütəxəssislərinin peşə şəxsi təhsilinin əsas vasitələrindən biri ixtisas ədəbiyyatını mütaliə etməkdir. Onların peşə mütaliəsinin mövzusu və mövzu istiqaməti şəxsi təhsilin obyektiv tələblərinin təsiri altında formalaşır və bu tələblər əməyin xüsusiyyətləri ilə müəyyən olunur. Qeyd edək ki, sənaye mütəxəssislərinin istehsalat tələbləri peşə mütaliəsi ilə əlaqədar olaraq meydana gəlir və bu zaman onlar kitabxanalara müraciət edirlər.

Mütəxəssis oxucuların xarakterik xüsusiyyətlərindən biri mütaliəyə çoxməqsədli yanaşmaqdır. Həmkarlar ittifaqı kitabxanalarının çoxillik təcrübəsi göstərir ki, mütəxəssis oxucular kitabxanaya artıq konkret istehsalat məsələləri üzrə arayışlar almaq, istehsalat tapşırığının dəyişilməsi, yeni işə başlaması və mühazirəyə hazırlıqla əlaqədar biliklərini tamamlamaq, sənayenin müəyyən bir sahəsi və digər bilik sahələri üzrə yeni elmi və təcrübi nailiyyətlər haqqında məlumatlar almaq məqsədilə müraciət edirlər.



Oxucuların şəxsi peşə təhsili üçün zəruri olan ədəbiyyat dairəsini müasir sənaye və istehsalata dair nəşrlər, ictimai-siyasi və iqtisadi kitablar, məlumat nəşrləri, dərsliklər, dövri nəşrlər, sənaye materiallarının xüsusi növləri, biblioqrafik vəsaitlər və s. təşkil edir.

Mütəxəssis oxucular həm öz sahələri və həm də ixtisasa dair geniş elmi profildə buraxılmış jurnalları da mütaliə edirdilər. Onlar həmkarlar ittifaqı kitabxanaları tərəfindən alınan yüzlərlə qəzet və jurnallardan, o cümlədən "Azərbaycan kimya jurnalı", "Neft və qaz sənayesi jurnalı", Moskva nəşriyyatlarında buraxılan "Агрохимия", "Журнал общей химии", "Журнал прикладной химии", "Химия и химическая технология", "Химическое и нефтяное промышленность", "Химия и жизнь", "Нефтяное и газовое промышленность" və s. kimi jurnallardan istifadə edirdilər. Oxucular sənayenin müxtəlif problemlərinə dair istehsalat xarakterli ədəbiyyatla yanaşı, elmi-texniki tərəqqinin inkişafının müasir istiqamətləri, dövlətin iqtisadi siyasət problemləri, konkret iqtisadiyyat, sosial inkişafın əsas istiqamətləri, mütəxəssis əməyinin xüsusiyyətləri və s. bu kimi geniş və sahəvi diapazonlu elmi-kütləvi ədəbiyyata da dərin maraq göstərirdilər.

Qeyd olunduğu kimi, oxucuların mütaliəsinin məzmunu və məqsəd istiqaməti onların əmək fəaliyyətinin konkret məzmunundan və xarakterindən asılıdır. Buna görə də həmkarlar ittifaqı kitabxanalarında onlara xidmət göstərilərkən oxucular yerinə yetirdiyi funksional-peşə vəzifələri əlamətlərinə görə diferensiallaşdırılır. Xətai adına respublika mədəniyyət və texnika sarayının ittifaqlararası MKS-də, Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı sistemində olan digər mərkəzi kitabxanalarında mütəxəssislər aşağıdakı oxucu qruplarına ayrılmışdır:

- istehsalat kollektivlərinin rəhbərləri və baş mütəxəssislər;
- idarəetmənin orta və ilkin mərhələlərinin rəhbərləri (ustalar, sahə rəisləri, sex rəisləri və s.);
- müəssisənin texniki, iqtisadi və digər xidmət mütəxəssisləri (konstruktorlar, texnoloqlar, iqtisadçılar və s.);
- səmərələşdiricilər və ixtiraçılar.

Bəhs etdiyimiz dövrdə neft və qaz sənayesi mütəxəssislərini əhatə edən həmkarlar ittifaqının bütün MKS-ləri oxucuların yuxarıda göstərilən qaydada diferensiallaşdırılmasına ciddi surətdə riayət edirlər.

Məlum olduğu kimi, neft, qaz və kimya sənayesi işçiləri həmkarlar ittifaqı kitabxanaları Bakının sırf sənaye rayonlarında yerləşir və

müxtəlif elmi-tədqiqat laboratoriyalarına, neft və qaz kəmərlərinin korroziyadan mühafizə kontoruna, layihə-konstruktor texnologiya institutuna, Bakı Neftayırma Zavoduna, Neft Maşınqayırma Zavoduna və s. bu kimi onlarla müəssisəyə xidmət edir. Bu bir daha göstərir ki, bu kitabxanaların əsas oxucu qruplarının tərkibini neft, qaz və kimya sahəsinin mütəxəssisləri təşkil edir. Ona görə də həmin kitabxanalar oxucuların diferensiallaşdırılmasına ciddi fikir verməlidirlər.

Qeyd edək ki, sənaye mütəxəssislərinin hər bir qrupu peşə xüsusiyyətləri və istehsalat maraqlarına görə ümumilik təşkil edir və onların məlumat tələbləri bir-birinə uyğun gəlir. Onlar üçün zəruri olan həmin məlumatlar ilkin və ya təkrar məlumat mənbələrində: kitabda, məqalədə, patentdə, elmi hesabatda, biblioqrafik təsvirdə və s. verilə bilər. Lakin bir sıra obyektiv səbəblər (həmin bilik sahəsi üzrə məlumat axınının çox olması) mütəxəssis tərəfindən zəruri materialların alınmasına çətinlik törədir. Buna görə də neft və kimya sənayesi mütəxəssislərinin təcrübi fəaliyyətində həmin sahə üzrə məlumat orqanları tərəfindən buraxılan nəşrlər daha böyük kömək göstərir. Bu cür nəşrlərə biblioqrafik vəsaitlər, referativ jurnallar, icmallar və s. daxildir ki, burada da həmin faktlar ətraflı surətdə təhlil edilir. Buna görə də həmkarlar ittifaqı kitabxanaları həmin nəşrlərin alınmasına ciddi fikir verməlidirlər.

Məlum olduğu kimi, neft və qaz sənayesi işçilərinin birinci qrupu hesab olunan istehsalat kollektivinin rəhbərləri və baş mütəxəssislər müəssisənin inkişafının əsas aparıcı qüvvəsi hesab olunurlar. Belə ki, onlar işlədiyi sahə üzrə zəruri bilik və məlumatlara malik olmalıdırlar. Mütəxəssislərin bu kateqoriyası vəzifə funksiyalarına və yerinə yetirdiyi məsələlərin miqyasına görə xarakterizə olunurlar. Bir sözlə, bunlara verilən materiallar dəqiq, aktual, konkret və həcminə görə qısa olmalıdır. Həmin materiallar həll olunan problemin inkişaf istiqamətlərini, idarəetmə məsələlərini, həmçinin statistik məlumatları, elmi-tədqiqatların nəticələrini və sairəni əhatə etməlidir.

Sənaye mütəxəssislərinin bu kateqoriyası üçün mühüm məlumat mənbəyi həmin elm və istehsalat sahəsi üzrə ən zəruri nailiyyətlər haqqında illik məruzələr, xüsusi hazırlanmış məlumat sənədləri, icmallar və arayışlar təşkil edir.

Rəhbər işçilərin orta təbəqəsi (buruq ustaları, sex rəisləri, sahə rəisləri və s.) cari planlaşdırma, müxtəlif texnoloji proseslərin həlli, təşkilati-texniki tədbirlər və s. ilə məşğul olur. İstehsalat kollektivlərinin rəhbərlərindən fərqli olaraq neft və kimya sənayesi mütəxəssislərinin bu kateqoriyasının həmkarlar ittifaqlarının MKS-ləri ümumiləşdirilmiş elmi-nəzəri materiallarla deyil, texniki proseslərin düzgün tətbiq edilməsinə kömək edən konkret materiallarla təmin edir.



Neft və kimya sənayesi həmkarlar ittifaqının kitabxanaları rəhbər işçilərin istər birinci və istərsə də ikinci kateqoriyasının zəruri materiallarla təmin olunmasına və çoxsahəli sorğularının ödənilməsinə xüsusi qayğı ilə yanaşır və müxtəlif kütləvi təbliğat formaları vasitəsilə onların istehsalat təcrübəsinin təkmilləşdirilməsinə kömək göstərirlər.

## ƏDƏBİYYAT


*1. Respublika Həmkarlar İttifaqı kitabxanalarının metodiki mərkəzinin 1986-cı ilin statistik hesabatı.*

*2. İ.M.Qubkin adına Respublika Həmkarlar İttifaqının Baza kitabxanasının 1985-1990-cı il hesabatları.*

*3. İliç adına Mədəniyyət və texnika sarayının ittifaqlararası MKS-nin 1985-1990-cı illər hesabatları.*

*4. S.M.Kirov adına Mədəniyyət və texnika sarayının mərkəzi kitabxanasının 1985-1990-cı illərin hesabatları.*

*5. M.Əzizbəyov adına mədəniyyət və texnika sarayının mərkəzi kitabxanasının 1986-1990-cı illərin hesabatları.*

*6. Xətai adına Respublika Həmkarlar İttifaqı mədəniyyət və texnika sarayı kitabxanasının 1986-1990-cı il hesabatları.*

*7. Azərbaycan Respublikası Həmkarlar İttifaqının 1986-1990-cı illərin statistik hesabatları.*


***Таджеддин Кулиев***

## ПРОФСОЮЗНЫЕ БИБЛИОТЕКИ АЗЕРБАЙДЖАНА В 1986-1990 ГОДЫ


***Р Е З Ю М Е***

*Статья посвящена деятельности Республиканских профсоюзных библиотек в 1986-1990 г.*

*В этой статье широко освещаются вопросы совершенствования библиотечного дела в период создания централизованной библиотечной системы. В особенности уделяется внимание комплектованию библиотечного фонда, обработке, систематизации, каталогизации литературы, обслуживанию читателей и методической деятельности. Статья содержит много фактических данных.*

**Rasim KAZIMOV**
*Pedaqoji elmlər namizədi, dosent*

# KİTABXANA MARKETİNQİ

Marketinq inqilis dilində «market» - bazar sozündən əmələ gəlib. Marketinq kommersiya və bűtővlűkdə təsərrűfat məsələlərini həll etmək űçün bazar sferasında baş verən proseslərin əsaslı surətdə mükəmməl uçotunu, tədqiqini və planlaşdırılmasını nəzərdə tutan műəssisənin (firmanın, şirkətin və s.) idarə olunması sistemidir.

«Marketinqin məqsədi istehsalı ictimai istehlaka, tələbata, bazarın tələblərinə uyğunlaşdırmaqdan, bəzərın őyrənilməsi, satışın intensivləşdirilməsi üzrə təşkilati-texniki tədbirlərin işlənib hazırlanmasını təmin etməkdən ibarətdir».[1]

Məşhur ABS marketoloqu, professor Filin Kotlerin göstərdiyi kimi: «Marketinq - mübadilə vasitəsilə ehtiyacların və tələbatın ödənilməsinə yönəldilmiş insan fəaliyyəti növüdür».[2]

Beləliklə, marketinq fəaliyyəti bir tərəfdən cəmiyyətdə mövcűd ehtiyacların, tələbat və tələblərin məzmunu, strukturu və dinamikasının tətqiqi və müəyyənləşdirilməsi, digər tərəfdən isə həmin ehtiyac, tələbat və tələblərin ödənilməsi məqsədilə müvafiq əmtəələrin hazırlanması və onların sövdələşmə əsasında bazarda kommersifa mübadiləsinin təşkili deməkdir.

Məlum olduğu kimi, müasir dövrdə və xüsusən bazar iqtisadiyyatı şəraitində cəmiyyətin ehtiyaclar, tələbatlar və tələblər sistemində biliklərə, sənədlərə və informasiyaya olan tələbat və tələbləri xüsusi yer tutur.

Elm və texnikanın inkişafı, istehsalın intensivləşdirilməsi, müasir texnologiyanın tətbiqinin genişlənməsi, kompüterləşmənin cəmiyyətin bütün sahələrinə nüfuz etməsi, qlobal kompüter şəbəkəsi İNTERNET və s. texniki və texnoloji proseslər, eləcə də bütün dünyada sənəd və informasiya axının sürətlə genişlənməsi, cəmiyyətdə olduqca mürəkkəb, keyfiyyət baxımından yeni kitabxana-imnformasiya ehtiyacları formalaşdırır.

[1] *Feyzullabəyli İ.S. Biznes: bazar, ticarət, marketinq, plan – nə nədir.- B.: Azərnəşr,1995.-S.100*
[2] *Kotler F. Marketinqin əsasları.-B.:Erkün,1993.-S.10.*



Marketinq fəaliyyətinin ümumi prinsiplərinə əsaslanaraq kitabxana marketinqinin mahiyyətini belə izah etmək olar.

Kitabxana marketinqi cəmiyyətdə bilik, sənəd və informasiya ehtiyacları, tələbat və tələblərinin ödənilməsinə yönəlmiş əmtəə xassəli ortimal kitabxana-informasiya xidmətlərini formalaşdırıb, onların informasiya bazarında kommersiya mübadiləsini təşkil edən kitabxana fəaliyyətidir.

Başqa sözlə desək, kitabxana marketinqi bazar iqtisadiyyatı şəraitində cəmiyyətdə formalaşan informasiya bazarına əmtəə xassələri daşıyan xidmət növləri çıxararaq informasiya istehlaksıları ilə kommersiya mübadiləsini təşkil etməklə kitabxanaya gəlir, mənfəət gətirən iqtisadi fəaliyyətdir.

Marketinq fəaliyyəti ilə məşqul olan hər bir kitabxanada ilk növbədə bu fəaliyyətin əsas prinsipləri, sosial funksiyaları, hansı məqsədlərlə həyata keçirilməsi, xidmət dairəsi, müvafiq informasiya bazarında kitabxana informasiya ehtiyacları və tələblərinin cari və perspektiv inkişaf dinamikasına uyğun konkret vəzifələri müəyyənləşdirilməlidir.

Kitabxanaların marketinq fəaliyyətini mühüm istiqamədini marketinq tədqiqatları təşkil edir.

Marketin tədqiqatlarında kitabxananın fəaliyyət dairəsinə aid olan mühitdə demokrafik, təbii, iqtisadi, elmi-texniki, sosial-mədəni həyatın və informasiya ehtiyatlarının təhlili verilir.

Tədqiqat prosesində birinci növbədə marketinq xidməti dairəsində sosial-iqtisadi və mədəni mühitlə əlaqədar informasiya istehlakçılarının tələbat və tələblərinin öyrənilməsi, cari və perspektiv sorğularının aşkar edilməsi nəzərdə tutulmalıdır. Eyni zamanda marketinq mühitində fəaliyyət göstərən digər kitabxana informasiya müəssisələri və onların sənəd informasiya potensialının sistemli təhlili də marketinq tədqiqatlarının mühüm tərkib hissəsini təşkil etməlidir. Kitabxanaların marketinq tədqiqatlarında əldə edilmiş məlumatlar marketinq fəaliyyətinin formalaşmasında nəzəri baza funksiyasını yerinə yetirərək, eyni zamanda informasiya bazarının seqmentləşdirilməsində mühüm rol oynayır.

Kitabxanaların marketinq fəaliyyətini başlanğıc mərhələsində həyata keçirilən tədqiqatlar informasiyabazarına dair məlumat bankının yaradılması ilə nəticələnməlidir. Bu bank özündə fərdi və kollektiv in-

formasiya istehlakçıları, onların cari və perspektiv kitabxana informasiya ehtiyacları və sorğuları, marketinq xidmətinin növləri və modelləri, forma və üsulları haqqında məlumatları əks etdirməlidir.

Kitabxanalarda marketinq fəaliyyətinin ilk mərhələsində aparılan tədqiqatlar sonralar da davam etdirilməli, marketinq xidmətlərinin səmərəliliyinin və nəticələrinin təhlili və ümumiləşdirilməsinə yönəlməlidir. Sonrakı mərhələlərdə aparılan tədqiqatların nəticələri kitabxanalarda marketinq fəaliyyətinin optimallaşdırılması və daha da inkişaf etdirilməsində mühüm rol oynayabilər.

Kitabxanalarda marketinq xidmətləri işlənib hazırlanarkən nəzərə alınmalıdır ki, bu xidmətlər bütün informasiya istehlakçılarının eyni dərəcədə təmin edə bilməz, çünki müasir dövrdə informasiya tələbatçıları və istehlakçıları hətdən artıq çox, müxtəlif və bir-birindən fərqlidirlər. Odur ki, marketinq xidmətləri işlənib hazırlanarkən kitabxanalar informasiya bazarının bütövlükdə deyil, onun ayrı-ayrı seqmentlərinin əhatə edilməsinə daha çox üstünlük verməlidir. Bu iqtisadi siyasət daha çox marketinq fəaliyyətinin ilkin, başlanğıc mərhələsində səmərəli ola bilər. Bunu nəzərə alan kitabxanalar özləri üçün daha səmərəli və keyfiyyətli xidmət göstərilməsi mümkün olan bazar seqmentləri seçməlidir.

Kitabxanalarda marketinq xidmətləri üç əsas istiqamədə işlənib həyata keçirilə bilir.

1. Kütləvi marketinq xidmətləri.

Kütləvi marketinq dedikdə eyni bir xidmət növünün bütün tələbatçılar üçün təşkil edilməsi, onun geniş oxucu kütlələrinə şamil edilməsi nəzərdə tutulur. Belə marketinq xidmətlərinə kitabxanalararası abonement, ailələrə kitabxana xidməti, telefonla və faksla sifarişlərin qəbulu, sənədləri tərcüməsi, çoxaldılması, bərpası, cilodlənməsi müxtəlif kütləvi tədbirlərin, o cümlədən kitab auksionlarının, dərnəklərin, kitab lotoreyaları və kitab bayramlarının təşkili daxil ola bilər.

Kütləvi marketinq xidmətləri marketinq xərclərinin azalmasını, pul vəsaitinin qənaətlə istifadə edilməsi, eyni zamanda marketinq xidmətlərinin ucuzlaşdırılması və xidmət bazarının genişlənməsi üçün əlverişli şərait yaradır.

2. Fərdi marketinq xidmətləri.

Fərdi marketinq xidmətləri dedikdə, hər bir informasiya istehlakçısının konkret ehtiyacları və sorğularına uyğunlaşdırılmış kompleks xidmət nəzərdə tutulur.

Fərdi marketinq tədbiqi oxuculara kitabxana informasiya xidmətinin rəngarəngliyinə, informasiya bazarına təqdim edilən xidmətlərin kəmiyyət göstəricilərinin artmasına müsbət təsir göstərir.



Təbliğat xarakteri daşıyan reklamlar informasiya reklamlarına nisbətən daha geniş dərin və əhatəli olub kitabxana marketinqi üzrə ictimaiyyətdə müsbət rəyin formalaşmasına xidmət edir. Bu məqsədlə elmi məqalələr, əyani vasitələr hazırlana bilər, radio, televiziya və digər kütləvi informasiya vasitələrində marketinq xidmətlərin tərkibi, məqsəd və vəzifələri, tətbiq üsulları ətraflı şərh edilə bilər.

Marketinq fəaliyyətinin uğurlu həyata keçirilməsi xeyli dərəcədə onun elmi və iqtisadi baxımdan idarə olunması məsələlərindən asılıdır.

Marketinq fəaliyyətinin idarə olunması anlayışına cari və strateji planlaşdırma, büdcə və smetanın hazırlanması, marketinq nəzarəti və təftişi, marketinqlə məşğul olan müəssisənin struktur quruluşu və ştat cədvəlinin müəyyənləşdirilməsi və s. məsələlər daxildir.

Marketinqlə məşğul olan kitabxanalarıncari iş planlarında qarşıdakı ildə görüləcək işlərin məqsəd və vəzifələri, növləri və mühüm istiqamətləri, həyata keçirilməsi üsulları və s. məsələlər öz əksini tapır.

Strateji planlaşdırma dedikdə marketinq prinsipi tətbiq edilən kitabxananın inkişaf proqramı nəzərdə tutulur. Bu proqram bazar mühütinin sistemli təhlili, tələbat və tələblərin proqnozlaşdırılması, kitabxananın intellektual və iqtisadi potensialının müasir vəziyyəti və inkişaf meyllərinin sistemli təhlili nəticəsində yaranır.

Marketinq büdcəsi informasiya bazarında nəzərdə tutulmuş satış və mənfəəti təmin edən xərcləri müəyyənləşdirir. Kitabxanalarda marketinq xərcləri müəyyənləşdirilərkən aşağıdakı sualların dəqiq cavabları olmalıdır:

-Hansı işlər görüləcək?

-Hansı müddətdə görüləcək?

-İcraçılar kimdir?

-Nə qədər xərc çəkiləcək?

Daha sonra kitabxanalardan marketinq fəaliyyətindən əldə ediləcək mənfəət göstəriciləri planlaşdırılır, onun dəqiq hesablanması nəticəsində ümumi mənfəətin proqnozu verilir.

Marketinq nəzərəti kitabxanalarda marketin planları və proqramlarının həyata keçirilməsi prosesində qarşıya çıxan çətinlikləri, xüsusən iqtisadi problemləri vaxtında müəyyənləşdirib həll etmək vəzifələri həyata keçirir.

Marketinq fəaliyyətində əsasən üç tip nəzarət mövcuddur:

1.İllik planları və digər cari plan və proqramların yerinə yetirilməsinə nəzarət;

2.Mənfəət göstəricilərinə nəzarət;

3.Strateji nəzarət.

Birinci nəzarət tipinin məqsədi marketinq planındanəzərdə tutulmuş mühüm nəticələrin əldə edilməsini izləyib təmin etməkdən ibarətdir. Bu məqsədlə kitabxanaların marketinq imkanları, marketinq xərcləri ilə pullu xidmətlərin nisbəti, istehlakçıların və ümumiyyətlə oxucuların marketinq xidmətlərinə olan münasibəti daim nəzarət və təhlil obyekti olmalıdır.

İkinci nəzarət tipinin ən mühüm funksiyası kitabxana marketinqində nədən gəlir və mənfəət əldəedildiyini, hansı işlərin iqtisadi baxımdan səmərəsiz olduğunu müəyyənləşdirməkdən ibarətdir.

Üçüncü nəzarət tipi əsasın təftiş xarakteri daşıyaraq, məqsədi kitabxananın marketinq fəaliyyətini bir neçə il ərzində sistemli təhlil etmək yolu ilə onun potensial imkanlarını aşkara çıxarıb optimallaşdırılmasının strateji proqramını hazırlamaqdır.

Marketinq fəaliyyəti ilə məşğul olan kitabxana və ya kitabxana informasiya birliklərində bu məqsədlə kiçik müəssisə və ya xüsusi marketinq şöbələri yaradılır.

MKS-lərin və ya iri elmi elmi kitabxanalarının nəzdində yaradılan marketinq şöbələrinin aşağıdakı qruplardan ibarət struktur quruluşa malik ola bilər.

1.Marketinq tədqiqatları qrupu.

2.Marketinq xidmətlərinin hazırlanması və servis qrupu.

3.Satış qrupu.

4.Reklam və təbliğat qrupu.

5.Menecerlər qrupu.

Şübhəsiz ki, hər bir kitabxanada marketinq bölməsinin quruluşu və tərkibi müvafiq informasiya bazarının xüsusiyyətləri, seqmentləri, eləcə də oxucuların müvafiq tələbləri və kitabxananın maddi-texniki imkanlarına uyğun şəkildə formalaşmalıdır.

***Расим Кязимов***

**БИБЛИОТЕЧНЫЙ МАРКЕТИНГ**

***Р Е З Ю М Е***

***В статье рассмотрены вопросы организации маркетинговой деятельности в библиотеках. Особое внимание уделено вопросам маркетинговых исследований и обслуживания читателей.***

***Əli RÜSTƏMOV***
*Pedaqoji elmlər namizədi, dosent*

***Nuriyə MUSTAFAYEVA***
*Kompüter mərkəzinin mühəndisi*

# ELEKTRON KİTABXANA PROBLEMİ

## *1-ci məqalə*

## Elektron kitabxanalar nədir?

XXI əsrin informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətləri içərisində müxtəlif növlü, tipli və məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilmsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi vacib yer tutur. Bütün bu istiqamətlər kompleks şəkildə elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-informasiya təminatının təşkilində ifadə olunur. Ənənəvi kitabxanalar (yəni mövcud kitabxanalar) kitabxanalararası abonement, ölkədaxili və beynəlxalq kitab mübadiləsi və bir neçə fərdi xidmət formaları baxımından həmişə açıq və şəbəkə sənəd-informasiya sistemi olmuşdur. Elektron kitabxanalar isə müxtəlif sosial qurumlar, o cümlədən ənənəvi kitabxanalar tərəfindən yaradılan və şəbəkə xidməti imkanlarını xeyli dərəcədə genişləndirən superaçıq informasiya sistemləridir. Onlar tarixən mövcud olan şəbəkə kitabxana-informasiya xidmətinin yeni metod, vasitə və texnologiyalar baxımından məntiqi davamıdır.

Müasir dünya elmi ədəbiyyatında «Elektron kitabxana» anlayışına sinonim kimi «virtual kitabxana», «rəqəm kitabxanası», «şəbəkə kitabxanası», «divarsız kitabxana», «~~hibrid kitabxana~~» anlayışları işlədilir. Burada, bizcə, etiraz doğuran «hibrid kitabxana» anlayışıdır.

Məlum olduğu kimi, hibrid nəyinsə nəyə calaq edilməsidir. Bu anlayışı uyduranlar calaq kimi ənənəvi kitabxananı götürürlər. Guya ənənəvi kitabxana bir şey, elektron kitabxana isə başqa bir şeydir. Kitabxana işi baxımından ənənəvi kitabxana yalnız informasiya

daşıyıcılarına və emal texnologiyalarına görə elektron kitabxanadan fərqlənir və dünyada müstəqil, ayrıca elektron kitabxana yoxdur. O, ənənəvi kitabxananın bəzi vacib, həll edilməsi çətin olan mühafizə və xidmət funksiyalarını genişləndirən bir bölmədir, yəni kitabxana daxilində kitabxanadır. Onları qəti şəkildə ayırıb, hibrid adlandıranların heç bir elmi dəlilləri yoxdur.

Müasir dövrdə «elektron kitabxana» anlayışının müxtəlif tərifləri bir-birindən əsaslı şəkildə fərqlənmir. Məsələn, elektron informasiyalar sahəsində dünyada məşhur mütəxəssis, prof. V.Arms elektron kitabxanaya belə bir tərif vermişdir [1, s.10]: «Elektron kitabxana rəqəm formasında mühafizə edilən, əlaqədar servisi olan, informasiyanın sistemləşdirilmiş və idarəedilən kolleksiyasıdır». Müəllifin fikrinə görə, bu tərifdə «idarəedilən» sözü əsas anlayışdır; belə ki, məlumatın süni peykdən axını hələ elektron kitabxanadan verilən informasiya deyil; həmin məlumatların müəyyən sistemdə təşkili və idarə edilməsi artıq elektron kitabxanadır; elektron kitabxana çoxlu istifadəçilərin müraciəti üçün müəyyən sistemə, idarəetmə strukturuna və informasiya kolleksiyasına malik olan kitabxanadır.

Digər bir Amerika mütəxəssisi Devid Rayt (D.Raitt) elektron kitabxananı «rəqəm kitabxanası» adlandırır və ona belə bir tərif verir [2, p.27]: «Rəqəm kitabxanaları geniş istifadəçi qruplarının asan və əlverişli istifadəsini təmin etmək məqsədilə sənədlərin seçilməsini, emalını, onlara intellektual müraciəti, sənədlərin interpretasiyasını, şəbəkədə paylanmasını, həmçinin informasiyanın tamlığını və mühafizəsini təmin edən qurumlar və onların peşəkar mütəxəssisləri tərəfindən yaradılan fondlardır».

Göründüyü kimi, konseptual baxımdan hər iki tərif arasında prinsipial fərqlər azdır. Eyni zamanda hər iki tərifdə ənənəvi kitabxanalar üçün xarakterik olan funksiyalar (sənədlərin emalı, sistemləşdirilməsi, mühafizəsi, axtarışı və s.) öz əksini tapmışdır. Burada yalnız metod, üsul və texnologiyalar fərqləndirilə bilər. Sosial və informasiya funksiyaları hər iki kitabxana üçün eynidir.

«Elektron kitabxana» anlayışında «kitabxana» sözü ənənəvi baxımdan şərti məna daşıyır. Belə ki, elektron kitabxanalar nəşriyyatlar, arxivlər, elmi-tədqiqat idarələri, iri biznes qurumları və əlbəttə, mövcud (ənənəvi) kitabxanalar tərəfindən yaradılır [1, s.11]. Böyüklüyündən və kiçikliyindən asılı olmayaraq onların ümumi cəhətləri aşağıdakılardır:



1) elektron kitabxanalar korporativ, milli, transmilli və qlobal şəbəkələr üçün mövcud olan aparat və proqram vasitələrinə, mübadilə protokollarına malik olurlar;

2) sənədlər strukturlaşmış formaya və axtarış prosedurlarına malik olur;

3) əlaqədar təşkilatın serverində yerləşdirilir və şəbəkə ilə uzaq məsafədən istifadə olunur;

4) Web texnologiyalar əsasında və onlayn rejimində fəaliyyət göstərirlər.

Hazırda coğrafi əhatəsi etibarilə kontinental (məs.: ümumavropa), milli (ölkə) və yerli (korporativ) elektron kitabxanalar mövcuddur. Bunlardan başqa predmet sahələri (məs.: humanitar və texniki elmlər), nəşr tipləri (məs.: dövri nəşrlər, nadir kitablar, təsvirlər və s.) və problem istiqamətləri (məs.: itellektual mülkiyyət, rəqəm texnologiyaları) üzrə elektron kitabxana layihələri və real fəaliyyət göstərən elektron kitabxanalar vardır [3].

Elektron kitabxanaların yaradılmasının bir neçə obyektiv səbəbi vardır:

1) istifadəçi müəyyən kitabxanaya gəlmədən, istənilən coğrafi ərazidə yerləşməsindən asılı olmayaraq həmin kitabxananın elektron resurslarından birbaşa istifadə edə bilər;

2) çap əsərlərini istənilən yerdə (evdə, nəqliyyatda və s.) oxumaq daha əlverişli və rahatdır. Lakin onların geniş coğrafi məkanda axtarışı, tapılması və əldə edilməsi xeyli vaxt tələb edir və oxumaq üçün almaq müəyyən kitabxanada qəbul edilmiş xidmət qaydaları ilə bağlıdır. Məsələn, kitabxanaya oxucu kimi üzv olmadan kitab verilmir, yaxud müəyyən müəssisə və ya idarənin kitabxanasından kənar şəxslərin abonement yolu ilə kitab alması çətindir; dövri nəşrlər və təknüsxəli digər növ nəşrlər ümumiyyətlə, evdə istifadə üçün verilmir və s. Son illərdə elektron kitabları və digər növ elektron nəşrləri evdə oxumaq üçün kiçik, çəkicə yüngül portativ (cib) aparatlar və onların xüsusi proqram vasitələri hazırlanmışdır. Bunlardan Peanut Reader, Soft Book Reader, Netlibrary və digər səyyar oxu vasitələrini göstərmək olar [4];

3) ən qiymətli və nadir nüsxəli ədəbiyyatı istifadə etmək üçün onları müəyyən ölkədə mühafizə edən kitabxanaya getmək, ya da mümkün hallarda onun foto və ya kseroşurətin almaq lazım gəlir. Elektron kitabxana oduqda isə bütün bunlara ehtiyac qalmır. Çünki mövcud kitabxanaların elektron resursları (elektron kitabxanaları) ilk növbədə həmin ədəbiyyatı mühafizə edir;

4) elektron kitabxanaların, necə deyərlər, «qapısı» heç vaxt bağlı olmur. Bu yaxınlarda Britaniya Universitetində aparılmış tədqiqatlar göstərmişdir ki, həmin universitetin elektron kitabxanasına müraciət edənlərin 49-50% -i kitabxananın bağlı olduğu müddətdə, iş vaxtından sonra müraciət edən oxuculardır [1, s.14]. Ənənəvi kitabxanalardan fərqli olaraq uzaqlaşdırılmış (elektron) kitabsaxlayıcıda digər oxucuda istifadədə olduğu üçün «əldədir», yaxud fiziki cəhətdən köhnəldiyi üçün «istifadə üçün yararsızdır» cavabı verilən, kataloqda, polkada öz həqiqi yerinə qoyulmadığı üçün tapılıb oxucuya verilə bilməyən, sadəcə olaraq, oğurlanan sənəd ola bilməz. Dünyanın hər hansı kitabxanasından müəyyən sənəd yerli kitabxanadakı kimi asanlıqla tapılıb istifadə edilə bilər. Şübhəsiz, deyilən üstünlüklər o demək deyil ki, elektron kitabxana ənənəvi kitabxanadan daha etibarlıdır. Elektron kitabxanada kompüter sisteminin işi dayana bilər, şəbəkədə rabitə xətti ləng və etibarsız işləyə bilər, virus təsiri ola bilər və s. Lakin ənənəvi kitabxanalarla müqayisədə elektron kitabxana yerləşdiyi coğrafi məkandan asılı olmayaraq istənilən istifadəçi üçün bütün sutka ərzində operativ və açıqdır. Çünki elektron sənədlərin mühafizə olunduğu serverlər (kompüterlər) fasiləsiz işləyir. Bu proses qlobal şəbəkənin bütün provayderləri və qovşaqları üçün də xarakterik haldır;

5) çap əsərlərinin və ümumiyyətlə, onların mühafizə edildiyi kitabxanaların nə özləri, nə də sosial-informasiya funksiyaları elektron kitabxanalardan asılı olmayaraq heç vaxt dəyişməyəcəkdir. İnformasiya daşıyıcıları kimi gil lövhələr, papirusla, sonuncu perqamentlə, perqament kağızla, kağız isə qismən mikroformalarla əvəz edilmişdir. Elektron informasiya vasitələri isə çap əsərləri ilə paralel şəkildə inkişaf edir. Onlar hazırda ümumi sənəd informasiya məhsulunun təqribən 20%-ni təşkil edir; 2000-ci ildə dünyada 315 milyon ton kağız sərf edilmişdir. OCLC kataloqunda 43 milyon adda sənədin biblioqrafik məlumatları vardır. Əgər onların hər birini orta hesabla 300 səhifə hesab etsək 13 milyard çap səhifəsi alınar [4, s.70]. Belə bir vəziyyətdə ənənəvi kitabxananın elektron kitabxana ilə əvəz ediləcəyi barədə bəzilərinin boş xülyaları kimə və nəyə lazımdır. Sənəd-informasiya daşıyıcılarının elektronlaşdırılması, çap əsərlərinin və ənənəvi kitabxanaların yox olması deyil, sadəcə olaraq müntəzəm surətdə inkişaf edən informasiya texnologiyalarının təsiri altında maddi informasiya daşıyıcılarının təkamül prosesidir. Bu təkamül prosesinə ayıq başla, mütəxəssis düşüncəsi ilə yanaşaraq, başa düşməliyik ki, tarixən çap əsərləri heç də həmişə informasiyanın yazılması, kitabxanalara alınması, mühafizəsi və yayılması üçün yeganə vasitə



olmamışdır. İndi də bu proses davam edir. Sadə tarixi paralel gətirmək olar: 150-200 il bundan əvvəl at yeganə nəqliyyat vasitəsi idi. Zaman keçdikcə quru, sonra dəmiryol, daha sonra hava nəqliyyat vasitələri, qoşqu alətləri və mexanizmləri yarandı. Bununla atları məhv etmədilər, sadəcə olaraq, onların üzərinə düşən yük azaldıldı. İnsanlar daha sürətli və ağır yükləri daşıyan vasitələrə malik oldular. Eynilə elektron kitabxanalar mövcud kitabxalar üçün çətin olan proses və əməliyyatları icra etmək üçün yaradılmışdır. Elə informasiyalar vardır ki, onları elektron formada mühafizə etmək daha səmərəlidir. Məsələn, repozitariyalar, hesabatlar, soraq-biblioqrafik nəşrlər, nadir və ən qiymətli əlyazmaları və çap məhsulları və s. Lazım gəldikdə çap əsərini asanlıqla elektron formaya və əksinə, onların hər ikisini mikroformaya və əksinə çevirmək və mühafizə etmək mümkündür. Buna görə də, elektron kitabxana ənənəvi kitabxananın əvəzedicisi deyil, onun mühafizə və xidmət funksiyalarına müasir informasiya texnologiyalarının obyektiv təsiri ilə əlavə edilən yeni funksiyaların daşıyıcısıdır. Bu funksiyaların əksəriyyətinin yerinə yetirilməsi həmişə mütərəqqi kitabxanaşünasların və qabaqcıl kitabxanaların arzusu olmuşdur. Məsələn, kitabxana fondu saxlanan sahələrin qənaətlə istifadəsi, yəni bina probleminin həmişəlik həlli, fəal və geniş maraq kəsb edən ən qiymətli əsərlərin, nadir nüsxələrin etibarlı qorunması, dünyanın istənilən normal kitabxanası və informasiya qurumları ilə operativ informasiya mübadiləsi, yaşadığı ölkədən asılı olmayaraq bütün oxucuların istənilən kitabxanadan sərbəst istifadə etməsi, kitabxanaların elektron informasiya bazarında daha yüksək səviyyədə təmsil olunması və gəlir əldə etməsi və s. Sonuncu göstərilən amilin nə qədər vacib olması hər kəsə aydındır. Bazar iqtisadiyyatının polad qanunu hər bir əmtəə və xidmətin, o cümlədən, informasiya məhsullarının və xidmətlərinin satılması və alınmasıdır. Bu sahədə milyonlarla dollar gəlir götürən dövlət və özəl informasiya qurumları mövcuddur. Məsələn, OCLC korporativ kataloqlaşdırma mərkəzində UNIMARC formatında bir yeni bibilioqrafik təsvirin satış qiyməti 4 dollardır, Rusiya Kitab Palatasında isə 150-200 rubl arasında dəyişir [5]; hələ bu, sənədin biblioqrafik təsvirinin qiymətidir, orta həcmli (150-200 s.) bir ilkin sənədin elektron variantda satış qiyməti 40-60 dollar həddindədir.

6) nəhayət, elektron kitabxanaların yaradılmasının obyektiv səbəblərindən biri də ənənəvi kitabxanaların saxlanmasına qənaət edilməsidir. Bu vaxta kimi elektron kitabxanaların saxlanması xərcləri barədə real məlumatlar yoxdur, lakin bəzi faktlar özlüyündə aydındır.

Ənənəvi kitabxanaların saxlanması xərcləri müntəzəm olaraq artan xətlə gedir. Buraya yeni bina sahəsinin tikilməsi, komplektləşdirilən sənədlərin artımı, yeni-yeni işçi qüvvəsinin cəlb edilməsi, inventarların alınması və s. göstəricilər aid edilə bilər. Məsələn, rus tədqiqatçılarının [6] hesablamasına görə iri elmi kitabxanada fondun 50-60%-ni depozitar mühafizəyə verilməsi lazım gələn sənədlər təşkil edir. Adətən, belə fonldların əksər hissəsi zirzəmilərdə və binaların birinci mərtəbələrində yerləşdirilir. Rusiyada bu fondların kommunal xərci hər $1m^2$ üçün 100 rubldur (±50%). Bu qədər də məsarif nəqliyyat xərcləri (uzaq depozitariyalardan sənədlərin gətirilmə xərcləri); binanın işıqlandırılması, qızdırılması və əmək haqqı təşkil edir. Onlar hesablamışlar ki, sənədllərin fonda yerləşdirilməsi sıxlığı orta hesabla $1m^2$-də 672 sənədə bərabərdir; $1m^2$ tikintinin qiyməti 100 dollar, mövcud depozitar kitabsaxlayıcıların xərcləri isə hər $1m^2$ hesabı ilə ildə 8 dollardır. Tədqiqatçılar hesablamışlar ki, 100 min nüsxə sənədin yalnız saxlanması üçün ildə 10-12 min dollar vəsait tələb olunur və bu xərclər ilbəil artır. Bu faktlar göstərir ki, nəinki qiymət, nadir və geniş maraq kəsb edən sənədləri, həmçinin az soruşulan, mənəvi cəhətdən köhnəlmiş sənədləri də elektron formaya keçirmək məqsədəuyğundur. Müasir skanerəetmə texnologiyaları buna imkan verir.

Hazırda elektron kitabxanaların yaradılması ənənəvi kitabxanaların saxlanması xərclərinə və inkişafına sərf olunan xərclərdən çoxdur. Lakin ənənəvi kitabxanaların əksinə olaraq elektron kitabxana komponentlərinin qiymətləri ilbəil ucuzlaşır. Xüsusilə, informasiyanın emal, mühafizə və kommunikasiya vasitələrinin qiymətləri daha sürətlə aşağı düşür, imkanları isə getdikcə artır. Bəzi prosesləri (məs., çap işi, informasiya axtarışı, statistik hesablamalar və s.) indi də kompüterdə icra etmək ənənəvi üsullardan bir neçə dəfə ucuzdur. Gösitəricilər kompleksi ümumi halda elektron kitabxanaların xeyrinə dəyişir. Məsələn, 80-ci illərin sonlarında 10Hb disk yaddaşı olan bir ədəd kompüterin qiyməti 120 min dollar olmuşdur. 1997-ci ildə isə onun imkanları xeyli artmış, qiyməti isə 97% azalaraq 4 min dollar olmuşdur. 2007-ci ildə bu qiymətin bir daha 97% azalması proqnoz edilir [1, s. 18]. İnformasiya daşıyıcılarının (CD-ROM, DVD-ROM, CD-RW və s.), kommunikasiya avadanlıqlarının və proqram vasitələrinin qiymətləri son on ildə orta hesabla yüz dəfə azalmışdır. İndi biz informasiya supermagistralının yaradılması ərəfəsindəyik (məs, məşhur Klinton-Qor layihəsi, Avropa Şurasının informasiyalaşdırma proqramı və s.). Bütün bu deyilən faktlar göstərir ki, elektron kitabxanalar ənənəvi kitabxanaların yuxarıda sadalanan problemlərinin həllində mühüm rol oynayacaqdır.



Burada haşiyə çıxaraq qeyd etmək vacibdir ki, informasiya daşıyıcılarının, proseslərininin, metod və texnologiyalarının sürətli inkişafı fonunda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq infrastruktur xarakterli elmlər sistemində daha aparıcı mövqe qazanır və sürətlə diferensiasiya olunur. «Kitabxanaçılıq informatikası», «Kitabxana menecmenti», «Kitabxana marketinqi», «Elektron kitabxanaşünaslıq» [7] kimi onlarala nisbi-müstəqil elm sahələri deyilən fikrə misal ola bilər.

Bütün bunlar göstərir ki, indi biz sadə deyil, çox mürəkkəb, çətin və eyni zamanda şərəfli və qüdrətli peşə adamlarıyıq. Lazımi resurs olmadan heç bir istehsal və tədavül prosesi mümkün deyil. Zəngin informasiya resursları ancaq kitabxanalardadır. Deməli, informasiya bazarının əksər komponentlərinə sahiblik hüququ da kitabxanalardadır. Kitabxanalar yeni, yüksək texnologiyalarla, metod və vasitələrlə daha yaxşı silahlanmalıdır. Bu istiqamətdə elektron kitabxanaların rolu və əhəmiyyəti böyükdür.

Elektron kitabxanalar haqqında elmi fikirlər son illərdə yaranmamışdır. Hələ XX əsrin 50-ci illərində V.Buş «Biz necə düşünürük» məqaləsində, dünyada ilk açıq şəbəkə ideyasının müəllifi olan Y.Liklayder «Gələcəkdə kitabxanalar» kitabında elektron kitabxanaların ümumi konturlarını müəyyən etmişdir. 80-ci illərin əvvəllərindən informasiya texnologiyalarının keyfiyyətcə yeni mərhələyə keçməsi (CD-ROM, fərdi kompüterlər, internet və s.) ilə əlaqədar olaraq elektron kitabxanaların yaradılması problemləri yenidən aktuallıq kəsb etmişdir. Həmin illərdən başlayaraq elektron kitabxanaların yaradılması və təcrübi olaraq reallaşdırılması üçün milli və transmilli proqram layihələr işlənmiş, təqribən 90-cı illərin əvvəllərindən həmin kitabxanalar fəaliyyət göstərməyə başlamışdır. Onların miqdarı və resursları sürətlə artır. Bir məqalə çərçivəsində onları nisbətən geniş təhlil etmək çətindir. Buna görə də tam və qismən reallaşdırılan bəzi milli və transmilli layihə və proqramları qısaca qeyd edək.

İlk milli layihə 80-ci illərin əvvəllərində ABŞ-da işlənmiş DLİ (Digital Library İnterface) layihəsidir. Layihə Berkli, Santa-Barbara, Karneqi-Mellion, İllinoys, Miçiqan, Stanford, Hardvard və bir neçə universitetdə elektron kitabxananın yaradılması və vahid şəbəkədə əlaqələndirilməsi məsələlərini əhatə edir. Hazırda DLİ layihəsi təcrübi olaraq reallaşdırılmışdır. Bu elekron kitabxanalarda əsasən elmi jurnallar, coğrafi xəritələr, dövlət hesabatları, nadir və qiymətli nəşrlərin elektron formatları, interaktiv dərsliklər və dərs vəsaitləri və s. mühafizə olunur. Bundan başqa, nəşriyyatların, kitabxanaların, peşəkar cəmiyyətlərin, iri firmaların və digər qurumların elektron kitabxanaları fəaliy-

yət göstərir. Bunlardan ABŞ-ın bir neçə iri nəşriyyatının (Pergamon, Elsevir, Computing Machinery və s.), «Mercury» korporativ elektron kitabxananı, kompüter texnologiyasına dair 28 adda jurnal nəşr edən Association for Computing Machinery adlı peşəkar cəmiyyətin, Konqres Kitabxanasının NDL (National Digital Library) elektron kitabxanasını misal göstərmək olar.

Böyük Britaniyada DL (Digital Library) Britaniya Milli Kitabxanası tərəfindən 90-cı illərin ortalarından işlənməyə başlanan milli elektron kitabxana proqramıdır. Proqramın əsas məqsədi kitabxananın müxtəlif fondlarından və digər mənbələrdən seçilmiş ən vacib sənədlər əsasında elektron kitabxana xidmətini təşkil etməkdən ibarətdir. Bunlara nadir kitablar, kitabxana işinə dair jurnallar, hərəkət edən təsvirlər (annimasiyalar), qədim mətnlər və əlyazmaları, patentlər və bir neçə digər sənəd növləri daxildir.

Elektron kitabxana 3 üsulla yaradılır: 1) kitabxananın müxtəlif fondlarından seçilmiş vacib sənədləri skanerəetmə əsasında; 2) elektron nəşrlərin (SD-ROM, səs yazıları, patentlər və s.) komplektləşdirilməsi yolu ilə; 3) İngiltərədə buraxılan elektron nəşrlərin qanuni mühafizəsi əsasında.

Deyilən proqramdan başqa, «elib» (Elektronics library) proqramı da işlənmiş və qismən təcrübi cəhətdən reallaşdırılmışdır. Proqram Böyük Britaniya ali məktəb kitabxanalarının elektron nəşrlərə, sənədin elektron göndərişinə və şəbəkə resurslarına müraciətə dair 60 layihəni koordinasiya edir və maliyyələşdirir. Koordinasiya mərkəzi Britaniya təhsil departamentidir.

Verilən layihələr əsasında vahid elektron kitabxana modeli qurulur. İlk mərhələdə elektron informasiya məhsulları və xidmətləri ilə ali məktəb kitabxanalarının ənənəvi funksiyaları inteqrasiya edilməlidir. Sonrakı mərhələlərdə geniş miqyaslı elektron xidmət, elektron mühafizə və verilən layihələrin əlaqələndirilməsi məsələləri həll edilməlidir. Son mərhələdə şəbəkə texnologiyaları əsasında fəaliyyət göstərən korporativ xarakterli elektron kitabxanalar yaradılmalıdır. Hazırda proqramın bir neçə mərhələsi təcrübi olaraq tətbiq edilmişdir.

Fransa Milli Kitabxanasının reallaşdırılmış Gallica layihəsinə əsasən elektron sənədlər fonduna uzaq məsafədən müraciəti təmin edən server yaradılmışdır. Kitabxanada 30 milyon səhifə çap materialı elektron formaya keçirilmişdir. Onların üçdə biri XX əsrə qədər olan materiallardır. Bunlardan başqa, klassik fransız yazıçılarının əsərlərini mühafizə edən Classical Gallica adlı şəbəkə rejimində işləyən məlumat bazası, 80 min musiqi və incəsənət əsərlərinin elektron variantını mühafizə edən multimedia kitabxanası yaradılmışdır.

Almaniyada 1998-ci ildən Global İnfo adlı milli elektron kitabxana fəalliyyət göstərir. Bu kitabxanada nəşriyyatlarda, universitet kitabxanalarında, kitab mağazalarında, elmi-texniki kitabxanalarda və informasiya mərkəzlərində olan ən qiymətli aktual və dünyəvi maraq kəsb edən elektron nəşrlər toplanmışdır.

Bir sıra Avropa ölkələrinin tam və qismən tətbiq edilmiş elektron kitabxana layihələri və proqramları vardır. Bunlardan DEF (Danimarka Elektron Elmi-Tədqiqat Kitabxanası), Finlib (Finlandiya Milli Elektron Kitabxanası), «Kütləvi informasiya vasitələrinin elektron kitabxanası» [8, s.70-73], «MIM» (Medical Illuminated Manucriptis - Niderland Kral Kitabxanasının elektron fondudur) layihələrini göstərmək olar.

Yaxın qonşumuz Rusiyada da elektron kitabxanaların yaradılması istiqamətində bir neçə milli və regional layihə və proqram işlənmiş və onların biziləri təcrübədə reallaşdırılmışdır. Bunlardan Russiya dövlət məqsədli elmi-texniki proqramı («Информатизации России»), elm və təhsil sahəsində «Ali məktəblər və elmlər üçün milli kompüter telekommunikasiya şəbəkəsinin yaradılması» («Создание национальной сети компьютерных телекоммуникаций для науки и высшей школы») [9], Rusiya elektron kitabxanaları (Межведомственная программа «Электронные библиотеки России») [10], Rusiya Mədəniyyət Nazirliyinin «Rusiya mədəniyyəti (2001-2005), (Культура России (2001-2005) [11] federal proqramın «elektron kitabxanalar» altproqramını misal göstərmək olar.

Hazırda «Rusiya elektron kitabxanaları» qlobal dövlət proqramı reallaşdırılmağa başlanılmışdır. Bu proqramda Rusiya Federasiyasının 11 nazirliyi «Soros» fondu, Elm və Texnika üzrə Federal İnformasiya Fondu (RFFİ) iştirak edir. Məsələn, «SOROS» fondunun vəsaiti hesabına 14 min adda elmi-texniki jurnalın elektron variantı hazırlanmışdır. Ümumiyyətlə, ilk mərhələdə Rusiyada 800 milyon adda sənəddən ibarət olan milli baza elektron kitabxanası yaradılacaqdır. Bu iş 2005-ci ildə başa çatmalıdır. 2006-2010-cu illərdə proqramın II mərhələsinə keçilməsi nəzərdə tutulur. Bu mərhələ qlobal parametrlərə malikdir. Məsələn, ölkənin bütün inzibati-ərazi bölgüsündə, o cümlədən 1500-dən çox MKS-ində fəal istifadə olunan sənəd massivləri əsasında elektron kitabxanalar şəbəkəsinin yaradılması, xarici ölkələrin (böyük yeddilərin) elektron kitabxanaları ilə informasiya mübadiləsi, Rusiya

milli elektron depozitariyanın və şəbəkə elektron kataloqun yaradılması, milli informasiya məkanında sənədin elektron göndərişi və s.

Azərbaycan Respublikasında «Soros» fondunun və ABŞ səfirliyinin maliyyə dəstəyi ilə «Aznet»in qədim ədəbiyyat səhifələri (www.azeribooks.com), «Klassik Azərbaycan ədəbiyyatı» (http: azeribooks.aznet.org) kiçik həcmli elektron kitabxanalar yaradılmışdır. Lakin bu sahədə milli layihə və proqramlar bizə məlum deyil.

Elektron kitabxanaların yaradılmasına dair transmilli proqramm və layihələr də işlənmişdir. Bunlardan Avropa Komissiyasına üzv olan böyük yeddilərin, o cümlədən Rusiyanın da iştirak etdiyi «Biblioteka universalis», «Avropa İttifaqının «Kitabxanar üçün telematika», "CANDEL" (Avropa elektron kitabxanalarının nəzarətli müraciət şəbəkəsi), "DECOMATE", (Avropada əsərlərin elektron formada çatdırılması), «DIEPER» (Avropa elektron dövri nəşrləri), Miracle (korlar üçün musiqi kataloqu) və bir neçə digərlərini göstərmək olar. Sonuncu deyilən layihə Avropada korlar üçün multimedia elektron kitabxana mərkəzinin yaradılmasını və Brayl şriftinin rəqəm formasında musiqi əsərlərinin onlayn rejimində istifadəsini nəzərdə tutur. Bu layihənin koordinasiya mərkəzi korlar üçün Hollandiya Milli Kitabxanasıdır. Layihədə Böyük Britaniya, İtaliya, İsveçrə və İspaniya iştirak edir. 2003-cü ildən bu layihə reallaşdırılmışdır.

Elektron kitabxanaların yaradılması mürəkkəb elmi və texniki problemdir. O, böyük maliyyə vəsaiti və yüksək ixtisaslı kadrların olmasını tələb edir. Ənənəvi kitabxanalar kimi və onların bir altsistemi funksiyasında o da müntəzəm inkişaf edir. Onun yaradılmasının və istifadəsinin xeyli təşkilati, texniki, texnoloji və normativ-hüquqi problemləri vardır.

## ƏDƏBİYYAT

*1. Армс В. Электронные библиотеки. Перев. с английского.- М., 2002.-271 с.*

*2. Raitt D. Digital Initiatives Across Europe // Computers in libraries, 2000.-Nov./Des.-p.26-34*

*3. Европейский проекты електронной библиотеки // Науч. и тех. б-ки, 2002.-№1.-С.115-123*

*4. Земсков А.И. Электронные книги-новый взгляд // Науч. и тех. б-ки, 2003.-№5.-С.64-75*

*5. Воройский Ф.С. Организация и технология переработки карточных каталогов в машиночитаемую форму для создания электронных каталогов // http://www.gpntb.ru*



*6. Евстингеева Г.А., Земсков А.А., Электронные версии депозитарных фондов научных библиотек // Науч. и тех. б-ки, 2003.-№7.-С.5-21.*

*7. Peter Jasco. What is Digital librarianship//Comp. in Libraries, 2000.-yan.-P.54-59*

*8. Павликова М. Сетевые технологии и журналистика: эволюция финских СМИ.-М.,2001.-99 с.*

*9. Шрайберг Я.Л. Современное тенденции развития библиотечно-информационных технологий // Науч. и тех. б-ки, 2002.-№1.-25-47*

*10. Межведомственная программа «Электронные библиотеки России» // Науч. и тех. б-ки.- 1999.-№7.-С.3-15.*

*11. Кузмин Е.И. Библиотеки и федеральная программа «Культура России» (2001- 2005) // Науч. и тех. б-ки.- 2001.-№1.-С.47-63.*

***Али Рустамов***

***Нурия Мустафаева***

## ЭЛЕКТРОННЫЕ БИБЛИОТЕКИ

### *РЕЗЮМЕ*

*Описывается история возникновения и развития электронных библиотек. Анализируется национальные, континентальные и транснациональные проекты и разработки. Подвергается сравнительному анализу традиционных и электронных библиотек по структурным и традиционным признакам.*

***Zöhrab BAXŞƏLİYEV***
*Tarix elmləri namizədi, dosent*

***Sara İBRAHİMOVA***
*BDU-nun Elmi Kitabxanasının direktoru*

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN BİLİK XƏZİNƏSİ: ELMİ KİTABXANANIN BU GÜNÜ VƏ SABAHI

«Kitabxana ağlın laboratoriyasıdır»
***Süleyman Rəhimov,***
*Azərbaycanın xalq yazıçısı*

XX əsrdə özünün dramatik bir dövrünü yaşamış Azərbaycan Respublikası XXI əsrə müstəqil, suveren və demokratik inkişaf yolunu seçmiş dövlət kimi qədəm qoymuşdur. Müasir tarixə informasiya əsri kimi daxil olan XXI əsrin başlanğıcından məlum olur ki, onun dünya sivilizasiyasının qarşısında qoyduğu ən aktual problemlərdən biri müasir supertexnika və texnologiyaların sürətli inkişafı əsasında informasiya cəmiyyətinin qurulmasıdır.

Görkəmli filosofların, alim və mütəxəssislərin qeyd etdiyi kimi, informasiya cəmiyyəti elə bir cəmiyyətdir ki, burada insanlar informasiyanın, xüsusilə onun ən yüksək forması olan biliklərin müasir informasiya texnologiyaların köməyi ilə istehsalı, mühafizəsi, emalı və reallaşdırılması ilə məşğuldurlar. İnformasiya cəmiyyətində informasiya məhsullarının istehsalı və informasiya xidmətinin göstərilməsi, insanların sosial-iqtisadi fəallığının başqa növlərindən üstünlük təşkil edir.

Bütün bəşəriyyətin müasir inkişaf istiqamətini müəyyən edən bu prosesə, iqtisadi cəhətdən inkişaf etmiş qərb ölkələrinin dövlət siyasətində prioritetlik verilir.

Təsadüfi deyil ki, 2003-cü il dekabrın 10-12-də Cenevrə şəhərində keçirilmiş informasiya cəmiyyəti üzrə dünya sammitində yeni minilliyin bəyannaməsinin prinsiplərində nəzərdə tutulmuş məqsədlərə



çatmaq üçün informasiya texnologiyalarının imkanlarından istifadə edilməsi əsas vəzifə olaraq qəbul olunmuşdur (1).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sammitdə çıxış etmiş və bildirmişdir ki, dinamik inkişaf yoluna qədəm qoymuş Azərbaycan Respublikasının dövləti qlobal informasiya cəmiyyətinin qurulması ideyasını dəstəkləyir və onun gerçəkləşdirilməsini dövlət siyasətinin əsas prioritetlərindən hesab edir (2).

Görkəmli kitabxanaşünas alim, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, professor A.Xələfovun fikrincə, informasiyalaşdırılmış cəmiyyətin yaradılması və daha da təkmilləşdirilməsi bilavasitə kommunikasiya sistemləri, informasiyanın alınması və verilməsi prosesi ilə əlaqədar olduğundan müasir cəmiyyətdə hər bir informasiyanın cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını toplayıb saxlayan, onu əsrdən əsrə, nəsildən-nəslə ötürən informasiya daşıyıcısı kimi fəaliyyət göstərən informasiya müəssisələrinin ən mühüm vasitəsi kitabxana sistemləridir (3).

Həqiqət naminə qeyd edilməlidir ki, sovet hakimiyyəti illərində Azərbaycanda müxtəlif tip, növ kitabxanaların inkişafı üçün müəyyən əlverişli şərait olmuşdur ki, bu da hazırda respublikanın kitabxana-informasiya resurslarına olan tələbatını kifayət qədər ödəməyə təminat yaradır.

Hesablamalara görə, 1990-cı ildə Azərbaycanda fəaliyyət göstərən bütün tipdən və növdən olan kitabxanaların ümumi fondu 125 milyon nüsxədən çox olmuşdur. Bunlardan 53 faizi respublikanın kütləvi kitabxanalarının, yerdə qalanları isə elmi-texniki, akademiya, tibb, ali və orta ixtisas təhsil müəssisələrinin və b. kitabxanalarının payına düşür. 1990-cı ildən sonrakı – Azərbaycanın müstəqilliyinə təsadüf edən dövrdə respublikada nisbətən inkişaf edən kitabxana şəbəkəsi dövlət və özəl ali məktəb kitabxanaları ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, respublikada son illərdə kitabxana işi sahəsində irəliləyişin müşahidə edildiyi ali təhsil müəssisələri elmi kitabxanaları fondunun xüsusi çəkisi respublika kitabxanalarının ümumi fondunda 9,7 faiz təşkil edir (1990-cı il).

Şübhəsiz, bu göstərici son 10-15 ildə həm özəl ali məktəb kitabxanalarının sayının artması, həm də bütövlükdə ali məktəb kitabxanaları fondunun dinamik artımı ilə xeyli inkişaf etmişdir. Bir faktı qeyd etmək lazımdır ki, hazırda respublikamızda 47 dövlət və özəl (filialları ilə birlikdə) ali məktəbləri fəaliyyət göstərir ki, onların da hamısında elmi kitabxanalar vardır. Bu kitabxanalarda cəmlənmiş zəngin ədəbiy-

yat fondu respublikanın kitabxana informasiya resurslarının tərkib hissəsini təşkil edir.

Azərbaycanın müstəqilliyi illərində ali məktəb elmi kitabxanalarının inkişafı səviyyəsini və miqyasını görmək, ali məktəb elminin və təhsilinin inkişafındakı rolunu qiymətləndirmək baxımından Azərbaycanın ən qocaman, nəhəng, qabaqcıl elm, təhsil ocağı olan Bakı Dövlət Universitetinin, onun qədər yaşı və onun tərkib hissəsi olan elmi kitabxananın son illərdəki fəaliyyətini və inkişafını nəzərdən keçirmək kifayətdir. Şübhəsiz, digər ali məktəb kitabxanalarının inkişaf sürəti, miqyası və səviyyəsi BDU-nun Elmi Kitabxanası ilə eyni səviyyədə olmasa da onun nailiyyətləri başqa kitabxana üçün örnək ola bilər.

Məlum olduğu kimi, BDU-nun Elmi Kitabxanasının yaranma tarixi universitetin əsasının qoyulması ilə, yəni 1919-cu ildən başlayır və 2004-cü ilin payızında BDU-nun yaradılmasının 85 illiyi ilə eyni vaxtda yubileyini qeyd etməlidir. Bakı Dövlət Universiteti Azərbaycan xalqının sosial-iqtisadi, milli və mədəni-mənəvi inkişafında ilk ali təhsil müəssisəsi kimi nə qədər böyük və əvəzsiz rol oynamışdırsa, onunla bərabər, onun ayrılmaz hissəsi olan Azərbaycanın ilk ali məktəb elmi kitabxanasının da bir o qədər xidmətləri olmuşdur. Universitetin bir sıra fakültələri formalaşmadığı halda onun strukturunda yaradılan ilk əsas bölmələrdən biri məhz onun «elmi laboratoriyası» olan elmi kitabxanası yaradılmışdır.

Elmi Kitabxana fəaliyyət göstərdiyi 85-ilə yaxın bir dövrdə bütün parametrlər üzrə inkişaf etmiş, hazırda universitetin ən böyük struktur bölmələrindən birinə çevrilmiş və respublikada 4-5 nəhəng kitabxanalardan biri hesab edilir. Ali məktəb kitabxanaları arasında sənəd informasiya potensialına, fəaliyyət dairəsinə və xidmət göstəricilərinə görə birinci yerdə durur.

Elmi Kitabxananın sənəd informasiya resursları ilk illərlə müqayisə 300-500 dəfə, onun bina sahəsi bir o qədər, kadrların sayı 10-15 dəfə, maddi-texniki bazası dəfələrlə inkişaf etmiş və möhkəmlənmişdir.

Həqiqət naminə qeyd edilməlidir ki, universitetin əvvəlki rektorlarının xidmətlərini azaltmadan Azərbaycanın müstəqilliyi illərinin son 6-7 ilində, Elmi Kitabxananın çoxtərəfli fəaliyyətinə, elmdə, təhsildə, tərbiyədə və informasiya xidməti sisteminin təşkilindəki müstəsna roluna layiqli qiymət BDU-nun yeni talantlı rektoru, yüksək işgüzarlıq qabiliyyətinə malik kimyaçı alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Abel Məhərrəmov tərəfindən verilmişdir. Yeni rektorun gəlişi ilə təkcə universitetin siması dəyişməmişdir, burada aparılan köklü dəyişikliklər və islahatlar, təlim-tərbiyə prosesini, elmin, təhsilin statusunun daha da yüksəldilməsinə, professor-müəllim heyətinin, bütün universitet kollektivinin sosial-iqtisadi vəziyyətinin hiss olunacaq dərəcədə yaxşılığa doğru dəyişilməsinə səbəb olmuşdur ki, təbii olaraq elmi kitabxananın fəaliyyəti bu yeniləşmə prosesindən kənarda qalmamışdır.



Hazırda universitet Elmi Kiatbxanası 4000 kvadrat metr sahəyə malikdir və o, 3 binada (universitetin əsas binasında, birinci və ikinci binalarında) yerləşir.

Əsas binada yerləşən kitabxananın girişi, sərgi salonu, dövri mətbuat fondu və müəllimlərin oxu zalı, həmçinin həmin binada tələbələrin oxu zalı, magistrlər üçün oxu zalı, beynəlxalq mübadilə fondu və onun oxu zalı son dəbdə, dünya standartlarına cavab verəcək səviyyədə dizayn verilmiş və təmir edilmişdir, yeni yumşaq və bərk mebellərlə təchiz edilərək, kompüterlər qoyulmuş, professor-müəllim və tələbələrin istifadəsinə verilmişdir.

Bütövlükdə Elmi Kitabxananın bir sıra şöbələri yanında təşkil edilmiş irili-xırdalı 14 oxu zalında eyni vaxtda min nəfərdən çox professor-müəllim və tələbə, oxucular məşğul ola bilərlər.

Məlum olduğu kimi, BDU respublikanın ən iri elm və təhsil ocağı olaraq ölkənin müxtəlif təsərrüfat və idarəetmə fəaliyyəti sahələrində yüksək ixtisaslı kadrlara olan tələbatı ödəmək üçün 16 fakültəsində 40-dan çox ixtisaslar üzrə kadrlar hazırlanır. Təbii ki, çox profil üzrə kadr hazırlığı müvafiq olaraq həmin elm və bilik sahələri üzrə kitabxana fondunun kompüterləşdirilməsini zəruri edir. Ona görə də elmi kitabxananın fondu çox profilli olub, orada çalışan professor-müəllim heyətinin və tələbə kontingentinin informasiya tələbatını ödəyə biləcək zəngin sənəd-informasiya fondu formalaşmışdır. Hazırda kitabxananın fondunda 2 milyon 25988 nüsxə ədəbiyyat vardır ki, ondan 201466 nüsxəsini dövri nəşrlər təşkil edir. Kitabxana fondunda olan ədbiyyatın bir milyon yarımdan çoxunu elmi və tədris (dərsliklər, dərs vəsaitləri və s.) təşkil edir, yerdə qalanları isə ictimai-siyasi, bədii, soraq-məlumat və b. növ ədəbiyyatdır.

Fondun dil üzrə bölgüsündə ən çox hissəni - 1.682170 nüsxəsini rus dilində, 274913 nüsxəsini Azərbaycan, 93957 nüsxəsini isə xarici (ingilis, alman, fransız, türk, ərəb, fars və b.) dillərdə olan ədəbiyyat təşkil edir.

Kitabxana fondunda saxlanılan ədəbiyyatın çox hissəsinin rus dilində olmasının əsas səbəbi sovet hakimiyyəti illərində Azərbaycanda bir çox elm sahələri üzrə ixtisaslaşdırılmış nəşriyyatların olmadığına

görə elmi və tədris ədəbiyyatı əsasən keçmiş ittifaqın mərkəzi nəşriyyatlarından alınırdı ki, bunlar da ancaq rus dilində olan ədəbiyyatdır.

Son illərdə kitabxana fonduna daxil olan ədəbiyyatın çox hissəsini Azərbaycan dilində olan kitablar təşkil edir.

Son 6-7 ildə universitet rəhbərliyinin kitabxana işinə və onun fondunun lazımi ədəbiyyatla müntəzəm şəkildə kompüterləşdirilməsi məsələlərinə xüsusi diqqət verməsinin nəticəsi olaraq kitabxana fonduna hər il təxminən 10.000 (on min) nüsxəyə qədər yeni elmi tədris ədəbiyyatı, xarici elmi jurnallar, baha olmasına baxmayaraq Rusiyadan 7 adda təbiət və texniki elmlər üzrə referativ jurnal alınır. Təkcə 2003-cü ildə elmi kitabxanaya 294 milyon 937936 manat həcmində 9803 nüsxə ədəbiyyat daxil olmuşdur, onlardan müəyyən hissəsi hədiyyə, mübadilə yolu və itirilmiş ədəbiyyatın əvəzinə alınmış kitablar olsa da onun çox hissəsi, yəni 259 milyon 140774 manat dəyərində universitetin büdcəsi hesabına alınmışdır.

Universitetin xeyli miqdarda ayırdığı vəsait ən çox müxtəlif dövri nəşrlərə, əsasən elmi jurnalların və referativ jurnalların alınmasına xərclənir ki, bu da özünü doğruldur. Məlum olduğu kimi, dövri nəşrlərin ən operativ informasiya daşıyıcısı olması faktını mütəxəssislər yaxşı bilir. Ona görə də professor-müəllim heyəti və tədqiqatçılar kitabxanada ən çox bu sənədlərdən istifadə edirlər. Təkcə 2003-cü ilin ikinci və 2004-cü ilin birinci yarısı üçün yerli, xarici dövri nəşrlərə abunə yazılışı üçün universitet büdcəsindən 237 milyon 718min 235 manat vəsait xərclənmişdir.

Elmi Kitabxana oxucuların informasiya tələbatını və sorğularını müntəzəm şəkildə öyrənməklə fondun komplektləşdirmə planını işləyir və onun əsasında müxtəlif tip və növ ədəbiyyatın alınması təşkil edilir.

2003-2004-cü illərdə elmi kitabxana 11 adda (ondan 4-ü rus dilində) qəzet, Azərbaycan dilində 7 adda, rus dilində 85 adda elmi jurnala abunə yazılmış və hədiyyə yolu ilə 378 xarici jurnal alınmışdır.

Kitabxana fondunun komplektləşdirilməsində BDU-nun nəşriyyatı, kitab mağazaları, universitet əməkdaşlarının özlərinin yeni çapdan çıxmış kitablarını (qeyd etmək lazımdır ki, Azərbaycanın müstəqilliyi illərində ölkənin ali məktəb əməkdaşlarının, o cümlədən BDU-nun əməkdaşlarının nəşr etdirdikləri dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların və s. həcmi sovet dövrü ilə müqayisədə çox artmışdır) hədiyyə etməsi, kitab mübadiləsi (Elmi Kitabxana dünyanın 18 ölkəsinin 48 universiteti ilə ədəbiyyat mübadiləsi edir), itirilmiş kitabların əvəzinə alınan kitablar «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq məcburi nüsxələr və b. yollarla alınmış



kitablar komplektləşdirilmənin əsas mənbəyini təşkil edir.

Son illərdə Elmi Kitabxana təkcə xarici görünüşün ilə deyil, burada yeni informasiya texnologiyası əsasında oxuculara xidmət sisteminin modernləşdirilməsi prosesinin getməsi ilə də seçilir. Bu işin beynəlxalq Qeyri-Hökumət Təşkilatları ilə birgə proqram çərçivəsində reallaşdırılması onun imkanlarını bir qədər də genişləndirmişdir.

Elmi Kitabxana Soros fondunun yerli Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu ilə müqavilələr bağlamış və xeyli miqdarda müxtəlif elm sahələrinə dair yeni qiymətli ədəbiyyat almışdır.

Tasis layihəsi çərçivəsində aparılan elfi Direkt layihəsi ilə məşhur abunə agentliyi EBSCO elektron nəşriyyatına daxil olan 7000 adda jurnalın elektron versiyası 2003-cü ilin mayına qədər oxucuların istifadəsində olmuşdur. 1997-2003-cü illərdə buraxılmış jurnalları əhatə edən məlumat bazası CD və DVD formasında alınaraq oxucuların xidmətinə verilmişdir.

INTAS layihəsi çərçivəsində Almaniyanın Honlover Universiteti ilə birlikdə işlənən layihə əsasında bu universitetin elektron jurnallarından və «Springer» verilənlər bazasından BDU-nun Elmi Kitabxanasında istifadə üçün icazə alınmışdır.

Elmi Kitabxananın beynəlxalq kitab mübadiləsi bölməsinin əməkdaşları xarici dili yaxşı bilən təcrübəli mütəxəssislərdən təşkil edilmişdir ki, son illərdə şöbənin işinin xeyli canlandırılmasında, onların müxtəlif Qeyri-Hökumət Təşkilatları ilə birgə layihələr işləyərək kitabxana üçün kompüterlər, elektron nəşrlər alınmasında və s. böyük xidmətləri olmuşdur. Hazırda beynəlxalq kitab mübadiləsi şöbəsində elmin müxtəlif sahələrinə dair biblioqrafik və tam mətnli informasiyaları özündə əks etdirən 56 adda 136 ədəd CD-ROM və 20 ədəd DVD-ROM, 30 ədəd disket, 2 ədəd kaset saxlanılır. 2003-cü ildə təkcə bu şöbədə 1150 nəfər oxucuya xidmət göstərilmişdir.

Elmi Kitabxanada yeni informasiya texnologiyasının geniş və tam miqyasda tətbiqi istiqamətində planlı işlər həyata keçirilir. Bunun üçün hazırda kitabxanada 23 müasir kompüter qoyulmuşdur (onlardan 9-u universitetin vəsaiti hesabına, 7-si isə qrant yolu ilə alınmışdır). Yeni alınan nəşrlərin hamısı kompüterin yaddaşına salınır, Elmi Kitabxananın bütün fondunun elektron kataloqda əks etdirilməsi istiqamətində gərgin iş gedir. Bu işdə 2000-ci ildə BDU-nun Kitabxanaşünaslıq kafedrasının elmi kitabxananın nəzdində birgə təşkil etdikləri «Kitabxananın kompüterləşdirilməsinin elmi-tədqiqat laboratoriyası»nın böyük köməkliyi vardır.

Yeri gəlmişkən qısa tarxi arayış. Belə bir laboratoriyanın yaradılması ideyası BDU-nun rektoru, professor A.Məhərrəmov tərəfindən dəstəklənərək 1999-cu ilin martında BDU-nun Böyük Elmi Şurasının iclasında Kitabxanacılıq-informasiya fakültəsində «Kitabxana işinin kompüterləşdirilməsi» elmi-tədqiqat laboratoriyasının yaradılması haqqında qərar çıxarılmışdır. Təhsil Nazirliyinin 1999-cu il 171 saylı əmrinə müvafiq olaraq professor A.Xələfovun rəhbərliyi ilə laboratoriya 2000-ci ildən fəaliyyətə başlamışdır.

Azərbaycanın görkəmli kitabxanaşünas alimi, professor A.Xələfovun rəhbərliyi altında fəaliyyət göstərən laboratoriyanın əməkdaşları elmi kitabxananın bütün ənənəvi kataloqunda olan məlumatların kompüterin yaddaşına salınması istiqamətində gərgin iş aparırlar. Təkcə 2003-cü ildə 8308 adda çap əsərləri elektron kataloqa daxil edilmişdir. Onlardan 912 adda yeni alınmış kitab (166 adda kitab xarici dildə), 2570 adda dissertasiyalar, 4518 adda nadir kitablar, 86 adda Azərbaycan və rus dilində 49 adda Qərbi Avropa dillərində olan jurnallar və 7 adda referativ jurnallardır. Hazırda kataloq-kartoteka zalında oxucular ədəbiyyat axtarışı zamanı zala qoyulmuş 2 kompüterin və növbətçinin köməkliyi ilə ədəbiyyat axtarışı aparırlar. Bu da, istənilən hər hansı ədəbiyyatın tez axtarılıb tapılmasında oxuculara köməklik göstərir. Elmi kitbxanada professor-müəllim heyəti, tələbələr və magistrəlr, aspirantlar və tədqiqatçılar üçün yaradılmış hər cür şərait, onların informasiya tələbatına və sorğularına uyğun ənənəvi çap məhsulları ilə yanaşı elektron nəşrlərin kitabxanaya alınması və onlardan səmərəli istifadənin təşkili kitabxananın əsas xidmət göstəricilərinin dinamik inkişafına müsbət təsir göstərir. İldən-ilə kitabxanadan istifadə edən oxucuların sayı artmaqla yanaşı, ədəbiyyat verilişi də yüksəlir ki, bu da kitabxana fondundan istifadə səmərəliliyini artırır.

2003-cü ildə vahid oxucu bileti ilə 14.207 nəfər oxucuya, Elmi Kitabxananın bütün struktur bölmələrində isə 811.859 nəfər oxucuya xidmət edilmişdir. Bütövlükdə universitetdə çalışan professor-müəllim heyətinin 64,4 faizi, tələbələrin 91,2 faizi kitabxana xidməti ilə əhatə olunmuşdur.

Həmin ildə bütün qrupdan olan oxuculara abonementlərdə, qiraət zallarında və kafedra kitabxanalarında (30 kafedra kitabxanası vardır) 1.512.490 nüsxə ədəbiyyat verilmişdir.

Elmi Kitabxanada ədəbiyyat verilişinin artımı və oxucuların kitabxana xidməti ilə əhatəolunma faizinin yüksəlməsi bütövlükdə universitet elminin inkişafına və tələbələrin bilik səviyyələrinin yüksəlməsinə də öz müsbət təsirini göstərir. Bunun nəticəsi olaraq hər il universitet alimlərinin elmi nailiyyətləri inkişaf edir, tələbələrin, aspirant və magistrlərin, tədqiqatçıların elm və bilik sahələrində qazandıqları uğurların sayı durmadan artır.



Məhz Elmi Kitabxananın elmin, təhsilin inkişafında mühüm rolunu görən və qiymətləndirən şəxslər onun inkişafı üçün lazımi şərait yaratmaqla universitet elminin və təhsilinin etibarlı informasiya təminatını yaratmış olurlar.

Universitet Elmi Kitabxanası və onun malik olduğu sənəd-informasiya resurslarının, vasitələrin və texnologiyaların canlı bir orqanizm kimi fəaliyyət göstərməsində onun strukturuna daxil olan 14 şöbə və bölmələrdə çalışan yüksək ixtisaslı və çoxillik təcrübəyə malik kitabxanaçı kadrların böyük rolu vardır. Burada çalışan 92 nəfər kitabxanaçıdan 80 nəfəri ali, onlardan 48 nəfəri ali ixtisas təhsilli və yerdə qalanı orta ixtisas təhsilli kitabxanaçılardır.

Kitabxananın malik olduğu sənəd-informasiya resursları, kadr potensialı, kifayət qədər inkişaf etmiş maddi-texniki bazası və ən başlıcası universitet rəhbərliyi tərəfindən göstərilən qayğı və diqqətin olması onun işinin daha yüksək səviyyəyə qaldırılması imkanlarını artırır.

## ƏDƏBİYYAT


1. *İnformasiya cəmiyyətinin qurulmasında elektron nəşr texnologiyasının rolu // Azərbaycan.- 2004.-23 aprel.*

2. *Əliyev İ. Azərbaycan informasiya və kommunikasiya texnologiyalarının inkişafına xüsusi əhəmiyyət verir: Cenevrədə İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinin açılışında Azərbaycan Respublikası Prezidentinin nitqi // Azərbaycan.-2003.-11 dekabr.*

3. *Xələfov A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri // Respublika.-2002.-17 aprel.*



***Зохраб Бахшалиев***
***Сара Ибрагимова***


### СОКРОВИЩНИЦА ЗНАНИЙ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА: НАУЧНАЯ БИБЛИОТЕКА СЕГОДНЯ И В БУДУЩЕМ


***РЕЗЮМЕ***

***В статье освещается роль научной библиотеки Бакинского Государственного Университета в организации учебы и направлении научных исследовательных работ в университете, в том числе ее научно-методической деятельности и обслуживании читателей.***

**_Mehmanəli MƏMMƏDOV_**,
_pedaqoji elmlər namizədi, dosent_

**_Knyaz ASLAN_**,
_pedaqoji elmlər namizədi, baş müəllim_

# ÖZƏL ALİ MƏKTƏBLƏRDƏ KİTABXANA İŞİNİN TƏŞKİLİ

## _(Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzinin iş təcrübəsi əsasında)_

Respublikamızın müstəqilliyə qovuşması və yeni ictimai-siyasi şəraitə keçməsi ilə əlaqədar olaraq cəmiyyətin bütün fəaliyyət sahələrində əsaslı dəyişikliklər baş vermişdir. Bazar iqtisadiyyatının və xüsusi mülkiyyətin tələblərinə uyğun olaraq iqtisadiyyatın, elmin və təhsilin bir sıra sahələrində dövlətsizləşdirmə intensivləşdirilmiş və yeni-yeni özəl qurumlar yaradılmışdır. Bunun nəticəsində təhsil sistemində də ölkənin perspektiv inkişafını təmin edən və xüsusi mülkiyyətin tələblərinə cavab verən bir sıra ixtisaslar üzrə kadr hazırlığına ehtiyac yaranır. Mövcud ali və orta ixtisas məktəblərində isə dövrün tələbləri nəticəsində meydana çıxmış yüzlərlə yeni ixtisas üzrə kadrların hazırlanmasına imkanları yoxdur. Odur ki, ölkənin təhsil sistemində özəl və orta ixtisas məktəblərinin, lisey və kolleclərin yaradılması məqsədəuyğun hesab edilmişdir.

Təbii ki, özəl təhsil müəssisələrində təlim-tərbiyə və tədris işinin səviyyəsini yüksəltmək üçün ilk növbədə onun zəngin kitabxanası yaradılmalıdır. Buna görə də bir sıra özəl tədris müəssisələrində profilə uyğun kitabxana fondlarının yaradılmasına diqqət yetirilir. Belə kitabxanaların iş üsulları və uçot-hesabat sistemi bir sıra hallarda dövlət tədris müəssisələrində çoxdan fəaliyyət göstərən kitabxanaların iş üsullarından fərqlənir. Həmin ali məktiəb kitabxanalarından biri də Xəzər



Universitetinin Elmi Kitabxanası, daha dəqiq desək, Kitabxana-İnformasiya Mərkəzidir.

Xəzər Universiteti respublikamızda müxtəlif sahələr üzrə beynəlxalq standartlara uyğun yüksək ixtisaslı ingilisdilli kadrlara kəskin ehtiyacı ödəmək məqsədi ilə 1991-ci il martın 18-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 41 saylı qərarı ilə yaradılmışdır.

Bu universitet 1993-cü il aprelin 10-da Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Dövlət Ali Ekspert Komissiyasının 9/1 saylı qərarı ilə özəl ali məktəb kimi qeydiyyatdan və ekspertizadan keçmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyasının 4 mart 1995-ci il tarixli 45 saylı qərarı ilə həmin universitet yenidən ekspertizadan keçirilmiş və "Xəzər Universitəsi" adı ilə qeydə alınmışdır.

Təhsil Nazirliyinin 10 iyul 2002-ci il tarixli lisenziyası (seriya AB №019019) ilə Xəzər Universitetində bütün mövcud ixtisaslar üzrə kadr hazırlığının səviyyəsi yüksək qiymətləndirilmişdir.

Azərbaycan Respublikasının Təhsil Naziri professor Misir Mərdanov bu ali təhsil ocağının 10 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edərkən demişdir: «Xəzər Universiteti bu gün həm Azərbaycanda, həm də Azərbaycandan kənarda özünəməxsus yeri olan, özünün xüsusi çəkisi olan bir ali təhsil müəssisəsidir».

Təsadüfi deyil ki, «Azərbaycan dünyası» jurnalı redaksiyasının keçirdiyi sorğular nəticəsində Xəzər Universiteti təhsilin keyfiyyətinə görə 2002-ci ilin ən yaxşı ali məktəbi seçilmişdir.

Hazırda Xəzər Universitetində fəaliyyət göstərən 5 fakültədə - Mühəndislik və tətbiqi elmlər; İqtisadiyyat və menecment; Humanitar elmlər; Hüquq və sosial elmlər; Tibb elmləri fakültələrində ölkəmiz və xarici ölkələr üçün bir çox mühüm ixtisaslar üzrə ingilisdilli mütəxəssislər hazırlanır.

Xəzər Universiteti Azərbaycanda ilk özəl ali məktəb olmaqla yanaşı, ölkəmizdə müasir Qərb və Şərq dillərini yanaşı öyrədən, həmçinin bu dilləri ixtisas fənni kimi tədris edən birinci ali təhsil ocağıdır. Universitədə dərslər əsasən ingilis dilində, bir sıra hallarda isə Azərbaycan dilində tədris edilir. Universitetdə ingilis dilinin tədris dili olması dünya təhsil sisteminin nailiyyətləri və ənənələrindən bəhrələnməyə, eləcə də dünyanın qabaqcıl universitetləri ilə tələbə və müəllim mübadiləsi aparmağa kömək edir. Bununla yanaşı, ingilis dilini zəif bilən və ya ingilis dili öyrənməmiş məktəb məzunları da Xəzər Universitetində oxuya bilərlər. Onlar məşhur xarici universitetlərlə birlikdə

hazırlanmış xüsusi proqram üzrə ingilis dilini öyrənməklə təhsilə başlayırlar.

Xəzər Universiteti Azərbaycanda yeni təhsil modelini həyata keçirməklə bakalavr, magistr və doktor dərəcələri üzrə kadr hazırlayan ali təhsil ocağıdır. Müvəffəqiyyətlə oxuyan tələbələr öz təhsillərini dünyanın ən yaxşı ali məktəblərində davam etdirmək imkanı qazanırlar.

Məzunlar və yuxarı kurs tələbələri, əsasən, xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər. Bu məqsədlə universitetdə çoxsaylı yerli və xarici şirkətlərin iştirakı ilə tez-tez iş sərgiləri keçirilir.

Xəzər Universiteti geniş maddi-texniki bazaya malikdir. «Neftçilər» metrostansiyası yaxınlığında, Məhsəti küçəsi, 11-də yerləşən beşmərtəbəli tədris korpusunda fakültələr, departamentlər, elmi və tədris laboratoriyaları (fizika, kimya, biokimya, anatomiya, fiziologiya və s.), elmi institut və mərkəzlər, nəşriyyat, mətbəə, surətçıxarma mərkəzi fəaliyyət göstərir. Üç dildə – Azərbaycan, rus və ingilis dillərində ayda iki dəfə çıxan "Xəzər Xəbər" elmi-kütləvi və publisistik jurnalının, Azərbaycan və ingilis dillərində nəşr olunan "Xəzər riyaziyyat", "Azərbaycan araşdırmaları" və «Azərbaycan arxeologiyası» kimi elmi jurnalların redaksiyaları da həmin ünvanda yerləşir. Buradakı zəngin kitabxana, müasir kompüter mərkəzləri, tibb mərkəzi, idman kompleksi, iclas zalı, rəqs salonu, yeməkxana və s. müəllim və tələbələrə yüksək səviyyədə xidmət göstərir.

Universitetin paytaxtımızın mərkəzindəki Bəşir Səfəroğlu küçəsi, 122-də yerləşən yeni tədris korpusunda isə magistratura və doktorantura pillələrində təhsil alanlar üçün gözəl şərait yaradılmışdır. Burada geniş auditoriyalar və kompüter laboratoriyaları ilə yanaşı, həmçinin müasir tipli konfrans salonu və teatr da fəaliyyət göstərir.

Universitetin 3-cü binası isə Tbilisi prospekti yaxınlığındadır və burada həmin ali təhsil müəssisəsinin nəzdində fəaliyyət göstərən «Dünya» məktəbi yerləşir.

Fəaliyyətdə olduğu ötən illər ərzində Xəzər Universiteti öz orijinal tədris proqramları, təhsil modeli, əsaslı maddi-texniki bazası, kadr potensialı, geniş beynəlxalq əlaqələri ilə ictimaiyyətin rəğbətini qazanmış, ölkəmizin hüdudlarından xeyli uzaqlarda belə şöhrətlənmişdir. Bu ali təhsil ocağı dəfələrlə beynəlxalq müsabiqələrin qalibi olmuş və qrantlar almışdır. Xəzər Universiteti xaricdən dəvət edilmiş mütəxəssislərin, eləcə də xaricə göndərilmiş müəllim və tələbələrin sayına görə ən qabaqcıl ali məktəblərdən biridir.



Xəzər Universiteti müxtəlif sahələrdə keyfiyyətli təhsil verməklə tanınmışdır. Öz təhsilində akademik keyfiyyətli və beynəlxalq standartları təmin etmək üçün universitet beynəlxalq əlaqələrini və əməkdaşlığını inkişaf etdirməyə xüsusi diqqət yetirir. Bu baxımdan sosial elmlər, hüquq, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, biznes idarəçiliyi, menecment, təhsil, boloji və tibbi elmlər və s. sahələrində daha geniş beynəlxalq əlaqələr yaradılmış, diqqəti cəlb edən uğurlar qazanılmışdır.

Xəzər Universiteti Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Xarici İşlər Nazirliyi və başqa dövlət qurumları ilə yaxşı əməkdaşlıq və faydalı əlaqələr yaratmışdır. Universitet eyni zamanda Azərbaycanda fəaliyyətdə olan xarici nümayəndəliklərlə, məsələn, səfirliklər, biznes şirkətləri, fondlarla güclü əlaqələrə malikdir. Xüsusilə də Azərbaycandakı Amerika, Britaniya, İsrail, İtaliya, Türkiyə, İran, Rusiya, Çin, Fransa, Pakistan və digər ölkələrin səfirlikləri ilə sıx əməkdaşlıq yaradılmışdır və bu əlaqələr gündən-günə güclənməkdədir. Müxtəlif səfirliklərin rəsmi nümayəndələrinin Xəzər Universitetinin müəllim və tələbəri qarşısında aktual mövzularda müşazirələr oxuması adi hala çevrilmişdir.

Universitetdə elmin müxtəlif sahələrinə aid on minlərlə dərslik və monoqrafiyaları qoruyub saxlayan və oxucuların istifadəsinə verən zəngin kitabxana fəaliyyət göstərir.

Xəzər Universitetinin kitabxanası 1991-ci ildə – ali məktəb fəaliyyətə başladığı gündən təşkil olunmuşdur. Kitabxana əvvəllər universitetlə birlikdə Xətai rayonunun Əhmədli qəsəbəsində, uşaq bağçasının binasında yerləşib, 1995-ci ildə isə universitetin yeni binasına köçmüşdür. Hazırda kitabxana nisbətən geniş otaqlarda yerləşir. Universitetin 1-ci mərtəbəsindəki 5 böyük otaqda yerləşən kitabxananın 3 oxu zalı var. Hər bir zalda eyni zamanda 20 nəfərdən çox oxucu məşğul ola bilir. Kitabxanaya əvvəllər Şəhla Nağıyeva rəhbərlik etmişdir. Hazırda kitabxananın direktoru Tatyana Zaytsevadır.

Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzi ən mühüm elmi informasiya mərkəzi olduğundan onun əsas vəzifəsi elmin və texnikanın nailiyyətlərini, ölkəmizin və dünyanın mədəniyyət xəzinəsini, müxtəlif sənədləri elmi cəhətdən sistemli qaydada işləyib dərindən öyrənmək, məlumat-informasiya aparatı vasitəsi ilə bütün informasiya növlərindən istifadə edərək oxucuları operativ, dolğun, obyektiv məlumatla müntəzəm olaraq təmin etməkdir. Bununla yanaşı, kitabxana universitetdə elm və təhsil prosesinin səviyyəsi haqqında obyektiv məlumat əldə etmək baxımından əsas qurumdur, çünki kitabxana

informasiya institutu olaraq müxtəlif sahələrə dair məlumatlar toplayır, sistemləşdirir və oxuculara çatdırır.

Xəzər Universitetinin kitabxanası respublikamızda ilk kömpüterləşdirilən kitabxanalardandır. Burada hər bir tələbənin kitabxanadan istifadəsi kompüterlər vasitəsi ilə hesablanır və tələbəyə bal qiyməti verilir. Bu tədbir tələbələrin kitabxanaya, o cümlədən fəal mütaliə prosesinə cəlb edilməsi üçün vacib tədbirdir. Bu da onu göstərir ki, özəl tədris müəssisələrinin kitabxanaları bəzi dövlət tədris sistemlərinin kitabxanaları ilə müqayisədə daha yeni, orijinal və mütərəqqi iş üsullarından istifadə edirlər. Bu cəhətdən Xəzər Universitəsi kitabxanasının iş təcrübəsini öyrənmək və dövlət ali məktəb kitabxana sistemlərində tətbiq etmək məqsədəuyğundur.

Xəzər Universiteti rektorunun 1 may 2000-ci il tarixli T/08 №-li əmrinə əsasən informasiya-kitabxana xidmətinin keyfiyyət və effektivliyinin artırılması və əvvəlki dövrdə kitabxana tərəfindən yerinə yetirilmiş funksiyaların daha da genişləndirilməsi məqsədi ilə kitabxananın bazasında İnformasiya-Kitabxana Mərkəzi təşkil edilmiş və həmin mərkəzin tərkibində bu bölmələr yaradılmışdır:

Analitik inkişaf bölməsi;

- Xidmət bölməsi;
- Elektron-məlumat və informasiya bölməsi.

Hazırda kitabxanada bu bölmələr fəaliyyət göstərir:

- abonement və oxu zalları;
- məlumat-biblioqrafiya aparatı;
- komplektləşdirmə və kitabişləmə bölməsi;
- kompüter xidməti;
- kseroks xidməti.

2000-ci il yanvarın 1-nə olan məlumata əsasən, Xəzər Universitəsinin kitabxanası 839 nəfərdən çox oxucuya xidmət göstərmişdir. Onlardan 628 nəfərini tələbələr, 128 nəfərini professor-müəllim heyəti, 10 nəfərini məktəblilər, qalanlarını isə digər oxucular təşkil etmişdir.

Həmin il kitabxananın fondunda 30 min nüsxəyə yaxın kitab və jurnal olmuş, oxuculara 10 min nüsxədən artıq ədəbiyyat verilmişdir.

Təkcə 1999-cu ilin 8 ayı ərzində kitabxananın statistik göstəriciləri belə olmuşdur:

- Kitab fonduna cəmi 2688 nüsxə kitab və jurnal daxil olmuşdur Onlardan 940 nüsxəsi Azərbaycan, 315 nüsxəsi incilis, 1390 nüsxəsi rus, qalanı isə başqa dillərdədir;
- Abonement xidmətində oxuculara 1421 kitab verilmişdir;



Qeyd edək ki, kitabxananın xidmət dairəsi ildən-ilə genişlənir və o, eyni zamanda kütləvi kitabxananın funksiyalarını da yerinə yetirir.

Kitabxanada oxucuların hər biri ilə fərdi iş aparılır. Onlara kitabxana haqqında tam məlumatla yanaşı, yeni alınan ədəbiyyat haqqında da informasiya verilir. Həmçinin oxucuları maraqlandıran mövzulara aid ədəbiyyat seçilir və müəyyən mənada onların mütaliəsinə rəhbərlik edilir. Universitetdə tələbələr, demək olar ki, 100% kitabxana xidməti ilə əhatə edilmişdir. Tələbələr haqqında məlumatlar, onlara verilən və qaytarılan kitablar kompüterin yaddaşına yazılır. Oxuculara verilən kitabların vaxtında qaytarılmasına kompüterlər vasitəsi ilə nəzarət edilir. Kitab vaxtında qaytarılmasa, tələbə 1 ay fonddan istifadədən məhrum edilir və bu barədə onun oxuduğu fakültəyə məlumat verilir. Əgər kitab itirilərsə, onun qiymətinin 10 qat dəyəri ödənilir və əksər hallarda gətirilən kitabın elektroqrafik surətini vermək tələb olunur.

Kitabxanada ardıcıl olaraq məlumat-biblioqrafiya işi aparılır. Vaxtaşırı mövzu kartotekası lazımi məlumatlarla təmin edilir ki, bu da oxucu sorğularının operativ ödənilməsinə kömək edir. Mütəmadi olaraq mərkəzi qəzetlərin iki dildə (Azərbaycan və rus) biblioqrafik kartotekası (yazılışı) hazırlanır.

"Journal Donation Proqram" (JDP) və SJDP jurnallarının yazılışı kompüter variantında hazırlanır. Kitabxana fondda multimedia ensiklopediyalar kolleksiyası ilə də oxuculara xidmət göstərir. Burada hər il oxuculara 5000-dən çox biblioqrafik arayış verir. Məsələn, təkcə 2002-ci ilin 8 ayı ərzində oxuculara 4805 biblioqrafik arayış verilmişdir ki, onların 2123-ü ingilis, 1564-ü Azərbaycan, 109-u rus və digər dillərdə olmuşdur.

Kitabxana hər il xarici ölkə kitabxanalarından cari nəşrlərin elektron disklərdə yazılmış biblioqrafik və referativ informasiyaları alır. Bu xidmət üsulundan professor-müəllim heyətinin biblioqrafik axtarışında daha geniş istifadə edilir. Onlar kitab verilişi statistikasına daxil edilmir, biblioqrafik arayışlar hesab edilir. Kitabxanada hər il 1000-dən çox belə arayış verilir. Disklərin istifadəsində kitabxanada qoyulmuş fərdi kompüterdən istifadə olunur və bununla da kitabxanaçılar yazılı arayışların tərkibi kimi ağır işdən azad edilir.

Kitabxanada oxuculara xidmət məqsədi ilə hər il müxtəlif kütləvi tədbirlər keçirilir. Bu tədbirlərin əksəriyyəti kitabxananın konfrans zalında keçirilir. Burada həmçinin tələbələrin siyasi və ingilis klublarının məşğələləri, müxtəlif görüşlər, prezentasiyalar, diplom müdafiələri, press-konfranslar və s. tədbirlər də keçirilir. Həmin tədbirlərin keçirilməsində kitabxana müxtəlif mövzular üzrə ədəbiyyatın seçilməsində

tədbir iştirakçılarına köməklik göstərir. Bu məqsədlə kitabxanada "Yeni kitablar" və "Xəzər"in nəşrləri" adlı daimi sərgilər fəaliyyət göstərir. Bununla yanaşı, son illərdə kitabxanada "Kitabi-Dədə Qorqud - 1300", "Azərbaycanın mədəni sərvətləri", M.Müşfiqin, C.Cabbarlının və A.S.Puşkinin yubileylərinə həsr olunmuş sərgilər, "TASİS - TAMPUS Quality Assurance Center Development At Khazar University" və b. adda sərgilər təşkil edilərək oxucuların istifadəsinə verilmişdir.

Universitənin dil xüsusiyyətlərini nəzərə alan kitabxanaçılar fondun komplektləşdirilməsini oxucuların sorğularına əsasən qururlar. Belə ki, kitab fondu əsasən müxtəlif elm sahələri üzrə ingilis dilində ədəbiyyatla, o cümlədən beynəlxalq hüquq, kompüter, neft mühəndisliyi, beynəlxalq iqtisadi münasibətlər, siyasi elmlər, biznes və menecmentə aid kitablar da komplektləşdirilir. Kitabxananın rəhbərliyi müasir dövrün tələblərini nəzərə alaraq gələcəkdə kitab fondunun komplektləşdirilməsini ingilis, fransız, ispan, yapon, türk, ərəb, fars və digər dillərdə olan nəşrlərlə həyata keçirilməsini nəzərdə tutub.

Kitab fondunun tərkibi, həcmi, vəzifəsi kitabxananın oxucu kontingentinin xarakteristikası ilə təyin edilir. Həmçinin oxuculara xidmətin kəmiyyət və keyfiyyət göstəriciləri - informasiya sorğularının ödənilməsi vəziyyəti, onların miqdarı kitabxana fondunun optimallığının meyarıdır. Məhz bu meyar Xəzər Universiteti kitabxanasında fondun gələcək inkişaf istiqamətlərini təyin edir. Ötən müddət ərzində kitabxanada kitab fondunun öyrənilməsinə, indeksləşdirilməsinə, yerləşdirilməsinə və mühafizəsinə dair xeyli işlər görülmüşdür. Bu cəhətdən kitabxanada siyasi ədəbiyyatın arxiv fondunun yaradılması nümunəvi iş kimi qiymətləndirilməlidir. Bununla belə, həmin ədəbiyyatın sistemləşdirilməsinə dair xeyli iş aparılmalıdır. Kitabxanada fondun müəyyən hissəsi bütün elm sahələri üzrə M.Düinin «Onluq Təsnifat»ı əsasında indeksləşdirilib. Burada ümumi uçot və inventar kitab yoxdur, onları kompüter yaddaşı əvəz edir. Kitabxanada fondun komplektləşdirilməsi üçün qabaqcadan sifariş hazırlanmır. Kitabxana xarici ölkələrin əlaqədar universitet kitabxanaları ilə əlaqə yaradır, yerli nəşrlərə onların tələbatını öyrənir, lazımi kitabları əldə edərək beynəlxalq qiymətlərlə həmin ölkələrin kitabxanalarına satır və əvəzində həmin ölkələrdən universitənin profilinə uyğun nəşrləri alırlar. Bununla da beynəlxalq kitab mübadiləsini inkişaf etdirirlər. Kitabların yerli qiymətləri beynəlxalq qiymətlərindən xeyli ucuz olduğundan satılan kitabların əvəzinə daha çox sənədlər almaq olur.

Kitabxanada fondun komplektləşdirilməsində yerli mətbuatdan da geniş formada istifadə olunur. Belə ki, kitabxana hər il rus dilində



29, ingilis dilində 51, Azərbaycan dilində 9 və digər dillərdə 4 adda qəzet və jurnal alaraq fonda daxil edir. Gələcəkdə kitabxana fondunun daha da təkmilləşdirilməsi nəzərdə tutulmuşdur. Bu isə oxuculara lazımi materiallarla işləməyə daha çox imkan yaradacaq və qlobal İNTERNET şəbəkəsinin müasir informasiya imkanlarından istifadə etməkdə yaxından köməklik göstərəcəkdir.

Bütün bunlara baxmayaraq, universitə kitabxanasında görüləsi işlər hələ çoxdur. Təəssüflə qeyd edilməlidir ki, kitabxanada son dövrlərə kimi heç bir kataloq növü yoxdur: nə əlifba, nə sistemli, nə elektron versiyalı kataloq. Hazırda elektron kataloqun yaradılması ilə əlaqədar universitədə müəyyən işlər görülsə də, əlifba və sistemli kataloqun yaradılması kitabxana qarşısında duran ən vacib məsələlərdən biridir. Qeyd etmək lazımdır ki, kitabxanada kataloqun formalaşması bilavasitə sistemləşdirmə prosesi ilə bağlı olduğundan, sistemli kataloqu kitab fondunda olan kitabların informasiya mənbəyi hesab etmək olar. Kitabxanada sistemli kataloqla yanaşı xidmət - əlifba kataloqlarının yaradılması da daxili işlər üçün vacibdir. Belə ki, əlifba kataloqu məlumat-sorğu aparatının əsasını təşkil etməklə oxuculara xidmətdə böyük rol oynayır. Ona görə də bütün bu işləri yaxın vaxtlarda universitə kitabxanasında həyata keçirmək vacib məsələlərdəndir.

Kitabxanada fondun inventarlaşması da tam qənaətbəxş vəziyyətdə deyil. İnventar kitablarının təhlili göstərir ki, bu iş dövlət standartlarına uyğun şəkildə aparılmamışdır. Belə ki, yazılarda müəyyən səhvlərə yol verilmiş, xeyli düzəlişlər edilmişdir; kitabların qiyməti bəzi yerlərdə göstərilməmiş, səhifələr nömrələnməmiş, tikilməmiş və möhürlənməmişdir; kitabların fərdi uçotu aparılmamış və bəzi hallarda ayrı-ayrı kitablara eyni inventar nömrəsi verilmişdir.

Kitab fondu cəmi 20 inventar kitabında öz əksini tapmışdır. 7 inventar kitabında yazılar müxtəlif dillər üzrə qruplaşdırılmışdır. Lakin inventar kitablarının heç biri kitabxana qaydasında tərtib edilməmişdir.

Bütün bu məsələlər universitənin Elmi Şurasında müzakirə olunmuş və kitabxananın uğurları ilə yanaşı, onun problemləri də göstərilmişdir. Vəziyyətdən çıxış yolu kimi kitabxanada beynəlxalq təcrübədə istifadə edilən "İdarə Heyəti və Himayəçilər Şurası"nın yaradılması məqsədəuyğun hesab edilmişdir.

Belə ki, rektorun 02.01.2002-ci il tarixli K/03 saylı əmri ilə universitetin Kitabxana-İnformasiya Mərkəzinin fəaliyyətini daha da genişləndirmək, meydana çıxan problemləri vaxtında həll etmək, professor-müəllim heyətinə və tələbələrə daha səmərəli xidmətin təşkilinə kömək göstərmək məqsədi ilə bu tərkibdə İdarə Heyəti və Himayəçilər

Şurası yaradılmışdır: Xəzər Universiteti Lüğət və Ensiklopediya Mərkəzinin direktoru, filologiya elmləri namizədi, dosent Tofiq Abbasquliyev, Tarix departamentinin müdiri, tarix elmləri namizədi, dosent Roza Arazova, Humanitar elmlər fakültəsinin baş müəllimi, "Xəzər Xəbər" jurnalının baş redaktor müavini Knyaz Aslan, İqtisadiyyat və menecment fakültəsinin müəllimi, iqtisad elmləri namizədi Fuad Rəsulov və Qadın Araşdırmaları Mərkəzinin prezidenti Nailə İsayeva.

Daha sonra rektor «Kitabxana-İnformasiya Xidməti Mərkəzinin İdarə Heyəti və Himayəçilər Şurasının fəaliyyətinin gücləndirilməsi haqqında» 26 fevral 2002-ci il tarixli T/02 №-li əmr imzalamışdır. Bu əmrdə deyilir ki, Kitabxana-İnformasiya Xidməti Mərkəzinin (KİXM) işini daha da yaxşılaşdırmaq məqsədi ilə universitetin 29.12.2001-ci il tarixli Elmi Şurasında İdarə Heyəti və Himayəçilər Şurası yaradılmış, Kitabxana-İnformasiya Xidməti Mərkəzinin idarə edilməsi və fəaliyyətinə nəzarət funksiyaları bu quruma həvalə edilmişdir. Həmin əmrlə eyni zamanda İdarə Heyəti və Himayəçilər Şurası haqqında Əsasnamə təsdiq edilmiş, bu quruma Mərkəzin direktoru vəzifəsini tutmaq üçün müsabiqə elan etmək və müsabiqə komissiyası yaratmaq məsələləri tapşırılmışdır.

"İdarə Heyəti və Himayəçilər Şurası" nə deməkdir? Bu məsələyə öz münasibətini bildirən universitetin rektoru, professor Hamlet İsaxanlı Elmi Şuradakı çıxışında demişdir: "Elm-təhsil məsələləri ilə məşğul olan qurumlarda təkhakimiyyətlik heç də yaxşı idarəetmə üsulu deyil. Təkhakimiyyətlik həmişə strategiyadan - əsas məqsəddən yayınmaya, məsələ ətrafında müzakirələrin və düzgün qərarlar qəbul edilməsinin ləngitməsinə gətirib çıxarar, bəzi mühüm məsələlərin yaddan çıxmasına, ikinci dərəcəli məsələlərin önə çıxmasına, zəifləməsinə, ləngiməsinə səbəb ola bilər. Nəhayət, cəmiyyət üçün və bizim üçün arzuolunmaz "ətalət" qanununun həlledici olmasına gətirib çıxara bilər. Bütün bunların qarşısını almaq üçün həm elm, həm təhsil sahəsində, həm də geniş mənada iş aləmində, biznes aləmində, dövlətçilik sahəsində beynəlxalq təcrübədən istifadə etmək çox vacibdir. Belə bir beynəlxalq təcrübə məlumdur ki, idarəetmə sahəsində idarə heyəti və himayəçilər şurası fəaliyyət göstərir. Türkiyədə Himayəçilər Şurasına "Mütəvəlli Heyəti" deyirlər. Əslində idarə heyəti qurumun idarəçiliyi ilə məşğul ola bilər. Himayəçilər şurası isə idarəçiliyə qarışmaya da bilər, qurumu müxtəlif vasitələrlə himayə edə bilər, ona düzgün yol göstərər, məsləhət verə bilər.

Bütün bunları nəzərə alaraq Universitetin 5 fakültəsində, 2 idman komandasında və Kitabxanada İdarə Heyəti və Himayəçilər Şurası yaradılmışdır. Kitabxana İdarə Heyəti və Himayəçilər Şurasına Nailə İsayeva, Tofiq Abbasquliyev, Knyaz Aslan, Roza Arazova və Fuad Rəsulov seçilmişlər. İdarə heyətinin funksiyalarına aşağıdakılar daxildir:

1. Nəzarət mexanizmi;
2. İdarəetmə mexanizmi;
3. Strateji planlaşdırma. Yəni inkişaf, fəaliyyət planı;
4. Maliyyə qaynaqlarının cəlb edilməsinə kömək".

Bu əsas dörd funksiya İdarə Heyəti və Himayəçilər Şurasına xas olan funksiyalardır və hazırda kitabxana bu prinsiplər əsasında fəaliyyət göstərir.

«Xəzər Universieti Kitabxana-İnformasiya Xidməti Mərkəzinin İdarə Heyəti və Himayəçilər Şurası haqqında Əsasnamə»də qeyd edilir ki, yeni yaradılan Şura (yaxud İdarə Heyəti) KİXM-in rəhbər orqanıdır. Onun tərkibi rektorun əmri ilə təsdiq edilir.

Şuranın (İdarə Heyətinin) səlahiyyətlərinə bu məsələlər aid edilmişdir:

- Kitabxana-İnformasiya Xidməti Mərkəzinin illik, rüblük və aylıq planlarının təsdiqi;
- Kitabxana-İnformasiya Xidməti Mərkəzinin inkişaf planının müzakirəsi və təsdiqi;
- mövcud olan ştatlar çərçivəsində yerdəyişmələrin həyata keçirilməsi;
- normativ aktların və vəzifə öhdəliklərinin muzakirəsi və təsdiqi;
- universitet rəhbərliyinə Kitabxana-İnformasiya Xidməti Mərkəzinin ştat cədvəlinin dəyişdirilməsi, vəzifə təyinatları, mükafatlandırmalar, işəgötürülmə və işdənçıxarılma məsələləri ilə bağlı təqdimatların verilməsi;
- Kitabxana-İnformasiya Xidməti Mərkəzinin xarici əlaqələri, müxtəlif layihələrdə iştirakı ilə bağlı dicər məsələlərin həlli;
- Kitabxana-İnformasiya Xidməti Mərkəzinin gördüyü işlər haqqında hesabatların müzakirəsi.

2004-cü il iyun ayının 11-də Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzi daha bir layihə həyata keçirmişdir. Belə ki, ABŞ-ın Sabre Fondundan bu təhsil ocağının kitabxanasına 14 min nüsxədən ibarət yeni kitab kolleksiyası gətirilmişdir.

Məlumat üçün deyək ki, kitab kolleksiyasına daxil olan kitabların hamısı ingilis dilindədir. Xatırladırıq ki, 1969-cu ildə əsası qoyulan Sabre Fondu bu günə qədər Afrika, Latın Amerikası, Mərkəzi və Şərqi

Avropa, o cümlədən keçmiş Sovet İttifaqı və Asiya ölkələrinin 200-dən çox nəşriyyatına kitab hədiyyə vermişdir.

Sabre Fondunun Xəzər Universiteti kitabxanasına təqdim edilmiş çox dəyərli kitab hədiyyəsinin məbləği bazar qiyməti ilə təxminən 420 min ABŞ dolları dəyərindədir.

Kitabxanada həmin kitabların təqdimat mərasimi keçirilmiş, tədbirdə respublikamızın bir sıra iri kitabxanalarının nümayəndələri iştirak etmişlər. Həmin tədbirdə KİM-in hazırladığı sərgidə kitab kolleksiyasının bir hissəsi – bədii ədəbiyyat, incəsənət, etika, riyaziyyat, psixologiya, iqtisadiyyat, idman, tibb, tarix, coğrafiya və dicər elmlərə dair kitablar, habelə uşaq ədəbiyyatı kitab həvəskarlarına nümayiş etdirilmişdir.

Mərasimdə çıxış edən Xəzər Universitetinin rektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlı demişdir: «Kitablar hər birimizin həyatında böyük rol oynayır. Biz də kitabxanamızı daha da zənginləşdirmək, oxucularımızın ehtiyacını ödəmək üçün bu kitabları əldə etdik. Xəzər Universiteti hər zaman çalışır ki, yerli oxucuları dünya ədəbiyyatı ilə, yeni işıq üçü görən kitablarla tanış etsin. Biz artıq iki ildir ki, bu layihə üzərində işləyirik. İnanırıq ki, həm tələbələrimiz, hə m də kitabxanamızdan istifadə edən başqa oxucular bu kitablardan faydalana biləcəklər».

Rektor layihə çərçivəsində onlara göstərdikləri köməyə görə Amerika-Azərbaycan Ticarət Palatasına, Harvard Universitetinə və ABŞ-ın Azərbaycandakı Səfirliyinə təşəkkürünü bildirmişdir.

Tədbirdə KİM-in direktoru Tatyana Zaytseva Power Point animasiya slaydının köməyi ilə KİM haqqında qısaca məlumat verərək Sabre Fondunun fantastik imkanlarını iştirakçıların nəzərinə çatdırmışdır. O, həmçinin yeni kitablar üçün yaradılmış elektron materiallar və ictimaiyyətin istifadəsində olan seçilmiş İnternet resursları ilə əlaqə yaradan Vub-əsaslı portal mövzusuna toxunmuş və demişdir ki, xüsusiləşmiş sərgilər kitabların əldə edilməsində ümumi ictimaiyyətə məlumatvermənin ən gözəl yollarından biridir. KİM təmənnasız olaraq müxtəlif sərgilərdə iştirak etmişdir.

Ümumiyyətlə, Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzi yeni yaradılmış kitabxana olsa da, beynəlxalq təcrübələri öz fəaliyyətində fəal tətbiq edən, öz orijinal ənənəsi olan müasir tipli nümunəvi kitabxanadr. Kitabxana Universitetin bütün fəaliyyət sahələri ilə sıx inteqrasiya olunmuşdur. Onun qabaqcıl təcrübəsini öyrənmək ayrı-ayrı dövlət ali məktəb kitabxanaları üçün vacib və əhəmiyyətli məsələlərdəndir.



## ƏDƏBİYYAT


1. *«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Xalq qəzeti.- 1999.- 14 mart.*

2. *ГОСТ 71-84. Библиографическое описание документа // Структура и порядок составления. Введ. в действии. С. 01.01.852. - М., 1998, - 68 с.*

3. *Xəzər Universitəsi. Həftəlik informasiya bülleteni. - 2002. - №76. - 27 s.*

4. *Xəzər Universitəsinin 2002-2003-cü illər üzrə elmi-tədqiqat fəaliyyətinə dair hesabatı.*

5. *Sabre Fondundan yeni kitab kolleksiyası: Təqdimat mərasimi // Xəzər Xəbər.- 2004.-15 iyun.-№169.-S.11.*



***Мехманали Мамедов***

***Князь Аслан***


## ОРГАНИЗАЦИЯ БИБЛИОТЕЧНОЙ РАБОТЫ В ЧАСТНЫХ ВУЗАХ

***(По материалам работы Библиотечно-Информационного Центра Университета Хазар)***

### *РЕЗЮМЕ*


***В статье освещается организация библиотечной работы в частных высших учебных заведениях Азербайджанской Республики.***

***Авторы обобщают вопросы по материалам работы Библиотечно-Информационного Центра Университета Хазар.***

***Здесь же обясняется роль научной библиотеки Университета Хазар в организации учебы и регуляции научно-исследовательской работ университета, в том числе методическая деятельность и обслуживании читателей.***

***Yusif QAZIYEV***
*Pedaqoji elmlər namizədi*

# MƏKTƏB KİTABXANASINDA KEÇİRİLƏN QİRAƏTLƏR VƏ ONLARIN OXUCULARIN FORMALAŞMASINDA ROLU

Məktəb kitabxanalarında pedaqoji kollektivlə əlbir keçirilən qiraət işi kütləvi mütaliə formalarının ən əlverişlisidir.

Müşahidələr göstərir ki, məktəblilərin əksəriyyəti bu və ya digər mətni məntiqi vurğulara riayət etmədən, yeknəsəq və qüsurlu oxuyur,ə beləliklə, məzmununu dinləyiciyə dolğun çatdıra bilmirlər. Bu qüsurlara aşağı və orta siniflərdəki dərslərdə və sinifdənkənar tədbirlərdə tez-tez rast gəlmək olur. Ona görə düzgün qiraət vərdişləri aşılamaq üçün kiçikyaşlı şagirdlərlə uzun müddət və ardıcıl işləmək lazım gəlir. Şagirdlərin qiraəti zamanı bu məqsəd və vəzifələrə nail olmaq vacibdir:

1. Yaş imkanlarını nəzərə alaraq müxtəlif siniflərdə səmərəli qiraət bacarıq və vərdişlərini və qiraət metodlarını şagirdlərə aşılamaq;

2. Qiraət vasitəsilə məktəbli oxucuların mütaliə və mədəniyyətlərini inkişaf etdirmək;

3. Oxunmuş bədii əsərlərin məzmununu, ideya-bədii xüsusiyyətlərini müsbət və mənfi surətləri və s. dolğun mənimsəmək.

Qiraətin məzmunca aşağıdakı növləri vardır: izahlı qiraət, ifadəli qiraət və ucadan oxu. Bu oxu növlərindən təlimə kömək etmək məqsədi ilə məktəb kitabxanalarında müəyyən tədbirlərlə əlaqədar geniş istifadə olunur.

Ucadan oxu müəyyən mətn və əsərlərin fonetik, orfoepik və sintaktik qaydalara riayət edilməklə oxunuşudur. Burada məqsəd orfoepiya qaydalarını mənimsətmək və həmçinin məzmununu izahatla öyrənməkdir.

İfadəli qiraət - ədəbi qiraət normalarına riayət edib, ucadan (əzbər və ya kitabdan) oxumaqla mətnin ideya-obraz məzmununu vermək üsuludur.

Ucadan oxu I-II sinif şagirdləri üçün sərfəlidir. I sinif şagirdləri öz texnikasına tam yiyələnmiş olur. Həmçinin onların da oxuduğu söz, ifadə və cümlələri yadda saxlamaq imkanlarını inkişaf etdirmək çox vacibdir. Odur ki, sinifdənxaric qiraətlə onların oxu texnikasını inkişaf etdirmək və təkmilləşdirmək lazımdır.

Bu işi yalnız kitabxanaçı yerinə yetirmir. Kitabxanaçının təşəbbüsü ilə oxu zalında sinif müəllimlər ardıcıl olaraq I-IV sinif şagirdlərinin zəruri qiraət, söz və cümlələri düzgün, aydın və ifadəli oxumaq, səsi düzgün ifadə etmək, sual, nida və s. intonasiyalara, məntiqi vurğulara riayət etmək və s. vərdişlərini mənimsədirlər. Ucadan oxu təkcə ibtidai siniflərdə yox, habelə orta və yuxarı siniflərdə bir sıra tədbirlərdə: müzakirələrdə, konfranslarda və s. mütaliə mədəniyyətini təkmilləşdirmək üçün istifadə edilir. Məsələn, Bakının 276 №-li məktəbinin kitabxanaçısı kitab həvəskarları ilə vaxtaşırı qiraət keçirir. Bundan başqa, müxtəlif tarixi günlərdə, yubiley gecələrində, görüşlərdə kitabxanaçının müəllimlərlə birgə ibtidai və orta sinif şagirdlərinin çıxışlarını təşkil etməsi bir çox məktəblərdə ənənəyə çevrilmişdir.

Bunlarla birlikdə, ifadəli qiraət və məktəb kitabxanasının işində xüsusi yer tutur. Bu işdə məktəb kitabxanaçısının sinif və fənn müəllimləri ilə birgə fəaliyyəti işin müvəffəqiyyətli keçməsini təmin edir.

İfadəli qiraətdən səmərəli nəticə əldə etmək üçün aşağıdakı pedaqoji tələblərə əməl etmək vacibdir:

1. Qiraət üçün seçilmiş mətn və kitablar şagirdlərin yaş və bilik səviyyəsinə, idrak imkanlarına uyğun olmalı, öz bədiiliyi, məzmun gözəlliyi, dilinin sadəliyi və zənginliyi ilə fərqlənməlidir.

2. Qiraət planla, ardıcıl və asandan çətinə doğru aparılmalıdır.

3. İfadəli qiraət tədbirləri müəyyən planla, ciddi hazırlıqdan, təkrar-təkrar məşqlərdən sonra təşkil olunmalıdır. Ancaq işin belə təşkili arzu olunun səmərəli nəticələr verə bilər.

Qiraətlər müəllimin oxusu, söz ustalarının (aktyor, şair və b.), oxucu və şagirdlərin oxusu formalarında da aparılır. Söz ustalarının və müəllimin oxusu şagirdlər üçün nümunə rolunu oynayır. Odur ki, müəllimin (kitabxanaçının) oxuya hazırlığı əsas şərtdir. Oxuya hazırlığın ilk addımı iş planının tutulması və məzmunun (kitabın, mətnin) seçilməsidir.

Qabaqcıl məktəb təcrübəsi ilə tanışlıq göstərdi ki, kitabxanaçı müəllimlərlə birlikdə rüblük və yarımillik iş planlarında ifadəli oxu, disput və s. tədbirlər əks etdirirlər. Bu planlarla şagirdlər tanış edilirlər.

Məlumdur ki, ifadəli oxu birinci sinifdən başlayır. Burada aşağıdakı əsas vəzifələr nəzərdə tutulmalıdır:

1. Şagirdlər əsərin mətnini oxuyaraq yaxşı başa düşməlidirlər ki, oxuduqlarını dinləyicilərə çatdıra bilsinlər.

2. Şagirdlərdə əsərdə danışılan bütün şeylər haqqında canlı və düzgün münasibət olmalıdır.

3. Şagirdlər əsərin mətnini dərk etmək arzusunda olmalı, konkret məzmununu nağıl etməlidir: faktları, hadisələri, təbiət təsvirlərini elə vermək lazımdır ki, dinləyicilər onları düzgün başa düşsünlər və qiymətləndirsinlər.

Bu vəzifələri yerinə yetirmək məqsədilə I-IV sinif şagirdləri üçün kiçik hekayələrin, nağılların, dastanlardan müəyyən parçaların ifadəli qiraətini keçirmək məsləhət görülür və burada ancaq praktiki vərdişlər yaradılmasına üstünlük verilməlidir.

İfadəli qiraətə dair nəzəri biliklər V-VIII siniflərdə verilir, 11-13 yaşlı şagirdlərin psixi inkişaf səviyyəsi xeyli yüksəkdir: onların təfəkkürü, nitqi, iradi yaddaşı, diqqəti, qavrayışı yüksək inkişaf etmişdir. Bu keyfiyyətlərlə fövqəladə olaraq bu yaşda ifadəli qiraəti yüksək psixi-mənəvi bünövrə üzərində qurmağa imkan verir.

V-VIII siniflərin ədəbiyyat proqramı üzrə şagirdlər müxtəlif ədəbi janr nümunələri: hekayə, povest və romanlardan parçalarla, dram və poetik əsər nümunələri ilə tanış olur, dərslərdə onların (irihəcmli əsərlərdən parçaların) izahlı, ifadəli və dramatik oxusunu öyrənirlər. Bu iş sinifdənxaric oxularda, kitabxanada davam etdirilir.

Bakıdakı 276 №-li məktəbin kitabxanasında keçirilən bir ifadəli qiraət tədbirləri ilə tanış olaq. Kitabxanaçı ədəbiyyat müəllimi ilə birlikdə 8 Mart münasibəti ilə VI-VII sinif şagirdlərinə S.Vurğunun «Bəsti», N.Xəzrinin «Günəşin bacısı» poemalarından müvafiq parçaları seçib əzbərləməyi, ifadəli oxumağı tapşırır, əlavə məşğələlərdə onların ifasını dinləyir. Lazımi tövsiyə və təshihlər aparır. Tədbir yüksək səviyyədə keçir, arada uşaqların ifasında qəhrəman qadınlara, analara həsr olunmuş mahnılar dinlənilir.

Qiraət ardıcıl olmalıdır. O, siniflər üzrə aparılırsa, daha faydalıdır. Onun üçün qiraətləri həftənin müvafiq günündə keçirmək əlverişlidir. Ardıcıllığı təmin etmək üçün dinləyicilərin həmişəlik auditoriyasını təşkil etmək, silsilə qiraətlər keçirmək məqsədəmüvafiqdir. Burada bir əsərin oxusu yox, bir mövzu üzrə bir neçə əsərdən ibarət ssenari hazırlanır, uşaqlar arasında bölüşdürülür və müəyyən məşqlərdən, hazırlıqdan sonra keçirilir.

Belə tədbirlərin üstün cəhəti ondan ibarətdir ki, həmin tədbirə eyni pillədə oxuyan (deyək ki, orta siniflərdə) əksər şagirdlər cəlb olunur. Lakin belə kütləvi tədbirlər böyük təşkilatçılıq tələb edir: lazım olan materialları toplamaq, mütaliəni təşkil etmək, məşqlər keçirmək və s. hazırlıq işləri böyük zəhmət tələb edir və vaxt aparır.



Qabaqcıl məktəb kitabxanaçıları şagirlərə düzgün qiraət vərdişləri aşılamaq üçün onların nümunəvi oxu və nitqlərini, bununla yanaşı, bəzi radio və televiziya verilişlərini maqnitafona yazır, onu təkrar oxutdururlar. Bu zaman şagirdlər söz və cümlələrin deyilişini dinləyir, radio, televiziya verlişlərindən yazılmışları özlərininki ilə müqayisə edirlər, səhvlər dərk olunur, beləliklə, orfoepiya və intonasiya qaydalarına şüurlu yiyələnirlər.

Məlum olduğu kimi, bir çox məktəb kitabxanalarının nəzdində dərnəklər fəaliyyət göstərir. Həmin dərnəklər içərisində qiraət dərnəkləri də vardır. Bakıdakı 132, Gəncə şəhərindəki 5 №-li məktəblərin kitabxanalarında ingilis dili, Bakıdakı 18, 172 №-li məktəblərin kitabxanalarında rus dili, Bakıdakı 23, 28, 190 və 199 №-li məktəblərin kitabxanalarında qiraət dərnəkləri mövcuddur. Bu dərnəklər ana dili, rus dili və xarici dillərin öyrənilməsində az rol oynamır.

Qiraət dərnəklərinin məqsədi şagirdlərdə bədii əsərlərə, fənlərə məhəbbət oyatmaq, onların nitq və mütaliə mədəniyyətini inkişaf etdirmək, qiraət sənətinə yiyələnməkdir.

Dərnək tərkib etibarilə şagirdlərin yaş dərəcəsinə uyğun olaraq təşkil olunur. Məşğələlər həftədə bir və ya ayda iki dəfə keçirilir.

İfadəli qiraət dərnəyində fərdi və kollektiv iş formaları nümayiş etdirilir. Dərnək üzvlərinin hər biri ayrısa əsər üzərində işləyirlər. Əsərin təhlilinə və icranın müzakirəsinə bütün üzvlər cəlb edilir. Nitq texnikası məşğələləri kollektiv keçirilir, nitq qüsurları düzəldilir. Təsəvvürün inkişafı üçün aparılan çalışma və terminlər, çıxış etmək bacarığı və dinləyicilərlə rəftar və s. məsələlər kollektiv müzakirə edilir. Həmçinin icra üzərində aparılan fərdi işlər kollektiv işlə əlaqələndirilir.

İfadəli qiraət işində ən səmərəli iş dinləyicilər qarşısında çıxış etməkdir. Hər dərnək üzvünə öz ifasının keyfiyyətinə tələbkar münasibət tərbiyə etmək və pis hazırlanmış oxunun ifasına icazə verməmək lazımdır. Hər bir dərnək üzvü inadlı əməyin zəruriliyini başa düşməli və çıxışa ciddi hazırlaşmalıdır.

İfa üçün material dərnək üzvləri tərəfindən seçilir. Onların hər biri yalnız özləri üçün yox, öz yoldaşları üçün də material seçməyi bacarırlar. Müvafiq material seçmək axtarışları onları çox oxumağa məcbur edir, ədəbi görüş dairəsini genişləndirir.

Burada başlıca vəzifə dərnək işinin məktəbin təlim işi ilə əlaqəsidir. Dərnək üzvləri ifadəli oxu üzrə sinfin fəalları olurlar. Məhz bu baxımdan dərnəyin proqramı tədris proqramının materialına yaxın olan, onunla əlaqədar olan əsərlər üzərində tutulmalıdır. Məktəb

kitabxanalarında fəaliyyət göstərən qiraət dərnəklərinin təlim işinə köməyi şagirdlərin müvəffəqiyyətləri ilə müəyyən edilir.

Bu dərnəyin fəaliyyətində əsas məqam oxucular qarşısında çıxışlardır. Şagirdlər söz ustalarının canlı çıxışlarını dinləməyə böyük həvəs göstərirlər. İfaçıların çıxışları tamaşaçılara və əksinə, tamaşaçıların ifaçılara böyük təsiri vardır. Şagirdlərin səliqəli pardaxlanmış çıxışları dinləyicilərdə bədii söz sənəti üzərində ciddi məşğul olmaq arzusu doğurur. Bu baxımdan ildə bir dəfə aprel-may aylarında ifadəli qiraətə ümumməktəb baxış-müsabiqələri keçirilməsi bədii-estetik tərbiyənin ən təsirli forması olub, bədii ədəbiyyata maraq oyatmaqda misilsiz rol oynayır. Baxışdan səmərəli nəticə əldə etmək üçün onun münsiflər heyətinin tərkibi müəyyən edilir, baxışın proqramı ayrı-ayrı siniflərdə bu işlə məşğul olacaq adamlar (sinif rəhbərləri) onların məşğələ cədvəli tərtib edilir, məşğələlər müsabiqəyə qədər davam etdirilir. Müsabiqə qaliblərinin kitabla, tərifnamə, təşəkkür və s. təltif edilməsi uşaqlara unudulmaz təsir edir və kitaba, mütaliəyə canlı maraq oyadır.

Qeyd etdiyimiz mülahizələr aydın göstərir ki, kitabxanada fənn (sinif) müəllimlərinin, sinif rəhbərlərinin keçirdiyi qiraət təlimin bütün pillələrində olan şagirdlərdə mütaliəyə canlı maraq oyadır, onların mütaliə mədəniyyətinin, oxucu sorğularının, nitqinin və s. inkişafında əsas rol oynayır.

Qiraətin məhsulu nağıl etmədir. Bu da 4 formada - müfəssəl nağıletmə, qısa nağıletmə, dəyişdirilmiş formada nağıletmə, bədii (yaradıcı məzmuna toxunmadan hekayənin müəllifi kimi çıxış etmək) nağıletmə. Nağıletmənin səmərəliliyi isə söhbət və müsahibə ilə yekunlaşdırılmasıdır.

Nəticə olaraq aşağıdakıları demək olar:

1. Qiraətlər oxunan əsər və mətnlərin dərindən qavranılmasına, bədii ədəbiyyatı söz sənəti kimi oxuculara aşılayır, şagirdlərin təsəvvürünü inkişaf etdirir. Oxucular oxunmuş materialdan ümumi nəticə çıxartmaq qabiliyyətinə malik olurlar.

2. Nağıl etmə əsərlərin öyrənilməsi və bədii tərbiyənin aşılanması vasitələrindən biri kimi çıxış edir. O, nitq sənətinin xüsusi növüdür, kitabın-əsərin məzmununu dinləyicilərə tez çatdırır. Təcrübə göstərir ki, dinləyicilər oxucudan çox şifahi nağıl etməyə diqqət yetirirlər.

Nağıl etmə əsərin (mətnin) süjet xəttini, ideya və məzmununu bədii boyalarla dinləyicilərə çatdırır.

4. İfadəli qiraət və nağıl etmə sərbəst mütaliəni inkişaf etdirir, şagirdlərin biliklərini zənginləşdirir.

***Təranə MİRZƏYEVA***
*Magistrant*

# MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNDƏ MİLLİ İDEOLOGİYA PROBLEMİ VƏ ONUN İNFORMASİYA TƏMİNATI

SSRİ-nin dağılması, keçmiş müttəfiq respublikaların, o cümlədən Azərbaycanın yenidən öz müstəqilliyini əldə etməsi, bununla cəmiyyətdə baş verən dərin sosial-iqtisadi dəyişiklik, açıq bazar iqtisadiyyatına keçid ideoloji istiqamətdə də yeniləşmə tələbini irəli sürdü. Sovet dövründə düzgün ideologiya hesab edilən Marksizm-Leninizm ideologiyası əvəzinə milli ənənələrimizi, dünya sivilizasiyasının müvafiq dəyərlərini əks etdirən yeni ideologiyanın formalaşmasını və müxtəlif fəaliyyət sahələrində tətbiqini zəruriləşdirir.

Gənc müstəqil dövlət kimi Azərbaycan Respublikası dünya siyasətinə çıxmaq, mövqeyini möhkəmləndirmək üçün siyasi strateji xəttini müəyyən edir. Həmin xətt müstəqilliyi, suverenliyi, ərazi bütövlüyünü qoymaqdan ibarətdir. Azərbaycan demokratik dəyərlərə əsaslanan hüquqi dövlət, vətəndaş cəmiyyəti qurur. Yeni yaranan hər bir müstəqil dövlət ilk növbədə milli mənafeyini və təhlükəsizliyini qorumalıdır. Bu baxımdan respublikamızın qəbul etdiyi daxili və xarici strategiya istiqamətlərində milli mənafe və maraqlar milli təhlükəsizlik məsələləri əsas yer tutur. Dünyanın böyük dövlətlərinin geosiyasi marağında yerləşən Azərbaycanın ərazisinin bir hissəsi işğal edilmiş, suveren hüquqları pozulmuşdur. Buna görə də bütövlüyün bərpa edilməsi siyasi strategiyada başlıca yer tutur.

Azərbaycan Respublikası siyasi strategiyasının əsas müddəalarının yaradıcısı olan eks-prezident Heydər Əliyev demişdir: «Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir».

Azərbaycanın milli dövlət kimi özünü dünyada tanıtmasında əldə olunan istiqlalı qorumaq, möhkəmləndirmək üçün milli ideyanın həyata keçirilməsi dövlətin siyasi strateji məqsədlərindən biridir və bu məq-

sədlərin həyata keçirilməsində Heydər Əliyevin rolu xüsusilə qeyd olunmalıdır. Milli ideya uğrunda mübarizə azadlıq məfkurəsi uğrunda aparılan mübarizədir.

Milli ideologiyanın əsas cəhətləri kimi bunları göstərmək olar: Milli dövlətin, suverenliyin, ərazi bütövlüyünün, milli-mənəvi, dini dəyərlərin, adət-ənənələrin qorunması, elm və təhsilin, milli iqtisadiyyatın inkişafı və milli vətənpərvərlik tərbiyəsi. Hər bir müstəqil dövlətin qurulması, gücləndirilməsi milli özünü qoruma hissindən başlayır, bu fikir inkişaf etdirilərək ideoloji bir sistemə çevrilir. Milli ideologiya Azərbaycana, onun xalqına qarşı daxildən və xaricdən gələn zərərli ideyaların qarşısını alır, milli-mənəvi təhlükəsizlik yaradır.

Xalqın varlığı üçün dövlətin olması vacibdir. Yalnız dövlət vasitəsilə xalq öz təhlükəsizliyini qoruyub, dünya birliyində yer tuta, əlaqələr yarada və problemlərini beynəlxalq miqyasda həll edə bilər. Dövlətçilik ideologiyasının işlənib hazırlanmasında əsas məqsəd Azərbaycanın vahid dövlət kimi formalaşmasının, dünya birliyində demokratik ölkə kimi tanınması, cəmiyyətdə vətəndaş həmrəyliyinə, daxili stabilliyə nail olmaq, Azərbaycanın bütün dünya azərbaycanlılarının vətəni olmasını sübut etmək kimi humanist prinsipləri nəzərdə tutur.

Milli ideologiyanın tərkib hissəsindən biri də azərbaycançılıq anlayışıdır. Milli köklərə qayıdış, milli özünüdərketmə böyük amillərdəndir. Azərbaycançılığın əsas məzmununu ümumi vətən anlayışı, vətəndaş birliyi təşkil etmişdir. Bu baxımdan 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının əsas ali qanunu olan milli konstitusiyada «Azərbaycan xalqının vahidliyi», «Azərbaycan Respublikasının bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətəni» olması ideyası öz əksini tapmışdır.

Milli ideologiyanın istiqamətləri içərisində xaricdə yaşayan soydaşlarımızla işin təşkili məsələsi də geniş yer tutur. Çünki milli dövlətçilik ideyası vasitəsilə diaspor özünü dərk edir, Azərbaycan dövlətinə qarşı çevrilən ədalətsizliklərə qarşı öz etirazını kəskin formada bildirir.

Heydər Əliyev Almaniyaya səfəri zamanı Azərbaycan cəmiyyətləri federasiyasının üzvləri ilə görüşündə demişdir: «Dünyada bir kökdən olan çoxlu millət var, biz azərbaycanlıyıq, çalışın azərbaycanlığınızı bundan sonra da möhkəmləndirin. Beləliklə, Azərbaycanın dövlətçilik ənənələrini, tarixini, bütün dövrlərdə qazandığı fəaliyyətini nəzərə alan milli ideologiya konsepsiyasının yaradılmasına ehtiyac şübhəsizdir. Ümid edirəm ki, milli ideologiyap konsepsiyası bütün dövrlər üçün Azərbaycanın milli mənafeyini, milli maraqlarını, siyasi strateji mövqeyini, dil, din, milli mentalitet, dövlətçilik və azərbaycançılıq ideyalarını hər zaman özündə əks etdirib qoruyacaq, yaşadacaqdır. Çünki vahid milli ideologiya konsepsiyası yaratmadan bu ideyaları həyata keçirmək qeyri-mümkündür».



Milli ideologiya sahəsində informasiya mənbələrinə marağın getdikcə artdığını nəzərə alaraq bu sahədə mövcud olan informasiya daşıyıcılarının biblioqrafiyalaşdırılması ehtiyacı yaranmışdır.

Milli ideologiyanın cəmiyyətdə geniş yayılmasının əsas göstəricilərindən biri də onun informasiya təminatıdır. Çünki hər hansı bir ideologiyanın kütlələr içərisində geniş vüsət almasında informasiya vasitələrindən və vəsaitlərindən geniş istifadə olunur. Bu informasiya vasitələri içərisində biblioqrafik və bioqrafik informasiya mənbələrinin əhəmiyyətli rolu vardır. Xüsusilə ilkin sənədlər və onların haqqında biblioqrafik informasiya mənbələri mühüm əhəmiyyət kəsb edir.

Milli ideologiya mövzusuna dair apardığım tədqiqat əsasında bu mövzuya dair onlarla kitab və yüzlərlə məqalələr toplanmışdır. Məsələn, «Beynəlxalq münasibətlərdə diasporların rolu» (Z.Əliyev), «Azərbaycanda dövlətçilik oçerkləri» və «Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri» (İ. İsmayılov) , «Tarixə yaddaş ömür» (M.Əlizadə), «Siyasi strategiya və milli təhlükəsizlik problemləri» (A.Piriyev) adlı kitablar və «Azərbaycan dövlətçiliyi ideologiyası» (C.Musayev), «Milli ideologiya və ümummilli lider» (S.Xəlilov), «Dövlətçilik ideologiyası» (A.Şirinov) və s. kimi ilkin mənblərlə bağlı ikinci dərəcəli mənbələrin, yəni biblioqrafik informasiya vəsaitlərinin yaradılması və Avtomatlaşdırılmış Biblioqrafik Məlumat Bazasının təşkili də qarşıda duran aktual məsələlərdəndir.

## ƏDƏBİYYAT


*1.Azərbaycan Respublikasının Konstitusiyası.- B., 1996.-122 s.*

*2.Abdullayev Ç. Azərbaycan-Almaniya əlaqələri. - B., 2000.-155 s.*

*3.Əlizadə M. Tarixə yaddaş ömür. - B.: Qanun, 2002.-240s.*

*4.Xəlilov S. Milli ideologiya və ümummilli lider // Xalq qəzeti. - 1997. - 8 may.*

*5.Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemləri. - B.: BDU, 2002.-530 s.*

*Тарана Мирзаева*

# ПРОБЛЕМА НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ И ЕЕ ИНФОРМАЦИОННОЕ ОБЕСПЕЧЕНИЕ В НЕЗАВИСИМОМ АЗЕРБАЙДЖАНЕ

## *РЕЗЮМЕ*

*В статье рассматриваются вопросы национальной идеологии и ее система информационного обеспечения.*

*Национальная идеология Азербайджана предотвращает вредное влияние, которое направлено против его народа.*

*Национально – моральной безопасностью при разработке идеологии государственности основной целью является формирование Азербайджана в виде едино независимого государства, его призвание в мировом сообществе как достойное демократическое государство, достижение в обществе гражданской солидарности и внутренней стабильности, доказательство того, что Азербайджан является родиной всех азербайджанцев мира. Все это связано с гуманистическими принципами.*

*Одним из основных показателей широкого распространения в обществе национальной идеологии является его информационное обеспечение. Потому что, для распространения любой идеологии среди масс, широко используются информационное средства и пособия. Среди этих средств информации значительную роль играют библиографические и биографическое источники. В особенности при этом важное значение приобретают первичные документы и библиографические информационные источники о них. Создание второстепенных источников, связанных с этими первоисточниками, т.е. создание информационных пособий и организация автоматизированной библиографической справочной базы является одной из актуальных задач.*

***Arzu VƏLİYEVA***
***Dissertant***

# M. F. AXUNDOV ADINA MİLLİ KİTABXANANIN BİBLİOQRAFİK FƏALİYYƏTİNDƏ MƏLUMAT-BİBLİOQRAFİYA APARATININ ROLU

Azərbaycan biblioqrafiyası bu günə gəlib çatana kimi zəngin və mürəkkəb inkişaf yolu keçmişdir. Dünyada gedən qlobal informasiyalaşdırma prosesi ənənəvi informasiya sisteminə güclü təsir etsə də, hər bir xalqın həyatında ayrı-ayrı tarixi mərhələlərdə informasiyanın, o cümlədən biblioqrafik informasiyanın oynadığı rolun köklü şəkildə tədqiq edilməsi xalqın qan yaddaşının bərpa edilməsi üçün son dərəcə elmi-nəzəri və təcrübi əhəmiyyət kəsb edir.

Bu baxımdan informasiya mənbəyi sayılan kitabxanaların biblioqrafik işinin səmərəliliyinə diqqət yetirmək lazımdır.

Hər bir kitabxana-informasiya müəssisəsinin biblioqrafik fəaliyyətinin səmərəliliyi bu fəaliyyətin funksional baxımdan məqsədyönlü təşkil edilməsindən asılıdır.

Kitabxananın biblioqrafik təşkili dedikdə onun məqsəd və vəzifələrinin həyata keçirilməsinə istiqamətləndirilmiş biblioqrafik tədbirlər və vasitələrin məcmusu nəzərdə tutulur. Bu isə öz növbəsində hər bir kitabxananın biblioqrafik funksiyalarının dəqiq təşkili və əlaqələndirilməsini tələb edir.

Bütün bunları nəzərə alaraq zəngin təcrübəyə və tarixi ənənələrə malik olan M.F.Axundov adına Milli Kitabxananın biblioqrafik fəaliyyətinə nəzər salaq.

Kitabxana 80 ildən artıq bir dövr ərzində formalaşmış, ildən-ilə mütərəqqi iş üsulları ilə zənginləşmişdir. Bu dövrdə kiabxanada zəngin soraq-məlumat və informasiya ədəbiyyatı fondu yaradılmış, rəngarəng kataloq və kartoteka, biblioqrafik vəsaitlər sistemi meydana gəlmiş,

oxuculara biblioqrafik informasiya xidməti sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilmişdir.

Beləliklə, M.F.Axundov adına Milli Kitabxananın çoxsahəli təcrübəsində biblioqrafik fəaliyyət son dərəcə inkişaf etmiş, cəmiyyətin müasir informasiya tələbatına əsasən cavab verən, informasiya əsrinin vəzifələrinə tədricən uyğunlaşmağa başlayan sistemli fəaliyyətə çevrilmişdir. XX əsrin ikinci yarısında kitabxananın biblioqrafik fəaliyyətinin təşkilati-funksional əsasları təşəkkül tapmış, struktur quruluşu daha da təkmilləşmişdir. Bu dövr ərzində biblioqrafiya işləri Milli Kitabxananın bütün struktur bölmələrinin fəaliyyətinin tərkib hissəsinə çevrilərək həmin bölmələr tərəfindən öz funksiyalarının həyata keçirilməsinə səmərəli təsir göstərmişdir.

Son onilliklər ərzində Milli Kitabxananın biblioqrafik fəaliyyətinin təşkilati-funksional əsaslarının formalaşıb inkişaf etdirilməsində A.Şıxəliyevin, Ə.Əliyevin, A.Lermanın, H.Rzaquliyevin, H.Əliyevin, F.Məmmədovun, D.Kərimovanın, H.Zeynalovanın və başqalarının mühüm xidmətləri olmuşdur.

Milli Kitabxananın biblioqrafik fəaliyyətinin təşkilati-funksional strukturunda məlumat-biblioqrafiya aparatı müstəsna rol oynayır.

Qeyd edək ki, «məlumat-biblioqrafiya aparatı» anlayışı öz əksini hələ SSRİ dövründə yaradılmış 7.26-80 «Kitabxana işi. Əsas terminlər və anlayışlar» və 7.0-84 «Biblioqrafik fəaliyyət. Əsas terminlər və anlayışlar» adlı Dövlət standartlarında tapmışdır. Bu vaxta qədər Azərbaycanda kitabxana və biblioqrafiya işinə dair milli standartlar tərtib edilmədiyindən SSRİ dövründə bu sahədə qəbul edilmiş bütün standartlar öz qüvvəsini əsasən saxlamaqdadır.

Göstərilən hər iki standart «məlumat-biblioqrafiya» anlayışının mahiyyətini açır və bir-birini tamamlayır. Belə ki, kitabxana işinə dair 7.26-80 standartında «məlumat-biblioqrafiya aparatı» anlayışının mahiyyəti belə açıqlanır: «Məlumat-biblioqrafiya aparatı məlumat və biblioqrafik nəşrlərin, kataloq və kartotekaların məcmusu olub, çap əsərlərinin və digər sənədlərin təbliği və mütaliəyə rəhbərlik işi üçün istifadə edilir».

Biblioqrafik fəaliyyət terminlərinə həsr edilmiş 7.0-84 standartında isə bu terminin məzmunu bir qədər də genişlənərək onun kitabxananın biblioqrafik fəaliyyətinin bütün istiqamətlərinin əsasını təşkil etməsi vurğulanır. Şübhəsiz ki, hər iki standartda bu terminə verilmiş açıqlama artıq köhnəlmiş və onun müasir cəmiyyətdə kitabxana-informasiya funksiyalarına daha münasib şəkildə yenilşməsinə ciddi ehtiyac duyulur. Bu isə növbədə kitabxanalarda müasir informasiya texnologi-



yasına əsaslanan keyfiyyətcə yeni biblioqrafik xidmət növlərinin, elektron sənədlərin və avtomatlaşdırılmış məlumat bazalarının yaranması ilə əlaqədardır.

Qeyd edək ki, Milli Kitabxanada əsası 1940-cı ildə qoyulmuş məlumat-biblioqrafiya aparatı öz inkişafının bütün mərhələlərində əsasən aşağıdakı prinsiplərə uyğun şəkildə fəaliyyət göstərmişdir:

- Milli Kitabxananın həyata keçirdiyi vəzifələrlə sıx əlaqə;
- Yeni məlumat və biblioqrafiya materialları ilə müntəzəm surətdə tamamlamaq;
- Köhnəlmiş, öz aktuallığını itirmiş sənədləri müntəzəm surətdə təmizləmək;
- Kitabxanadaxili biblioqrafik əlaqələrin vahid sistemli fəaliyyətə çevrilməsini təmin etmək.

Nəticə olaraq qeyd etmək olar ki, 60 ildən artıq bir dövr ərzində fəaliyyət göstərən məlumat-biblioqrafiya aparatı Milli Kitabxananın fondunun zənginləşməsində, informasiya ehtiyatlarının inkişafında və geniş oxucu kütlələri tərəfindən səmərəli istifadə edilməsində, ədəbiyyat təbliğində, istifadəçilərə biblioqrafik informasiya və məlumat-axtarışı xidmətində, müxtəlif tipli biblioqrafik vəsaitlərin tərtibində, eləcə də biblioqrafik biliklərin yayılmasında əhəmiyyətli rol oynamış, kitabxananın bütövlükdə biblioqrafik fəaliyyətinin bütün istiqamətlərinin sənəd-informasiya təminatçısı olmuşdur.

# BİBLİOQRAFİYAŞÜNASLIQ

*Надир ИСМАЙЛОВ*
*Кандидат педагогических наук, доцент*

## РАЗВИТИЯ ОТРАСЛЕВЫХ БИБЛИОТЕЧНЫХ И ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В АЗЕРБАЙДЖАНЕ

### *(1920-1990 г.г.)*

В 20-30-х годах в Азербайджане шел процесс интенсивного накопления информационных ресурсов научных библиотек, сформировавшихся в дальнейшем в сеть академических библиотек Азербайджана. Прообразом библиотеки Азербайджанского филиала АН, а затем Центральной научной библиотеки АН Азербайджана стала созданная в 1925 году библиотека Общества обследования и изучения Азербайджана. Основной задачей библиотеки было «приобретать специальные издания по вопросам, входящим в ведение Общества, путем бесплатного получения, обмена и, если нужно будет, покупкой» (1). К концу 20-х годов фонд библиотеки насчитывал более 50 тыс. произведений печати и рукописных материалов и продолжал интенсивно расти благодаря увеличению объема финансирования и книгообмена.

В 1935-48 г.г. интенсивно развиваются фонды библиотеки Азербайджанского филиала АН СССР, а также библиотек научно-исследовательских учреждений. Большую ценность представляли издания, приобретенные из личных коллекций, а также редчайшие издания русской и зарубежной литературы по различным областям



науки. К концу 1940 года фонд библиотек системы Азербайджанского филиала АН СССР насчитывал уже около 300 тыс. экз., среди них были старопечатные, редкие и уникальные издания на азербайджанском, русском и иностранном языках. А общий объем фонда Центральной библиотеки Азербайджанского филиала АН СССР составлял более 200 тыс. печ.ед. (2). В 40-е годы научные работники Азербайджана были лучше обеспечены библиотечными ресурсами по сравнению с остальными группами населения.

Послевоенные годы характеризуются интенсивным развитием информационных ресурсов научных, академических библиотек Азербайджанской Республики. За период с 1950 по 1955-й год фонды ЦНБ выросли с 231.199 печ.ед. до 450.000 печ.ед., а к началу централизации сети библиотек АН в 1973 году фонд насчитывал 1 млн. 159.234 печ.ед. (3). Фонды 25 библиотек научных учреждений Академии выросли за тот же период от 350.000 печ.ед. до 707.520 печ.ед. Таким образом, общий объем ресурсов библиотек системы АН Азербайджана к 1973 году составил 1.866.759 печ.ед. отечественной и зарубежной литературы.

Бурное развитие библиотечных ресурсов АН республики, централизованное управление ими, тесная связь между фондами ЦНБ и филиалами научных учреждений позволили к 1980 году создать фундаментальную многоотраслевую библиотечную систему, обеспечивающую библиотечно-информационным обслуживанием многочисленных читателей АН, других ведомств и ВУЗов Азербайджана. Фонд ЦБС АН Азербайджана представлял собой ценное и богатое собрание отечественной и зарубежной научной литературы, первичных и вторичных документов. К 1990 году общий объем библиотечных ресурсов системы библиотек АН составил 3.305 тыс. печ. ед.

Процесс формирования и восстановления библиографических ресурсов библиотек, обслуживающих промышленные предприятия Азербайджана начался с Декрета Азревкома «О национализации всех промышленных предприятий республики» от 12 июня 1920 года. До установления Советской власти в Азербайджане имелись специальные библиотеки с фондами научно-технической литературы, которые обслуживали инженерно-технических работников промышленных предприятий, квалифицированных рабочих, а также специалистов различных компаний и фирм. Такие фонды имелись главным образом в библиотеках нефтяной отрасли и на предприятиях сопутствующих отраслей – нефтеперерабатывающей и нефтяног о машиностроения. В ходе гражданской войны многие предприятия были разрушены, пострадали и библиотечные

фонды. С восстановлением нефтяных промыслов и нефтеперерабатывающих заводов возрождались и технические библиотеки.

К концу 1920 г. в Азербайджане функционировало 7 технических библиотек, обслуживающих нефтепромыслы. К маю 1923 г. уже сформировалась сеть технических библиотек, в которую входили 24 библиотеки - промысловые, нефтеперерабатывающих заводов и предприятий нефтяного машиностроения, Общий фонд библиотек насчитывал 120 тыс. экз (4).

Важным событием для сети технических библиотек нефтяной промышленности республики явилось создание в 1924 г. Центральной технической библиотеки «Клуба нефтяников», с начальным фондом 9 тыс. экз (5). К 1932 г. ЦТБ насчитывала уже 32 тыс. экз (6). Пополнению библиотечных ресурсов ЦТБ и сети технических библиотек способствовало открытие в Баку первого специализированного издательства «Азнефтеиздат». Азернефть выделяла значительные средства на приобретение новой литературы, что дало возможность нефтепромысловым библиотекам создать передвижки для обслуживания рабочих и специалистов на рабочих местах. В начале 80-х годов в 8-ми нефтепромысловых библиотеках функционировало 60 передвижек (7).

С 1930 г. ЦТБ стала методическим центром для сети технических библиотек» Одной из её задач было упорядочение библиотечных ресурсов сети и организация комплектования. В результате, фонды 25 технических библиотек в 1932 г. составляли 340 тыс. экз.

В годы первых пятилеток в Азербайджане начали организовывать новые технические библиотеки на предприятиях и в научно-исследовательских институтах. Согласно переписи 1934 г., в Азербайджане функционировало 78 технических библиотек с общим фондом 776.800 экз (8). После Постановления Совета Народных Комиссаров Азербайджанской ССР от 1935 г. «Об ответственности за сохранность библиотечных фондов» (9) в технических библиотеках улучшился учет и сохранность фондов. В этот период в технические библиотеки передают техническую документацию, спец. виды технической литературы.

Ко второй половине 40-х годов сеть технических библиотек Азербайджана насчитывала 88 библиотек. В послевоенный период в республике начали развиваться новые отрасли промышленности, строятся новые заводы, на которых открывались технические библиотеки. Администрация предприятий выделяла значительные средства на приобретение литературы.

Таким образом, можно констатировать, что к концу 40-х годов в Азербайджане сформировалась сеть технических библиотек, находящихся под методическим руководством Центральной научно-технической библиотеки, которые обладали значительными библиотечными ресурсами, удовлетворяющими потребности промышленности.



К 50-м годам расширилась география библиотечных ресурсов технических библиотек Азербайджана. В промышленных центрах г. Сумгаите, Дашкесане, Сиазани, Али Байрамлах были созданы технические библиотеки. Первая половина 50-х годов характеризуется укреплением сети нефтяных технических библиотек. Выделялись дополнительные ассигнования на комплектование фондов и увеличение штатов. Количество нефтяных библиотек составило - 34, общий фонд в 1957 году -1.072 тыс. экз.

В 1957 году ЦНТБ была преобразована в Республиканскую научно-техническую библиотеку, которая в течение полутора лет сумела сформировать основу многоотраслевого фонда в соответствии с профилем промышленности республики.

В 1956 году фонд РНТБ насчитывал 221 тыс. экз. (10). Сеть технических библиотек и их фонды на период 1956-60 г.г. составляли соответственно - 83 библиотеки и 1.744 тыс. экз (11). В течение 1959-60 г.г. РНТБ была разработана и введена система централизованного комплектования фондов сети технических библиотек и обработки литературы. РНТБ централизовала подписку на иностранную литературу.

В 60-е годы возрождается в республике система научно-технической информации. Технические библиотеки Азербайджана стали частью системы НТИ. Фонды библиотек пополнялись новыми информационными изданиями, научно-технической документацией, патентами. Именно в конце 60-х годов стремительно наращиваются фонды РНТБ. В 1967 г. при РНТБ создается Республиканский патентный фонд, а в 1969 г. Республиканский фонд стандартов. В начале 70-х годов в фонде РНТБ было свыше 6 млн. патентов и 96 тыс. НТД, а общий фонд РНТБ в 1975 г. насчитывал 7.268 тыс. экз (12). В этот период был сформулирован депозитарный и обменный фонд.

70-е годы знаменательны для Азербайджана развитием таких отраслей, как электроника, вычислительная техника, приборостроение, космическая техника. Появляются новые НТБ соответствующего профиля и их фонды стремительно росли. 1975 год стал началом формирования в республике Единого справочно-информационного фонда сети НТБ и органов НТИ. В него вошли 20 крупных НТБ. 1 января 1977 г. фонд РНТБ насчитывал 9 млн. печ. ед. (13).

В период с 1980 г. по 1985 г. продолжается процесс наращивания библиотечных ресурсов в сети технических библиотек. Открываются библиотеки на вновь созданных предприятиях. РНТБ активно пополняет свои фонды, особенно патенты и нормативно-техническую документацию. К 1990 г. РНТБ практически сформировала полный фонд патентов, обеспечив тем самым предприятиям и организациям возможность проверять патентную чистоту разработок в Баку. Фонд патентов в 1985 г. составил 13.320 тыс. экз., стандартов - 389 тыс. экз., а общий фонд - 15.739 экз.

Формирование библиотечных ресурсов Азербайджана по медицине в период 20-30-х годов началось на базе уже имеющихся в республике фондов:

библиотека Бакинского общества врачей, библиотеки Михайловской больницы и библиотеки Сабунчинской больницы. Их совокупный фонд насчитывал 3.848 книг и 92 названия журналов (14). Однако при всей полноте репертуара медицинских изданий их количества не хватало для удовлетворения потребностей развивающегося в Азербайджане здравоохранения. В 1920 г. две вышеперечисленные библиотеки были переданы библиотеке Азербайджанского государственного университета, что послужило основой формирования отдела медицинской литературы. Университетом выделялись ассигнования на комплектование медицинской литературы. В этот период библиотека медицинского факультета получала 36 названий зарубежных журналов и медицинскую периодику на русском языке (15). В 1930 г. медицинский факультет университета был преобразован в Азербайджанский медицинский институт, библиотечные ресурсы которого насчитывали 1919 экз. книг (16). Библиотека медицинского института стала получать обязательный платный экземпляр медицинских книг, издаваемых в СССР и Азербайджане, и к 1940 году ее фонд насчитывал уже 100.000 печ. ед (17). Библиотечные ресурсы по медицине накапливались, начиная с 1923 г., также Республиканской государственной библиотеке им. М.Ф.Ахундова и в научной библиотеке Азербайджанского филиала АН СССР.

С 1923 года в Азербайджане создаются научно-исследовательские институты в области медицины, при каждом из которых формируется библиотека соответствующего профиля. Таким образом, к 1940 году организуется сеть медицинских библиотека, в 1940 году была основана Республиканская государственная научно-медицинская библиотека, с фондом 16.552 (18), которая стала методическим центром для сети медицинских библиотек республики.

В годы войны и в послевоенный период продолжается процесс наращивания библиотечных ресурсов медицинской литературы. В 1941-45 г.г. появляются медицинские библиотеки в госпиталях, а после войны во многих лечебных учреждениях. К концу 70-го года число библиотек сети составило - 118 (19). Общий объем библиотечных ресурсов по медицине в конце 1960 г. составил 568.857 печ. ед. (20). В период 70-80 г.г. наблюдается рост сети медицинских библиотек (1980 г. - 146 библиотек) и увеличение объема библиотечных ресурсов, что позволяло обеспечить медицинский персонал всех объектов здравоохранения и научно-исследовательских организаций необходимой литературой.

Становление библиотечно-библиографических ресурсов Азербайджана в области сельского хозяйства относится к началу 20-х годов. В 1921 году была создана научная библиотека Народного Земельного Комиссариата, которая с 1923 года функционировала как центральная, а с 1967 года как Республиканская научная сельскохозяйственная библиотека. Следующим этапом в развитии ресурсов сельскохозяйственной литературы стало создание в 1929 году Института сельского хозяйства и при нем научной библиотеки. В 30-х годах стала создаваться сеть сельскохозяйственных библиотек. К началу 1941 года совокупный фонд 18 сельскохозяйственных библиотек составила около 300 тыс. печ. ед., из них 70 тыс. были сосредоточены в библиотеке сельскохозяйственного института и Центральной библиотеке сельскохозяйственной литературы. Дальнейшее развитие сети сельскохозяйственных библиотек и их фондов произошло в послевоенные годы и связано с открытием новых сельскохозяйственных научно-исследовательких учреждений. Значительные фонды научной, сельскохозяйстенной литературы были сосредоточены в академических НИИ. В 60-е годы увеличилось число специалистов сельского хозяйства Азербайджана, которые нуждались в новейшей литературе. На 1 января 1971 года сеть сельскохозяйственных библиотек насчитывала 43 библиотеки с общим фондом 1 млн. 143 тыс. печ. ед. Фонд Республиканской сельскохозяйственной библиотеки составлял 160 тыс. печ. ед., научной библиотеки сельскохозяйственного института - 375 тыс. печ. ед. (21). (Значительная часть сельскохозяйственной литературы была сосредоточена в массовых библиотеках сельских районов). Различия в объеме ресурсов этих двух библиотек объясняется крайне тяжелой материально-технической базой Республиканской сельскохозяйственной библиотеки, а именно отсутствием помещения для развития ее, фондов. Такое состояние библиотеки имеет место и в настоящее время. Несмотря на технические сложности библиотечно-библиографические ресурсы Азербай-

джана по сельскому хозяйству в 1970-80-х годах продолжают увеличиваться. За 1971-1975 г.г. они возросли на 250 тыс. печ. ед., в 1976-80-е г.г. - на 300 тыс. печ. ед. На конец 1980 г. фонды Республиканской сельскохозяйственной библиотеки и библиотек НИИ насчитывали соответственно 585.365 и 424.510 экземпляров.

Начало формирования и развития библиотечных ресурсов в вузах республики относится к 1918 году, когда был создан Бакинский государственный университет. В 20-30-х годах создаются новые вузы. В 1934 году в республике функционировало 16 вузовских библиотек с общим фондом 538.020 печ. ед. (22), а в 1941 году вузовские библиотеки располагали фондами в 1,5 млн. экз. книг и других носителей информации. Наиболее интенсивное развитие библиотечно-библиографических ресурсов в вузах Азербайджана происходило в послевоенное время. В 1952 году в 20-ти вузовских библиотеках было сосредоточено более 4 млн. печ. ед. Наиболее интенсивно библиотечные ресурсы наращивались в БГУ, в Институте нефти и химии, в медицинском и педагогических институтах. Несмотря на сокращение количества вузов с 20 в 1952 г. до 17 в 1980 г., информационные ресурсы вузовских библиотек продолжали увеличиваться в среднем на 300 тыс. печ. ед (23). В начале 90-х годов вузовские библиотеки списывали устаревшие и дублетные общественного политические издания советского периода, что уменьшило объем их фондов. Вузовские библиотеки стали активно комплектовать нормативно-техническую документацию (технические вузы) - 30-40% и зарубежную литературу (более 50%). Сначала 90-х годов библиотеки высших школ Азербайджана совершают прорыв в мир информации и вносят в транснациональное пространство свои информационные ресурсы.

Большой объем библиотечных ресурсов Азербайджана сосредоточен в системе профсоюзных библиотек. С первых дней Советской власти профсоюзам необходимо было иметь свои библиотеки на заводах, нефтепромыслах, фабриках для политико-образовательной работы. К 1921 году общий фонд профсоюзных библиотек насчитывал 16.524 экз. (24). В первый период их функционирования пополнение библиотечных ресурсов было небольшим. 43 профсоюзные библиотеки было открыто в 1923 году их библиотечные ресурсы насчитывали 178 тыс. экз. (25). В 1925 году в республике действовало уже 52 профсоюзные библиотеки с общим объемом библиотечных ресурсов 261 тыс. печ. ед. (26). В годы первой пятилетки росло число членов профсоюзов. В 1926 г. количество профсоюзных библиотек составило 72 стационарные 287 передвижных библиотек, а их библиотечные ресурсы насчитывали 267 тыс. экз. (27). Библиотеки комплектовали свои фонды



литературой на национальном языке, тематика фондов была шире, чем в массовых библиотеках. Таким образом, с 1920 по 1930 г.г. ежегодно увеличивается сеть профсоюзных и наблюдается количественный рост их библиотечных ресурсов. В период с 1931 г. по 194 г. деятельностью профсоюзных библиотек руководила библиотечная инспекция при АСПС. В эти годы библиотеки организовываются во многих районных центрах республики, всего 17 библиотек (28). В 1941 г. сеть профсоюзных библиотек состояла из 127 библиотек с общим фондом 845.918 печ. ед.; передвижные библиотеки имели в своих фондах 68.541 печ.

К 1958 г. общее количество профсоюзных библиотек составило 173, а их фонд был равен 2.394 тыс. печ. ед. (29).

В 60-70-е годы интенсивно развивались профсоюзные библиотеки в комплексе с техническими библиотеками. К 1970 г. на промышленных предприятиях республики насчитывалось 187 профсоюзных библиотек с общим фондом 678.000 печ. ед. (30).

Частичная централизация профсоюзных библиотек в конце 70-х годов привела к упорядочению сети профсоюзных библиотек. К 1980 году ресурсы профсоюзных библиотек насчитывали 957.000 печ. ед., которые были сосредоточены в 287 библиотеках.

Таким образом, к 1990 г. все библиотеки системы Азербайджана обладали обширными библиотечными ресурсами, что позволяло библиотекам всех уровней обеспечивать практически все запросы пользователей, используя при этом систему МБА, получившую широкое развитие в республике.

Библиотечные ресурсы Азербайджана были бы еще более значительными, если бы не решением союзных властей дважды за годы советской власти в Азербайджане менялись алфавиты, что привело к значительному сокращению фондов библиотек, к потере ценнейших книг. Снижало темпы их использования.

Процесс формирования, накопления и использования библиотечных ресурсов не всегда шел гладко. Были трудности с финансированием, с отсутствием помещений для размещения фондов, не было должной координации в комплектовании между библиотечными системами, что привело к дублированию, не учитывалась в достаточной степени при дислокации библиотек демографическая ситуация в регионах республики и т.д.

Но к 1990 г. многие из этих недостатков были преодолены, и если бы не агрессия со стороны Армении , в результате которой были уничтожены библиотечные ресурсы на 20% территории Азербайджана, объем библиотечных ресурсов был бы значительно выше.

## *ЛИТЕРАТУРА И ИСТОЧНИКИ*


*1. Архив АН АР. Ф.1. Оп.1, ед.хр.1, л.4.*

*2. Центральный Архив АН Азербайджана. Ф.5,с.2,д.7, л.159*

*3. Архив ЦНБ АН Азерб.Республики. Отчеты за 1950-72 годы.*

*4. Халафов А.А. Из истории библиотечного дела в Советском Азербайджане. (1920-32 г.г.).-Баку,1980.с.186.*

*5. Архив Центральной технической библиотеки. Отчеты за 1930-32 г.г.*

*6. Там же.*

*7. Там же. Отчеты за 1934-36 г.г.*

*8. Всесоюзная библиотечная перепись 1 октября 1984 г. Основные итоги.- М., 1976.- с.128.*

*9. Хронологический сборник законов Азерб.ССР и постановление правительства Азерб.ССР.- Баку, 1920-35 г.г.*

*10. Отчет РНТБ за 1958 г.*

*11. Архив РНТБ. Сводные отчеты сети технических библиотек за 1956-57 г.г.*

*12. Там же. Отчет РНТБ за 1975 г.*

*13. Отчет РНТБ за 1976 г.*

*14. Основные показатели развития здравоохранения. Народно хозяйство Азербайджанской ССР к 60-летию Великого Октября: Юбилейный статистический ежегодник.- Баку. 1977.- с.241.*

*15. Широкогоров И.И. Медицинский факультет Азерб. Государственного университета. Исторический очерк. Журнал теоретической и прикладной медицины. 1927. Т.2 Кн. 5-6, с.24.*

*16. Там же.*

*17. Отчет о работе за 1940 г. библиотеки медицинского института им. Нариманова.*

*18. Архив РГНМБ. Отчет РГНМБ за 1941 год.*

*19. Архив РГНМБ. Сводные отчеты по сети медицинских библиотек за 1960 г., 1980 г.*

*20. Там же.*

*21. Архив Республиканской сельскохозяйственной библиотеки. Отчеты, материалы за 1966-76 г.г.*

*22. Всесоюзная библиотечная перепись 1 октября 1934 г. Статистический сборник, ч.1, М., 196.*

*23. Народное образование, наука и культура в СССР. Статистический сборник. - М., 1971, с. 298.*

*24. Отчет Азерб. Совета профессиональных Союзов за год (май 1920, май 1921 г.г.). Ко 2-му съезду проф. союзов Азербайджана. Баку АСПС, 1921, с.48.*

*25. Обзор профес. движения Азербайджана с 1 августа 1922 г. по 1 января 1923 г. Вып.3, Баку. 1923, с. 33.*





*26. Профессиональные движения в Азербайджане к 5-му съезду профсоюзов. Баку. АСПС 1926 с. 70.*

*27. Профес.союзы в Аз.ССР. 1926-27 г.г. Отчет АСПС к VI Съезду профсоюзов. Баку, АСПС.*

*28. ЦСУ Азерб.ССР. Ф. 2511. Оп. 3. Д. 37. Л. 4.*

*29. ЦГА Азерб.ССР. Ф.1114. С.5.Д.51.Л.111-117.*

*30. Народное хозяйство Азербайджана в 1975 г. Б. 1976, с. 189, с. 185.*


*Nadir İsmayılov*

## AZƏRBAYCAN RESPUBLİKASINDA BİBLİOQRAFİK EHTİYAT SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

### XÜLASƏ


*Məqalədə informasiya cəmiyyəti quruculuğu şəraitində milli biblioqrafik ehtiyat sisteminin inkişaf meyli və ənənələri nəzərə alınmaqla onun inkişaf modeli nəzərdən keçirilmişdir. Milli kitabın biblioqrafik repertuarının yaradılması; sahəvi biblioqrafik vəsaitlər sisteminin yaradılması; elektron biblioqrafik nəşrlərin hazırlanmasına keçidlə bağlı probllemlər təhlil edilmişdir.*

*Qəmzə HACIYEVA*
*Baş müəllim*

# ÖLKƏŞÜNASLIQ BİBLİOQRAFİYASININ ƏHƏMİYYƏTİ VƏ VƏZİFƏLƏRİ

Keçən əsrin son onilliyi dünyanın coğrafi-siyasi xəritəsində əhəmiyyətli dəyişikliklərin baş verməsi, dünya siyasətində yeni üfüqlərin açılması ilə əlamətdar olmuşdur. Beynəlxalq aləmdə gedən qlobal hadisələr nəticəsində Azərbaycan xalqı da öz dövlət müstəqilliyini bərpa etmiş və XXI əsrə Avropa xalqları ailəsinin bərabərhüquqlu üzvü kimi qədəm qoymuşdur. Bütün çətinliklərə baxmayaraq, xalqımız müstəqilliyinin qorunub möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, yeni iqtisadi münasibətlər sisteminin yaradılması sahəsində inamlı addımlar atır.

Azərbaycan Respublikasının iqtisadi, siyasi və mədəni inkişafı, beynəlxalq münasibətlərin bərabərhüquqlu üzvü kimi çıxış etməsi, nüfuzlu iqtisadi və siyasi qurumlara inteqrasiyası nəinki ölkə əhalisinin, o cümlədən dünya azərbaycanlılarının birgə maraqlarına cavab verir. 2001-ci il noyabrın 9-10-da keçirilmiş Dünya azərbaycanlılarının I qurultayında qeyd olunmuşdur: «Dünya azərbaycanlılarının ən mühüm, ən müqəddəs vəzifələrindən biri Azərbaycan xalqının tarixi nailiyyəti, bütün dünya azərbaycanlılarının mənəvi-siyasi iradəsinin nəticəsi olan müstəqil dövlətçiliyi qoruyub saxlamaqdan, milli dövlətimizin dünya birliyində özünəməxsus yer tutmasına çalışmaqdan ibarətdir. Azərbaycan dilini, milli-əxlaqi dəyərləri, azərbaycanlıların bir xalq, bir millət kimi formalaşdığı tarixi Vətənin şərəfini qorumaq hər bir azərbaycanlının müqəddəs vəzifəsidir» (2; 10 noyabr). Qurultayda həm də azərbaycanşünaslıq üzrə mütəxəssislərin hazırlanması, bu sahədə müvafiq informasiya mübadiləsinin genişləndirilməsi məsələləri də xüsusi olaraq irəli sürülmüşdür.

Bütün bunlar ölkəşünaslığın, o cümlədən bu haqda biblioqrafik informasiyanın hazırlanıb tələbatçılara çatdırılmasının əhəmiyyətini daha artırmış olur.



«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda göstərilir: «Kitabxana – elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur» (1; s.3-16).

Vətəndaş cəmiyyətində informasiya, kitabxana, biblioqrafiya müəssisələri həm dövlət, həm də özəl şəxsi və ictimai ola bilərlər. Lakin onların hamısı cəmiyyətdə inteqrasiyalı rol oynayaraq, müxtəlif strukturların yaradılmasına, fəaliyyət göstərməsinə, qarşılıqlı əlaqəsinə təsir göstərir. Nəticədə biblioqrafik ehtiyatların, xidmətlərin və tələbatların optimal uyğunluğu yaranır. Hazırda biblioqrafik səviyyədə kommunikativ prosesin bərpa edilməsi, vətəndaş cəmiyyətinin sosial strukturunun müdafiəsinin təmin olunması başlıca vəzifələrdəndir. Biblioqrafik informasiya mənbələri cəmiyyətin müxtəlif sahələrində istiqamətlənməyə kömək edir, indiki elektron məlumat axtarış sistemində və kompüter şəbəkəsində insanlararası kommunikasiyaya təsir göstərir.

Ümumi biblioqrafik sistemin mühüm tərkib hissəsi kimi ölkəşünaslıq üzrə kitabxana-biblioqrafiya ehtiyatlarının formalaşması, biblioqrafik xidmətin səmərəliliyinin yüksəldilməsi bilavasitə ölkəşünaslıq biblioqrafiyasının təşkili səviyyəsindən, onun nəzəri-metodik aspektlərinin işlənmə dərəcəsindən asılıdır.

Müasir dövrdə ölkəşünaslığın vəzifələri və məzmunu çox müxtəlifdir. Faydalı qazıntıların axtarışı, təbii sərvətlərin öyrənilməsi, müxtəlif müşahidələr, yerli flora və faunanın toplanması, meşələrin xəritəsinin tərtibi və digər məsələlər ölkəşünaslıqla sıx bağlıdır. Ölkəşünaslığın vəzifələrindən biri də yerli əhalinin etnik tərkibini aydınlaşdırmaq, tarixi abidələri aşkara çıxarıb, onların uçot və mühafizəsini təşkil etmək, şifahi xalq yaradıcılığını, yerli dialekt və şivələri və s. Öyrənməkdir. Bununla ölkəşünaslar müxtəlif sahələrdə aparılan elmi-tədqiqat işlərinə yaxından köməklik göstərir, yetişməkdə olan gənc nəslin estetik tərbiyəsinə, müstəqil yaradıcılıq fəaliyyətinə əsaslı təsir göstərirlər.

Ölkəşünaslığın üç əsas təşkilati forması mövcuddur: dövlət, ictimai və məktəb.

Dövlət ölkəşünaslığına ilk növbədə ölkənin dövlət strukturları, icra hakimiyyəti və təsərrüfat orqanları tərəfindən öyrənilməsi daxildir. Onlarda ölkənin, şəhər və ya bölgənin iqtisadiyyatına, mədəniyyətinə dair müxtəlif sənədlər, statistik materiallar toplanır. Ali məktəblər, elmi-tədqiqat institutları, Azərbaycan Milli EA-nın şöbə və filialları da böyük ölkəşünaslıq işi aparırlar. Onların tədqiqatlarında ölkəşünaslıq

mövzusu mühüm yer tutur. Ölkəşünaslığın dövlət sistemində ölkəşünaslıq muzeylərinin fəaliyyəti daha diqqətəlayiqdir. Onlar tarixi abidələri, sənət əsərlərini toplayıb öyrənir, təbliğ edir, müvafiq sərgilər təşkil edirlər. Nəşriyyatlar, kitab mağazaları ölkəşünaslıq ədəbiyyatının nəşrini yayılmasını və təbliğini həyata keçirirlər.

Dövlət ölkəşünaslığının mühüm tərkib hissəsini kitabxanaların bu sahədəki fəaliyyəti təşkil edir. Universal və xüsusi elmi kitabxanalar, MKS-lər və b. ölkə haqqında ədəbiyyatla fondun komplektləşdirilməsi, habelə fondun yaradılması, müvafiq soraq-biblioqrafiya aparatının təşkili ilə məşğul olurlar. Belə baza əsasında kitabxanalar ölkəşünaslıq üzrə müxtəlif istiqamətli biblioqrafik iş aparırlar.

Dövlət ölkəşünaslığı ictimai ölkəşünaslıqla sıx bağlıdır. O, yerli ictimai təşkilatlar tərəfindən toplanmış materialları ümumiləşdirir, onlardan istifadə edir, eyni zamanda ölkənin öyrənilməsi üçün mövzu istiqamətini müəyyənləşdirməkdə ölkəşünaslara yaxından köməklik göstərir.

Məktəb ölkəşünaslığı müasir dövrdə həqiqi mənada kütləvi xarakter almışdır. Milyonlarla şagird tədris prosesində, müxtəlif dərnəklərdə, ekskursiya və səyahətlər zamanı öz ölkələrini öyrənirlər. Tədris proqramlarında da bu məsələyə xüsusi diqqət yetirilir.

Ölkəni öyrənmə mənbələri öz xarakter və məzmununa görə müxtəlifdir. Bunlara ilk növbədə arxeoloji qazıntıların nəticələri, maddi mədəniyyət abidələri, yerli flora və fauna, faydalı qazıntı nümunələri, sənaye və kənd təsərrüfatı məhsulları və s. aiddir. Bu materiallar ölkəşünaslıq muzeylərində toplanıb nümayiş etdirilir.

Ölkə tarixinin, mədəniyyət və incəsənətinin, əhalinin məişətinin öyrənilməsində dilçilik materialları, şifahi xalq yaradıcılığı nümunələri (nağıllar, rəvayət və əfsanələr, mahnılar, atalar sözləri və s.) xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatçılar üçün arxiv sənədləri (aktlar, memuarlar, məktublar) də böyük maraq doğurur. Belə sənədlər nəticəsində sonralar bir çox naməlum tarixi faktlar müəyyənləşdirilmişdi.

Ölkəşünaslıq mənbələrinə eyni zamanda çap əsərləri də daxildir. Çap əsərləri ölkə ilə müxtəlif əlamətlərə görə bağlı olurlar: 1) nəşr olunduğu yerdən, vaxtdan, üsuldan, dildən asılı olmayaraq öz məzmununa görə – ölkəşünaslıq ədəbiyyatı (A); 2) məzmunundan və digər əlamətlərdən asılı olmayaraq nəşr yerinə görə (B); 3) müəlliflik mənsubiyyətinə görə, yəni yerli xadimlərin əsərləri və onların həyat və fəaliyyəti ilə bağlı ədəbiyyat (C).



Belə bölgü müəyyən mənada şərtidir. Təcrübədə bu kompleks ədəbiyyat bir-birilə üzvü bağlı olub üst-üstə düşürlər. Bunu aşağıdakı şəkildən daha aydın görmək olar.




*Şəkil 1. Ölkə ilə bağlı çap əsərləri komplekslərinin qarşılıqlı münasibəti*

Şəkil 1-dən göründüyü kimi, ölkəşünaslıq ədəbiyyatına (A) ölkə ərazisində çap olunan əsərlər (1), xaricdə çap olunanlar (2), həmçinin yerli xadimlərin ölkə ərazisində (4) və xaricdə (3) çap olunan əsərləri daxildir. Yerli nəşrlər (B) məzmunca həm ölkəşünaslıq (1,4), həm də qeyri-ölkəşünaslıq, yəni başqa məzmunda (5, 6) ola bilərlər. Eyni zamanda yerli xadimlərin əsərləri və onlar haqqında olan ədəbiyyat (C) da həm ölkəşünaslıq (3,4), həm də başqa məzmunda (6, 7) olurlar.

Deməli, bütünlükdə mahiyyətcə yalnız A kompleksi ölkə ilə əlaqədardır. B (5, 6) və C (6, 7) komplekslərinin məzmunu isə çox vaxt qeyri-ölkəşünaslıq olub və buna görə də onlar ölkə ilə həm məzmunca, həm də formal əlamətə görə (nəşr yeri, müəllif mənsubiyyəti) bağlı olurlar.

Buradan ümumi nəticə çıxararaq, belə fikrə gəlmək olar ki, «ölkəşünaslıq biblioqrafiyası ölkə ilə məzmunca bağlı olan biblioqrafik informasiyanın hazırlanması və yayılması ilə məşğul olan elmi-təcrübi fəaliyyət sahəsidir» (6; s.12).

Bununla belə, ölkəşünaslıq biblioqrafiyasını daha geniş mənada götürüb, hər üç ədəbiyyat kompleksini bütünlükdə ona aid edən fikirlər də mövcuddur. Yəni ölkəşünaslıq biblioqrafiyası aşağıdakı şəkildə fərqləndirilir: 1) Nəşr yerindən asılı olmayaraq müəyyən ölkə haqqında ədəbiyyatın biblioqrafiyası (bunu ölkəşünaslıq ədəbiyyatının biblioqra-

fiyası da adlandırırlar); 2) Yerli xadimlərin biobiblioqrafiyası; 3) Məzmunundan asılı olmayaraq yerli nəşrlərin biblioqrafiyası (3; s.65-66).

Bu halda onların arasındakı fərqli cəhətlərə deyil, biblioqrafik təcrübədə bu komponentlərin ümumi və qarşılıqlı əlaqələrinə diqqət yetirilir. Eyni zamanda belə hesab edirlər ki, hər hansı bir əsəri yalnız onun mövzusuna görə deyil, həm də poliqrafik tərtibat, kitabın məlumat aparatı, onun ölkə ərazisində çap olunması baxımından da səciyyələndirmək olar. Qeyri-ölkəşünaslıq mövzusunda olan kitablara verilmiş illüstrasiyalar ölkədə təsviri incəsənətin, çap qrafikasının inkişaf səviyyəsini öyrənmək üçün mühüm mənbələrdəndir. Həmçinin xarici yazıçıların əsərlərinin nəşrinə yazılmış giriş məqalələri, ön söz, şərhlər onların həyat və fəaliyyətinin ölkənin ədəbiyyatşünasları tərəfindən necə əhatəli öyrənildiyini açıb göstərir.

Yerli nəşrlərin ölkəşünaslıq əhəmiyyəti çap əsərləri məcmusuna cəm halında yanaşıldıqda da diqqəti cəlb edir. Məsələn, hətta müəyyən dövr üçün yerli nəşrlərin ümumi siyahısı ölkədə iqtisadiyyatın, elmin, mədəniyyətin inkişaf xüsusiyyətləri haqqında fikir söyləməyə imkan verir.

Lakin ölkəşünaslıq ədəbiyyatının biblioqrafiyasının belə geniş mənada şərh olunmasının bəzi çatışmayan cəhətləri də vardır. Belə ki, ölkəşünaslıq ədəbiyyatının tərkib hissələri müxtəlif əlamətlərə görə (məzmun, nəşr yeri, müəllif və s.) seçilirlər ki, bununla da anlayışlar arasındakı məntiqi qaydalardan biri pozulur. Başqa sözlə, mənşə anlayışının növlərə bölünməsi vahid bölgü əsasında aparılmalıdır.

Əvvəla, xüsusinin (ölkəşünaslıq ədəbiyyatının biblioqrafiyası) və ümuminin (ölkəşünaslıq biblioqrafiyası) eyniləşdirilməsi bu kateqoriyaların dialektikasını təhrif edir. İkincisi isə ölkəşünaslıq biblioqrafiyasının tərkib hissələri müxtəlif əlamətlərə görə (məzmun, nəşr yeri, müəllif və şəxsi mənsubiyyət) seçilirlər ki, bununla da anlayışlar üzərindəki məntiqi qaydalardan biri pozulur.

Son dövrlərdə ölkəşünaslıq biblioqrafiyasının məzmunu ilə bağlı mübahisələrin həlli üçün məhəlli biblioqrafiya konsepsiyası irəli sürülür. Rus biblioqrafları A.N.Buçenkov və A.N.Maslovanın irəli sürdükləri bu konsepsiyaya görə məhəlli biblioqrafiya ərazi- biblioqrafik kompleks kimi götürülür və regionda biblioqrafik informasiaynın hazırlanması və yayılması üzrə elmi-təcrübi fəaliyyət kimi səciyyələndirilir. Regionşünaslıq biblioqrafiyasına ölkəşünaslıq və diyarşünaslıq biblioqrafiyaları da aid edilir.

Lakin bu konsepsiyanın da nöqsan cəhətləri vardır. Belə ki, müəyyən ərazini, dövləti, onların məcmuunu, qitəni və ya onun bir hissəsini,



planeti və s. region kimi adlandırmaq olar. Çünki adları çəkilən bu obyektlərin hər biri tamın bir hissəsi kimi nəzərdən keçirilə bilər. Bu halda «məhəlli biblioqrafiya»nın sərhədləri çox geniş olmaqla yanaşı, həm də dəqiq deyildir.

1977-ci ildə (7.0-77) təsdiq olunmuş biblioqrafiya terminləri haqqında dövlət standartında «ölkəşünaslıq biblioqrafik göstəricisi (siyahı, xülasə) məzmun etibarilə bir və ya bir neçə ölkə ilə bağlı olan çap əsərlərini əks etdirən biblioqrafik göstərici (siyahı, xülasə)» hesab olunur (5; s.114).

«Biblioqrafik fəaliyyət. Əsas termin və anlayışlar» (ГОСТ 7.0-84) dövlət standartında göstərilir ki, ölkəşünaslıq biblioqrafik gösəricisi «hər hansı ölkə və ya bir neçə ölkə ilə məzmunca bağlı olan sənədləri əks etdirən biblioqrafik göstərici», diyarşünaslıq biblioqrafik göstəricisi isə «ölkənin müəyyən yeri ilə məz-munca bağlı olan sənədləri əks etdirən biblioqrafik göstərici»lərdir (7; s.11).

«Ümumi biblioqrafiyaşünaslıq» dərsliyində qeyd olunur ki, diyarşünaslıq və ölkəşünaslıq biblioqrafiyası anlayışlarının müəyyənləşdirilməsində məzmun-ərazi (yəni məzmun-forma) əlaməti əsas götürülür. Birinci halda söhbət ölkə daxilində müəyyən yerlə (rayonla, şəhərlə, vilayətlə, coğrafi bölgə ilə və i.a.), ikinci halda müəyyən ölkə ilə, dövlətlə əlaqədar məzmuna malik ədəbiyyatla biblioqrafik iş nəzərdə tutulur (4; s.105).

Belə ədəbiyyat ən müxtəlif məzmuna malik ola bilər və bu nöqteyi-nəzərdən diyarşünaslıq və ölkəşünaslıq biblioqrafiyasını universal hesab etmək olar. Lakin diyarşünaslıq və ölkəşünaslıq özləri əslində kompleks xarakterli xüsusi bilik sahələridir. Deməli, bunlarla əlaqədar olan biblioqrafiya da sahəvidir. Bundan başqa, diyar və ya ölkənin məzmun etibarilə yalnız bir sahəsi (tarix, ekologiya və s.) ilə bağlı ədəbiyyatın biblioqrafik göstəricisi yaradılarsa, onda həmin diyarşünaslıq və ya ölkəşünaslıq biblioqrafik vəsaiti sırf sahəvi xarakter alır.

Bütünlükdə biblioqrafiyanın bir hissəsi kimi ölkəşünaslıq biblioqrafiyası da bir-birilə qarşılıqlı əlaqədə olan iki fəaliyyət sahəsinə malikdir: təcrübi (sənədlərin biblioqrafiyalaşdırılması, biblioqrafik xidmət) və elmi (ölkəşünaslıq biblioqrafiyaşünaslığı).

Biblioqrafiyalaşdırma prosesində ölkəşünaslıq biblioqrafik vəsaitləri (göstəricilər, siyahılar, ədəbiyyat xülasələri) yaradılır ki, onlar da müxtəlif əlamətlərə görə fərqləndirilir. İctimai istiqamətinə görə (məqsəd və oxucu) ölkəşünaslıq biblioqrafiyası elmi-köməkçi və tövsiyə xarakterlidir. Funksional - məqsəd və xronoloji əlamətə görə cari, retrospektiv və perspektiv olurlar. Biblioqrafiyalaşdırılan sənədlərin məzmu-

nuna görə universal, kompleks, mövzu, sahəvi, şəxsi və biobiblioqrafik ölkəşünaslıq vəsaitlərinə ayrılırlar.

Ümumiyyətlə, ölkəşünaslıq biblioqrafiyası ümumi biblioqrafik sistemin ayrılmaz tərkib hissəsi kimi cəmiyyətin biblioqrafik təminatında mühüm rol oynayır. Ölkəşünaslıq xarakterli biblioqrafik informasiya məhsuldar qüvvələrin və təbii ehtiyatların dərindən və kompleks tədqiqinə, iqtisadi və mədəni inkişafın optimal istiqamətinin müəyyənləşdirilməsinə, idarəetmənin təkmilləşdirilməsinə əməli köməklik göstərir. Bu baxımdan ölkəşünaslıq biblioqrafiyası təşkilati, istehsalat və elmi funksiyaları yerinə yetirir. Ona tərbiyəvi və idraki funksiyalar da aiddir. Ölkənin tarixi keçmişi, yerli xadimlərin, görkəmli şəxslərin həyat və fəaliyyəti ilə tanışlıq, sözsüz ki, hər bir şəxsdə iftixar hissi doğurur.

Ölkəşünaslıq biblioqrafiyaşünaslığı da 4 əsas istiqamətdə inkişaf etdirilir: nəzəri, tarixi, metodiki və təşkilati. Təəssüf ki, respublikamızda bu problemlər indiyə kimi ən az tədqiq edilən sahələrdəndir.

## ƏDƏBİYYAT


*1. «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal.-1999.-№1. -S.3-16.*

*2. Əliyev H.Ə. Dünya azərbaycanlılarının I qurultayında nitqi // Xalq qəzeti.-2001.- 10 noyabr.-S.2.*

*3. Əliyev Z.H. Biblioqrafiyanın nəzəriyyəsi və metodikası.-B.,1973. -S.65-66.*

*4. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq.- B.,2001.—S.105.*

*5. Xələfov Ə.T.Biblioqrafiya terminləri haqqında // Elmi əsərlər / M.F.Axundov adına ADK.-B.,1980.-Buraxılış 1.-S.114.*

*6. Мамонтов А.В., Щерба Н.Н. Краеведческая библиография.- М.,1989.-С.12.*

*7. Стандарты по библиотечному делу и библиографии.- М.,1985.- С.11.*


***


***Гамза Гаджиева***


## *ЗНАЧЕНИЕ И ЗАДАЧИ КРАЕВЕДЧЕСКОЙ БИБЛИОГРАФИИ*

### РЕЗЮМЕ


***В статье освещается проблемы формирования в Азербайджане библиографии текстов, как важного вида научно-вспомогательной библиографии, его теоретические и методические основы.***

*Sima İSMAYILOVA*
*Müəllim*

# ƏDƏBİYYATŞÜNAS ALİMLƏRƏ BİBLİOQRAFİK İNFORMASİYA XİDMƏTİ GÖSTƏRƏN MƏRKƏZLƏR

Müstəqillik şəraitində cəmiyyətdə baş verən əsaslı dəyişikliklər cəmiyyət üzvlərinin informasiya tələbatlarının gündən-günə artmasına səbəb olur. Hazırda elmin bütün sahələri, o cümlədən ədəbiyyatşünaslıq üzrə geniş elmi-tədqiqat işləri aparıldığından müvafiq olaraq onun ayrı-ayrı sahələrinə dair biblioqrafik informasiya tələbatı yaranır.

Mütəxəssis oxucuların biblioqrafik informasiya tələbatının ödənilməsində biblioqrafik fəaliyyət prosesi kimi biblioqrafik xidmət mühüm rol oynayır. Biblioqrafik xidmət prosesinin əsas mahiyyəti biblioqrafik informasiyanı bilavasitə tələbatçıya çatdırmaqdan ibarətdir.

Kitabxana şəraitində biblioqrafik xidmət iki «qayda» ilə həyata keçirilir: soraq-biblioqrafiya xidməti və biblioqrafik informasiya xidməti.

Soraq-biblioqrafiya xidməti (SBX) tələbatçı sorğusunun qəbul edilməsi və ona lazımi cavabın verilməsi ilə həyata keçirilir.

Biblioqrafik informasiya xidməti isə sorğusuz və daimi sorğular əsasında tələbatçıların biblioqrafik informasiya ilə sistem şəklində təmin olunması kimi müəyyənləşdirilir. Belə ki, biblioqrafik informasiya xidməti kitabxananın iş prosesində «aktiv», soraq-biblioqrafiya xidməti «passiv» iş rejimi kimi şərtləndirilir (1).

Biblioqrafik informasiya xidməti fonda yeni daxil olan ədəbiyyat haqqında tələbatçıya onun sorğusunu gözləmədən və ya daimi sorğulara uyğun olaraq operativ cari informasiya çatdırmaq məqsədini güdür. Sorğusuz biblioqrafik informasiyanın əsas vasitələri yeni daxil olan ədəbiyyat haqqında bülletenlərdən, kitabxananın təşkil etdiyi «informasiya«, «mütəxəssis» və «biblioqrafiya» günlərindən ibarətdir (2).

Respublikada ədəbiyyatşünasların çox böyük bir hissəsi AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərir. Məhz buna görə də tədqiqat obyekti kimi AMEA-nın Mərkəzi Elmi Kitabxanasının və Ədəbiyyat İnstitutu nəzdində yerləşən kitabxananın iş təcrübəsindən istifadə edilmişdir. Ədəbiyyatşünas alimlərə biblioqrafik informasiya

xidməti göstərən bu mərkəzlər mütərəqqi forma və üsullardan istifadə etməklə bu işin öhdəsindən layiqincə gəlməyə çalışırlar. Bu mərkəzlərdə biblioqrafik informasiya xidməti iki istiqamətdə aparılır.

1. Fərqli (fərdi və qrup formalarında);

2. Fərqləndirilməyən (kütləvi biblioqrafik informasiya xidməti) (3).

Biblioqrafik xidmətin bu formaları üzrə akademiya sistemində yerləşən bütün elmi-tədqiqat institutlarında, o cümlədən Ədəbiyyat İnstitutunun əməkdaşlarına kitabxanaya yeni daxil olan sənədlər haqqında vaxtaşırı informasiya verilir. Eyni zamanda bu informasiyalar əsas etibarilə mütəxəssis tələbatçıların peşə fəaliyyəti ilə əlaqədar olur.

Fərqli biblioqrafik informasiya xidmətinin ən geniş yayılmış forması informasiyanın seçilmiş yayılması sistemidir. İnformasiyanın seçilmiş yayılması sisteminin başqa ənənəvi formalardan fərqli cəhəti odur ki, burada tələbatçı ilə biblioqraf arasında əks əlaqə kartları mövcuddur. Əks əlaqə kartında beş ballıq qiymət cədvəli üzrə xidmətin bu formasına uyğun biblioqrafik informasiya verilir (4).

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında 1973-cü ildən İSY sistemi üzrə biblioqrafik informasiya xidməti həyata keçirilir.

İSY sisteminin biblioqrafik informasiya xidmətində əsas üstünlükləri aşağıdakılardan ibarətdir:

1.İnformasiya tələbatçılarını məlumat axtarışından tam azad edir.

2.Biblioqrafik informasiya tələbatçıya müəyyən olunmuş vaxtda, müntəzəm çatdırılır.

3.Sistemlə abonent arasında olan əks əlaqədə verilən biblioqrafik informasiyanın tələbatçının sorğuları ilə uyğun gəlməsi (5).

Aparılan tədqiqatların nəticəsinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, AMEA-nın Mərkəzi Elmi Kitabxanasında fərqli biblioqrafik informasiya xidməti fərqləndirilməyən biblioqrafik informasiya xidmətindən daha səmərəli şəkildə istifadə olunmuşdur.

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında 1980-1990-cı illərdə EHM-in geniş tətbiqi, müasir dövrdə isə kompüter texnikasından səmərəli istifadə etməklə fərqli biblioqrafik informasiya xidməti həyata keçirilir. Bunun üçün MEK-da hər gür şərait yaradılmış, geniş kompüter zalı fəaliyyət göstərir. Texnikanın son nailiyyətlərindən istifadə etməklə mütəxəssis ədəbiyyatşünaslar öz sorğularına uyğun İnternetdə biblioqrafik axtarış aparır və sorğularına operativ, tam cavab ala bilirlər (6).

Biblioqrafik informasiya xidmətinin digər forması fərqləndirilməyən biblioqrafik informasiya xidmətidir. Müasir dövrdə xidmətin bu forması daha da təkmilləşdirilmiş, biblioqrafik fəaliyyətdə rolu artmışdır. Biblioqrafik informasiya xidmətinin bu formasının üstün cəhəti



ondan ibarətdir ki, hər bir mütəxəsis tələbatçı orerativ və müntəzəm şəkildə özünə lazım olan informasiyanı əyani şəkildə (kitab sərgiləri) görə və istifadə edə bilər (məlumat bülletenləri).

Fərqləndirilməyən informasiya xidməti kitabxana fonduna daxil olan ədəbiyyatın təbliğinə xidmət edən vasitələrdən biridir. Bu xidmətin ən geniş yayılmış forması kitabxanaya yeni daxil olan ədəbiyyatın məlumat bülletenlərinin nəşridir. Bu bülletenlərdə kitabxanaya yeni daxil olan nəşrlər haqqında müntəzəm biblioqrafik informasiya verilir.

Mərkəzi Elmi Kitabxanada bu funksiyanı Məlumat biblioqrafiya şöbəsinin əməkdaşları həyata keçirirlər. Məlumat bülletenlərini tərtib edərkən biblioqraflar aşağıdakı tələblərə riayət etməlidirlər:

a) məlumatın tamlığı;

b) dəqiq seçmə meyarı;

c) materialların düzülüşündə sistemlilik;

ç) dəqiq və vahid biblioqrafik təsvir;

d) məlumat annotasiyasının yazılması (7).

Bütün bu tələblərə 70-80-ci illərdə tərtib olunmuş məlumat bülletenlərində tam əməl olunub. Lakin son dövrlərdə tərtib olunan məlumat bülletenlərində bu tələblərə əməl olunmamışdır. Belə ki, MEK-a 2001-ci ildə Azərbaycan və rus dillərində yeni daxil olan biblioqrafik informasiya mənbəyi 4 buraxılışda olmuşdur. Biblioqrafik informasiya mənbəyində materiallar elmlər təsnifatına uyğun, daxildə isə müəlliflərin əlifba sırası ilə verilmişdir. Buraxılışların heç birində giriş məqaləsi və məlumat annotasiyası verilməmişdir. Eyni zamanda bəzi buraxılışlarda əvvəlki illərdə verilmiş ədəbiyyatın təkrar biblioqrafik təsvirinin verilməsi həmin buraxılışın dəyərini müəyyən qədər aşağı salır.

Lakin müasir iqtisadi çətinlik dövründə kitabxanaların ciddi maliyyə problemləri ilə üzləşdiyi bir şəraitdə bütün görülən işləri qənaətbəxş hesab etmək olar.

Mərkəzi Elmi Kitabxanada fərqləndirilməyən biblioqrafik informasiya xidməti ilə kitabxananın müxtəlif şöbələri, o cümlədən yeni nəşrlər zalında kitabxanaya yeni daxil olan ədəbiyyatın sərgisi təşkil olunur. Bu sərgi 15 gün davam edir. Eyni zamanda sərgilər yubileylərlə, dövrün sosial-siyasi hadisələri ilə bağlı olur.

Belə sərgilər Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən kitabxanada da daim təşkil olunur. İnstitutun kitabxanasında əməkdaşların yeni əsərlərini təqdim etməklə və yubileylərlə bağlı həm yeni kitablar, həm də yubiley sərgiləri müntəzəm təşkil olunur.

Fərqləndirilməyən biblioqrafik informasiya xidməti ilə MEK-nın «Şərq şöbəsi» də məşğul olur. Belə ki, şöbə EA-nın «Azərb. EA-nın

Mərkəzi Elmi Kitabxanasına daxil olan ictimai elmlər üzrə Şərq dillərində kitabların biblioqrafik siyahısı» və «Azərbaycan EA MEK-a Şərq dillərində daxil olan jurnal məqalələrinin biblioqrafik siyahısı» adlı cari büllетenləri tərtib edib nəşr etdirir (10).

Ədəbiyyatşünas alimlərə biblioqrafik informasiya xidməti göstərən mərkəzlərdən danışarkən M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının müvafiq şöbələrinin, BDU-nun Elmi Kitabxanasının biblioqrafiya şöbəsinin, Bakı Şəhər Mərkəzi kitabxanasının fəaliyyətlərini də qeyd etmək lazımdır. Bu mərkəzlərdə biblioqrafik fəaliyyət prosesi kimi biblioqrafik informasiya xidmətinin bütün formaları tam şəkildə olmasa da, əsasən tətbiq olunur və dövrün, günün tələblərinə uyğun olaraq daim təkmilləşdirilir.

## ƏDƏBİYYAT


*1. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti.- B.: BUN, 2001.-S. 71-80.*

*2. Библиографическая работа в библиотеке: организация и методика.-М., 1990.- С. 134-147.*

*3. Yenə orada.- S. 136.*

*4. Yenə orada.- S.148-150.*

*5. Yenə orada.- S.150-154.*

*6. Azərbaycan EA MEK-nın 2001-ci il üçün hesabatı.- S. 4.*

*7. Azərbaycan EA Mərkəzi Elmi Kitabxanaya Azərbaycan və rus dillərində 2001-ci ildə daxil olan kitablar. IV bur.- B., 2001. – 36 s.*

*8. Yenə orada.- S. 21.*

*9. Azərbaycan EA Mərkəzi Elmi Kitabxanaya Azərbaycan və rus dillərində 2002-ci ildə daxil olan kitablar: I-III buraxılış.- B., 2002.- 82 s.*

*10. Azərbaycan EA MEK-nın 2000-ci il üçün hesabatı.- S. 8.*



***Сима Исмаилова***


## *ЦЕНТРЫ ИНФОРМАЦИОННО-БИБЛИОГРАФИЧЕСКОГО ОБСЛУЖИВАНИЯ УЧЕНЫХ – ЛИТЕРАТУРОВЕДОВ*

## РЕЗЮМЕ


*В статье освещена деятельность научных учреждений и библиотек, занимающихся информационно-библиографическим обеспечением научных исследований в республике. Особое внимание в работе уделено работе института литературы им. Низами и Центральной Научной Библиотеки АН*

**Solmaz SADIQOVA**
*müəllim*

# BİBLİOQRAFİK MƏHSULUN REPERTUARININ YARADILMASI SAHƏSİNDƏ İLK TƏŞƏBBÜS

***İsmayılov N.İ. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: (biblioqrafik vəsaitlərin göstəricisi) – B.: Mütərcim, 2003.-112 s.***

Azərbaycanda biblioqrafiyaşünaslıq elminin görkəmli nümayəndəsi, professor Z.H. Əliyevin qeyd etdiyi kimi, sənədlər və informasiya tələbatçıları arasında bəşəriyyətin topladığı möhtəşəm sənəd yığımından daha mütərəqqi və səmərəli istifadə olunmasına təsir göstərən vasitələrdən biri də biblioqrafiyadır (2, s.19). Elmin, texnikanın, mədəniyyətin daha da inkişafı biblioqrafik fəaliyyətin də qarşısında yeni-yeni vəzifələr qoyur. Biblioqrafik fəaliyyətin nəticəsi isə biblioqrafik informasiyadır.

Professor Z.H.Əliyevin «Ümumi biblioqrafiyaşünaslıq» dərs vəsaitində (3) biblioqrafiyanın ictimai istiqamətinə görə təsnifləşdirilməsi verilmişdir. Məlum olmuşdur ki, biblioqrafik vəsaitlərin vasitəsilə biblioqrafiyanın növ təsnifatı məsələsi yeni metodologiya ilə həll olunur:

Biblioqrafik informasiyanın axtarış və kommunikasiya funksiyalarını eyni dərəcədə həyata keçirən formal xarakterə malik ümumi biblioqrafiya;

Müəyyən xidmət sahəsinə, konkret məqsəd və oxucu istiqamətinə malik olan xüsusi biblioqrafiya;

Fuksional məqsəd və xronoloji əlamətinə görə cari, retrospektiv və perspektiv biblioqrafiya;

Biblioqrafiyalaşdırmanın bilavasitə obyekti olan sənədlərin forma və məzmunu ilə əlaqədar olan universal və sahəvi biblioqrafiya;

Elmin, xalq təsərrüfatının və mədəniyyətin ən müxtəlif sahələrindən kompleks informasiya tələb edən və bəzən də problem-mövzu biblioqrafiyası adlandırılan kompleks biblioqrafiya;

Məzmun-ərazi, yəni məzmun forma əlaməti əsas götürülən diyarşünaslıq və ölkəşünaslıq biblioqrafiyası;

Biblioqrafiyanın bir xüsusi növü də var ki, ona «biblioqrafiyanın biblioqrafiyası» adı verilir (3, s.106).

Professor Z.H.Əliyevin qeyd etdiyi kimi, biblioqrafiya sənəd-tələbatçı sistemində əlaqələndirici həlqə (vasitəçi) rolunu oynayır. Lakin biblioqrafik informasiya mənbələri, yəni biblioqrafik vəsaitlər xeyli artdığına görə onların da axtarışı çətinləşir və deməli, tələbatçıların sənədləşdirilmiş biblioqrafik informasiya mənbələri üzrə istiqamətləndirilmələrinə ehtiyac yaranır. «Sənəd-tələbatçı» sistemi mühitində biblioqrafik məhsulun müxtəlifliyi və həcmcə artması ilə əlaqədar olaraq «Biblioqrafik informasiya-tələbatçı» («Bİ-T») deyilən yeni xüsusi bir sistem yaranır və bu sistemdə sənəd-tələbatçı sisteminə məxsus olan ziddiyyətlər kiçik miqyasda, müəyyən incəliklə təkrar olunur. İndi artıq «Bİ-T» sistemində axtarış, kommunikasiya və qiymətləndirmə funksiyalarını həyata keçirən xüsusi vasitəçiyə ehtiyac əmələ gəlir və bu sistemdə tələbatçılar əvvəlkilərdən ibarət olaraq qalır, ilkin sənədləri (biblioqrafiyalaşdırmanın bilavasitə obyektini) isə ikinci, yəni biblioqrafik sənədlər əvəz edir. Deməli, biblioqrafiyanın biblioqrafiyası «vasitəçinin vasitəçisi» mənasını verir. Biblioqrafik vasitələr haqqında biblioqrafik informasiyanın həcmcə mürəkkəbləşməsi onun gələcəkdə hətta üçüncü və dördüncü pillələrinin meydana gəlməsinə səbəb ola bilər. Bunun dünya miqyasında yaranması ehtimalı daha çoxdur (3, s.107).

Biblioqrafik vəsaitlər haqqında biblioqrafik informasiya verən Azərbaycan biblioqrafiyasının biblioqrafiyası (biblioqrafik vəsaitlərin göstəricisi) adlı vəsait də bu ehtiyacdan yaranmışdır. Pedaqoji elmlər namizədi, dosent Nadir İsmayılovun müəllifi olduğu bu kitabın elmi redaktoru Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, professor Z.H.Əliyev, rəyçiləri, pedaqoji elmlər namizədi dosent Ə.T.Xələfov, pedaqoji elmlər namizədi, dosent R.Ə.Kazımovdur. Vəsaitin məlumat metodik aparatından məlum olur ki, bu biblioqrafik informasiya mənbəyində ilk dəfə olaraq Azərbaycan Respublikasında meydana gələn əsas biblioqrafik vəsaitlər əhatə edilmişdir. Vəsaitdə bir əsrdən artıq dövrdə çap edilən mənbələr (Azərbaycan və rus dillərində) sahələr üzrə verilmişdir. Azərbaycan biblioqrafik ehtiyatının əsas hissəsini əhatə edən bu mənbə yalnız kitab formalı mənbələri özündə əks etdirir və kitabxanaçı-biblioqraflar, informasiya işçiləri, ali və orta ixtisas kitabxanaçılıq məktəblərinin müəllim və tələbələri, o cümlədən geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur (5).

«Tərtibçidən» başlıqlı yazıda qeyd olunur ki, Azərbaycanda biblioqrafik informasiya mənbələrinin yaradılması və istifadəsi zəngin və



mürəkkəb inkişaf yolu keçmişdir. XX əsrin ikinci yarısından etibarən bu sahədə mühüm nailiyyətlər əldə edilmiş, milli mədəniyyətimizin bir sahəsi kimi biblioqrafik fəaliyyət, onun nəticəsi olan biblioqrafik ehtiyat bir sistem kimi formalaşmışdır. Biblioqrafik informasiya mənbələri formasına görə tarixi təkamül prosesindən keçmiş, Azərbaycan cəmiyyətinin informasiya tələbatının ödənilməsinin müstəqil atributlarından birinə çevrilmişdir (5, s. 3). Biblioqrafik mənbələrin artması onlardan müasir informasmiya-axtarış vasitələrində istifadə olunması problemi bu mənəvi sərvətin özünün biblioqrafik baxımdan məlumat kitabının yaradılmasını zəruri etmişdir.

Ölkəmizdə ənənəvi biblioqrafik fəaliyyətin nəticəsi olan mənbələri əhatə edən məlumat kitabı Azərbaycan biblioqrafik məhsulun repertuarının yaradılması sahəsində ilk təşəbbüsdür. Biblioqrafik vəsaitlərin göstəricisi kimi onun quruluşunda kompleks əlamətlər: müasir biblioqrafik məlumat sisteminin, Azərbaycan iqtisadiyyatının, elminin, texnikasının və infrastrukturunun modeli, real biblioqrafik informasiya tələbatı, onun məzmunu və quruluşu nəzərə alınmışdır. Belə ki, Azərbaycan dilində «Ümumi biblioqrafik məlumat», «Xüsusi biblioqrafik» mənbələr verilmişdir. Xüsusi biblioqrafik mənbələr 10 yarımbölmədə: İctimai elmlər bütövlükdə; Təbiət elmləri bütövlükdə; Texnika; Kənd təsərrüfatı, Tibb, səhiyyə; Təhsil, pedaqoji elmlər; Mədəniyyət və incəsənət; Kitabxana işi və biblioqrafik fəaliyyət; Nəşriyyat və kitab ticarətinin biblioqrafiyası; Filoloji elmlər.

Analitik biblioqrafik mənbələr ayrıca verilmişdir. Ümumiyyətlə, biblioqrafik məlumat kitabının əsas mətni təxminən 130 illik bir dövr ərzində ölkəmizdə biblioqrafik fəaliyyətin ən mühüm nailiyyətlərini əks etdirir. Vəsaitdən çoxcəhətli axtarış məqsədilə səmərəli istifadə etmək, biblioqrafik fəaliyyətin kəmiyyət etibarı və təkamülü prosesini izləmək və ayrı-ayrı informasiya mərkəzlərinin bu sahədə əldə etdiyi nailiyyətləri konkret olaraq ümumiləşdirmək məqsədilə «Xronoloji göstərici», «Biblioqrafik vəsaitləri tərtib edən, nəşr edən idarə, müəssisə və fərdi şəxslərin göstəricisi», «Fərdi müəlliflər və müxtəlif təşkilatlar», «Azərbaycan Respublikasının biblioqrafik resursları statistik rəqəmlərdə» sərlövhəli yardımçı aparat vəsaitin dəyərini artırır və axtarış imkanlarına istiqamət verir.

Azərbaycanın görkəmli kitabxanaşünas alimi, professor A.A.Xələfov qeyd edir ki, müstəqillik şəraitində dövlətimiz və xalqımız, alimlərimiz, ziyalılarımız, bütün qəbildən olan mütəxəssislərimiz qarşısında duran ən mühüm vəzifə müasir Azərbaycan cəmiyyətini informasiyalaşdırmaqdır. Cəmiyyətdə informasiyalaşdırma prosesi nə qədər tez, nə

qədər sürətlə getsə, dövlətimiz və xalqımız dünya dövlətləri və xalqları içərisində bir o qədər geniş inkişaf edər, qabaqcıl dünya sivilizasiyasına qovuşar (4).

Dosent N.İ.İsmayılov yazır: "Müasir dövr Azərbaycan cəmiyyətinin informasiya tələbatının genişlənməsi, onun ödənilməsi üsullarının mürəkkəbləşməsi ilə səciyyələnir. Bu da informasiya təminatı sisteminin köklü şəkildə yenidən qurulmasını tələb edir. Problemin həlli yollarından biri də informasiya ehtiyatlarının tərkib hissəsi olan biblioqrafik sərvətin formalaşması və ona təsir edən amilləri, onun quruluşunu, biblioqrafik informasiya tələbatının ödənilməsi səviyyəsini, biblioqrfik ehtiyatlardan səmərəli istifadə yollarını tədqiq etməkdən ibarətdir» (6, s. 227).

Müasir mərhələdə müstəqil Azərbaycanda biblioqrafiyaşünaslıq sahəsində əsas vəzifələrdən biri biblioqrafik fəaliyyətdə əsil demokratik, milli, dünyəvi və çağdaş ənənələrə əsaslanan prinsipləri milli və ümumbəşər zəmində informasiya xidmətinə nail olmaq və istifadə səmərəliliyinin artırılması yollarını müəyyənləşdirməkdən ibarətdir.

Prezident Heydər Əliyev demişdir: «Həyatımız dəyişir, hər bir şey dəyişir. Biz bu dəyişikliklər prosesinin içindəyik. Keçmişdə nəşriyyat işi dövlətin əlində idi, onun tərəfindən maliyyələşdirilirdi və bunun sayəsində Azərbaycanda həmin sahə çox genişlənmişdi. İndi, dövlətin imkanları məhdudlaşdığı, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getdiyimiz bir vaxtda, özəl bölməyə geniş imkanlar yaratmağa çalışdığımız və Azərbaycanda, kiçik də olsa özəl bölmənin meydana çıxdığı bir vaxtda biz onun bütün imkanlarını nəşriyyat işinin canlandırılmasına, inkişaf etdirilməsinə, xüsusən kitab nəşrinin genişləndirilməsinə cəlb etməli, yönəltməliyik» (1, s. 475).

Bunun üçün də informasiya texnologiyası, bütövlükdə informasiya işini avtomatlaşdırmaq, kompüterləşdirmək, yüksək texnologiyaya malik informasiya mərkəzləri yaratmaqla buna nail olmaq mümkündür.

## ƏDƏBİYYAT

*1. Əliyev H.Ə. Müstəqilliimiz əbədidir: 10 cilddə. C.4.-B.: Azərnəşr,1997.- S. 475.*

*2. Əliyev Z.H. Biblioqrafik informasiya və onun elmi mahiyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal.-B.: Bakı Universiteti Nəşriyyatı, 1998.-№ 2.-S.19.*



*3. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti.-B.: Bakı Universiteti Nəşriyyatı, 2001.-145 s.*

*4. Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri // Respublika.-2002.-17 aprel.*

*5. İsmayılov N.İ. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: (biblioqrafik vəsaitlərin göstəricisi). -B.: Mütərcim, 2003.- 112 s.*

*6. İsmayılov N.İ. Azərbaycanın kitabxana-biblioqrafiya ehtiyatı və onun səmərəli istifadə problemləri // Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş Elmi Konfransın materialları (27-29 may) h. 2. Humanitar və sosial-siyasi elmlər ser. – B.: BDU, 1998.-S. 227.*

***Солмаз Садыгова***

## ПЕРВАЯ ИНИЦИАТИВА В ОБЛАСТИ СОЗДАНИИ РЕПЕРТУАРА АЗЕРБАЙДЖАНСКОЙ БИБЛИОГРАФИЧЕСКОЙ ПРОДУКЦИИ

### *РЕЗЮМЕ*

*В статье говорится о значении пособием именитый как «Библиография Азербайджанской библиография» (указатель библиографических пособий) каторый дает информацию о библиографических указателей.*

*Çimnaz RÜSTƏMOVA*
*Baş laborant*

# AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN ELMİ KİTABXANASINDA İNFORMASİYA İSTİFADƏÇİLƏRİNƏ BİBLİOQRAFİK XİDMƏTİN BƏZİ MƏSƏLƏLƏRİ

Hərtərəfli biliyə malik mütəxəssislərin hazırlanmasında ali məktəb kitabxanalarının üzərinə böyük vəzifələr düşür. Azərbaycan müstəqillik əldə etdikdən sonra təhsil sistemində gedən islahatlar həmin sistemə məxsus olan kitabxanaların da fəaliyyətlərinə öz təsirini göstərir və onların informasiya xidməti vəzifələrini xeyli mürəkkəbləşdirir (1, s.40).

«Ali təhsil haqqında» Azərbaycan Respublikasının Qanunundan irəli gələn vəzifələrin yerinə yetirilməsində ali məktəb kitabxanalarının böyük rolu vardır. Ali məktəb kitabxanaları ali məktəb təhsilinin və elminin əsas aparıcı qüvvələri olan professor-müəllim heyətinə və eləcə də elmi-tədqiqatla məşğul olan aspirantlara və tələbələrə biblioqrafiya xidmətini yüksək səviyyədə qurur və təkmilləşdirir.

Ali məktəb kitabxanaları informasiya istifadəçilərinin sorğularını daha tam və operativ şəkildə ödəmək məqsədi ilə kitabxana-biblioqrafiya xidmətinin daha mütərəqqi metodlarından və bunlara müvafiq üsullardan - vasitələrdən istifadə edirlər: «Məlumat bülletenləri»nin çapı, «Mütəxəssis günləri», «Məlumat günləri», «İnformasiyanın seçilmiş yayılması» sisteminin tətbiqi, fərqli xidmət, qrup və ya kollektiv xidmət və s. formalardan geniş istifadə olunur.

Respublikanın ali məktəb kitabxanaları içərisində ən böyük və tibb sahəsində zəngin fonda malik kitabxana olan Azərbaycan Tibb Universitetinin kitabxanası 1930-cu ildə yaranmışdır (2, s.348; 3, s.85).

Azərbaycan Tibb Universitetinin Elmi Kitabxanası əsasən tibb sahəsinə dair çap əsərlərinin saxlandığı ən böyük müəssisə olmaqla bərabər, həmçinin alimlərin, səhiyyə işçilərinin və tələbələrin biblioqrafik məlumatla təmin edilməsi sahəsində də mühüm yer tutur. Burada biblioqrafik xidmətin iki rejimi fərqləndirilir:

1. Biblioqrafik informasiya xidməti;



2. Soraq-biblioqrafiya xidməti.

1984-cü il Dövlət Standartında qeyd edildiyi kimi (QOST 7-0-84), biblioqrafik məlumatvermə sorğusuz və daimi qüvvədə olan sorğular əsasında sistemli biblioqrafik təminatdır (9, s.18).

Yeni ədəbiyyat haqqında müntəzəm biblioqrafik informasiya xidmətini nəzərdə tutan bu rejimdən fərqli olaraq soraq-biblioqrafik xidməti ancaq sorğular əsasında aparılır.

Qeyd etmək lazımdır ki, biblioqrafik məlumatvermənin özünün də iki əsas növünü fərqləndirmək olar:

1. Fərqli biblioqrafik məlumatvermə (fərdi və qrup);
2. Fərqləndirilməyən biblioqrafik məlumatvermə (kütləvi) (8, s.136).

Tibb Universitetinin Elmi Kitabxanasında informasiya istifadəçiləri aşağıdakı şəkildə qruplaşdırılmışdır:

1. Professor və müəllimlər.
2. Aspirantlar və magistrlər.
3. Tələbələr.
4. Elmi işçilər və əməkdaşlar.

Kitabxanada biblioqrafiya işinin təşkilini, elmi-pedaqoji işçi heyətinə, aspirant, magistr və tələbələrə biblioqrafik xidməti müasir tələblər səviyyəsində təşkil etmədən istər tədris, istərsə də elmi-tədqiqat işi sahəsində böyük müvəffəqiyyətlərə nail olmaq mümkün deyildir.

Elmi Kitabxanada fonda daxil olan yeni ədəbiyyat haqqında informasiya xidmətinin vasitələrindən biri «Kitabxanaya yeni daxil olan nəşrlərin məlumat göstəriciləri»dir. Bu siyahıda ancaq kitablar haqqında məlumat verilir. Yeni nəşrlərin məlumat göstəricisində biblioqrafik təsvirlə yanaşı kitabın şifrəsi ilə indeksi haqqında da məlumat verilir ki, bu da oxucu sorğusu üzrə onun axtarışını asanlaşdırır. Məlumat göstəricilərinin qarşısında duran ən mühüm tələblərdən biri nəşr operativliyindən ibarətdir. Belə ki, kitabxanaya yeni ədəbiyyat daxil olan kimi kitabxana qaydası ilə işləndikdən sonra dərhal məlumat göstəricisi çap olunmalıdır, belə halda onu optimal hesab etmək olar.

Kitabxanada yeni nəşrlərin məlumat göstəricisi makina ilə çap olunur, sonra kitabxanada yerləşən «SHARP 7800» markalı kseroks vasitəsilə sayı çoxaldılaraq müvafiq kafedra və laboratoriyalara göndərilir.

Elmi Kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında istifadəçilərə biblioqrafik informasiya verməyin ən geniş yayılmış vasitələrindən biri də «Məlumat günü»dür. «Məlumat günü» biblioqrafik materiallar da daxil olmaqla kitabxanaya daxil olan yeni nəşrlərin müntəzəm nümayiş etdirilməsi günüdür. «Məlumat günü» hər ay əvvəlcədən təyin olunmuş gündə keçirilir. Bunun üçün oxucuları və informatorları qabaqcadan xə-

bərdar etmək lazımdır. Bu tədbir zamanı yeni ədəbiyyat oxu zallarında nümayiş etdirilir. Materiallar məzmununa görə tibb sahəsi üzrə qruplaşdırılır və stolların üzərində düzülür. Sonra biblioqraflar iformatorların seçdikləri materiallar üzrə onlardan sifariş qəbulunu təşkil edir, məsləhətlər verir, hər hansı ədəbiyyatı əks etdirən biblioqrafik mənbələrlə tanış olmaq zərurətini onların nəzərinə çatdırır.

Tibb Universitetinin Elmi Kitabxanasında «Kafedra günləri» də keçirilir. «Kafedra günləri»ndə hər bir kafedrada qabaqcadan təyin olunmuş informatorlar iştirak edir. İnformatorlar kitabxana ilə kafedra arasında vasitəçi kimi çıxış edən mütəxəssislərdən ibarət olur. «Kafedra günləri»ndə Elmi Kitabxanaya yeni daxil olan materiallar hər bir kafedra üçün əvvəlcədən nəzərdə tutulmuş stolların üstündə düzülür. İnformatorlar kafedrada tədris olunan sahələrə dair stolların üstünə düzülmüş ədəbiyyat – kitab, kitabça, dərslik, dərs vəsaitləri, dövri mətbuatda çap olunmuş məqalələr, kafedranın profilinə uyğun tərtib olunmuş biblioqrafik göstəricilərlə tanış olurlar. Sonra informatorlar əldə etdikləri məlumatları kafedra üzvlərinə qrup və ya fərdi şəkildə çatdırırlar.

Tibb Universitetinin Elmi Kitabxanasında aktual məsələlər üzrə fondda olan sənədlərlə informasiya istifadəçilərini tanış etmək üçün «Sərgi-baxışlar» təşkil olunur. «Sərgi-baxış»larda həm yeni daxil olan ədəbiyyat, həm də əvvəllər daxil olmuş ədəbiyyat da əks olunur. Çox zaman belə sərgi-baxışlar informatorların köməyi ilə ayrı-ayrı kafedralarda da təşkil olunur. Burada çox zaman tibb sahəsinə dair çap olunmuş biblioqrafik mənbələr də nümayiş etdirilir.

İndi isə Elmi Kitabxanada həyata keçirilən və fərdi, fərqli informasiya xidmətinin ən faydalı sistemi olan biblioqrafik informasiyanın seçilmiş yayılması (İSY) sistemlərinin abonentləri və onların sorğularının yerinə yetirilməsi prosesi ilə tanış olaq.

Tibb Universitetinin Elmi Kitabxanasında biblioqrafik informasiyanın seçilib yayılması sisteminin yaranmasında əsas məqsəd universietin rəhbərliyinə, professor və müəllim heyətinə, aspirant, dis-sertant, elmi tədqiqat işi ilə məşğul olanlara operativ biblioqrafik informasiya xidmətini həyata keçirməkdən ibarətdir.

Belə ki, Elmi Kitabxananın Elmi biblioqrafiya şöbəsi universitetin beş rəhbər işçisinə – rektora, tədris işləri üzrə prorektora, elmi işlər üzrə prorektora və həmkarlar komitəsinin sədrinə – rəhbərliyə diferensial xidməti göstərir. Məsələn, 1992-ci ildə rəhbərliyə diferensial xidmət üzrə üç abonentə (4, s.3), 1999-cu ildə isə beş abonentə məlumat verilmişdir (6, s.10).



Qeyd etmək lazımdır ki, Tibb Universitetinin Elmi Kitabxanasında həyata keçirilən informasiyanın seçilmiş yayılması sisteminin abonentlərinin əsas hissəsini alim və professorlardan ibarət fərdi abonentlər qrupu təşkil edir. Bu qrupa daxil olan abonentlər ali məktəb kitabxanalarının informasiyanın seçilib yayılması sistemləri abonentlərinin 70-80 faizini təşkil edirlər. Bu qrupdan olan hər bir abonentə onların fərdi sorğuları əsasında seçilmiş müvafiq operativ biblioqrafik informasiya verilir (8, s.30).

Ümumiyyətlə, informasiyanın seçilmiş yayılması sistemi vasitəsilə səmərəliliyini xarakterizə edən relevantlıq, dolğunluq, tamlıq, axtarış dairəsinin genişliyi, axtarış predmetinin dəqiqliyi, məlumat-axtarış dilinin çevikliyi və əks-əlaqə kimi əsas cəhətlər məhz bu qrup abonentlərin fərdi biblioqrafik informasiya ilə təmin olunması prosesində ortaya çıxır (8, s.30).

Qeyd etmək lazımdır ki, Elmi Kitabxanada həyata keçirilən informasiyanın seçilmiş yayılması sisteminin ikinci qrup abonentlərinin əsas hisssəsinin təşkil etdiyi alim və professorlardan ibarət fərdi abonentlərə informasiyanın seçilmiş yayılması sistemi üzrə 1992-ci ildə 22 abonentə (4, s.3), 1999-cu ildə 7 abonentə (6, s.10) operativ biblioqrafik informasiya xidməti göstərilmişdir.

İnformasiyanın seçilib yayılması sisteminin üçüncü qrupunu kollektiv abonentlər – yəni kafedralar, laboratoriyalar təşkil edir. Kitabxanada kollektiv abonentlər qrupuna informasiyanın seçilmiş yayılması sistemi vasitəsilə operativ biblioqrafik informasiya verilməsi əsas yer tutur və sistemin abonentlərinin yarıdan çoxunu təşkil edir. Belə ki, bu sistem ilə 70 kollektiv abonentə operativ biblioqrafik informasiya verilir.Belə ki, sistem üzrə hər kafedra, laboratoriya və kabinənin ixtisas profilinə uyğun olaraq onlara ayda bir dəfə seçilmiş biblioqrafik informasiya verilir. Kafedra və laboratoriyalardan ayrılmış informatorlar bu məlumatları kafedraların iclaslarında elan edir və kafedranın kollektiv sorğularını əks əlaqə yolu ilə Elmi biblioqrafiya şöbəsinə göndərirlər. Belə ki, universitetin «Anatomiya» kafedrasının müdiri, professor V.Şadlinski Elmi Kitabxananın müdirinə göndərdiyi məktubda aşağıdakı mövzular üzrə patent və elmi məqalələr haqqında informasiyanı kafedraya təqdim etməyi xahiş etmişdir. Məktubda adı çəkilən mövzular bunlardır:

1. «Maqnitli su» ilə tibbi müalicə.
2. «Maqnitli massaj»ilə tibbi müalicə.
3. «Maqnitli hava» ilə tibbi müalicə.
4. «Maqnitli kombenezon» ilə tibbi müalicə.
5. «Maqnitli dalğa rezonansı» ilə tibbi müalicə.

6. «Maqnitli terapiya» ilə tibbi müalicə.

Elmi biblioqrafiya şöbəsinin əməkdaşı B.İsmayılova mövzu ilə əlaqədar axtarış aparmış və 52 mənbəni aşkar etmişdir. Bunlardan bir neçəsini göstərmək olar. Məsələn:

*1. Агзамходжаев С.М., Иногамов Я.В. Магнитотерапия в хирургической практике // Медицинский журнал Узбекистана.-1987.-№10.-С.52-55.*

*2. Боголюбов В.М., Сорокина Е.И. Электромагнитные и магнитные поля в лечении ишемической болезни сердца //Кардиология.-1983.-№3.-С.103-110.*

*3. Влияние импульсного электромагнитного поля низкой частоты на организм.- Киев: Здоровья,1978.-131 с. və b.*

İnformasiyanın seçilmiş yayılması sistemi vasitəsilə abonent sorğularının ödənilməsinə müsbət təsir edən əsas amillərdən biri də mövzu sorğuları üzrə axtarış aparılan mənbələrin sayının artırılmasından ibarətdir. Elmi kitabxanada informasiyanın seçilmiş yayılması sisteminin fəaliyyətində bu cəhətə xüsusi diqqət yetirilir. Yəni axtarış aparılan elmi mənbələrin - jurnalların, ardı davam edən nəşrlərin və elmi məcmuələrin sayı ildən-ilə artmaqda davam edir. Burada ayrıca kitab halında çap olunmuş mənbələrə daha çox yer verilir.

Elmi Kitabxanada həyata keçirilən informasiyanın seçilmiş yayılması sisteminin işini qənaətbəxş hesab etmək olar. Ancaq onu da qeyd etmək lazımdır ki, bu sistemin təkmilləşdirilməsinə ehtiyac da vardır.

Elmi biblioqrafiya şöbəsində aparılan əsas biblioqrafik xidmətlərdən biri də soraq-biblioqrafiya xidmətidir. Sorğu və cavab qaydasında iş soraq-biblioqrafiya xidmətində mühüm və vacib cəhətdir. Soraq-biblioqrafiya xidməti kitabxanada aşağıdakı kimi qruplaşdırılan informasiya istifadəçilərinə göstərilir:

1. Professor-müəllim heyəti;.
2. Tələbələr;
3. Aspirant və magistrlər;
4. Elmi işçilər və digər əməkdaşlar.

Soraq-biblioqrafiya xidmətinin təsir obyektinin bu cür müxtəlifliyi həmin xidmətin qarşısında çox çətin və mürəkkəb vəzifələr qoyur. İnformasiya istifadəçilərinin qrup müxtəlifliyi onların sorğularının məqsədlərinə, məzmununa öz təsirini göstərir və xidmət göstərən biblioqraf bu çoxcəhətli sorğulardan baş çıxarmalı, onları düzgün qiymətləndirməyi və nəticə etibarilə sorğu verəni kompleks şəkildə cavablandırmağı bacarmalıdır.



Elmi Kitabxanada soraq-biblioqrafiya xidməti gedişində sorğuya verilən müsbət cavabın əsas formalarından biri və əsası biblioqrafik arayışlardır. Bildiyimiz kimi, belə arayışlar sorğuların məqsədlərindən asılı olaraq üç əsas növə bölünür: mövzu, ünvan, biblioqrafik təsvir ünsürlərini dəqiqləşdirən. Biblioqrafik arayışlar yazılı və şifahi olurlar.

1991-2000-ci illərdə Elmi Kitabxananın Elmi biblioqrafiya şöbəsinin əməkdaşları universitetin professor-müəllim heyətinə, aspirantlara, magistr, tələbə və digər əməkdaşlara soraq-biblioqrafiya xidmətinin həyata keçirilməsi sahəsində mühüm nailiyyətlər əldə et-mişlər. Elmi biblioqrafiya şöbəsi informasiya istifadəçilərinin verdiyi sorğuları əsasında 1991-ci ildə 1957 (12 yazılı), 1992-ci ildə 2010 (8 yazılı), 1993-cü ildə 2137 (5 yazılı), 1994-cü ildə 3210 (15 yazılı),1995-ci ildə 2300 (15 yazılı), 1996-cı ildə 2000 (10 yazılı), 1997-ci ildə 2020 (12 yazılı), 1998-ci ildə 1820 (8 yazılı),1999-cu ildə 2387 (7 yazılı) və 2000-ci ildə 5135 (8 yazılı ) arayış yerinə yetirilmişdir.

Bu faktlardan məlum olur ki, 1991-2000-ci illərdə həmin şöbədə 24.976 arayış, o cümlədən 100 yazılı arayış yerinə yetirilib (7).

Bundan başqa hesabatlardan məlum olur ki, 1998-ci ildə 650 ünvan biblioqrafik arayışı, 900 mövzu arayışı, 230 biblioqrafik dəqiqləşdirmə arayışı, 40 faktoqrafik arayış yerinə yetirilmişdir. Cəmi 1820 arayışdan 8-i yazılı arayış olmuşdur (5, s.3).

Elmi biblioqrafiya şöbəsinin yerinə yetirdiyi arayışlar içərisində mövzu arayışları xüsusi əhəmiyyətə malikdir. Bildiyimiz kimi, biblioqrafik mövzu arayışı məzmununa görə mövzu sorğusuna relevant olan sənədlərin biblioqrafik siyahısını əks etdirir.

Elmi biblioqrafiya şöbəsi çoxlu sayda belə yazılı mövzu arayışları yerinə yetirmişdir. Bir neçəsini nümunə üçün göstərək:

1. «Damarların varikoz genişlənməsi» mövzusunda sorğunu Həmzəyev S.M. vermişdir.

Arayışı B.İsmayılova tərtib etmişdir. Bu arayışda mövzu ilə əlaqədar 151 adda mənbənin biblioqrafik təsviri verilir. Məsələn:

*1. Səfərov V.X., Xanəliyev N.M. Aşağı ətrafların venalarının birincili varikoz genlənməsində cərrahi müalicənin uzaq nəticələri// Azərbaycan tibb jurnalı.-1982.-№11.-S.53-59. və s.*

Başqa bir mövzu arayışını nümunə gətirək:

Bu mövzu arayışı «Tibb və səhiyyəyə aid dövlətin qərar və qanunları. H.Əliyev və səhiyyə» adlanır.

Arayışı M.Niyazova tərtib etmişdir. Bu arayışda tibbə dair 24 qərar, 13 fərman, 8 sərəncamın biblioqrafik təsviri verilir.

«H.Əliyev və səhiyyə» bőlməsində isə 20 mənbənin biblioqrafik təsviri verilir. Məsələn:

*Qərarlar:*

*1.Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında//Azərbaycan.-2000.-30 iyul.*

*2.Tibbi sığorta haqqında // Azərbaycan.- 2000.-15 yanvar. və b.*

*Fərmanlar:*

*1.«Əczaçılıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanununun tətbiq edilməsi barədə // Xalq qəzeti.-1997.-24 yanvar; Azərbaycan.-1997.- 28 yanvar. və b.*

*Sərəncamlar :*

*1. Akademik Vəli Axundovun 80 illik yubileyi haqqında //Azərbaycan.-1996.-23 aprel . və b.*

«H.Əliyev və səhiyyə» bőlməsi.

*1.Azərbaycan Tibb Universitetinin 70 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Respublika prezidenti H.Əliyevin nitqi // Azərbaycan.- 2000.-20-21 iyun; Təbib.- 2000.-27 iyun. və b.*

Elmi Kitabxanada aspirant, magistr və tələbələrə də maksimum xidmət gőstərilir. Belə ki, tələbələrin ixtiyarına tədris abonenti və 82 nəfərlik oxu zalı verilmişdir. Bundan başqa, Tibb Universitetinin nəzdindəki yataqxanalarda da oxu zalları fəaliyyət gőstərir ki, bunlarda da tələbələrə lazımi şəkildə xidmət gőstərilir. Bu xidmətin səviyyəsini daha da yüksəltmək məqsədilə oxu zallarının nəzdində yaradılmış kőməkçi fondlar vaxtlı vaxtında yeni ədəbiyyatlarla, məlumat nəşrlərlə zənginləşdirilir.

Beləliklə, Azərbaycan Tibb Universietetinin Elmi Kitabxanasında informasiya istifadəçilərinə biblioqrafik xidmətdən danışarkən əldə edilən faktlara əsaslanaraq belə nəticəyə gəlmək olar ki, bu qocaman ali məktəbin Elmi Kitabxanası, o cümlədən Elmi biblioqrafiya şőbəsi őz fəaliyyətini universitetin qarşısında duran tədris-tərbiyə işləri ilə əlaqələndirmiş, professor-müəllim heyətinə, tələbələrə, aspirantlara, magistrlərə və digər əməkdaşlara biblioqrafiya xidmətini hər vasitə ilə yüksəltməyə çalışmış və bu sahədə mühüm nailiyyətlər əldə etmişdir.

Bu illərdəki iqtisadi çətinliklərə baxmayaraq Elmi Kitabxana «Pentium» markalı bir kompüter və «SHARP-7800»markalı kseroks əldə etmişdir. Elmi biblioqrafiya şőbəsində «Yeni daxil olmuş ədəbiyyatın məlumat bülleteni» az miqdarda da olsa çap olunur. Kitab-xanada çap olunmaq üçün bir neçə gőstərici hazırlanmışdır, onlardan yalnız ikisi – B.Ağayevə (1998) və Y.Məmmədova (1993) həsr olunmuş gőstəricilər çap olunmuşdur.



## ƏDƏBİYYAT

***a) Azərbaycan dilində:***

*1.Azərbaycan Respublikasının Təhsil Qanunu.-B.: Öyrətmən, 1993.- 40 s.*

*2.Əmiraslanov Ə.,İslamzadə F.İ. Azərbaycan Tibb Universiteti: (1930-2000).-B.: «Təbib» nəşriyyatı, 2000.-360 s.*

*3.Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi (1933-1958).-B.:Azərnəşr,1974.-243 s.*

*4. Azərbaycan Tibb Universiteti Elmi Kitabxanasının 1992-ci il üçün hesabatı.*

*5.Azərbaycan Tibb Universiteti Elmi Kitabxanasının 1998-ci il üçün hesabatı.*

*6.Azərbaycan Tibb Universiteti Elmi Kitabxanasının 1999-cu il üçün hesabatı.*

*7.Azərbaycan Tibb Universiteti Elmi Kitabxanasının 1991-2000-ci illər üçün hesabatları.*

***b) Rus dilində :***

*8. Библиографическая работа в библиотеке: организация и методика.- М., 1990.- 254 с.*

*9. Стандарты по библиотечному делу и библиографии.-М.,1985.-278 с.*

*10. Шадрина И.С. Информационно-библиографическое обслуживание ученых и специалистов в вузовской библиотеке// Проблемы библиографического обслуживание в библиотеках вузов.- Л.,1985.-С.30.*

***Чимназ РУСТАМОВА***

## НЕКОТОРЫЕ ВОПРОСЫ ОРГАНИЗАЦИИ БИБЛИОГРАФИЧЕСКОГО ОБСЛУЖИВАНИЯ ПОТРЕБИТЕЛЕЙ ИНФОРМАЦИИ В НАУЧНОЙ БИБЛИОТЕКЕ АЗЕРБАЙДЖАНСКОГО МЕДИЦИНСКОГО УНИВЕРСИТЕТА

***Р Е З Ю М Е***

***В статье рассмотрены некоторые актуальные вопросы организации библиографического обслуживания потребителей инормации в НБ Азербайджанского Медицинского Университета. На основе анализа статистических материалов создана общая представления о классификации читателей, содержание и структура их потребителей, выявлены основные факторы влияющие на формирование библиографических потребностей, а также формы и методы библиографического обслуживания медицинских работников.***

**Xuraman VERDİYEVA**
*Laboratoriya müdiri*

# ŞƏXSİ BİBLİOQRAFİK VƏSAİTLƏR PEDAQOJİ ELMLƏRİN BİBLİOQRAFİK İNFORMASİYA TƏMİNATINDA MÜHÜM VASİTƏ KİMİ

Azərbaycanın biblioqrafik informasiya sərvətləri içərisində universal xarakterli, geniş əhatəli, retrospektiv şəxsi biblioqrafik vəsaitlər mühüm yer tutur. Müxtəlif elm sahələrinin görkəmli adamlarına həsr olunmuş çoxsaylı şəxsi biblioqrafik göstəricilər səciyyəvi tərtib metodikasına malikdir. Bu vəsaitlər içərisində pedaqogika sahəsinə dair şəxsi biblioqrafik göstəricilər özünəməxsus yer tutur.

Onlardan biri də pedaqoji elmlər doktoru, akademik, Azərbaycan Respublikasının Əməkdar ali məktəb işçisi, Maarif əlaçısı, Pedaqoji Universitetin Ümumi pedaqogika kafedrasının müdiri Hüseyn Mustafa oğlu Əhmədovun elmi-pedaqoji fəaliyyətinə həsr edilmiş "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə çap olunmuş biblioqrafik göstəricidir. 118 səhifədən ibarət olan, "Professor H.M.Əhmədovun əsərlərinin izahlı biblioqrafiyası" adlanan bu biblioqrafik göstərici 1951-1990-cı illəri əhatə edir.

Göstəricinin tərtibçiləri Fərrux Rüstəmov və Həsən Bayramov, elmi redaktoru isə İ.N.İsayevdir. Göstərici Pedaqoji Universitetdə nəşrə hazırlanmış və 1990-cı ildə çap olunmuşdur.

Göstərici təxminən 40 il ərzində müəllifin nəşr etdiyi əsərələri, elmi-pedaqoji, tədris-metodiki xarakterli məqalələri, respublika və keçmiş ümumittifaq elmi-praktik konfranslardakı çıxışlarının qısaldılmış mətni, tezisləri və s. yazıları daxil edilmişdir.

Göstəricidə həmçinin H.M.Əhmədovun redaktə etdiyi əsərlər, tədris-metodik ədəbiyyat, eyni zamanda onun rəhbərlik və ya rəsmi opponentlik etdiyi namizədlik və doktorluq dissertasiyaları haqqında biblioqrafik informasiya da öz əksini tapmışdır.

Professor H.M.Əhmədovun Azərbaycan dilində nəşr olunmuş əsər və məqalələrinin adları rus dilində, eyni zamanda rus, erməni və



gürcü dillərində nəşr edilmiş məqalələrin adları isə müvafiq şəkildə Azərbaycan dilinə tərcümə edilmişdir.

Göstəriciyə daxil edilən bütün materiallar məzmun və xarakterindən asılı olmayaraq xronoloji ardıcıllıqla verilmiş, biblioqrafik göstəriciyə bir neçə köməkçi aparat tərtib olunmuşdur.

Biblioqrafik göstərici aşağıdakı bölmələrdən ibarətdir.

1. Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri;
2. Ömrün yadda qalan səhifələri (elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında qısa öçerk);
3. Əsərləri;
4. Redaktə etdiyi əsərələr;
5. Dissertasiya işinə elmi rəhbərlik;
6. Dissertasiya işlərinə opponentlik;
7. Elmi-pedaqoji fəaliyyəti və əsərləri haqqında ədəbiyyat;
8. Əsərlərinin əlifba göstəricisi;
9. H.Əhmədov haqqında yazmış müəlliflər.

Göstəricinin birinci bölməsi "Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri" adlanır. Azərbaycan və rus dilində verilmiş bu bölmə akademik Hüseyn Əhmədovun mənalı həyatının güzgüsüdür. Bölmə vasitəsilə akademikin həyatında baş verən mühüm hadisələr haqqında informasiya almaq olar.

"Ömrün yadda qalan səhifələri" (elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında qısa öçerk) adlanan ikinci bölmədə proffessor Ə.Əlizadə akademik H.Əhmədovun elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında mükəmməl məlumat verir. Bölmədən öyrənirik ki, 1952-ci ildən taleyini Pedaqoji Universitetlə bağlayan H.Əhmədovun elmi taleyi uğurlu olmuşdur. O, respublikamızda haqlı olaraq pedaqoji fikrin mərkəzlərindən biri hesab edilən pedaqogika kafedrasında aspirant kimi fəaliyyətə başlamışdır. Elmi rəhbəri, görkəmli alim, professor Ə.Seyidovla hər bir görüşü zamanı gənc aspirant nəinki elmi biliyə yiyələnmiş, həm də daxilən zənginləşmiş, ünsiyyət məktəbi keçmişdir.

H.Əhmədov maraqlı bir problem - nümunə ilə tərbiyə sahəsində tədqiqat aparmışdır. 1958-ci ildə Pedaqoji Universitetdə dissertasiya müdafiə edərkən akademik A.O.Makovelski, professor B.B.Komarovski, professor M.M.Mehdizadə, M.Ə.Muradxanov, D.Mustafayeva dissertasiyanın elmi əhəmiyyəti ilə bərabər praktik əhəmiyyətə malik olduğunu xüsusilə qeyd etmişlər. Dissertasiya müdafiəsi zamanı elmi rəhbər professor Ə.Seyidov onun haqqında demişdir: "H.Əhmədov istedadlı gənc pedaqoqdur. Mən belə hesab edirəm ki, o, bu sahədəki tədqi-

qatlarını müvəffəqiyyətlə davam etdirəcəkdir". O, elmi rəhbərin sözlərini doğrultmuşdur. H.Əhmədov XIX əsrin məktəb tarixini öyrənə-öyrənə ölkənin Moskva, Leninqrad, Həştərxan, Tbilisi, Bakı Mərkəzi Dövlət arxivlərində, elmi idavrələrdə hifz olunan qiymətli arxiv sənədlərin, dövri mətbuat materiallarını yorulmaq bilmədən araşdırmış, elmə məlum olmayan faktlar toplayıb ümumiləşdirmişdir.

1972-ci ildə H.Əhmədov Bakı Dövlət Universitetində pedoqoji elmlər doktoru alimlik dərəcəsi almaq üçün müvəffəqiyyətlə dissertasiya müdafiə etmişdir. Akademıklərdən N.K.Qonçarov, M.Mehdizadə, F.Köçərli, professorlardan K.Kazımov, A.Abdullayev, M.Qazıyev, A.Zamanov, M.Əlizadə və başqaları əsəri haqlı olaraq Azərbaycan pedaqoji fikrinə layiqli tohfə kimi qiymətləndirmişlər. 150-yə qədər kitab, kitabça və məqalə müəllifi olan H.Əhmədovun tədqiqatları Azərbaycan məktəbi və pedaqoji fikrinin görkəmli nümayəndələrinə, həmçinin İ.N.Ulyanovun və T.Q.Şevçenkonun pedaqoji ideyalarına həsr edilmişdir.

Professorun tədqiqatında N.Nərimanovun pedaqoji fikirləri xüsusi yer tutur. Onun «N.Nərimanovun pedaqoji fikirləri" adlı kitabı Bakıda, məqalələri isə Moskvada, Həştərxanda, Tbilisidə nəşr olunmuşdur. Alim həmçinin ASE-nin bir neçə cildinin, Moskvada çapa hazırlanan ikicildlik "Pedaqoji ensiklopediya"nın əsas müəlliflərindən biridir.

Göründüyü kimi, akademik H.Əhmədovun yaradıcılıq yolu zəngindir və bu bioqrafik oçerk akademikin maraqlı yaradıcılıq yolunu izləmək baxımından əhəmiyyətlidir və sahənin informasiya istifadəçilərinin biblioqraifk informasiya təminatında mühüm əhəmiyyət kəsb edir.

"Əsərləri" adlanan üçüncü bölmə akademik H.Əhmədovun 1955-ci ildən 1990-ci ilə qədər çap olunmuş əsərlərini əks etdirir. Bu bölmə akademik H.Əhmədovun qələmindən çıxan 150-yə qədər Azərbaycan və rus dilində olan mənbəni əhatə edir. Azərbaycanca olan mənbələrin rus dilənə və rus dilində olan mənbələrin Azərbaycan dilinə tərcümə olunması vəsaitin oxucu kontingentini genişləndirir. Mənbələrə annotasiyanın verilməsi informasiya istifadəçiləri üçün mühüm əhəmiyyət kəsb edir və hər bir mənbənin məzmununu açır.

*Məsələn: 104. XIX əsr Azərbaycan məktəbi.-Bakı: Maarif.-1985.-292 s.*

*19-cu yüzillikdə - bütöv bir əsr ərzində Azərbaycan xalq maarifi və məktəb təhsili ilə bağlı bir sıra vacib pedaqoji problemlərin tədqiqinə həsr edilmişdir.*

*Monoqrafiyada Azərbaycanın Rusiya tərkibinə daxil edilməsindən sonra məktəb təhsili sahəsində ilk mütərəqqi nəticələr, ilk dövlət*



*məktəblərinin meydana gəlməsi, müsəlman məktəbləri, keçən əsrin 60-cı illərinin məktəb islahatı və bunun Azərbaycanda məktəb təhsilinin inkişafına təsiri, ibtidai kənd məktəlblərinin meydana gəlməsi və inkişafı, dəmir yolu, bazar günü və sənət məktəblərinin fəaliyyəti, rus-Azərbaycan, natamam orta və orta məktəblərin inkişafı, qadın təhsili, məktəb və mədrəsə təhsili məsələləri, anadilli məktəblərin meydana gəlməsi və inkişafı və s. məsələlər külli miqdarda arxiv sənədəlri əsasında ətraflı tədqiq olunur.*

Göründüyü kimi, annotasiya monoqrafiyanın məzmunu tam əhətə edir. Yeri gəlmişkən, biblioqrafik göstəricinin "H.Əhmədov əsərlərinin izahlı biblioqrafiyası» adlandırılması biblioqrafiyaşünaslığın metodik əsaslarına uyğun gəlmir. O, «Annotasiyalı biblioqrafik göstərici» adlandırılsaydı, daha düzgün olardı.

Biblioqrafik gösətricinin "Əsərləri" adlanan 3-cü bölməsində kitabların, elmi-məqalələrdən ayrı verilməməsi biblioqraifk axtarışı çətinləşdirir və vaxt itkisinə səbəb olur. Bölmədən öyrənirik ki, akademik H.Əhmədovun ilk elmi əsəri 1955-ci ildə "Azərbaycan məktəbi" jurnalının 2-ci nömrəsində 24-28-ci səhifələrdə dərc olunmuş "Pioner dəstələrinin adları ilə əlaqədar olaraq tərbiyəvi iş təcrübəsindən" adlanan elmi məqalədir. 1990-cı ildə çıxmış sonuncu elmi məqaləsi isə "Əhməd Seyidov" biblioqrafik göstərcisinə yazdığı "Sovet Azərbaycanının ilk pedaqoqu "Əhməd Seyidov" adlı oçerkdir.

Bölmə akademik H.Əhmədovun 1990-cı ilə qədər nəşr olunmuş əsərlər haqqında mükəmməl biblioqrafik informasiya verir və pedaqoji sahənin biblioqraifk informasiya təminatında mühüm rol oynayır. Bölmə vasitəsilə H.Əhmədovun 1990-cı ilə qədər nəşr olunmuş əsərləri haqqında mükəmməl informasiya almaq olar.

Biblioqrafik göstəricinin 4-cü bölməsi "Azərbaycan Sovet Ensiklopediyasında nəşr olunmuş məqalələri" adlanır. Bölmədə 44 məqalə haqqında biblioqrafik məlumat verilir. Azərbaycanca yazılmış materilların rus dilinə, rus dilində yazılmış materialların Azərbaycan dilinə tərcümə olunması göstəricinin oxucu kontingentini artırır.

"Qəzet məqalələri" adlanan 5-ci bölmə akademik H.Əhmədovun dövri mətbuat səhifələrində çap olunmuş məqalələri haqqında mükəmməl məlumat verir. Lakin bölmənin "Qəzet məqalələri" adlandırılması biblioqrafiyalaşdırmanının metodikasına ziddir. "Dövri mətbuatda dərc olunmuş əsərləri" adlandırılsaydı, daha düzgün olardı.

Bölmədən öyrənirik ki, akademik H.Əhmədovun dövri mətbuat səhifələrində dərc olunmuş ilk məqaləsi "Kirovabad bolşeviki" qəzetində 1951-ci ildə avqust ayının 29-da dərc olunmuş "H.Zərdabi adına

Kirovabad Pedaqoji İnstitutuna qəbul haqqında" adlı məqaləsidir. 1990-cı ilə qədər dövri mətbuatda çap olunmuş son əsəri "Pedaqogika tarixi və müasirlik" adlı "Azərbaycan müəllimi" qəzetinin səhifələrində 20 oktyabr 1989-cu ildə çap olunmuş məqaləsidir.

Göründüyü kimi, bölmə akademikin qəzet səhifələrində çap olunmuş 143 məqaləsi haqqında mükəmməl biblioqrafik informasiya verir və bölmə vasitəsilə 1990-cı ilə qədər akademikin dövri mətbuat səhifələrində dərc olunmuş əsərləri haqqında mükəmməl biblioqrafik informasiya almaq olar.

Biblioqrafik göstəricinin 6-cı bölməsi "Redaktə etdiyi əsərlər" adlanır. Bu bölmədə akademik H.Əhmədovun redaktə etdiyi 35 əsər haqqında biblioqrafik informasiya verilir.

Biblioqrafik göstəricinin 7-ci bölməsi "Dissertasiya işlərinə elmi rəhbərlik" adlanır. Bölmədə akademik H.Əhmədovun 1990-cı ilə qədər rəhbərlik etdiyi pedaqoji elmlərin müxtəlif sahələrinə həsr olunmuş 26 dissertasiya işinin biblioqrafik təsviri verilir. Bölmədən öyrənirik ki, biblioqrafik göstərici tərtib olunan dövrə qədər müdafiə olunmuş dissertasiyaların hamısı rus dilində müdafiə olunmuşdur.

"Dissertasiya işlərinə opponentlik" adlı digər bölmədə akademik H.Əhmədovun opponetlik etdiyti 12 dissertasiya işi haqqında biblioqrafik informasiya verilir.

"Elmi-pedaqoji fəaliyyəti və əsərləri haqqında ədəbiyyat" bölməsində akademik H.Əhmədov elmi-pedaqoji fəaliyyəti və əsərləri haqqında yazılmış 102 məqalə haqqında biblioqrafik informasiya almaq olar. Bölmədən öyrənirik ki, H.Əhmədovun elmi-pedaqoji fəaliyyəti və əsərləri haqqında nəşr olunmuş ilk məqalə Y.Talıbovun "Azərbaycan müəllimi" qəzetində dərc etdirdiyi "Qiymətli vəsait" adlı məqalədir.

Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə göstəriciyə köməkçi aparat tərtib olunmuşdur. Bu köməkçi aparalaradan birincisi "H.Əhmədovun əsərlərinin əlifba göstəricisi"dir. Köməkçi aparatı tərtib etməkdə əsas məqsəd daxildə xronoloji ardıcıllıqla düzülmüş materialların əlifba sırası vasitəsilə tez tapılmasına yardım etməkdən və vaxt itkisinə qənaət etməkdən ibarətdir.

İkinci köməkçi aparat "Алфавитный указатель трудов Г.М.Ахмедова изданным на русском, армянском и грузинском языках" adlanır. Bu köməkçi aparat vasitəsilə akademikin rus, erməni və gürcü dillərində nəşr olunmuş əsərələrini daha tez müəyyənləşdirmək olar.

Üçüncü köməkçi aparat "Prof. H.Əhmədov haqqında yazmış müəlliflərin əlifba göstəricisi"dir. Göstərici vasitəsilə prof.H.Əhmədov haqqında yazmış müəlliflər haqqında informasiya almaq olar.



Göründüyü kimi, akademik H.Əhmədovun elmi, pedaqoji, ictimai fəaliyyəti haqqında mükəmməl məlumat verən bu biblioqrafik vəsait pedaqoji sahənin biblioqrafik informasiya təminatında mühüm rol oynayır.

## ƏDƏBİYYAT


1. *Библиографическая работа в библиотеке: организация и методика.- М., 1990.- 255 с.*

2. *Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti.- B.: BUN, 2001.- S. 243.*

3. *Professor H.M.Əhmədovun əsərlərinin izahlı biblioqrafiyası /Tərt ed.: F.A.Rüstəmov, H.B.Bayramov; Red.:.İ.N.İsayev; Azərbaycan Təhsil Nazirliyi, Azərbaycan Dövlət Pedaqoji Universiteti.-1990.- 118 s.*


***Хураман Вердиева***

## ПЕРСОНАЛЬНЫЕ БИБЛИОГРАФИЧЕСКИЕ УКАЗАТЕЛИ КАК ВАЖНОЕ СРЕДСТВО БИБЛИОГРАФИЧЕСКОГО ОБЕСПЕЧЕНИЯ ПЕДАГОГИЧЕСКОЙ НАУКИ

### *РЕЗЮМЕ*

*Для библиографического обеспечение современной педагогической науки и практики существует целая система библиографических средств позволяющих оперативно и полно удовлетворить потребности специалистов. По сложившися традиции, среди библиогрсфических пособий посвященных педагогическом наукам основное место занимают персональные библиографические указатели. В данной статье анализированы методические особенности и поисковые возможности библиографического указателя посвящённого видному ученому-академику Г.Ахмедову.*

# FAKÜLTƏNİN ELMİ HƏYATI

## KİTABXANAŞÜNASLIQ ELMİNDƏ ƏLAMƏTDAR HADİSƏ

### *Xəlil İsmayılovun doktorluq dissertasiyası müdafiəsindən qeydlər*

**2004-cü il mayın 15-də Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin həyatında əlamətdar bir hadisə baş verdi: pedaqoji elmlər namizədi, dosent Xəlil İsmayıl oğlu İsmayılov 05.25.03 – «Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq; kitabşünaslıq» və 07.00.02 – «Vətən tarixi» indeksləri üzrə tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi «Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000-ci illər; tarixi, müasir vəziyyəti və perspektivləri)» mövzusunda doktorluq dissertasiyasını Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 18 fevral 2004-cü il tarixli 39 saylı əmri ilə Bakı Dövlət Universitetində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında uğurla müdafiə etdi.**

### UĞURLU MÜDAFİƏ

Birdəfəlik Dissertasiya Şurasının sədri - Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Yaqub Mikayıl oğlu Mahmudov, elmi katibi isə tarix elmləri namizədi, dosent Tacəddin Fərhad oğlu Quliyev idi.

İddiaçının elmi məsləhətçisi - Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma akademiyasının akademiki, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru,



BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Xələfov, rəsmi opponentlər – pedaqoji elmlər doktoru, professor Tatyana Karatıgina, tarix elmləri doktoru, professor Tamilla Musayeva, tarix elmləri doktoru, professor Oqtay Rzaquliyev, aparıcı təşkilat – Azərbaycan Dövlət Pedaqoji Universitetidir.

Elmi katib Dissertasiya Şurasının üzvlərini Xəlil İsmayılovun şəxsi sənədləri ilə tanış etdikdən sonra söz iddiaçıya verildi.

Dissertant Xəlil İsmayılov dissertasiya işinin qısa məzmunu ilə şura üzvlərini tanış etdi, sonra isə suallara cavab verdi.

Daha sonra Dissertasiya Şurasının üzvlərindən professorlar A.Xələfov, T.Karatıgina, Q.Altuxova, T.Musayeva, O.Rzaquliyev, F.İbrahimli, A.Atakişiyev, Q.Bayramov və başqaları çıxış edərək, dissertasiya işinin xüsusiyyətlərindən danışdılar və onun müəllifinin tarix elmləri doktoru alimlik dərəcəsinə layiq olduğunu bildirdilər.

Dissertasiya Şurasının sədri, professor Yaqub Mahmudov çıxışları yekunlaşdıraraq dedi ki, opponentlər dissertasiya işinə çox yüksək qiymət verdilər. Xəlil müəllimin dissertasiya işi bitkin və tamamlanmış tədqiqat əsəridir. Bu gün hamımız üçün çox əlamətdar bir gündür. Xalqımızın ləyaqətli ziyalılarından biri, çox zəhmətsevər insan, uzun müddətdir ki, sanballı tədqiqat üzərində çox cəsarətlə çalışan gözəl bir insan elmin ən yüksək zirvəsinə çatır, tarix elmləri doktoru kimi yüksək ada layiq görülür. Bu hamımız üçün sevindiricidir.

Çıxışlardan sonra Xəlil İsmayıl oğlu İsmayılovun " Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000-ci illər; tarixi, müasir vəziyyəti və perspektivləri)" mövzusunda doktorluq dissertasiyasını gizli səsverməyə buraxıldı.

Hesablayıcı komissiyanın tərkibinə professorlar Aslan Atakişiyev, Qalina Alekseyevna, Fəzail İbrahimli namizədliyi irəli sürüldü.

Fasilədən sonra gizli səsvermənin nəticələri ilə şura üzvlərini tanış edən komissiyanın sədri, professor Aslan Atakişiyev bildirdi ki, Dissertasiya Şurasının qərarı ilə Xəlil İsmayıl oğlu İsmayılovun "Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sistemi (1918-2000-ci illər; tarixi, müasir vəziyyəti və perspektivləri)" (ixtisas: 05.25.03-«Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq; kitabşünaslıq» və 07.00.02- «Vətən tarixi») mövzusu üzrə tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyası gizli səsverməyə buraxılmışdır. Dissertasiya Şurasının 17 üzvündən bugünkü iclasda 14 nəfər iştirak edir. 14 bülleten paylanıb, qutuya 14 bülleten salınıb, 14 bülleten qutudan çıxarılıb. Lehinə 14 nəfər, əleyhinə – yoxdur, bitərəf – yoxdur. Etibarsız bülleten yoxdur.

Hesablayıcı komissiyanın protokolu yekdilliklə təsdiq olundu.

Beləliklə, dissertasiya işi Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının alimlik dərəcəsi verilməsi haqqında əsasnaməsinin tələblərinə tam cavab verdiyinə görə Birdəfəlik Dissertasiya Şurası Xəlil İsmayıl oğlu İsmayılova tarix elmləri doktoru alimlik dərəcəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılmasını qərara aldı.

Bununla Birdəfəlik Dissertasiya Şurasının iclası öz işini başa çatdırdı.

## İDDİAÇININ ÖMÜR YOLU

*Xəlil İsmayıl oğlu İsmayılov 1945-ci ildə anadan olmuşdur.*

*1972-ci ildə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsini Kitabxanaçı-biblioqraf ixtisası üzrə bitirmişdir.*

*1974-cü ildən Kitabxanaşünaslıq kafedrasında laborant, baş laborant, müəllim, baş müəllim vəzifələrində çalışmışdır.*

*1976-1979-cu illərdə ADU-nun Kitabxanaşünaslıq kafedrasının əyani aspirantı olmuş və 1984-cü ildə Moskva Dövlət Mədəniyyət İnstitutunda «Sovet hakimiyyəti illərində Azərbaycanda partiya kitabxanaları: tarixi, müasir vəziyyəti və inkişaf perspektivləri» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.*

*1986-cı ildən BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, 1990-1993-cü illərdə həmin kafedranın müdiri olmuşdur.*

*1993-cü ildən bu günə kimi BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı vəzifəsində çalışır.*

*70-dən çox elmi əsəri vardır. Onlardan 38-i, o cümlədən bir monoqrafiya və bir kitab bilavasitə dissertasiya mövzusuna aiddir.*

*Moskvada, Tbilisidə, Amerikada, Belçikada, Fransada beynəlxalq elmi konfranslarda Azərbaycan kitabxana ictimaiyyətini təmsil etmiş, məruzələrlə çıxış etmişdir.*

*Azərbaycanda 1997-ci ildən çıxan yeganə ixtisas jurnalının - «Kitabxanaşünaslıq və biblioqrafiya» elmi-nəzəri və təcrübi jurnalının təsisçisi və baş redaktoru, 1999-cu ildən Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyasının prezidentidir.*

*Ailəlidir. Bir oğlu, iki qızı, üç nəvəsi vardır.*





1991-ci ildə qurulmuş müstəqil Azərbaycan dövləti respublikamızın sosial-iqtisadi inkişafı, xalqımızın elmi texniki və mədəni-mənəvi potensialının daha da gücləndirilməsi üçün geniş imkanlar açmışdır.

1995-ci ildə qəbul edilmiş Azərbacan Respublikası Konstitusiyası cəmiyyətə xidmət edən bütün sosial institutların demokratik prinsiplər əsasında öz fəaliyyətlərini yeniləşdirməsi üçün ilk dəfə əsaslı hüquqi baza yaratmışdır. Bu ali dövlət sənədində cəmiyyət üzvlərinin mədəni təsisatlardan və mədəni sərvətlərdən istifadə etmək, eləcə də informasiya əldə etmək hüquq və vəzifələrinə xüsusi diqqət yetirilir. Bu isə ölkədə baş verən sosial, iqtisadi, elmi-mədəni proseslərin informasiya təminatı problemini aktuallaşdırır.

Dosent Xəlil İsmayılovun dissertasiya işində qeyd olunduğu kimi, cəmiyyətin mühüm mədəni təsisatı və informasiya bazası olan kitabxanalar müasir dövrdə olduqca mürəkkəb funksiyalar həyata keçirən, əhalinin mütaliə mədəniyyətinin formalaşmasına səmərəli təsir göstərən sosial kommunikasiya müəssisələridir. Müasir dövrdə heç bir cəmiyyətdə elm, texnika, təhsil və mədəniyyətin bütün sahələri ümumbəşəri və milli kitabxana-informasiya sərvətlərindən istifadə etmədən inkişaf edə bilməz. Dünya kitabxanaçılıq işinin tarixi təcrübəsi sübut etmişdir ki, hər bir ölkədə kitabxana işinin təşəkkül tapması həlledici dərəcədə bu mürəkkəb prosesin metodik təminatından asılıdır. Bu gün kitabxanaların metodik təminatının həmişə daşıdığı məna dəyişmiş, kəmiyyət və keyfiyyət baxımından xeyli zənginləşmişdir. Bu inkişaf, sözsüz ki, ilk növbədə dünya miqyasında kitabxana işinin yeni mərhələyə daxil olması, onun cəmiyyətdəki informasiya proseslərinə inteqrasiyası ilə əlaqədardır. Ona görə də «Müasir dövrdə kitabxana işinin metodik təminatı necə olmalıdır» sualı kitabxana ictimaiyyətini düşündürməyə başlamışdır. İndi respublikamız üçün bu problem kitabxana işinin ən aktual problemlərindən birinə çevrilmişdir. Kitabxanaların metodik təminatı anlayışının müasir mahiyyətinin düzgün dərk edilməsi hazırda dünya informasiya məkanında baş verən yeni mürəkkəb proseslərin və bununla əlaqədar kitabxanaların fəaliyyətində meydana gələn konseptual yeniləşmənin dərindən və hərtərəfli öyrənilməsini tələb edir.

Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin inkişaf konsepsiyasını yaratmaq üçün onun inkişaf mərhələlərini, əldə edilən tarixi təcrübəni öyrənib ümumiləşdirmək xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizdə kitabxanaların metodik təminat problemi bu günədək ayrıca

tədqiqat obyekti olmamışdır. Yalnız Vətən kitabxanaşünaslığının inkişafında xüsusi xidmətləri olan professor A.Xələfovun kitabxana tarixinə həsr olunmuş bir sıra əsərlərində kitabxanaların metodik təminat məsələlərinə toxunulmuşdur. Həmçinin bir sıra kitabxanaşünas alimlərin əsərlərində də səthi olaraq bu problemə yer verilmişdir.

Beləliklə, həmin tədqiqatlarda Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin inkişafının tarixi mərhələləri, metodik fəaliyyətin bütün aspektləri, onun inkişaf perspektivləri kompleks şəkildə öyrənilib tədqiq edilməmiş, müvafiq arxiv materiallarından tam istifadə olunmaqla problemə dair heç bir monoqrafiya, dissertasiya və digər müstəqil elmi əsər meydana gəlməmişdir.

Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin yaranması, inkişaf mərhələləri və yaxın gələcəkdə onların fəaliyyətinin optimallaşdırılması yolları dosent Xəlil İsmayılovun tədqiqatının əsas predmetini təşkil edir.

İddiaçının öz çıxışında qeyd etdiyi kimi, dissertasiyada qarşıya qoyulan əsas məqsəd zəngin kitabxana materiallar, arxiv sənədləri, statistik tarixi faktlar elmi və metodik ədəbiyyatda öz əksini tapmış faktlar əsasında Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin meydana gəlməsi və inkişafı mərhələlərin müəyyənləşdirərək, 1918-2000-ci illərdə bu prosesdə baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini, onları müəyyən edən amilləri, müasir dövr üçün dəyərli meylləri təhlil edərək, ölkəmizdə kitabxana işinin gələcək inkişafına xidmət edən metodik təminat sisteminin optimallaşdırılması istiqamətlərini müəyyənləşdirməkdən ibarət olmuşdur.

Xüsusi vurğulamaq lazımdır ki, X.İsmayılovun dissertasiyası geniş faktik, statistik və arxiv materiallarının ilk dəfə elmi dövriyyəyə gətirilməsi əsasında Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin bütün inkişaf mərhələlərini, müasir vəziyyətini və təkmilləşdirilməsi problemlərini öyrənib ümumiləşdirən ilk tədqiqat əsəridir. Bu əsərdə ilk dəfə olaraq Azərbaycanda kitabxanaların metodik təminatı ilə əlaqədar 80 illik tarixi dövr ərzində meydana çıxmış nəzəri, metodik, təşkilati məsələlərin mahiyyəti xronoloji ardıcıllıqla, ölkədə kitabxana işinin inkişaf prosesləri ilə vəhdətdə təhlil edilib ümumiləşdirilmişdir.

Bununla yanaşı, tədqiqatda hələ bu vaxta qədər nəzəri və metodik ədəbiyyatda öz əksini tapmamış müxtəlif kitabxana şəbəkələrində metodik fəaliyyətin formalaşması, müvafiq metodik mərkəzlərin, o cümlədən Respublika Elmlər Akademiyası, elmi-texniki, tibb, kənd təsərrüfatı, təhsil müəssisələri, uşaq və məktəb kitabxanaları, eləcə də



həmkarlar idtifaqları kitabxanaları şəbəkələrində həyata keçirdikləri iş üsulları, onların səmərəli nəticələri işıqlandırılmışdır.

Tədqiqatda 1918-2000-ci illərdə kitabxana işinin müxtəlif məsələləri, o cümlədən kitabxana işinin təşkili və idarə olunması, kitabxana fondlarının formalaşması, kataloqlaşdırma, informasiya və biblioqrafiya işi, kütləvi tədbirlər, oxuculara xidmət, ədəbiyyatın təbliği və s. məsələlər üzrə Azərbaycanda meydana gəlmiş müxtəlif tipli metodik vəsaitlər nəzərdən keçirilmiş, araşdırılıb təhlil edilmişdir.

Tədqiqat prosesində Azərbaycanda kitabxana işinin metodik təminatında xüsusi xidmətləri olan, əhaliyə kitabxana xidmətinin inkişafı və təkmilləşdirilməsinin bütün mərhələlərində səmərəli fəaliyyət göstərmiş XX əsrin kitabxanaçılıq məktəbinin görkəmli nümayəndələri, sonralar onların ən yaxşı yaradıcılıq ənənələrini davam etdirən orta və gənc yaşlı kitabxanaçı-metodistlər nəslindən olan mütəxəssislər müəyyənləşdirilmiş, onların əməyi qiymətləndirilmişdir.

Tədqiqat işində cəmiyyətdə müasir kitabxana-informasiya xidmətinin yeni vəzifələri ilə əlaqədar metodik təminat proseslərini həyata keçirən yeni kitabxanaçı-metodist nəslinin formalaşması prinsipləri, metodistə verilən tələblər, onun mühüm peşə xüsusiyyətləri işlənilmişdir.

Dissertasiyada ölkədə kitabxana işinin metodik təminat sisteminin yeniləşməsi konsepsiyası, onun strateji istiqamətləri: metodik təminat sisteminin məqsədli proqramlaşdırılması; elmi əsaslarının gücləndirilməsi; informasiya funksiyalarının genişlənməsi; kitabxana işçilərinin fasiləsiz təhsil sistemində iştirakı; metodik təminat sisteminin strukturunun təkmilləşdirilməsi; metodistlərinin statusu və peşə səviyyəsinin yüksəldilməsi kimi müəyyənləşdirilmişdir.

İddiaçının qeyd etdiyi kimi, son 80 ildə ölkədə kitabxana işi sahəsində yeni, mütərəqqi yaradıcılıq metodlarının yaranıb bərqərar olması və sonralar daha da təkmilləşməsi məhz kitabxanaların metodik təminatının inkişafı ilə əlaqədar olmuşdur. Kitabxana işində baş verən bütün ənənəvi qabaqcıl təcrübə meyllərinin mənbəyi onun metodik təminat sistemi olmuşdur. İnkaredilməz faktdır ki, Azərbaycanda kitabxanaların metodik təminat sistemi əhaliyə kitabxana-informasiya xidməti prosesində zamanın tələblərinə çevik yanaşan, ölkənin ictimai, siyesi, iqtisadi və mədəni-mənəvi həyatındakı yenilikləri, aparıcı inkişaf meyllərini dərindən qavrayıb kitabxana təcrübəsinə tətbiq edilən yaradıcı fəaliyyət sahəsi kimi özünü doğrulda bilmişdir. Azərbaycanın çoxəsrlik kitabxana işi tarixində keyfiyyətcə yeni mərhələ olan metodik təminat sistemi özünəqədərki bu mürəkkəb peşənin bütün qabaqcıl keyfiyyətlə-

rini mənimsəyib inkişaf etdirmiş, yeni dünya kitabxana-informasiya proseslərini əks etdirən bir metod kimi təşəkkül taparaq müasir dövrdə kitabxanaçılıq sənətinin fəaliyyət dairəsini və imkanlarını daha da genişləndirmək zərurətini yaratmışdır.

* * *

*Ümumiyyətlə, istər opponentlərin, istərsə aparıcı müəssisənin rəyləri, həmçinin Şura üzvlərinin çıxışları bir daha təsdiqlədi ki, kitabxanaşünaslıq elmi sahəsində yeni cığır, yeni istiqamət açılır. Bu qənaətin sübutu kimi müdafiə şurasında səslənmiş fikirlərdən seçmələrə diqqət yetirmək kifayətdir.*

* * *

***Birdəfəlik Dissertasiya Şurasının sədri, professor Yaqub Mahmudov öz çıxışında qeyd etdi ki,*** bu gün xalqımızın həyatında çox mühüm hadisə baş verir. Tarix elmləri doktorları sırasına daha bir layiqli yoldaşımız gəlir. Xəlil İsmayılovu Azərbaycan elmi ictimaiyyəti, respublikamızın kitabxana işçiləri zəhmətkeş bir tədqiqatçı alim kimi tanıyırlar. Təsadüfi deyil ki, bu gün bu geniş salona çoxsaylı ziyalıların, Azərbaycan kitabxana ictimaiyyətinin toplaşması məhz ona olan hörmət və ehtiramın, dissertasiya işinə olan marağın nəticəsidir.

* * *

***Elmi məsləhətçi, Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Abuzər Xələfov bildirdi ki,*** Xəlil İsmayılovun müdafiəsini Azərbaycan kitabxanaçılıq elmində, kollektivin həyatında çox mühüm hadisə hesab edir. Alimin fikrincə, metodik təminat problemi çox ciddi bir problemdir. Nə qədər ki, kitabxanalar var, oxuculara xidmət var, bu problem həmişə aktualdır. Bu gün müstəqil Azərbaycan dövlətində kitabxanaların qarşısında çox mühüm problemlər dayanır, bu problemlər öz həllini tapmalıdır. Kitabxanalar informasiya mütəxəssisləri kimi öz fəaliyyətlərini yeniləşdirməli, təkmilləşdirməli və dünya informasiya məkanına inteqrasiya olunmalıdır. Bütün kitabxana problemlərini həyata keçirilməsi, yeniləşdirilməsi və təkmilləşdirilməsi kitabxanaların metodik təminatından asılıdır. Mübaliğəsiz demək olar ki, kitabxana işinin yeniləşməsi və təkmilləşdirilməsi tək metodik təminat sisteminin düzgün aparılmasından asılıdır.



Xəlil İsmayılovun dissertasiya işinin tarixi aspektdə yazılmasına baxmayaraq, tədqiqat işində çoxlu elmi yeniliklər və nəticələr verilmişdir ki, onlar respublikamızda kitabxana işinə, tədris prosesinə, yeni texnologiyaların tətbiqinə, dünya kitabxana təcrübəsinə inteqrasiya olunmasına ciddi kömək göstərəcəkdir. Xüsusilə dissertasiya işinin son fəsli yeni məsələlərə həsr olunur və kitabxana işinin inkişafına dair konsepsiya kimi işlənilmişdir. Burada sözün əsl mənasında kitabxana işinə dair həyata keçiriləcək yeni ideologiyamız müəyyənləşdirilir.

Dissertasiya işində ilk dəfə olaraq Azərbaycan Demokratik Cümhuriyyəti dövrü tarixə yeni baxışla yeni təfəkkür tərzilə kitabxanaların tarixini əks etdirmişdir. Həmçinin bütün tarixi mərhələlərdə kitabxanaların inkişaf tarixi mədəniyyət tarixinin bir hissəsi kimi, faktlara, rəqəmlərə, arxiv sənədlərinə isnad edilərək təhlil edilmiş, elmi dövriyyəyə cəlb olunmuşdur. Bütün bunlar mədəniyyət tariximizə çox böyük töhfədir. Xəlil müəllim indiyə qədər yazılan kitabxanaçılıq tarixi ilə bağlı tədqiqatlarda ilk dəfədir ki, sadə peşə adamlarının əməyini qiymətləndirir, onların adlarını çəkir.

Dissertasiyanın materiallarından, elmi nəticələrdən, irəli sürülən tövsiyələrdən respublikamızda kitabxana işinin idarə olunmasının təkmilləşdirilməsində, metodik təminat prosesində yeni mütərəqqi iş üsullarının hazırlanıb həyata keçirilməsində, metodik mərkəzlərin cari və strateji fəaliyyət proqramlarının tətbiqində, metodist kadrların hazırlanması və peşə səviyyəsinin yüksəldilməsində, kitabxana işinə dair digər təşkilati metodik məsələlərin həllində istifadə edilə bilər.

* * *

***Dissertasiya şurasının üzvü, pedaqoji elmlər doktoru, Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Qalina Altuxovanın fikri isə belə oldu:***

- Kitabxanaların fəaliyyətində metodik təminat əsas vəzifələrdən birini təşkil edir. Bizim dövrün reallığı belədir ki, kitabxana işində bir çox məsələlər gözümüzün qarşısında dəyişir. Artıq kitabxana işinin idarə edilməsində inzibati-amirlik metodlarından imtina edilmişdir. Bununla əlaqədar olaraq mürəkkəb sistemə malik olan metodik işə yenidən baxılır, kitabxanaların fəaliyyətini təkmilləşdirməyə imkan verən, zamanın tələblərinə uyğun gələn yeni mütərəqqi üsullar tətbiq olunur.

Həyati əhəmiyyətli bu mühüm məsələlər həmişə aktuallığını qoruyub saxlasa da, bu gün kitabxana xidmətinin infrastrukturunda baş vermiş köklü dəyişikliklərlə bağlı olaraq onlar xüsusi aktuallıq kəsb

etmişdir və mütəxəssislərdən ciddi elmi ideyalar tələb edir. Bu baxımdan dissertasiya işi son dərəcə mühüm, aktual və yenidir. Dissertant metodik işin terminoloji bazasının işlənilməsinə və təkmilləşdirilməsinə mühüm yeniliklər gətirmişdir. Metodik işlə bağlı müxtəlif terminləri təhlil edən müəllif «metodik təminat» anlayışının metodik mərkəzlərin sistemli işini dəqiq ifadə edən yeganə termin kimi əsaslandırmışdır.

Aydındır ki, elmlər doktoru alimlik dərəcəsinə verilən tələblərdən biri də müdafiəyə təqdim edilən dissertasiyanın yeni elmi istiqamət açması, müəyyən elm sahəsinin müasir inkişafının aktual problemlərini işləyib hazırlaması ilə müəyyən olunur.

Xəlil İsmayılovun elmi-tədqiqat işi bu tələblərə tamamilə cavab verir. Dissertasiya ilk elmi tədqiqat işidir ki, burada kitabxanaların metodik təminat sisteminin meydana gəlməsi, inkişafı və müasir vəziyyəti araşdırılmış və inkişaf perspektivləri, metodik işin forma və metodlarının yeniləşdirilməsi məsələləri aydınlaşdırılmışdır.

Bu iş kitabxana təcrübəsində ilk tədqiqatdır ki, Azərbaycandakı metodik mərkəzlərin – kitabxanaların fəaliyyəti hərtərəfli öyrənilmişdir. Dissertasiya müəllifi mahiyyətcə Azərbaycan kitabxanaşünaslığında yeni istiqamətin – kitabxanaların fəaliyyəti haqqında informasiya axınının öyrənilməsinin əsasını qoymuşdur. Dissertasiyada kitabxanaların fəaliyyət göstəricilərinin dinamikası, kitabxanaçı kadrların hazırlanması, yeniliklərin öyrənilməsi, üzə çıxarılması və kitabxana şəbəkələrində təbliğ edilməsi tədqiq olunmuşdur.

Bu hərtərəfli tədqiqat işi, şübhəsiz, yalnız Azərbaycanda deyil, başqa ölkələrdə, o cümlədən Rusiyada mütəxəssislər üçün böyük maraq doğuran mühüm elmi-nəzəri baza rolunu oynaya bilər. Belə ki, biz uzun illər ərzində birgə fəaliyyət göstərmişik, bizim kitabxanaçılıq məktəblərimizdə ümumi cəhətlər çoxdur.

Məncə, dissertasiyada respublikada kitabxanaçılıq problemlərinin həllinə dövlətin münasibəti məsələsi çox vaxtında qaldırılmışdır. Burada kitabxana sistemləri və şəbəkələrinin fəaliyyət xüsusiyyətləri metodik mərkəzlərin sosial funksiyaları ilə əlaqəli şəkildə işlənmişdir.

Müdafiəyə çıxarılan nəticələr tamamilə aktualdır və onların hər biri dissertasiyanın mətnində özünün tam əsaslandırılmış elmi təsdiqini tapmışdır. Xəlil İsmayılovun dissertasiyası kitabxana işinin metodik təminat sisteminin inkişafında yeni, aktual istiqamətin mühüm elmi və təcrübi araşdırmasıdır.

***



***Dissertasiya Şurasının üzvü, rəsmi opponent, Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kitabxanaşünaslıq kafedrasının professoru, pedaqoji elmlər doktoru Tatyana Karatıgina:***

- Dissertasiya aktual bir problemə – sovet dövründə Azərbaycan Respublikasında kitabxana işinin inkişafı əsasında metodik təminat sisteminin meydana gəlməsində mütərəqqi qanunauyğunluqların aşkara çıxarılması, müstəqil və suveren Azərbaycan dövlətinin yaradılması şəraitində bu sistemin optimallaşdırılması strategiyasının müəyyənləşdirilməsi məsələlərinə həsr olunmuşdur.

Tədqiqat işi ümumdövlət əhəmiyyətli vəzifələrin yerinə yetirilməsinə uğurlu bir elmi yanaşmadır.

Müəllif müxtəlif tarixi mərhələlərdə kitabxana sistemlərinin və metodik təminatın meydana gəlməsi istiqamətlərinə diqqət yetirmiş və milli kitabxanaşünaslıq tarixində ilk dəfə olaraq araşdırdığı mövzunu ölkənin həyatında baş vermiş ictimai və mədəni hadisələr fonunda tədqiq etmişdir.

Bütün bu cəhətlər dissertasiyanın nəzəri və təcrübi əhəmiyyətini xeyli artırır və müəllifin tədqiqat mövzusuna yeni yanaşma tərzi kimi qiymətləndirilə bilər.

Xəlil İsmayılov dissertasiya işini məntiqi şəkildə quraraq, mövzunu hərtərəfli şəkildə işləməyi bacarmış, kitabxanaların metodik təminatının inkişaf tarixinin dövrləşdirilməsini düzgün əsaslandırmışdır.

Məncə, tədqiqatın nəticələri dünya ictimaiyyətinin informasiya mədəniyyətinə qovuşması mərhələsində ölkədə informasiyalaşdırma proqramının dövlət tərəfindən həyata keçirilməsi zamanı milli-bölgə kitabxana-informasiya komponentlərinin formalaşdırılması üçün baza rolunu da oynaya bilər.

Əminəm ki, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı və Azərbaycan Kitabxana İşinin İnikşafı Assosiasiyasının prezidenti vəzifələrində çalışan Xəlil İsmayılov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik və zəka mənbəyidir» sözlərini öz əməli fəaliyyəti ilə sübuta yetirəcək, kitabxanaların kadr təminatı və maddi-texniki bazalarının möhkəmləndirilməsi sahələrində əlindən gələn köməyi əsirgəməyəcəkdir.

***

*Dissertasiya Şurasının üzvü, rəsmi opponent, tarix elmləri doktoru, professor Oqtay Rzaquliyev:*

Kitab və kitabxanalar Azərbaycanın çoxəsrlik tarixinin bütün mərhələlərində sözün həqiqi mənasında mədəni hadisə kimi inkişaf edərək, xalqın mədəni-mənəvi və intellektual potensialının güclənməsinə səmərəli təsir göstərmişdir.

Xəlil İsmayılovun dissertasiyası XX əsrdə Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixinin elmi mənzərəsini yaradan sanballı tədqiqat əsəridir.

Respublikamızda analoqu olmayan bu tədqiqat əsərində XX əsrdə ölkəmizdə kitabxana işinin nəzəri və metodik inkişaf tarixi, yeni tipli kitabxanalarda oxuculara kitabxana xidmətinin tarixi əks etdirilir.

Dissertasiyada elmi dövriyyəyə ilk dəfə daxil edilən çoxsaylı arxiv sənədləri, kitabxanaların hesabat materialları, statistik göstəricilər, metodik vəsaitlər və tarixi faktların araşdırılıb elmi şəkildə ümumiləşdirilməsi nəticəsində sübuta yetirilir ki, Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin 80 ildən artıq bir dövr ərzində keçdiyi tarixi yol, bu yolun ayrı-ayrı inkişaf mərhələləri canlı kitabxana prosesinin ayrılmaz üzvi sahəsi kimi həmişə kitabxana təcrübəsinə səmərəli təsir göstərmiş, əhaliyə kitabxana xidmətinin nəzəri və metodik əsaslarını yaratmış, kitabxana işçilərinin peşə səviyyəsinin yüksəlməsinə xidmət etmişdir.

Dissertasiyada ölkəmizdə kitabxana işinə dair metodik fəaliyyətin yeniləşməsi ilə əlaqədar irəli sürülən müddəalar da tədqiqatın elmi-nəzəri və metodik baxımdan yüksək səviyyədə yerinə yetirilməsini sübut edir.

* * *

*Dissertasiya Şurasının üzvü, rəsmi opponent, tarix elmləri doktoru, professor Tamella Musayeva:*

Xəlil İsmayılovun dissertasiyası vətən tarixşünaslığının ən mühüm problemlərindən birinə – kitabxana işinin metodik təminat sisteminin meydana gəlməsinə və inkişafına həsr edilmişdir. Belə bir mövzunun tədqiqat obyekti kimi seçilməsi olduqca mühüm və aktualdır.

Kitabxanalar həmişə dövlətin mədəni-maarif və mənəvi tərbiyə fəaliyyətində, xalqın mənəvi potensialının inkişafında çox mühüm yer tutmuşdur. Bəşəriyyətin yaratmış olduğu, kitablarda və digər sənəd materiallarında saxlanılan bütün intellektual potensial məhz kitabxanaların



fəaliyyəti sayəsində cəmiyyətin sərvətinə çevrilir. Müasir cəmiyyətdə kitabxanaların rolu və əhəmiyyəti, onun metodik təminat sisteminin təkmilləşdirilməsi bu gün əvvəlki dövrlərdən daha yaxşı inkişaf etməkdədir.

BMT tərəfindən irəli sürülmüş «insan inkişafı proqramı» ölkənin həyatında yalnız ayrıca götürülmüş iqtisadi və sosial göstəriciləri müəyyənləşdirmir, ölkədə insanın vəziyyətini onun təhsil səviyyəsini, əhalinin təhsil almış faizini öyrənmək əsasında bütövlükdə qiymətləndirir. Bu proqramın həyata keçirilməsində kitabxanaların, onların iş forma və metodlarının təkmilləşdirilməsi xüsusi yer tutur.

Müstəqil demokratik cəmiyyət quruculuğu şəraitində kitabxanalar dünya ictimaiyyəti tərəfindən həyata keçirilən qlobal proqramların reallaşmasında çox ciddi katalizatorlara çevrilməkdədir. Azərbaycan Respublikasında metodik işin inkişaf mərhələlərinin öyrənilməsinin və ümumiləşdirilməsinin əhəmiyyəti daha aydın görünür. Bu problemin dərindən təhlili XX əsrdə Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatının tam və hərtərəfli mənzərəsini yaratmağa imkan verir. Məhz buna görə də Xəlil İsmayılovun doktorluq dissertasiyası diqqəti xüsusilə cəlb edir.

Dissertasiyada metodik təminatın baza prinsiplərinin müəyyənləşdirilməsi tədqiqatçının yüksək peşəkarlıq səviyyəsindən, onun araşdırdığı sahəni dərindən bilməsindən və geniş erudisiyasıdan xəbər verir. Xəlil İsmayılovun tədqiqatı göstərir ki, XX əsrdə Azərbaycanda kitabxanaların metodik təminat sisteminin meydana gəlməsi və inkişafı eyni zamanda əhaliyə kitabxana xidməitinin təşkilində yeni formaların meydana gəlməsi və inkişafı tarixidir.

Bütün bunlar bir daha təsdiq edir ki, doktorluq dissertasiyası tədqiqatçının çoxillik elmi axtarışlarının layiqli nəticəsidir.

* * *

*Dissertasiya Şurasının üzvü, tarix elmləri doktoru, professor Tofiq Vəliyev:*

- Atatürkün bir sözü var: "Müəllimi olmayan xalqı təfəkkür tapmış xalq hesab etmək olmaz". Mən isə Atatürkün sözünə belə bir əlavə etmək istəyirəm: «Müəllimi və kitabxanası olmayan xalqı təfəkkür tapmış xalq hesab etmək olmaz».

Müəllimliklə kitabxana məfhumu vəhdətdədir. Doğrudan da inkişaf etmiş ölkələrdə kitabxana ictimai həyatda xüsusi yer tutur. Bizim kitabxanaların meydana gəlməsi və inkişafı hələ orta əsrlərdən bəllidir.

Belə hesab edirəm ki, Xəlil İsmayılovun doktorluq dissertasiyası, Abuzər müəllimin dediyi kimi, elmin zirvəsidir. Doğrudan da doktorluq dissertasiyası insanın gənc, yetkin vaxtında yazılır. Ona görə də öz işini yazan insanlar, doktorlar yuxusuz gecələrə qatlaşırlar. O yuxusuz gecələrə qatlaşan müəlliflərdən biri də məhz Xəlil müəllimdir.

Mən onun dissertasiya işinin avtoreferatı ilə tanışam. Müəllif çox gözəl, ətraflı ədəbiyyat icmalı verir. Oxşar işlərdə olduğu kimi, əsərlərin və müəlliflərin adlarını sadalamaqla kifayətlənmir, həmin əsərləri geniş təhlil edir. Özündən əvvəl yazılan əsərlərə də, sonrakı əsərlərə də Xəlil müəllim münasibətini bildirib. Münasibət olmayan yerdə əvvəlki əsərlərdə ayrı-ayrı müəlliflərin nə yazdıqları aydın olmur.

Çox zəngin mənbələrdən istifadə edən müəllif mənbələrin təhlilinə xüsusi fikir vermiş, elmi dövriyyəyə indiyə qədər çoxlarına məlum olmayan, çoxlarının bilmədiyi yeni faktlar, materiallar gətirmişdir.

Dissertasiyanın strukturu məqbul hesab oluna bilər. Bu son dərəcə mühüm məsələdir. Məsələlərin ardıcıl, vəhdət halında həlli strukturdan asılıdır. Problemin qoyuluşu və onun əlaqəsi sonrakı fəsillərdə də özünü göstərməlidir. Bu baxımdan da müəllif çox uğurlu addım atmışdır.

Kitabxana işinin metodik təminatı məsələsi, peşəkar olmasam da deyə bilərəm ki, çox yaxşı göstərilib. Müəllif hər dövrün özünəməxsus xüsusiyyətlərini verməklə bərabər, həm də dövrlərin bir-birindən fərqli cəhətlərini, o dövrlərdə baş vermiş kəmiyyət və keyfiyyət dəyişikliyini göstərə bilmişdir. Bu, son dərəcə böyük, vacib məsələdir.

Nəhayət, Xəlil müəllim elmi-tədqiqat işində həm kitabxanaların bugünü, həm də yaxın gələcəyi üçün yaxşı təkliflər vermişdir. Kitabxana işinin metodik təminatında, əlbəttə, bu tövsiyələr, təkliflər geniş şəkildə istifadə olmalıdır.

Bir məsələni də qeyd etmək istəyirəm. Doğrudan da elmin generalı elmlər doktorudur. Söhbət işini özü yazmış doktorlardan gedir. Mənə belə gəlir ki, Xəlil İsmayılov general adını almağa tamamilə layiqdir. Çünki onun dissertasiyası yüksək elmi-nəzəri səviyyədə yazılmış bitkin elmi tədqiqat işidir.

* * *



***Dissertasiya Şurasının üzvü, tarix elmləri doktoru, professor Aslan Atakişiyev:***

- Həm iddiaçının, həm də Dissertasiya Şurası üzvlərinin tədqiqat işi haqqında söylədikləri fikirlərə mən də tamamilə şərikəm. Onlar dissertasiyanı hərtərəfli şəkildə təhlil etdilər.

Mən Xəlil İsmayılovun özü haqqında söz demək istəyirəm. Xəlil müəllim kitabxanaçılıq işi sahəsində laborant, baş laborant, müəllim, elmlər namizədi, dosent, elmlər doktoru olub.

Rəhmətlik akademik İsmayıl Hüseynov deyirdi ki, elmlər namizədi, elmlər doktoru adı təkcə 100 səhifəlik əsərə görə verilmir. Bu ad mütəxəssisin təkcə elmi fəaliyyətinə yox, həm də ictimai fəaliyyətinə, kollektiv arasındakı mövqeyinə görə verilir.

Kitabxanaçılıq-informasiya fakültəsi gözümün qabağında yaranıb. Bir çox alimlərin yetişməsində mənim də az-çox rolum olub. Xəlil müəllim bu işin özülündən başlayaraq bu səviyyəyə gəlib yetişib.

Xəlil İsmayılovun müdafiəyə təqdim etdiyi dissertasiya işi özünün səviyyəsi, aktuallığı və əhatə dairəsi baxımından da diqqətəlayiqdir. O, doktorluq elmi dərəcəsinə çoxdan layiqdir.

Ona görə də kollektiv gərək əl-ələ verib, bu cür məsələləri vaxtında həll etsin. Kitabxanaçılıq fakültəsi uzun illərdir ki, kitabxanaçı-biblioqraflar hazırlayır. Eyni zamanda sizin yüksək ixtisaslı kadrlarınızın bir çoxu tarix fakültəsində hazırlanıb. Bunu da yaddan çıxarmaq olmaz.

* * *

***Dissertasiya Şurasının üzvü, tarix elmləri doktoru, professor Qurban Bayramov:***

- Xəlil İsmayılovun dissertasiya işi bizim kafedrada müzakirə olunub. Dissertasiya işi haqqında ətraflı rəyimiz var. Mən bəzi cəhətləri sizin diqqətinizə çatdırmaq istəyirəm.

Əvvəla, mövzu çoxşaxəli, çoxcəhətlidir. Həm tarix, həm mədəniyyət, həm kitabxanaçılıq, həm də bunların qarşılıqlı əlaqəsini birləşdirmək tədqiqatçıdan böyük istedad, qabiliyyət və bacarıq tələb edir.

Dissertasiyada Azərbaycan tarixinin 1918-ci ildən 2000-ci ilə qədər olan uzun bir dövrü əks olunub. Bu, həm kitabxanaçılıq işinə, həm də Azərbaycan tarixinə, Azərbaycan mədəniyyətinin tarixinə böyük hədiyyədir.

Əsər olduqca sanballı bir tədqiqat işidir. Onun xronoloji çərçivəsi 80 ildən artıq bir dövrü əhatə edir. Xüsusilə son fəsildə bütövlükdə kitabxana işinin inkişaf konsepsiyasının verilməsi sözün əsl mənasında doktorluq işinin çox sanballı tədqiqat olmasını sübut edir.

Xəlil müəllim kitabxanaçılıq işinin metodik təminatının xüsusiyyətlərini nəzərə çatdırıb, eyni zamanda, o çətinlikləri aşkarlamışdır. Məncə, birincisi, bu məsələ nə mülki, nə kitabxana, nə də mədəniyyət tarixində işlənilməmiş yeni mövzudur.

Digər tərəfdən, burada, həm cəmiyyətdə baş verən ümumi vəziyyət, həm də o dövrlərdəki xüsusiyyətlər araşdırılır.

Nəhayət, tədqiqatda müəyyən tövsiyələr verilir ki, o da doktorluq işində xüsusi tələb olunur. Həmin perspektiv tövsiyələr gələcəkdə metodik təminat işində faydalı ola bilər. Bu da dissertasiya işinin yüksək səviyyəsini göstərir.

Kitabxanaçılıq işi çox şərəfli işdir. Burada oturan adamların heç biri kitabxanaçı əməyindən kənarda qalmayıb. Xəlil müəllim öz əsərində onların əməyini də qeyd edir.

Müzakirəyə çıxarılmış dissertasiya işində Azərbaycan tarixinə, kitabxana tarixinə, mədəniyyət tarixinə yeni milli bir konsepsiya təqdim olunur. Bu milli konsepsiya ilə yanaşı, digər elmi baxışlar da özünə yol tapa bilir. Həm də Xəlil müəllim çox səliqə-sahmanla bu sahədə olan tarixşünaslığı tədqiq edib, özündən əvvəl yazılmış əsərlərə çox hörmətlə yanaşaraq, elmi maraq doğuran məqamları nəzərdən keçirərək təhlil aparmış, tarixi köklərə söykənməklə yanaşı öz tarixi tədqiqatlarına əsaslanaraq bu konsepsiyanı irəli sürmüşdür.

Xəlil müəllim üç tarixi dövrü tədqiq edib. Çox maraqlıdır ki, Azərbaycan Demokratik Cümhuriyyəti dövrünə münasibətdə mütəmadi olaraq milli təəssübkeşliklə yanaşı, sosial-iqtisadi, sosial-mədəni həyatla bağlı məsələləri çox ustalıqla, əhatəli şəkildə tədqiq etməyə cəhd göstərmişdir.

Müəllif dissertasiya işində olduqca mürəkkəb, maraqlı və lazımlı bir problemi çox məharətlə tamamlamış, uzunmüddətli bir dövr ərzində Azərbaycan kitabxanalarının metodik təminat sisteminin inkişaf tarixini tədqiqata cəlb etmiş və bir sıra sanballı elmi yeniliklər irəli sürmüşdür. Bildirmək istərdim ki, Xəlil müəllim sanballı bir şəxsiyyət kimi çoxdan bu dərəcəni almağa layiqdir.

* * *



***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor Süleyman Məmmədov:***

- Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin inkişaf strategiyasını yaratmaq üçün onun tarixi təcrübəsinin öyrənilib ümumiləşdirilməsi xeyli nəzəri və təcrübi əhəmiyyət kəsb edir. Onu da qeyd etmək lazımdır ki, bu vaxta qədər Azərbaycan kitabxanaşünaslığında kitabxanaların metodik təminat sisteminin inkişafının tarixi mərhələlərinin kompleks şəkildə öyrənilməsinə təşəbbüs göstərilməmişdir. Bütün bunlar X.İsmayılovun tədqiqatının aktuallığını sübut etməklə yanaşı, elmi-nəzəri baxımdan diqqəti cəlb edir.

Dissertasiyanın olduqca qiymətli cəhətlərindən biri də odur ki, Azərbaycanda kitabxana işinin inkişafında səmərəli fəaliyyət göstərmiş, bəzən unudulmuş sələflərinin adları müəyyənləşdirilmiş, onların xidmətinə lazımi qiymət verilmişdir.

Şübhəsiz, irəli sürülən konseptual tövsiyələr müasir dövrdə Azərbaycanda kitabxana işinin metodik təminat sisteminin yeniləşməsində və bunun nəticəsi olaraq cəmiyyətin kitabxana-informasiya təminatında baş verən proseslərin optimallaşdırılması və dünya informasiya məkanına inteqrasiya olunmasında səmərəli rol oynayacaqdır.

Ümumiyyətlə, dissertasiya özünün elmi müddəa və nəticələrinin mötəbərliyi, əsaslandırılması baxımından müstəqil, tamamlanmış, bitkin tədqiqat əsəridir.

Dissertasiyada Azərbaycan kitabxanaşünaslığında ilk dəfə olaraq XX əsrdə ölkədə kitabxana işinin metodik təminat sisteminin tarixi inkişaf mərhələləri kompleks şəkildə araşdırılmış, müvafiq tarixi dövr ərzində bu prosesdə baş verən keyfiyyət dəyişiklikləri açıqlanmışdır.

* * *

***Rusiya Elmlər Akademiyası Kitabxanasının direktoru, pedaqoji elmlər doktoru, professor V.P.Leonov*** öz rəyində qeyd edir ki, metodik fəaliyyət uzun illərdən bəri kitabxana-informasiya işinin təkmilləşdirilməsinin əsasını təşkil etmişdir və bundan sonra da məhz bu cür qalacaq və inkişaf edəcəkdir.

Bu, fasiləsiz olaraq inkişaf edən dünyada - bütövlükdə müasir informasiyalaşdırılmış cəmiyyətdə xüsusi aktuallıq kəsb edir.

Xəlil İsmayılovun tədqiqatda əks etdirdiyi materiallar kitabxanaşünaslıq nəzəriyyəsinin işlənilməsinə mühüm töhfədir. O, kitabxana

işinin metodik təminatı anlayışının bazasına əsaslanaraq metodik işin elmi, informasiya, pedaqoji və təşkilati funksiyalarını tamamilə elmi şəkildə aydınlaşdırır.

Müəllif Rusiya və Azərbaycan kitabxanaşünas alimlərinin kitabxanaların metodik təminatı məsələləri ilə bağlı nəzəri və təşkilati fikirlərini inkişaf etdirərək, kitabxana-informasiya fəaliyyətinin metodik təminat nəzəriyyəsini tamamlamışdır.

Tədqiqatçı Azərbaycanda metodik təminat sisteminin inkişaf qanunauyğunluqlarını və istiqamətlərini uğurla müəyyənləşdirmiş, hər bir mərhələnin xarakterik cəhətlərini nəzərdən keçirmiş və gələcəkdə metodik işin təkmilləşdirilməsi yollarını qeyd etmişdir.

Şübhəsiz ki, işin ən müvəffəqiyyətli cəhəti müəllif tərəfindən kitabxanaların metodik təminatı sisteminin optimallaşdırılması strategiyasının yaradılması, habelə planlaşdırmanın proqram-məqsədli prinsiplərinin əhəmiyyətinin əsaslandırılmasıdır.

* * *

*Kitabxanaşünaslıq kafedrasının dosenti, filologiya elmləri namizədi Sahib Rzayev:*

- Kitabxana canlı bir orqanizmdir. Bu orqanizmə normal yanaşmaq üçün metodik təminata böyük ehtiyac var.

Xəlil müəllimin tədqiqat fəaliyyəti hamınızın gözü qarşısında həyata keçib. O, bu sahədə doğrudan da uzun bir dövrü tarixi aspektdə təqdim etmiş və müəyyən elmi yeniliklərə nail olmuşdur. O, bir insan kimi, müəllim kimi, nəhayət, tədqiqatçı alim kimi formalaşmışdır.

İddiaçı çətin və mürəkkəb bir problemin öhdəsindən gələrək, tədqiqat işini uğurla başa çatdırmışdır.

Xəlil müəllim çox gözəl ziyalı olmaqla, həm də yaxşı təşkilatçıdır. Uzun illərdir ki, onun fakültə dekanı kimi fəaliyyəti hamının rəğbətini qazanıb. O, həmişə elmin və tədrisin inkişafına bacarıqla rəhbərlik edir. Respublikamızda çıxan yeganə elmi-tədqiqat jurnalının-«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının təsisçisi və baş redaktorudur. Xəlil müəllim Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının prezidentidir.

Mən də bu fikirdəyəm ki, İsmayılov Xəlil İsmayıl oğlunun dissertasiya işi Ali Attestasiya Komissiyasının tələblərinə tam cavab verir və o, tarix elmləri doktoru alimlik dərəcəsi almağa layiqdir.

* * *



## HAŞİYƏ

Bu yazını çapa hazırlayarkən Moskvadan «Библиотековедение» jurnalının 2004-cü il 4-cü nömrəsini aldıq.

Jurnalın 131-132-ci səhifələrində Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanaşünaslıq kafedrasının professoru, pedaqoji elmlər doktoru Q.Altuxovanın «Новое в научных исследованиях» («Elmi tədqiqatlarda yenilik») adlı məqaləsi dərc olunmuşdur.

Müəllif məqalədə Xəlil İsmayılovun doktorluq dissertasiyasının müdafiəsi haqqında məlumat verərək, bu tədqiqat işini yüksək qiymətləndirir və alim tərəfindən tövsiyə olunmuş kitabxanaların metodik təminatının baza prinsiplərini (metodik fəaliyyətin proqram-məqsədli planlaşdırılması, elmi-nəzəri əsasların inkişafı və gücləndirilməsi, kitabxanaların informasiya funksiyalarının inkişafı, metodik mərkəzlərin kitabxanaçı kadrların fasiləsiz təhsili sistemində iştirakı, kitabxanaların metodik təminatının idarəedilməsinin optimallaşdırılması) kitabxanaşünaslıq elmində yeni söz adlandırır.

Professor Q.Altuxova məqaləsinin sonunda qeyd edir ki, X.İsmayılovun müəyyənləşdirdiyi prinsiplər kitabxanaların metodik fəaliyyətinin gələcəkdə daha da təkmilləşdirilməsinin geniş proqramını özündə əks etdirir.

* * *

***Biz də Azərbaycan kitabxanaşünaslıq elminə sanballı töhfə vermiş Xəlil İsmayılovu qazandığı elmi nailiyyət münasibəti ilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və işlərində yeni-yeni uğurlar arzulayırıq!***

*Materialı hazırladı:*
Knyaz ASLAN

# ALİM VƏ VƏTƏNDAŞ ÖMRÜ

## TACƏDDİN QULİYEV - 75

**Bakı Dövlət Universitetinin Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri, tarix elmləri namizədi, dosent Tacəddin Fərhad oğlu Quliyev mənalı ömrünün müdriklik çağlarına qədəm qoymuşdur. Səriştəli pedaqoq, fədakar alim, xeyirxah dost, səmimi yoldaş və qayğıkeş el ağsaqqalı kimi böyük hörmət qazanmış Tacəddin müəllimin keçdiyi şərəfli həyat yolu boyunca hamının hörmətini qazanmışdır.**

*Tacəddin Fərhad oğlu Quliyev 1929-cu il sentyabrın 25-də Azərbaycan Respublikasının Goranboy rayonunun Zeyvə kəndində dünyaya göz açıb. 1936-1941-ci illərdə - faşist Almaniyasının Sovet İttifaqı üzərinə qəfil hücumuna, yəni Böyük Vətən müharibəsi başlayan günə qədər doğulduğu kənddəki natamam orta məktəbdə təhsil alıb, həmin ilin avqust ayından isə kolxozda əmək fəaliyyətinə başlayıb. Təhsillə zəhməti öz taleyində qoşalaşdıraraq kolxozda işləyə-işləyə məktəbdə oxuyub və 7-ci sinfi başa vurub.*

*1945-ci ilin yanvarından 1945-ci ilin avqust ayına kimi Goran dəmiryolunda fəhləlik etdikdən sonra o, 1945-1947-ci illərdə Gəncədəki Klara Setkin adına Pedaqoji Texnikumda təhsil alıb.*

*1948-ci ildən isə Qasım İsmayılov (indiki Goranboy) rayonunun mədəni-maarif şöbəsində təlimatçı işləməyə başlayıb.*

*Yüksək ixtisaslı mütəxəssis kimi yetişmək arzusunda olan T.Quliyev 1949-cu ildə N.K.Krupskaya adına Bakı Kitabxanaçılıq Texnikumunda (indiki Bakı Mədəni-Maarif Texnikumu) orta ixtisas təhsilini başa vuraraq, Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Kitabxanaçılıq şöbəsinə daxil olub və 1949-1954-cü illərdə burada ali təhsil alıb. Sonra o, bir neçə il müxtəlif kitabxanalarda çalışıb, kitabxana işinin incəliklərinə birbaşa təcrübədə yiyələnməyə başlayıb, elmi-nəzəri biliklərini iş başında sınaqdan keçirib. Belə ki, o, 1952-1953-cü illərdə Respublika Elmi Texniki Kitabxanasında kitabxanaçı, 1953-1954-cü illərdə isə Lenin (indiki Sabunçu) rayonunun 2-ci Zabrat*



*kəndində "Zərbəçi" adına kütləvi kitabxananın müdiri işləyib, həm çalışdığı kollektivlərin, həm də yuxarı təşkilatların hörmətini qazanıb.*

*Elə bu müsbət keyfiyyətlərinə görə də 1954-cü ilin oktyabr ayında ali təhsilli gənc mütəxəssis kimi Bakı Kitabxanaçılıq Texnikumuna müəllim vəzifəsinə dəvət edilən Tacəddin Quliyev 1962-ci ilin noyabr ayına kimi həmin orta ixtisas məktəbində metodist vəzifəsində çalışıb. Texnikumda qalmaq şərti ilə 1958-ci ildən eyni zamanda Respublika Kitabxana Kollektorunun müdiri kimi səmərəli fəaliyyət göstərib. O, bu məsul vəzifədə işləyərkən Azərbaycan nəşriyyatlarında ayrı-ayrı elm sahələrinə dair işıq üzü görən elmi, elmi-kütləvi, ədəbi-bədii və digər xarakterli kitabların müxkollektora daxil olması və müxtəlif növlü kitabxanaların fonduna daxil olması üçün çox böyük işlər görüb. O dövrdə kitabxana fondlarının aktual cari nəşrlərlə və yeni ədəbiyyatla düzgün komplektləşdirilməsi sahəsində Tacəddin müəllimin gördüyü işlər bu gün də çoxlarının xatirindədir.*

*T.Quliyev 1962-ci ilin noyabr ayından 1965-ci ilin aprel ayına kimi Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının aspirantı kimi elmi-tədqiqatla məşğul olub, respublikamızda ilk dəfə olaraq həmkarlar ittifaqı kitabxanalarının keçdiyi tarixi yolu araşdırmağa başlayıb. 1965-ci ilin aprel ayından BDU-nun Kitabxanaşünaslıq kafedrasının müəllimi vəzifəsinə dəvət olunan gənc mütəxəssis T.Quliyev cəmi bir neçə il sonra - 1969-cu ildə professor A.Xələfovun elmi rəhbərliyi ilə "Azərbaycanda Həmkarlar İttifaqı kitabxanalarının tarixi (1920-1941)" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülüb.*

*1973-cü ildə dosent elmi adına layiq görülən, eyni zamanlda həmin ilin mart ayından 1986-cı ilin sonlarınadək Kitabxanaçılıq fakültəsində dekan müavini vəzifəsində böyük səy və enerji ilə çalışan dosent T.Quliyevin işgüzarlığı, prinsipiallığı, obyektivliyi, fakültənin o dövrdəki dekanı, professor A.Xələfovla birgə səmərəli fəaliyyəti bütövlükdə yüksək ixtisaslı kadr hazırlığına olduqca müsbət təsir göstərib.*

*1990-cı ilin iyun ayında alim BDU-da yenicə yaradılmış Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri seçilir. Bu yüksək etimadı bu gün də layiqincə doğruldan dosent T.Quliyev rəhbərlik etdiyi kafedranın Kitabxanaçılıq-informasiya fakültəsinin aparıcı qurumlarından birinə çevrilməsi, kitabxanaşünaslıq elminin inkişafına özünəməxsus töhfə verməsi sahəsində özünün bilik və bacarığını əsirgəmir.*

*Tanınmış alim müstəqil Azərbaycan Respublikasının, Bakı Dövlət Universitetinin və Kitabxanaçılıq-informasiya fakültəsinin ictimai həyatında yaxından iştirak edir, ona tapşırılan işlərin öhdəsindən baca-*

*rıqla gəlir. O, keçən illərdə iki müddətə fakültə Həmkarlar Komitəsinin sədri, iki müddətə fakültə partiya təşkilat bürosunun katibi, həmçinin BDU partiya bürosunun üzvü seçilib, özünü fəal ictimaiyyətçi və təşkilatçı kimi tanıdıb.*

*Dosent T.Quliyev 1970-ci ildən kitabxanaşünaslıq və biblioqrafiya ixtisası ilə bağlı nəşr olunan elmi məcmuələrin, elmi topluların və elmi əsərlərin, 1997-ci ildən isə «Kitabxanaşünaslıq və biblioqrafiya» elmi-nəzəri və təcrübi jurnalının redaksiya heyətinin üzvüdür. Alimin bu sahədəki fəaliyyəti də təqdirəlayiqdir.*

*İki nəfərin namizədlik dissertasiyasının opponenti, həmçinin üç dəfə namizədlik dissertasiyalarının müdafiəsi və bir dəfə doktorluq dissertasiyasının müdafiəsi üçün təşkil olunmuş Birdəfəlik Elmi Şuraların üzvü olması da dosent Tacəddi Quliyevin səriştəli bir alim-mütəxəssis kimi yüksək nüfuz qazanmasını təsdiq edən faktdır.*

*Dosent T.Quliyev tanınmış kitabxanaşünas alim kimi dəfələrlə universitet, respublika və beynəlxalq miqyaslı elmi tədbirlərdə iştirak etmişdir. Bunların sırasında 1990-cı ildə Tacikistanın paytaxtı Düşənbə şəhərində "Kitabın Şərq xalqları mədəniyyətinin inkişafında rolu, tarixi və müasir vəziyyəti" mövzusunda keçirilmiş beynəlxalq elmi-nəzəri konfransındakı iştirakı və məruzəsi xüsusi qeyd olunmalıdır.*

*Təxminən 50 ildir ki, səmərəli elmi-pedaqoji fəaliyyətlə məşğul olan alimin qələmindən indiyə qədər yüzdən çox elmi əsər, o cümlədən bir sıra dərslik, dərs vəsaiti, monoqrafiya və elmi məqalələr çıxmışdır. Bunlardan 2 cildlik "Azərbaycanda kitabxanaçılıq işi" adlı sanballı dərs vəsaiti ölkəmizdə Həmkarlar İttifaqı kitabxanalarının tarixini və bugünkü vəziyyətini çox geniş şəkildə əhatə edir.*

*Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası müstəqilliyə qovuşduqdan sonra cəmiyyətdə baş verən köklü dəyişikliklər həyatın bütün sahələrinə dərindən nüfuz etməyə başlamış, digər istiqamətlərlə yanaşı olaraq elm və tədrisin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına da öz müsbət təsirini göstərmişdir. Ölkəmizdə ali təhsil sisteminin yenidən qurulması, yüksək ixtisaslı kadr hazırlığında üçpilləli təhsil sisteminə keçilməsi təbii ki, ilk növbədə müasir tipli maddi-texniki təchizatın genişləndirilməsini, həmçinin yeni şəraitin tələblərinə cavab verən dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların yazılmasını tələb edir. Belə ki, sabahın mütəxəssisləri olacaq bugünkü tələbələr seçdikləri ixtisasın incəliklərinə məhz indidən bələd olmalı, oxuduqları ali təhsil ocaqlarında yetkin bir kadr kimi formalaşmalıdırlar.*



*Bu nöqteyi-nəzərdən respublikamızda fəaliyyət göstərən çoxsaylı kitabxanalar üçün ali təhsilli kitabxanaçı-biblioqraf və kitabşünaslar hazırlayan Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin kollektivi müntəzəm olaraq yeniləşməyə can atır, zamanın diqtə etdiyi şərtlərə əməl etməkdən ötrü əzmlə çalışırlar. Bu elm sahəsində çalışan mütəxəssislərin son illərdə bir-birinin ardınca yazıb nəşr etdirdikləri sanballı elmi kitablar buna əyani sübutdur.*

*Hörmətli yubilyarımız - tarix elmləri namizədi, dosent Tacəddin Quliyevin bu yaxınlarda geniş kitabxana ictimaiyyətinə təqdim etdiyi «Azərbaycanda kitabxanaçılıq işi (Respublika Həmkarlar İttifaqı kitabxanalarının materialları əsasında)» adlı dərs vəsaiti də həmin elmi töhfələrin uğurlu davamı kimi dəyərləndirilə bilər. Xatırlatmaq yerinə düşər ki, Respublika Həmkarlar İttifaqı kitabxanalarının 1959-cu ilə qədərki fəaliyyətini özündə əks etdirən bu vəsaitin 1-ci hissəsini müəllif 1986-cı ildə nəşr etdirmişdir. O vaxtlar əsərə görkəmli mütəxəssislər yüksək qiymət vermiş və onun davamının yazılmasını dövrün tələbi kimi qeyd etmişdilər.*

*Dərs vəsaitinin yenicə işıq üzü görmüş ikinci hissəsi təsdiqləyir ki, alim üzərinə götürdüyü öhdəliyi layiqincə yerinə yetirmiş, uzun illərdən bəri araşdırdığı problemi hərtərəfli şəkildə araşdırmağa, ümumiləşdirməyə və elmi sistemləşdirmə aparmağa nail olmuşdur. Azərbaycan Həmkarlar İttifaqı sistemində – sənaye müəssisələrində, zavodlarda, fabriklərdə, neft mədənlərində, mədəniyyət saraylarında, fəhlə klublarında, fəhlə yataqxanalarında fəaliyyət göstərən kitabxanaların 1959-2002-ci illərdəki göstəricilərini geniş təhlil edən, obyektiv statistik müqayisələr aparan, prinsipial təhlillər verən, uğurları təqdir, qüsurları tənqid edən müəllif bu günün tələblərinə cavab verən elmi qənaətlər formalaşdırmışdır.*

*Onun istər 1959-1991-ci illəri əhatə edən sovet dövründə, istərsə də 1991-2002-ci illəri əks etdirən müstəqillik şəraitində Həmkarlar İttifaqı kitabxanalarının inkişaf tarixini konkret faktlar əsasında araşdırması sözün həqiqi mənasında maraqla qarşılanır. Belə ki, bir çox müəlliflər müxtəlif sosial və texniki qurumların sovet hakimiyyəti illərindəki fəaliyyətindən söz açarkən nədənsə yalnız mənfi cəhətləri qabartmağa çalışır, o dövrdə qazanılmış nailiyyətləri qəsdən görməməzliyə vurur, həm özlərini, həm də oxucuları aldadır, beləliklə, tarixi saxtalaşdırırlar.*

*Dosent Tacəddin Quliyev isə əsl mütəxəssis kimi çox doğru yol seçərək bir-birindən kəskin surətdə fərqlənən hər iki tarixi ictimai quruluşda kitabxanaların fəaləyyətinə mənfi və ya müsbət təsir göstərən amilləri obyektivliklə qeyd edir, qazanılmış nailiyyətləri olduğu kimi*

*nəzərə çatdırır, işdə buraxılmış nöqsanları üzə çıxarır. Dərs vəsaitinin daha sanballı meydana çıxmasının bir səbəbi də, məncə, elə budur.*

*Bütövlükdə müəllifin çox böyük elmi nailiyyəti kimi yüksək qiymətə layiq olan bu kitabın uzun illər milli mədəniyyət tariximizi, o cümlədən kitabxana işinin tarixini öyrənən və araşdıran tədqiqatçıların yaxın köməkçisinə çevriləcəyi şübhəsizdir.*

*Bu gün ömrünün müdriklik çağlarını yaşayan, tale yoldaşı, qəlb sirdaşı, möhtərəm pedaqoqumuz Gülzar xanımla birgə çətin və şərəfli həyat yolunda alnıaçıq-üzüağ addımlayan dəyərli ağsaqqalımız Tacəddin Quliyev yenə də iş başında, yenə də masa arxasındadır. Hələ onun qələmindən neçə-neçə əsərlər çıxacaq, xeyirxahlığı neçə-neçə gənci sevindirəcək, xeyir-duası neçə-neçə ailəyə xoşbəxtlik bəxş edəcək.*

*Artıq tarixə qovuşan 75 il Tacəddin müəllimin şəvə saçlarına qar ələyib. Bu qayğıkeş və təmənnasız insanın - istedadlı alim, sədaqətli dost, qayğıkeş yoldaş, gözəl ailə başçısı kimi hamının hörmətini qazanmış Tacəddin müəllimin həyat şüarı xeyirxahlıq, səmimiyyət və insanpərvərlikdir.*

*Bu dünyanın qəm-kədərini dadsa da özünü şux göstərməyə çalışan, həmişə dərdini gizləyib sevincini paylaşan, hamının işinə yaramağa can atan, sədaqətli ömür-gün yoldaşı Gülzar xanımla birgə yaşamağın ləzzətini könüllərə işıq gətirməkdə görən bir insandır Tacəddin müəllim!.. Saçlarını gənc nəslin yüksək səviyyəli mütəxəssis və əsl vətənpərvər kimi formalaşması yolunda ağardan bu alim-vətəndaşın qəlbi həmişə doğma Azərbaycanın ürəyi ilə birgə döyünür, qəlbi doğma xalqın xoşbəxtliyi naminə çırpınır.*

*Öz ömrünü el yolunda şam kimi əridənləri isə Vətən və zaman alqışlayır. Qoy 75 yaşın şərəflə yola salan hörmətli ağsaqqalımız Tacəddin Quliyev 80-ni, 90-nı və 100-ü də bax beləcə - bol-bol sevinclə, cansağlığı və uğurlarla qarşılasın!*

**Xəlil İSMAYILOV,**
BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı,
tarix elmləri doktoru,

**Knyaz ASLAN,**
Kitabxanaşünaslıq kafedrasının baş müəllimi,
pedaqoji elmlər namizədi

## BİZİM MÜƏLLİFLƏR

***Abuzər Alı oğlu Xələfov*** *– Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor*

***Xəlil İsmayıl oğlu İsmayılov*** *– Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, tarix elmləri doktoru, dosent, Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının prezidenti*

***Tacəddin Fərhad oğlu Quliyev*** *– BDU-nun Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri, tarix elmləri namizədi, dosent*

***Rasim Əhməd oğlu Kazımov*** *- BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

***Əli Musa oğlu Rüstəmov*** *- BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

***Zöhrab İsa oğlu Baxşəliyev*** *– BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, tarix elmləri namizədi*

***Sara Hökmullai qızı İbrahimova*** *– BDU–nun Elmi Kitabxanasının direktoru*

***Mehmanəli Əkbər oğlu Məmmədov*** *- BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini, Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

***Knyaz İlyas oğlu Aslan*** *– BDU-nun Kitabxanaşünaslıq kafedrasının baş müəllim, pedaqoji elmlər namizədi*

***Yusif Qazıyev*** *– Bakının 276 nömrəli orta məktəbin müəllimi, pedaqoji elmlər namizədi*

***Nadir İslam oğlu İsmayılov*** *– BDU-nun Biblioqrafiya kafedrasının dosenti, pedaqoji elmlər namizədi, Respublika Elmi Texniki Kitabxanasının direktoru*

***Qəmzə Söhbət qızı Hacıyeva*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*

***Sima Paşa qızı İsmayılova*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi*

***Solmaz Azay qızı Sadıqova*** *- BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi*

***Çimnaz Gülməmməd qızı Rustəmova*** *– BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının baş laborantı*

***Xuraman Telman qızı Verdiyeva*** *- BDU-nun Biblioqrafik informasiya-axtarış sistemləri tədris laboratoriyasının müdiri*

***Nuriyə Zakir qızı Mustafayeva*** *– BDU-nun Kompüter mərkəzinin mühəndisi*

***Arzu Kazım qızı Vəliyeva*** *- BDU-nun biblioqrafiyaşünaslıq ixtisası üzrə dissertantı*

***Sevda Məmmədova*** *– kitabxanaşünaslıq üzrə magistr*

***Təranə Saleh qızı Mirzəyeva*** *- biblioqrafiyaşünaslıq üzrə magistr*

| | |
|---|---|
| *Nəşriyyatın direktoru:* | *Balakişi AĞAYEV* |
| *Mətbəənin müdiri:* | *Əlϑs QASIMOV* |
| *Bədii redaktor:* | *Mahir SÜLEYMANOV* |
| *Bilgisayar tərtibçisi:* | *Dürdanə ABİYEVA* |
| *Bilgisayar yığıcısı:* | *Maisə RƏHİMOVA* |
| *Korrektoru:* | *Solmaz SADIQOVA* |

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

Yığılmağa verilmişdir. 25. 11. 2004.
Çapa imzalanmışdır: 25. 12. 2004.
Kağız formatı: 60x84 1/16.
Fiziki ç.v. 9,2.
Sayı 200.
Qiyməti müqavilə ilə.

*Ünvan: Az – 1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23.*
*Bakı Universiteti Nəşriyyatı.*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*